AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# QƏRBİ AZƏRBAYCAN FOLKLORU

## IV CİLD

BAKI – 2025

AMEA Folklor İnstitutu Elmi Şurasının 27 iyun 2024-cü il tarixli qərarı ilə (protokol № 5) ilə nəşr olunur.

**TOPLAYANLAR:** **Hikmət QULİYEV**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Səfa QARAYEV**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Ləman VAQİFQIZI**
**(SÜLEYMANOVA)**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

**TƏRTİB EDƏN, ÖN SÖZÜN MÜƏLLİFİ:** **Ləman VAQİFQIZI**
**(SÜLEYMANOVA)**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

**ELMİ REDAKTORU:** **Əziz ƏLƏKBƏRLİ**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

**Qərbi Azərbaycan folkloru, IV cild.** Bakı, “Elm və təhsil”, 2025, 416 səh.

ISBN 978-9952-587-45-6

Kitabdakı materiallar Bakı və Naftalan şəhərlərində, Şəki və Goranboy rayonlarında və Türkiyə Cümhuriyyətinin İğdır bölgəsində məskunlaşmış Qərbi Azərbaycan sakinlərindən toplanıb.

Q 4702000000 Qrifli nəşr
N-98-2025

© Folklor İnstitutu, 2025
© Ləman Süleymanova, 2025

# ÖN SÖZ

Kitabdakı örnəklər erməni zülmü nəticəsində Bakı və Naftalan şəhərləri, Şəki və Goranboy rayonları, Türkiyə Cümhuriyyətinin İğdır bölgəsində müxtəlif dövrlərdə məskunlaşmağa məcbur olmuş qərbi azərbaycanlı soydaşlarımızdan qeydə alınmışdır. Bakı şəhərindən toplanmış örnəklərin böyük bir qismi 2002-2004-cü illərə, az bir qismi isə 2024-cü ilə, Naftalan şəhəri, Şəki və Goranboy rayonlarından toplanmış örnəklər isə 2023-2024-cü illərə aiddir.

Bütün folklor janrları Azərbaycanın, demək olar ki, hər bir bölgəsi üçün xarakterik olsa da, müxtəlif mətnlərin işlənmə tezliyi bölgələr üçün dəyişkəndir. Artıq iki ildir ki, Qərbi Azərbaycandan olan söyləyicilərlə daha çox görüşdüyümüz üçün onların repertuarında nağılın vaxtilə aktiv folklor mətnlərindən biri olduğunu müşahidə etdik. Bu janrın Göyçə mahalından olan söyləyicilərin repertuarında daha tez-tez deyilən folklor janrlarından biri olduğunu görürük. Dərələyəz mahalından olan söyləyicilərin repertuarında isə inancların daha çox olduğu müşahidə edilir. İrəvanətrafı bölgələrimiz və Ağbaba mahalı üçün etnoqrafik materialların, mifoloji rəvayətlərin üstünlük təşkil etdiyi müşahidə olunur və s. Aşıq yaradıcılığı, xatirə janrı, seyidlər, ocaq və pirlərlə bağlı rəvayətlər, həmçinin bayatı mətnlərinin Qərbi Azərbaycanın bütün bölgələri üçün xarakterik janrlar olduğunu anlamaq elə də çətin deyil.

Buradakı materialların arasında çox əski təfəkkürlə səsləşən mətnlərlə qarşılaşmaq mümkündür. İndiyədək toplanmış mətnlərdə ocağın küsüb yerini dəyişməsi hadisə-

sinə rast gəlməmişdik. Ancaq Göyçə mahalının İnəkdağı kəndində bununla bağlı rəvayətlər danışılır. *"...Həə, onu da deyirdilər ki, o alma ağacı əvvəllər orda olmuyuf, başqa yerdə oluf. O ocağı küsdürəndə yerini dəyişir. Bizimkilərin yadında qalan oydu ku, o alma ağacı bir üş dəfə yerini dəyişif. Bunların gördühləri axırıncı oradı..."* Onu da qeyd edək ki, Goranboy rayonu ərazisində yerləşmiş İnəkdağı kəndinin sakinlərindən bu süjetin bir neçə variantını qeydə almışıq.

Son zamanlar toplayıb tərtib etdiyimiz kitablarda "Təqvim inancları" ilə bağlı məlumatları da verməyə çalışırıq. Söyləyicilərdən bu məsələ ilə bağlı yenə müəyyən qədər informasiya topladıq. Maraqlıdır ki, Novruz bayramının adı digər bölgələrimizdə olduğu kimi (məsələn, Masallıda İl bayramı, Qaraqoyunlu camaatının yaşadığı bölgələrdə Bayram, Böyük Bayram və s.), Qərbi Azərbaycanda da daha çox milli adlarla adlandırılıb. Tədqiqatçı Nailə Əskərin dediyinə görə, bu, Ağbaba bölgəsində də belə olmuşdur. Vaxtilə Bayram deyəndə bir ağbabalının ağlına ancaq Novruz bayramı gələrmiş. Məsələn, avqust ayında belə "Bayramda filan şey olub" deyilirdisə, onlar həmin hadisənin Novruz bayramında baş verdiyini bilirmişlər. Onlar yalnız Bakıya təhsil almağa gəldikdən sonra Bayramın adının Novruz olduğunu anlayır və ya kitablardan oxuyanda bilirdilər. Göyçəlilərlə söhbətlərimiz zamanı da məlum oldu ki, bölgədə Novruz bayramı əvəzinə Bayram, yaxud da Böyük Bayram ifadələri işlədilmişdir. Göyçədə Bayramın ritualları o qədər dəqiq icra olunmuşdur ki, söyləyicilərimizdən biri, İnqilab Mustafayev onları qanun adlandırdı. İlin axır gecəsi ilə bağlı xalq arasında müxtəlif

inanclar yayğındır. Onlar əsasən çox əski təsəvvürlərlə bağlı olur. Bu kitaba saldığımız mətnlər arasında da bu cür inanclar vardır: *"Deyir, ilin, ayın axır gejəsi yernən göy birrəşir guyə. Bir an deyir, cınqıltı gəlir, deyir. Onda deyir, yernən göy birrəşir. O, bir an olur. Helə bir rəvayət eşitmişəm.*

*Bir də deyillər ki, guyə bir annıx su dayanır. Axar su dayanır bir an. Guyə deyir, niyətin hasil olur, suyun üzü qızıl olur. Həmən vaxtı kimsə gedif çaydan su götsə, orda deyir, guyə qızıl olur".*

İlin axır çərşənbəsində icra olunan fallarla bağlı indiyədək çox danışılmış, çox yazılmışdır. Ancaq xalq arasında gəzərkən görürük ki, bu fallarla bağlı yeni nümunələr üzə çıxır. İnanclar bölməsində verilmiş "Çatma qurmaq", "Tac qurmaq"la bağlı mətnlər də (bir-birinin variantıdır) bu qəbildəndir.

Oyunlarla bağlı məlumatları verən araşdırmaçı Əli Şamil onları haqlı olaraq iki yerə böldü: qış oyunları və yay oyunları. Qış oyunları evdə oyanılırdı, məsələn, "Qopbadaş oyunu". Bu oyuna "Beşdaş" da deyirlər.

Oyunların məqsədi ancaq uşaqların fiziki aktivliyini təmin etmək, zəkasını inkişaf etdirmək deyil, həm də onlara ətraf bölgəni yaxşı tanıtmaq məqsədi də daşıyırmış. "Tapmaca oyunu"nda tapmacanın cavabını tapa bilməyən tərəf qarşı tərəflə ödəşmək üçün ona hər dəfə bir kənd "bağışlamalı" idi. Bir kənd iki dəfə "bağışlana" bilməzdi. Deməli, uşaq çoxlu kənd adı bilməli idi ki, qarşısındakına hər uduzduğunda "yeni bir kənd verə bilsin". Bu kiçikyaşlı uşaqlara ətraf coğrafiyanı, fikrimizi bir az da genişləndirsək, vətənin sərhədlərini yaxşı tanımaq, öyrənmək imkanı verirdi.

Qərbi Azərbaycan əhalisi arasında çöldə oynanılan oyunların ən məşhurlarından biri (Bu əslində bütün bölgələrimizdə belədir) “Aşıq oyunu” idi. Burada onu da qeyd edək ki, “Aşıq oyunu”nu ancaq çöl şəraitində oynanılan oyun kimi götürmək doğru deyil. Çünki həm Qərbi Azərbaycanda, həm də başqa bölgələrimizdə bu oyunun qışda ev şəraitində də oynanıldığı haqqında məlumatlar qeydə almışdıq. Lakin bu oyun daha çox çöldə oynanılırdı. Digər bölgələrimizdə olduğu kimi, Qərbi Azərbaycanda da bu oyun müxtəlif adlarla oynanılır (“Qalaqurma”, “Cız”, “Vuruf uzaxlaşdırma”, “Xətti pozmağ” və s.). Oyunda istifadə edilən aşığın altı duruş forması var idi: cik, bök, alçı, toxan, şeş, omba (Bu formaya domba da deyirdilər). Bu adlara sadəcə ad kimi baxmaq olmaz. Bunların hər biri termindir və bütün bölgələrimiz üzrə oyun adları, onların oynanılma qaydaları, şərtləri və s.-lə birgə bu terminlər də diqqətlə toplanılmalıdır. “Aşıq oyunu” və “Şah və oğru” oyunlarında verilən (Bu oyunlar bir-birinin variantıdır) *“Dam yardım dana çıxartdım, buz yardım buzov çıxartdım, səən üçün gözəl – aya deyir, sən çıxma, mən çıxım, günə deyir, sən çıxma, mən çıxım. Belə bir qız gətirirdim...“* formulu istər-istəməz yadımıza nağıl və dastanlarımızdakı gözəllərin mədhi ilə bağlı verilən təsvirləri salır. Deməli, bu formullar yalnız nağıl və dastanlar üçün xarakterik deyil, digər janrlarda da işlənməkdədir. Çöldə oyanılan “Aşıq oyunları” isə oyunçulara məsafəni müəyyənləşdirmək, düzgün nişan almaq, qarşıdakı obyektə hücum etmək, qalanı dağıtmaq, qalanı almaq və s. kimi savaş vərdişlərini aşılamağa xidmət edirdi. Odur ki, uşaq oyunlarına eyni zamanda türk savaş sənətini

oyunlar vasitəsi ilə uşaqlara öyrətmək kimi baxan araşdırmaçıların nə qədər haqlı olduqlarını söyləməliyk.

Əli Şamilin dediyinə görə, aşıq oyunlarından biri də aşıqla oynanılan qumardır. Bu haqda nağıllarımızda da bilgi vardır. Qərbi Azərbaycan bölgəsindən olan söyləyicilərin fikrincə, bu oyun çox təhlükəlidir. Qumar oyunlarının heç birində aşıqla oynanılandakı qədər tez udmaq və uduzmaq mümkün deyil. Təəssüf ki, biz söyləyicilərdən aşıqla qumarın necə oynanıldığı haqqında mətn toplaya bilmədik.

Kitabda oyunlarla yanaşı, tamaşalara da yer verilmişdir. Söz oyunlarının isə yenilik olduğunu deməliyik. Əslində bu, Azərbaycan folkloru üçün xarakterikdir. Sadəcə, indiyədək nəşr olunmuş toplularda bu tipli mətnlərlə ya qarşılaşmırıq, ya da çox az rastlaşırıq deyə biz bunu yenilik adlandırdıq. Söz oyunlarında əsas məqsəd qarşısındakını çaşdırmaq, bu vasitə ilə onun zəkasını yoxlamaq idi. Bu mətnlər dinləycilərə diqqəti toplamaq, onu yönəltmək, sürətli düşünmək, cəld qərar vermək və s. kimi vərdişlər də aşılayırdı. Bu oyunlar, digər folklor janrları kimi, insanların asudə vaxtlarını səmərəli keçirməyə xidmət edirdi.

Dirədöymə vaxtilə, demək olar ki, bütün bölgələrimizdə oynanılıb. Bu dəfə "Dirədöymə" oyununun oynanılması ilə bağlı tam təfsilatlı məlumat əldə edə bilmədik, ona görə də bu oyunu kitaba salmadıq. Amma araşdırmaçı Əli Şamil bu oyunun Göyçənin İnəkdağı kəndində oynanılmış variantı haqqında həmin kəndin yaşlı kişilərindən eşitdiklərini bizə danışdı. Onun dediyinə görə, keçmişdə dirədöymə oynayanda oyunçular şalvarın balağını gərək yuxarı yığardılar ki, ayaqları açıq qalsın. Dirədöymə üçün

çatı qəzildən, keçi qılından hazırlanırmış. Çatının ucunu düyünləyər, bir ucunu açıq qoyarlarmış. Onu əvvəlcədən suya qoyarlarmış ki, islansın, vuranda bərk yandırsın. Maraqlıdır ki, digər bölgələrimizdə ayaqlarına kəmər dəyərkən incitməməsi üçün müəyyən oyunçuların ayaqlarına uzunboğaz çəkmə, şalvarı üst-üstə geyindikləri haqqında da məlumatlar qeydə almışdıq. Deməli, keçmişdə "Dirədöymə"nin şərtləri daha ağır olmuşdur.

Qərbi Azərbaycan güclü nağılçılıq ənənəsi olan bölgələrimizdən biridir. Kitabdakı nağılların əksəriyyəti fil.ü.f.d., dos. Hikmət Quliyev və fil.ü.f.d., dos. Səfa Qarayev tərəfindən 2002-2004-cü illərdə Bakıda məskunlaşmış Qərbi Azərbaycan sakinlərindən qeydə alınmışdır. Həmin materiallar "Azərbaycan folkloru külliyatı"nın VII, VIII, IX, X cildlərində çap olunmuşdur. Bu janrın xalq arasında necə yaşaması haqqında daha aydın təsəvvür yaratmaq üçün söyləyici xatirələrinə dayanaraq müəyyən qədər məlumat vermək istəyirik. İlk öncə onu qeyd edək ki, nağıl quru, sxematik şəkildə söylənməyib. Nağılçı nağılı auditoriya qarşısında danışdığı üçün bəzən bu dinləyicilərlə "birgə" söylənilirdi. Dinləyicilər nağılın süjetini danışmasalar da, yerdən aktiv şəkildə nağılçıya qarşılıq verirdilər: *"Məsələn, nağıl danışırdı Salah. Salah nağılı danışırdı, bir yerdə gəlirdi ki, qarşısına div çıxdı, bu pəhlivan cumdu, divi bir yumruğa sərdi yerə. Tez yerdən Koroğlu[1] deyirdi: "Pah atonnan!".* Və yaxud da başqa bir belə bir mənzərəni təsvir edən nağılçıya dinləyicilərdən gələn qarşılıq belə olurdu: *"Vay sənin...!".* Yaxud qəhrəmanın

---

[1] Dinləyicilərdən birinin adıdır.

fəaliyyətindən bəhs edən nağılçı deyirdi: *"Qılıncını çəkdi, divi iki böldü, ya əjdahanı iki böldü. Yerdəkilər tez deyirdilər: "Ayə, Həzrəti Əlinin Zülfüqarınnan da itiymiş ki, bunun qılıncı".* Auditoriyanın reaksiyasından ilhamlanan nağılçı nağılı bir az da şövqlə danışırdı. *"Və yaxud nağıl danışan danışırdı, biri deyirdi, a Salah, sən Allah, oranı bir də de. Nağılda bu normal halıydı. Salah qayıdırdı, həmin hissəni bir də deyirdi".* Deməli, nağılçı nağılı yalnız deyil, auditoriya ilə birgə danışırdı.

Kitabdakı nağıllar kontaminasiyanın zənginliyi, süjetlərin əhatəli olması və nağıl təhkiyəsinin gözəlliyi ilə diqqəti çəkir. Həmin mətnlərin söyləyicilərinə baxanda onların əksəriyyətinin ötən əsrin əvvəllərində doğulduğunu görürük. Bu bizə o dövrün folklor söyləyiciliyi ilə müasir dövrün folklor söyləyiciliyi arasındakı fərqləri görməyə imkan verir.

Digər türk xalqlarında olduğu kimi, Azərbaycan xalqında da qonaq kultu mövcuddur. Bu kult özünü ən müxtəlif səviyyələrdə, inanclarda, atalar sözü, məsəl və deyimlərdə, həmçinin digər folklor mətnlərində göstərir. Belə mətnlərdən biri də kitaba salınmış "Əli ilə Vəlinin nağılı"dır. Nağılın qəhrəmanlarından biri təsadüfən vaxtilə öldürdüyü kişinin evinə gəlib çıxır. Qarı və oğulları onu tanısalar da, qonaq olduğu üçün öldürmür, əksinə, kömək edirlər. Türk təfəkkürünə görə, ən qəvi düşmənin də evinə gəlsə, ona toxunmaq olmaz, çünki ev sığınacaqdır. Sənə sığınan düşməni öldürmək türk düşüncəsinə görə, namərdlikdir və çox böyük eyibdir. Bu nağıl istər-istəməz yadımıza Hüseyn Cavidin "Ana" pyesini salır. Çox güman ki, böyük ədib bu süjeti xalqdan götürmüşdür.

Bu dəfə topladığımız materialların arasında elələri vardır ki, həmin mətnlərlə bağlı təsəvvürlərimizi müəyyən qədər dəyişdirdi. Əslən İğdırdan olan söyləyicimiz Fatma Altaylıdan "Cır-cır böcəyi və karınca" adlı bircə bəndlik şeir parçası topladıq:

Cırcır böcəyilə karınca
Çaldı saz bütün yaz.
Derkən kış gəldi bitdi,
Bizimkilər şafağ atdı.

Bu parça yadımıza İvan Krılova aid olub Abdulla Şaiq tərəfindən tərcümə edilmiş "Cırcırama və qarışqa" şeirini saldı. Bu, bizdə uşaq şeiri kimi tanınır və XX əsrin əvvəllərində tərtib edilmiş ibtidai sinif dərsliklərinə salınmışdır.

Yenə həmin söyləyicinin dediyi "Nə yamansan" adlı mənzum parça belə idi:

*Cicimin bir nağılı da var. Belə sıraynan gedir:*

Dedim, ay bulud, sən nə yamansan?
Dedi, mən yaman olsam,
Ot niyə mənnən göyərir?
Deyir, ay ot, sən nə yamansan?
Deyir, mən yaman olsam,
Quzu niyə məni yeyir?
Quzuya deyir, ay quzu, sən nə yamansan?
Deyir, mən yaman olsam,
Qurt niyə məni yeyir?

Bu parça da Səməd Behrənginin "Buzovum" mənzum nağılı ilə bənzərdir. Söyləyicidən bu mətnləri haradan öyrəndiyini soruşduqda dedi ki, bunları o zaman bir yerə

toplaşıb söhbət edən qadınlar bir-birilərinə deyirdilər, həm də bunu uşaqlara oxuyurmuşlar. Nəzərə almaq lazımdır ki, Türkiyədə – İğdırdakı orta məktəb dərslikləri ilə Azərbaycanın dərslikləri eyni deyil. Güman eləmək olar ki, bu mətnlər kitablardan yox, ənənədən gəlir.

Qərbi Azərbaycan eyni zamanda saz-söz yurdudur. Bölgədəki aşıq mühitləri orada məşhur aşıqların yetişməsinə, dastançılıq ənənəsinin inkişafına təkan vermişdir. Əli Şamillə söhbətimiz zamanı ondan bu mühit haqqında da müəyyən informasiyalar aldıq. O, bunları bizə uşaqlıq xatirələri əsasında nəql edirdi. Onunla bu barədə etdiyimiz söhbəti burada olduğu kimi verməyi məqsədəuyğun sayırıq: *"Adətən aşıx dasdan danışanda aşığın yanında balabançı da olurdu. Aşıx yorulanda o qaravəlli danışsın, camaatı əyləndirsin, camaatın başını qarışdırsın, aşıx bir nəfəsini dərsin, bir çay işsin. Yaxud da iki aşıx olanda usda, şagird, onda hə, qaravəlli-zad danışmax usdad aşığın boynuna düşürdü. Şagird cavandı deyə nəfəs alırdı, dincəlirdi, şagird qaravəlli danışarsa, camaat tərəfinnən o qədər də yaxşı qarşılanmıya bilərdi. Ancax usdad aşığın danışdığı hər qaravəlli gülüşnən qarşılanırdı. Aşıxlar oxuyanda da onları həvəsləndirməy üçün deyirdilər: "Ay nənəm sənə qurban!" Və yaxud da deyirdi: "Ayə, xalamı sənə verəcəm". Biri deyirdi ki, ayə, nə gözəl oxudun. Və yaxud da biri görürdü kü, aşığın səsi bir az yorulub, ya nəsə tutulur, deyirdi: "Ə, xalamı verəcəm sənə. Üş töyuğu var, gündə beş yumurta yumurtduyur, onun ikisini hər gün çiy-çiy içərsən, səsin açılar". Bu cür belə aşıxları həvəsləndirmə üsulları varıydı ki, bunlar da necə deyərlər nağıl, dasdan danışmax*

*mühiti yaradırdı. O mühitsiz nağıl danışanın özü də həvəsdə olmurdu. Ancax o mühit olanda, yerdən replikalar atanda bu, daha da həvəslənirdi. Elə də dasdan danışanda qaravəllilər də təxminən dasdanın eyni yerlərində danışılırdı, yəni o kuliminasiya nöktələri, gərginlih, psixi gərginliy olan yerlərdə, tutax ki, o hissələrdə danışırdılar ki, camahatın o stresi aradan qalxsın. Məsələn, Abbas əgər Gülgəz üçün quyuya düşüf su götürməyə enirsə, orda qaravəlli danışırdılar. Abbas və yaxud da saraya gəlir, şahın sarayına bu xalçanın altınnan zəhərli xənçər qoyuflar ki, Abbas gələndə orda onun ayağın doğrasın, bu ölsün. Onda durdururdular dasdanı, bir qaravəlli danışırdılar. Və yaxud da Batman Qılınc gəlirdi Gülgəzi evdən aparmağ isdiyəndə oğlanlar söz deyirdilər. O deyirdi, bu deyirdi, deyişirdilər. Onda saxlıyırdılar ki, yəni hələ tamaşaçı bir sakitləşsin, bilməsin ki, Batman Qılınc Gülgəzi aparacax, ya yox. Yəni dasdanın müəyyən yerlərində, bütün harasında gəldi yox, o gərginlih nöktələrində qaravəlliləri danışırdılar".*

Toplama zamanı söyləyicilərdən mümkün qədər mətnlərin konteksti haqqında da məlumat almağa çalışırıq. Çünki mətnin konteksti verilməyibsə, onun mənası və nə məqsədlə deyilməsi anlaşılmır. Bu da mətnin başa düşülməsini çətinləşdirir. "Bayatı, nanay və mahnılar" başlığı altında verilmiş mətnlər qadınların təşkil etdiyi müxtəlif iməciliklərdə – qoza çəkməkdə (Soyuqlar düşdükdən sonra pambığın tam açılmamış qozalarını yığıb evdə təmizləyirdilər. Buna qoza çəkmək deyilirdi), kağ eliyəndə (pambığın alağını toxalayanda), çayda paltar yuyanda və s. oxunurmuş.

Söyləyicilərin dediyinə görə, bölgədə kişilər də bayatı deyirmişlər. Ancaq onlar bayatını uca səslə çağırmır, yanıqlı səslə astadan oxuyur, eşidənləri duyğulandırırmışlar. Hansısa hadisədən bərk təsirlənəndə gecə yata bilməz, ürəklərindən bayatılar gəlib keçərmiş. İnqilab Mustafayevin dediyinə görə, qaçqın gəldikləri vaxtlarda gecələr yuxudan ayılar, səhərədək ağlından müxtəlif bayatılar gəlib keçər, ancaq səhər durandanda birini də xatırlaya bilməzmiş. Onun dediyinə görə, Göyçədə köçhaköç başlayanda bu hadisədən mütəssir olmuş kişilər gözləri dola-dola bayatı deyirmişlər. Üzü Kəlbəcərə tərəf piyada gedən yaşlılar başı qarlı dağlara müraciətlə bayatı çəkirmişlər.

Digər kitablarda olduğu kimi, burada da mətnlərdə söyləyici əlavələrini də mötərizə içərisində vermişik. Bu əlavələrin bir qismi mətnə verilən şərhlərdir. Fikrimizin izahı üçün aşağıdakı nümunəyə baxaq: *"...Kəlbəcərnən Zodun arasında bircə dənə Gədih dağı var. Pulçıxan qaya deyirlər ora, pullu dağ. Anarı[2] üzü Söyüddüdü, Kəlbəcərin Söyütdüsü, Söyütdü kəndi. Bəri üzü Zod kəndidi. Arada bi dənə Pulçıxan qaya var. (Ona Gədih də deyillər, Pulçıxan qaya da deyillər, Aşırım da deyillər. Hər yeri puldu oranın, qızıl. Ora qızıl yatağıdı. Bizim Göyçədə qızıl yatağı varıydı...)".*

Əlavələrin bir qismi müasir dövrlə bağlı mətnə vurulan "xallardır". İmam Əlinin xəstə nişanlısı – əmisi qızı ilə pərdənin arxasından danışmasını deyən söyləyici sonra mətnə belə bir əlavə etdi: *"İndikilər olsa, içəri yüyrər".*

Bu kitabın ən mühüm özəlliklərindən biri də söyləyicilərimizin üçünün (fil.ü.e.d., prof. İbrahim Bayramov,

[2] anarı – o biri

fil.ü.f.d., dos. Nailə Əskər və Əli Şamil) elm adamı olmasıdır. Prof. İbrahim Bayramovun adından verdiyimiz bir neçə atalar sözü və deyimi biz təsadüfən bir yol söhbətində ondan qeydə almışdıq. Yəni İbrahim müəllimi bilərəkdən söyləyici kimi seçməmişdik. Əli Şamil və Nailə Əskər isə bizim yönləndirdiyimiz sualları cavablandırmışlar. Bizə görə, hər kəs folklor söyləyicisi ola bilər. Çünki hər birimiz bu və ya digər dərəcədə bu mədəniyyətin daşıyıcılarıyıq. Odur ki, biz yeri gəldikcə öz həmkarlarımıza da suallar ünvanlamaqdan, onlardan da uşaq vaxtı eşidib-bildiklərini soruşmaqdan çəkinmirik. Onların nitq və üslubları digər söyləyicilərdən xeyli fərqli olsa da, verdikləri məlumatlardan gərəkli hesab etdiklərimizi kitablara salmağı məqsədəuyğun hesab edirik.

Yuxarıda qeyd etdiyimiz kimi, söyləyicilərin bir neçəsi isə Türkiyə Cümhuriyyətinin vətəndaşlarıdır. Dediyinə görə, vaxtilə ata-babaları erməni zülmündən didərgin düşüb İğdır bölgəsində yaşayan Fatma Altaylı ilə bizim aramızda ünsiyyət yaradan dəyərli həmkarımız Əli Şamilə minnətdarıq. Fatma xanımla Bakıda görüşdük, o, müəyyən suallarımızın cavablandırılması üçün bizi Türkiyə və Almaniyada yaşayan qohumları ilə whatsapp üzərindən əlaqələndirdi.

Sonda heç bir təmənna gözləmədən səsli faylların bir qisminin üzünü köçürən Hüseynov Nurad Tofiq oğluna təşəkkür edirik.

**Ləman VAQİFQIZI (SÜLEYMANOVA)**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

# I. MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## 1-6. HAL VƏ CİN

Kəndimizdə danışırdılar ki, kəndçilərimizdən biri Zoddan İnəkdağına atnan gəlirmiş. Şər düşən vaxdı iki kəndin arasındakı qəbirsannıxdan keçir. Bu qəbirsannığın iki hissəsi var. Bir köhnə hissə, bir də sonra salınmış. Bunun arasınnan yol gəlir. Ora gələndə görür kü, çəpiş məliyir. Şər qarışıbmış, baxır o yan, bu yana, heş kim yoxdu. Fikirləşir ki, indi hardansa qalıfdı, sürüdən qalıfdı, onu götürsün, gətirsin. Düşür, çəpişi götürür, vurur qoltuğuna, minir ata. Atın qucağında gətirəndə birdən nəysə hiss eliyir ki, çəpiş tərpənir. Bir də, baxır ki, ə, çəpişin o qədər ayaxları uzanıf ki, az qala yerə çatsın. Qorxusunnan, həyəcannan əlini çəpişin qarnının altınnan salır, atdan yerə atır. Atı bərk çapır. Çapanda çəpiş arxadan dilə gəlif deyir ki, bəxtin kəsilsin, anan namaz üsdəymiş. Ayağım yerə çatsa, gör $san_ıa$ neyliyərdim?[3] (S. 7)

### 2.

Deyir, yaz açıldı, yazda, deyir, biz geriyə qayıdası oldux Göyçüyə. Qayıdanda, deyir, bu bavam da gəlirmiş. O vaxdı elat deyirdilər, bu aran camahatı gedirdi dağa – Kəlbəcərə, Sarıyerə. Burdan adamnar gedif, karvan gedif,

---

[3] Mətndə mifoloji personajın adı verilmir. Ancaq məzmunundan onun Halın dönərgələrindən biri olduğu anlaşılır. Ona görə də biz mətni bu başlıqda verməyi uyğun hesab etdik.

o tərəfdə dağa çıxıllarmış. Bavam da gəlirmiş, orda nəsə dua yazırmış, həmzad kəsirmiş. Nəsə. Mollaan nədi işi? Ordan, deyir, qayıdıf gələndə bizim Göyçədə Cinni qaya var. Göyçəlilər bilər onu. Taxda düzündə Cinni qaya deyillər. Qoymurdular axşam olanda bizi ora baxmağa ki, orda cinnər var. Adı Cinni qayıydı. Ordan bəri bavam Kəlbəcərdən gələndə Kəlbəcərnən Zodun arasında bircə dənə Gədih dağı var. Pul çıxan qaya deyirlər ora, pullu dağ. Anarı üzü Söyüddüdü, Kəlbəcərin Söyütdüsü, Söyütdü kəndi. Bəri üzü Zod kəndidi. Arada bi dənə Pulçıxan qaya var. (Ona Gədih də deyillər, Pulçıxan qaya da deyillər, Aşırım da deyillər. Hər yeri puldu oranın, qızıl. Ora qızıl yatağıdı. Bizim Göyçədə qızıl yatağı varıydı. Dağ varıydı, adına Şahqulu dağı deyirdilər. Bizim kəntdə çoxlu zaboylar[4] işdiyirdi. Yerin altınnan torpağı daşıyırdı gətirirdi. Həmi Göyçədə zavod varıydı, qızıl əridirdi. Onnan çıxardırdı torpaxdan. Həmi də dəmir yolu vasdəsiynən göndərirdi Ararata. Yerevana gedirdi, orda da qızıl zavotdarı varıydı. Onun da bir uju gedirdi Maskvaya. Bizim kəndin maqazinnərinin hamısına Maskvadan gəlirdi pradukları, geyimnəri. O hamısı qızılın səbəbinəydi. Keşmişdə Göyçə mahalı Azərbaycanın olufdu. Gədiyin bu biri üzü Söyütdüdü – Kəlbəcər, bu biri üzü mədəndi, qızıl mədənləri. Bu biri üzündə də ermənilərdi).

---

[4] zaboy – dağlardan filiz, duz çıxarmaq üçün qazılan mağara. İndi dilimizdə işlədilən tunel sözü zaboya yaxındır. Tunelin iki tərəfi açıq olur. Zaboy isə bir tərəfdən qazılır və dağın içərilərinə doğru kilometrlərlə uzanır.

Həmən ordan gələndə Cinni qayada cinnər bavamın qabağını kəsillər. Bavama deyiflər ki, qurban ol Qurana. (Xurcunda Quran var, Quran gətirir). Yoxsa səni burda bilirdih nağayrardıx. Düşüllər, atın qavağınnan başdıyıllar tozdamağa torpağı.[5] Tozduyanda gəlir bavamın gözünə vurur. Bavamın gözünə vuranda bavam gəlir öyə, nənəmə deyir ki, ay Göhər, (nənəmin adı Göhər oluf) mənim Qurannarın hamısını buruya yığ, yanıma. Deyir:

– Nədi?

Deyir:

– Yolda kəsdilər qavağımı, gözümə torpağ atdılar. Gözüm tutulajax mənim, ama mən onnarı oxuyuf üfürməliyəm.

Bavam bunnarı oxuyur çağırır, oxuyur çağırır. Bunnara and işdirir ki, sizin soğan suyu qarışanınıza dəymiyəjih. Ona görə də bavam həmişə deyərmiş ki, Haldı, qəvirsannıxda yatmaxdı, dəyirmanda yatmaxdı, belə şeylərdən, qorxudan siz hifz olunufsunuz. Onnar sizə yaxın gələsi dööl. Bavamın on iki il gözü tutulur. Həmən o torpax atılan gününnən bavam on iki il yatır, gözü görmür (S. 13).

**3.**

Deyir, orda cin oluf. Axşamnar, deyir, qorğa qoyurullarmış, keşmiş adamnar danışır. Yeyillərmiş, içillərmiş cinnər. Məəm özümü də cin qorxuzub bir dəfə. Bizim evimiz bavamgilin öyünün böyründəydi, yanaşıydı. Gejə yuxudan ayılırdım, görürdüm kü, uşaxlar ağlaşır, qorğa qoyurullar, biri birinin adın çağırır. Mən də “ay mama, ay mama”, – çığırırdım, səsim eşidilmirdi. Bir gün də deyirəm:

---

[5] Torpağı tozdamax – Burada torpağı geriyə doğru sovurmaq anlamında işlədilib.

– Ay mama, ay mama.

Qayıtdı maa:

– Canına azzar mama, yat. Nə mama?

Cin deyir bunu. Allah hakqı, hə. Tezdənnən durdum, mamama danışdım. Papam ferma müdürüydü. Mamamgil gejə duruf gedirdilər. Yataxlara gedirdilər, dana. Malımız, heyvanımız-zadımız varıydı, gedirdi, saxlıyırdı. Mamamgil obaş[6] duruf gedirdi, saat beşdə, dörtdə maşın gəlif aparırdı. Biz qalırdıx bajım, mən, qardaşım. Sora Südabə durdu (bajımın adı Südabədi) səhər, mamam gələndə mamama ağladı. Dedi, ay mama, yuxudan oyanmışdım, gözüm açığıydı gördüm... O vaxdı maqintafon yoxuydu e, paytifon deyirdilər, oxudurdular, valı qoyurdular dana. Onu, dedi, bir şinelli kişi götdü, qaçırtdı, belə getdi. Ama paytifon yerindədi dana, uşağın gözünə görüküf. Sora bizi apardı getdi, qonşuydux nənəmgillə, bizi nənəmgilə qoydu. Orda yatırdıx. Sora nənəm "qorxmuyun", – dedi, ona bavan and işdirifdi, o heş nə eləməz, o həmişə gəlir. O dedi, gəlir hər dördüncü günü, Batman Quranı ziyarət eliyif gedir. Batman Quran yekə Quran da. Nətəər deyim e, hələ də o Quranı əmimgildə saxlıyıllar. Qara üzdü kitafdı, bavam onu o vaxdı oxuyurmuş. Hə, cinnər gəlif o Batman Quranı ziyarət eliyillərmiş. Nətər ki, biz deyirih, gedif filan ojağı ziyarət eliyəjəm, onnar da gəlif onu ziyarət eliyirmiş (S. 13).

## 4.

Kəndimizdə bir dəyirmançı Bəşir varıydı. O, danışırdı ki, bir gün dəyirmanda dən üyüdərkən, gördüm kü, dəyir-

[6] obaş – gecə ilə səhərin arasıdır, yəni gün çıxmamış

manın suyu sovruldu, yəni azaldı. Deyir, dedim ki, çıxım görüm bu su hardan yıxıldı, hardan axdı ki, bura gəlmir? Bu yamaşda da bir neçə dəyirman olurmuş əvvəllər. Bir arxın üsdündə bir neçə dəyirman qurmuşdular ki, gələn su bu neçə dəyirmanı işdətsin. O dəyirmanların o birsiləri, ikisi-üçü uşmuşdu, bir Bəşirinki qalmışdı. Deyir, ağzı yuxarı çıxanda gördüm ki, məni çağırırlar:

– Ay Bəşir, ay Bəşir!

Xaraba dəyirmanların birinnən çağırırlar. Deyir, gedim görüm kimdi, nədi? Deyir, getdim ki, əyə, kimdi, nədi? Burda adam əlinnən tərpənməy olmur. Bir toy-düyün, çal-çağır var, gəl görəsən. Deyir, məni də oturt-dular, keçirtdilər ki, oturginan. Oturdum, deyir, əyə, deyir, bunlar bir çalırlar, oynuyurlar, zurna-qaval, nə bilim, nə. Deyir, deyirəm, a kişi, bu görəsən kimdi? Niyə gəlib bu xarabada, dəyirmanda toy eliyirlər? Axı kəntdə toy olsa, mən bilərdim. Bu zurnaçıları, bu çalannarı, çağırannarı, oynuyannarı mən tanıyardım. Bunlar mənim tanımadığım adamnardı. Deyir, qabağımıza da hər cür yeməy-işməh, mer-meyvə, deyir, bəs qədər qoyuflar. Deyir, birdən şüphələndim ki, a kişi, bu necə ola bilər ki, mən burda oturuf bunnarın çal-çağırına qulağ asıf oynuyuram, məni də dəvət eliyirlər ki, gəl oyna. Ancax mənim bu kəntdə belə bir toydan xəbərim yoxdu. Deyir, dedim ki, cin olar. Deyir, dedim, bismillah rəhmani rəhim. Deyir, bir də baxdım ki, nə toy var, nə nağara var, nə səs var, nə adam var, heş nə yoxdu. Oturmuşam xaraba dəyirmanda bağdaş qurub, qabağımda da mal peyini, onu yeyirəm (S. 7).

**5.**

Bir dəfə də nənəm deyirdi ki, (nənəm gör havaxtdan olufdu), nənəm deyir, gördüm kü, o vaxdı Göyçədə kürsü qurullarmış, təndirin ağzında kürsü qoyullarmış. Stol kimi şeyiydi, qoyuf üsdə də palaz salırdılar. Altında otururdun ku, qılçan qızsın. Nəəzirdi, o vaxdı qaz varıydı? Gündüz yandırıllarmış, həm yeməhlərini bişirillərmiş təndirdə, həm çörəhlərini. Sora da üsdünü örtüllərmiş, camaat qızışsın dana, söyuxda. Qar elə yağırdı ki, çölə çıxmax mümkün döölüydü. Bir də səhər dururdun ku, qar elə tutuf ku, ev hündürrühdədi. Dururdu mamam, papam yol açırdılar, cığır açırdılar, bu qonşu o qonşuya gedir, o qonşu bu qonşuya gedir. Elə üfürürdü, doldururdu ku, heç çölə çıxmax mümkün döölüydü. Nə deyirdim, yadımnan çıxdı e. Hə, nənəm deyir, gördüm, nənəmin də əmisi oluf, bilmirəm kim. Deyir, yuxumda gördüm kü, bu cinnər oynaşır, toy eliyillər, nənəmgilin də pişihləri ordadı. Pişih, deyir, aşağı hopbanır, yuxarı hopbanır, oynuyur. Deyir, ordakılar deyir ki, çal, usda Bayramalı, çal. Deyir, kişi deyif ki, Nail, beyjə yuxumda görmüşəm, pişih ordaydı. Deyəndə deyif:

– Ə, nətəər?

Deyif:

– İndi dayan, qoy pişih gəlsin, kürsünün üsdündə oturanda deyəjəm.

Anam (ana deyirdih nənəmə) deyir, gəldi pişih. Deyir, kürsünün üsdünə çıxanda əmisi qayıtdı ki, çal, usda Bayramalı, çal. Əmisi deyəndə, deyir, pişih belə kürsünün üsdə fırrandı, miyoldadı. Əyaxlarını yerə qoydu, başınnan bajadan çıxdı. O gedən getdi, deyir, pişih bir də gəlmədi (S. 13).

## 6.

Aşıxlı tayfası varıydı. Onnarın bir nəfəri gedir, gejə baxır ki, atı o qədər çapıflar ki, tər axır bu atdan. Bu gətirir qırdan belə zad salır, iynələrdi, oraya sancır belə. Nəysə, deyir, bir gün getdih ki, bu tutuf. İndi babalar danışırdı e. Həə, deyir, getdih ki, deyir, bir dənə adamja, deyir, atın üsdündə oturan kimi iynələr tutub bunu. Gətirif bunu deyif ki, sən manıa işdəməlisən eləjə. Bunu göndərirmiş bulağa, deyirmiş, tez gələrsən, gej gəlirmiş, gej gələrsən, tez gəlirmiş. Buna ama and işdirir. Deyir ki, bax nə qədər ki, sənin ətrafın, nəvən-nəticən, nə vilim, tayfan varsa, hamısına mən borşduyam. Buna bu andı içdirənnən sora yenə də işdədirmiş. Bir gün gedir bulağa, bir qız uşağına deyir ki, bu iynəni burdan çəkginən dana. İynəni çəkən kimijə bu yox olurmu? Eləjə, deyir, gəldi, deyir, qapıyı aşdı, deyir, dedi, salamat qal, mən getdim. Bax bunu belə danışırdılar.

Həə, onu deyim. Deyif ki, zivilinızə bərəkət, çörəyinızə hərəkət. Bax bu sözdəri deyif çıxıf gedif. İndi yadıma düşdü (S. 14).

## 7-8. ALMA OCAĞI

İnəkdağ kəndinnən yuxarı İnəkdağının quzey tərəfində, çayın o yüzündə, güneydə balaca bir dərə varıydı. Dərənin içində bir cır alma ağacı varıydı. Cır alma ağacı çox böyüyüydü. Yəni meşələrdə gördüyümüz elə cır alma ağacı yoxuydu. Dibdən çıxmışdı dört, beş butağ. Hamı ətrafdan gəlib ona, hətda ermənilər də gəlif orda qurban kəsirdi, divində. Torpaxdan da tütyə aparırdılar. O alma ağacı hakqında çoxlu rəvayətlər varıydı. Bu rəvayətlərin

biri oydu ki, bu Malağan Şorcası deyirlər Göyçənin. Oranın malağannarı gəlif yayda taxıl biçinində bizim kəndin kalxozunun taxılını biçirdilər və onun müqabilində buğda alıf aparırdılar. Bunnar gəlif həmişə biçin eliyəndə orda da bir ev varıydı, orda qalırdılar. Bir gün İnəkdağının quzeyindəki taxıl zəmisini biçif geri gələndə görürlər ki, alma ağacınnan budaxları qırılıf düşüf yerə. Quruyufdu dəə, yandırmağ üçün yaxşıdı. İnəkdağında da yanacağ azdı. Bunnar yığırlar, gətirirlər ki, yandırıf xörəhlərini bişirsinnər. Bunnarı görən olur. Deyir ki, onnarı aparmıyın. O alma ağacı ocaxdı, müqəddəsdi, yandırmağ olmaz. Malakannar əhəmiyət vermirlər. Gəlirlər, axşam ağaçdarı yandırırlar, xörəhlərini bişirif yatırlar. Bir də, görürlər ki, gecə ilannar hər tərəfdədi. Damnan, yerdən, hara tərpənirlər, ilannar bunnarı əhatə eliyir. Bir təhər hövlanək evdən çölə salırlar özdərini. Qaçırlar kəndin mollası – Molla Ziyadın yanına ki, belə-belə, biz qaldığımız ev ilannan doludu. Ziyad gəlir ki, evdə ilan-zad yoxdu. Deyir:

– Nooluf, necə oluf ki, axı sizin gözünüzə ilan görünür?

Deyir:

– Belə-belə.

Deyir:

– Həə, siz o alma ağacını yandırdığınıza görə o olufdu.

Ziyad onlara dua-zad eliyir, oxuyur. Onnan sora onlar işdərini də tamamlamadan, yarıda qoyuf çıxıf Malağan Şorcasına gedirlər.

Həə, onu da deyirdilər ki, o alma ağacı əvvəllər orda olmuyuf, başqa yerdə oluf. O ocağı küsdürəndə yerini dəyişir. Bizimkilərin yadında qalan oydu ku, o alma ağacı

bir üş dəfə yerini dəyişif. Bunların gördühləri axırıncı oradı. Tutax ki, kəndin ən yaşlı adamınnan hardasa vardı o devirdə yetmiş-səksən yaşı. Altmışıncı illərdə olan adamlar xatırladırdılar ki, biz gözümüzü açıf o ağacı görmüşüy. Ata-babalarımız da deyirdilər ki, ordadı, ocaxdı.

Bir də İnəkdağı varıydı, İnəkdağı kəndinin üsdündə İnəkdağı. Onun başı da ocaxdı. Hər il adamlar aparıf o ocaxda qurban kəsərdilər, ətini paylıyardılar, qurbanları qəbul olsun deyə (S. 7).

## 8.

Yadımda bir hadisə də qalıf. Bir il bərk quraxlıx keşdi. Yağış yağmırdı. Yağış yağmırdısa da, taxıl da, ot da yoxdu, mal-heyvan da əziyət çəkirdi. Çox ölçüb-biçirdilər. Kəntdə də ateyislər, gənçlər dinə-zada inanmırdılar. Ancax buna baxmıyarax çox ölçüf-bişdihdən sonra kəndin dərvişvari bir qaroolu varıydı – Gürzalı. Bu adam namazını, orucunu vaxdı vaxdında yerinə yetirən bir adamıydı. Başqa işlərə də çox qarışmazdı. Ancax kəndin şər işlərinin yola verilməsində onun böyüh rolu olurdu. Bir adam rəhmətə gedəndə Gürzalı o adamın evinin yanına gəlif durmazdı. Evinnən aralı durardı, böyüh bir dəsmalı vardı, açardı. Kənd camahatı, qonşu kəntdən, ətrafdan gələnnər Gürzalının dəsmalına pul atardılar. Gürzalı da o puldan götürərdi, mal-heyvan alardı, ehsan verərdi. Yəni dəfin xərşlərini o pulnan ödədərdi qırxına, ilinə kimi. Sonra yerdə qalanını da ayləyə verərdi. Heş kim də bilməzdi ki, ora kim üş manat atdı, kim on manat atdı, kim beş manat atdı. Həmişə də camahat lağa qoyurdu, zarafat edirdi ki, Gürzalı kişi çox sirri özüylə apardı. Bu adamı qərara

gəlirlər ki, göndərsinnər, Qoşqar dağının başınnan daş gətirsin. Bizim kəndin yanındakı bulağa salsın, dua oxusun ki, ordan yağış yağsın. Bu adam gedənnən gələnə kimi gərəh danışmıya, dönüb dala baxmıya, yalnız qabağa baxa. Yolda bir hadisə olar və yaxud da yaylaxdakı çobannar buna mane olar, itdər buna hürər. Kimsə köməhçi buna lazımdı. Köməhçi də mənim atamı seşdilər, Söyünü. (Yəni bizim kəntdə, ümumiyətlə, Göyçədə Söyün deyirlər. Bu Şimali Qafqazda da Söyün deyirlər. Ancax sonra elə biliflər ki, bu Söyün düzgün deyil, ərəbcədəki Hüseyindi. Əslində bu Hüseyin deyil, elə Söyünüydü). Bu atam səhərin alatoranında durdu, onnar iki atnan gedəndə mənim yadıma gəlir. Hardasa alatoranıydı, yeni işıxlanırdı, yer görünürdü. Atam bu Gürzalı kişinin həyətinə getdi. Mən də marağa getdim. Gürzalı namazını qıldı. Dəstəmazını alıb namazını qılannan sonra çölə çıxanda atam atı tutdu, Gürzalı kişi də ata mindi. Atam da öz atına mindi, onun arxasınca yola düşdülər. Biz kəntdən aralanana kimi onları gördüh, sonra daha görmədim. Getdilər dağa, Qoşqar dağına. Qoşqar dağının başınnan daş gətirdilər, alma ağacının divindəki bulağa saldılar. Yağış yağmadı. Səhəri gün də yağmadı. Kəndin cavannarı başdadılar Gürzalı kişini lağa qoyuf gülməyə ki, əyə, daş gətirməhnənmi, nəynənmi, yağış yağarmı? O birsi, üçüncü gün adamnar gördü kü, Gürzalı kişi gedif alma ağacının ayağınnan sallanıf, Allaha yalvarır. Gürzalı kişi kəndə gəlif çatmamış dedi ki, ay İnəkdağının cavannarı, siz buna inanmadınız, ancax Allahtala sizi bərk cəzalandıracaxdı. Aradan heç bir saat keşməmiş göydə bulut-zad olmadığı halda dəhşətli bir yağış yağdı, kəndi sel apardı.

Çox evlərə ziyan vurdu, mal-heyvana, taxıla, nə bilim, çox şeyə ziyan vurdu. Dəhşətli dərəcədə də yağış yağırdı.

Atam danışırdı ki, biz onnan gedəndə yolda, yaylax-dakı çobannarın itdəri gəlirdi, çobannar gəlirdi:

– Hara gedirsiniz? Nəyə?

Mən onların qarşısına çıxırdım. Qarşısına çıxırdım və beləlihlə, Qoşqar dağının bir yerinə kimi atnan çıxdıx. Ordan o tərəfə daşdığıydı, at çıxmırdı. Mən atdarı saxladım və Gürzalı kişi düşdü, piyada dağa çıxdı. Mən də onnan çıxdım. Dağın başında balaca bir sısqa bulax yerdən qaynıyırdı, orda daş varıydı. Gürzalı kişi əlini saldı, ordan daşı götürdü, qoynuna qoydu, geri qayıtdı, yenə ata mindi, çıxdı gəldi (S. 7).

## 9-10. MİSKİN ABDAL OCAĞI

Misgin Abdalın çox möcüzələri olub. Şəxsən mən ayrı şey demirəm, elə bu kəntdəjə mən möcüzəsini danışım. Onnar ayrı kəntdəniydi, biz ayrı kənd. Gəldih buruya, bir yerə düşdühmü? İndi mən deyim. Bir gün bu rəhmətdih Niyazi işdiyən vaxdı deyirəm ha. Onda baş aqranom işdiyirdi. Mən də bi dəfə sınamışdım bunu. Getdim on beş hektar yer əhmişəm, taxıl elə yanır, elə yanır, bax, bircə beləjə boyu var. Deməli, çöldəyəm, bu Sərvaz da gəlif belə. Dedim ki, ayə, siz yüz əlli hektar suluyufsunıuz, ə, məəm on beşcə hektardı, qoy yanmasın. Camaatın içində məni biyavır eləməy isdiyirsınız ki, yeri yandırdı belə? Dedi:

– Yox e, mən qutarmamış verən döyüləm.

Dedim:

– Elə?

Dedi:

– Hə.

Gəldim üzümü belə çöyürdüm, dedim:

– Ya Misgin hoja, sən görürsən ki, qaşqın düşdüh, evimiz-eşiyimiz yandı. (İndi onu sööbət eliyəjəm öyümüzü nətəər yandırıflar). Həə, heç olmasa, mən bu camaatın içində biyavır olmuyum.

And olsun Allaha, çinarın altına çatana qədər yer yerdən qoyuşdu, göy göydən qoyuşdu, bir yağış gəldi ki... Onatan bu Sərvaz gəldi, dedi ki, ayə, yaman sel gəlir, taxılını sula. Dedim, mən taxılımı suluyajam, ama gördün xayınnığın özünə qaldı. Gördün, mən nətəər çağırdım? Dedi ki, heş nə. Elə bilginən ki, mən suyu qutaran kimi yağış da kəsdi, sel də qutardı. On beş günnən sorasına qayıtdı, belə elədi e:

– Sən canın, genə də bir sidqi-ürəhnən çağırginan, qoy dən suyunu[7] da verəh.

Çağırdım da, gəldi də. Bu belə (S. 14).

## 10.

İndi onu deyim. Bu Niyazi gəldi bura, pambıx səpirih. Gəldi ki, ay İnqilaf, yerinin aratı[8] qaçıf, burdan nolajax? Havayı şeydi. Bu yerdən də gözdəmə, təzdənnən gərəh su suluyasan. Bax ojağın yanındaydıx burda. Dedim:

– Sidqi-ürəhnən ojağı çağırajam, bir də baxajan ki, sel suya qarışdı, suyu doldu.

Dedi:

– Nə bilim.

---

[7] dən suyu – Arpa, buğda yetişənə yaxın ona verilən suya deyilir.

[8] arat eləməy – Aran bölgəsində əkindən qabaq torpağı su ilə doydururlar ki, bitki yaxşı yetişsin. Bu söz və üsul yalnız Aranda deyil, Göyçədə, Borçalıda və başqa yerlərdə də işlədilir.

Hələ yeri qutarmamışıx, hektar yarım yer bəri, bu çinarın dibində qalanda yağış nətəər yağdısa, belə elədi bax:

– Ay İnqilaf, nəziri mən verəjəm.

Dedim:

– Yox, sən verib eləmə. Mən çağırmışam, o nəziri özüm aparıb verəjəm.

Nəysə, tıraxtırrar da sahədən çıxanmədi, qaldı sahədə. Getdih oturdux, çörəh-zad yediy-elədih. O yeri daa deməy olar ki, arat da eləmədih, eləcə yağışnan da çıxdı. Burda gərəh arat eliyəsən, Göyçədə yox. Göyçədə qar yağırdı, yazda qar əriyirdi. Polnu suyunu torpax götürürdü. Bu bir.

İkinci, bu kəntdə ən inamsız adam, deyillər, Dəli Nəsirdi. Bir gün bir də baxdım ki, dedi ki, ayə, qardaş oğlu, ala bu nəziri, civinıa qoy. Dedim:

– Ayə, mən seyit-zad döyüləm a, maa nəzir verirsən.

Dedi:

– Yox, mənim inamım-zadım yoxdu. Mənim bir itiyim var, onu sən canı civinıda saxla, mən desəm ver verərsən, mən deməsəm veriv eləmə ha.

Dedim:

– Yaxşı daa, indi deersən-deersən.

Pulu qoydum cibimə, bu getdi. Ara yarım saat çəhmədi, gəldi ki, itiyimi tafdım, sən canı apar o nəziri, oruya çatdır. Ən inamsız adam e, yanı ona inamı yoxuydu adamın.

Ojax burdadı. Gətiriflər. Gedif nəzir verillər, qurvan kəsillər. Qurvan kəsillər bütün göyçəlilər.

Misgin Abdal oluf Şah İsmayıl Xətayinin müşaviri. Öz də deyəsən Dağıstan üzrə oluf. Biz oruyu ziyarət eliyirdih. Tutax ki, deyirdih ki, bu işim başa vursun, gedib orda qurvan kəsəjəm (S. 14).

## 11-13. SEYİD BAYRAM OCAĞI

Seyit Bayram varıydı Alqayıtın bavası. Bizim kəntdə Seyid Orucun ojağı deyirdilər, qurvan kəsirdilər. Qara Seyid varıydı, qəvrinin üsdündə qurvan kəsirdilər. Kəlbəcərnən Zodun arasında demirəmmi dağ var. Dağı aşırdın, Söyütdüdə seyit varıydı, onun ojağında gətirif qurvan kəsirdilər. Seyid Əsədullah deyirdilər. Onun qurvanını həmişə atamgil gətirib yayda kəsirdilər.

Ama bu Seyit Bayramın (şayir Alqayıtın bavası) arvadı nənəmin qohumuydu. Deyir, dedi ki, Seyit Bayram yatırdı, ağır vəziyətdiydi də, ölümcül vaxtında. Arvadına deyif ki, manıa bir az qatıx tapginan. Deyif:

– Ay seyid, qatığı gedim kimnən alım? Elə bir təmiz adam yoxdu ku, mən onnan gedəm qatığ alım.

Deyəndə deyif ki, çıx, çöldə maral gəlifdi, sağ onu, gət maa qatıx çal. Çıxıf ki, çöldə bir dənə belə döşü sütdü maral yatır, qapının ağzındadı, qışdı. Çıxır çölə arvad, gedir, maral gəlir, bunun yanında durur. Arvad bunun südünü sağır. Gətirir bişirir südü, deyir:

– Bəs mən indi çalasını hardan alım bu qatığın?

Təsbehin, deyir, belə üsdündə hərrədi, qatıx tutuşdu. Hə, o qatıxdan yedi. Orda rəvayət qalmışdı ki, Seyit Bayramın maral gələn ojağı. Belə and içirdilər (S. 13).

### 12.

Deyir, bir dəfə də maral gəlif, balasını qoyuf gedif. Arvad deyif ki, ay Bayram, çöldə bir maral var, yanında da bir balası var. Balasını qoydu, gedir, ama yönü geri baxa-baxa gedir dana. Dedi ki, o balasını manıa qurvan deyifdi,

gətirif burda qoyur, gedir. Hə, çıxıf çölə deyif, Allahın heyvanı, qurvanın qəbuldu, göt balanı apar. Qayıtdı, deyir, gəldi, balasını yalıya-yalıya götdü apardı (S. 13).

**13.**

Seyid Bayram ojağı ən sınanmış ocaxdı, o da varıydı. O da gəlif, Tərtər rayonuna gətirdilər. Dedilər, o vaxdı ojağı götürüf gələnnən sora o Seyit Bayramın kümbəzi var orda, Göyçədə qalıfdı. Dedilər ki, oruya çoxlu ilannar girif erməniyi yaxın qoymurmuş e, oralara.

Onnar da bilirdilər, deyir, onnan sora həmin evdə heş yaşamax mümkün olmuyuf da. Öy də böyüy eviydi. Orda yaşamax mümkün olmuyuf, ilannar gəlib doluf o evə.

Bir də həmən ocağın elə bil darvazası varıymış. Erməni bunu çıxardıf aparıf Basarkeçərə. Aparıb qapısına qoyubbuş. Bir də gəliflər ki, darvaza yıxılıf, uşax qalıf altında, ölüf. Deyiflər, ay bədbaxt insan, ermənilər danışıf ha, siz nahax o ojağın darvazasını çıxardıf gətirmisiz. Gördünüzmü, bəlanızı buldunuz? Qaytarın aparın, onu yerinə qoyun, sizə çox ziyan dəyəjəh. Aparıb həmin darvazıyı yerinə qoyuflar (S. 14).

## 14. SEYİD ƏSƏDULLAHIN OCAĞI

O, kəlbəcərliydi. Mən oruyu ziyarət elədim, nətəər? 88-ci ildi, burdan maşın aparıram ki, gedim köçümüzü gətirim. Getdim. Qoy görüm seyidin adı yadıma düşəjəh, indi deyəjəm. Əsədullah, Seyid Əsədullahın ojağı. Hə, deməli, maşınnan gəldih, gejə probkaya düşdüh. Maşın o qədər gedir ki, Göyçənin köçünü daşıyır da. Gəldih o Cəmilli kəndinə, ordan çıxanda elə bil gejə qaldığ orda. Bir

dənə, deməli, o evin yiyəsi, indi fikir ver, gəldi, bizə dedi ki, büyün getmiyin. Gəlin, bu gejə burda qalın. Həə, gejə qaldığ orda. Səhər tezdənnən baxdıx ki, probka açılıf, indi gedirih. Onatan gəldih o seyidin ocağının yanında, deməli, gəldim ki, dedilər, buranı ziyarət eliyillər, onun qəbrini da. Mən getdim, oruyu ziyarət elədim, nətəər? Maşınnan düşdüm getdim, o vaxdı Leninin başı olan manatdıx varıydı, belə dəmir manatdıx varıydı. O dəmir manatı belə nəzir qoydum. Dedim, ya seyid, nə gəlirsə, mənim malıma, qoyunuma, bir də köçümə gəlsin, ama evlatdarıma, ayləmə heş nə olmasın. Sən inanırsan, özümnən aslı olmayarax başımın tükü bax belə qalxdı, elə bil ki, nədən qorxan kimi e. Bir dəyqə elə bil heş nə eşitmirəm. Baxdım ki, birdən şofer maşınnan çağırır. Dedi:

– Ə, eşitmirsən? Mən səni çağırmırammı?

Ə – dedim, vallah eşitmədim.

Həmən saatda, həmən dəyqədə Martuni rayonunda bizim köçü yandırdılar ermənilər. Bütün köçümüzü yandırdılar, biz gəldih buruya, heş nə yox, bir şey yox. Bir əynimizinjə paltarınnan gəlmişih da. Gəldih bura, qardaşım burda olurdu. Allah cəmi ölənnərə rəhmət eləsin. Rəhmətdih qardaşımgildə qaldıx, onnar da bizə daa indi nağarsınlar? Özdəri yeni ayrılıf gəlmiş aylədilər. Nefdalannan bizə üş kravat gətdilər verdilər, üş də adyal verdilər. Gətirdiy bir zadın – bu dranqa deyirih da – zadın, ağacın yanınnan çıxan. Dıranqaynan butka qurdux, biz neçə il oon içində yaşadıx. Gör nə günnər görmüşüh indi biz. İnsanın bir az da qoçaxlığı lazımdı. Getdim çöldən, Allah Azərbay-

canın torpağına ver dedihcə versin. Hər qarışı Azərbaycanın qızıldı, onun qədrini bilməh lazımdı, Allah hakqı.

Onnan sora Qərbi Azərbaycan icması məni rayona çağırmışdı, getdim, orda bir çıxış elədim elə bil bu sahibkarlıxnan əlaqədar. Getdih arıyı apardım Kəlbəcərə. Elə gedəndə dedim ki, ə, bir gedəh görüm də. Getdim nəysə Murovun başına çıxdım, Allah şəhiddərimizə rəhmət eləsin. Dedim, ə, bir dayandırın. Dayandılar, düşdüy, o torpağı öpdüm. Dedim ki, ey şəhiddər, bizə icazə verin, o qan tökdüyün$_{ı}$uz torpaxlara biz əyax basax. Getdih oraları da gəzdih, Allaha şükür (S. 14).

## 15. ÇAY OCAĞI

Bizim Qannı kəndi belə qayaların arasınnan bircə yerdi. Bizim kət düzənnihdi. Bircə yerdə belə daşdı yerrər var. O daşdarın arasınnan elə sular axır gəlirdi, duru. Biz ordan suyu götürürdüh. O qayanın başında da bir ojax varıydı. Ojağın adı-zadı yoxuydu, heş nə. Eləcə çayın başındakı ojax deyirdilər ona. Oruya bir dənə uşax basdırıflarmış o vaxtı. Uşax qəbriymiş ora, daa sınaxlı ojağıydı. Bizim həmən o bir il üsdün$_{ı}$uzə sağlıx, bizim kətdə o qədər adam eləcə rəhmətə getdi. Cavan, yaşdı, uşax. Çox getdi. Bizim kətdə bir qoja arvad varıydı, bu gejə yatanda qoja arvada deyillər ki, o ojağın başında bir daş var, orda belə yalax var. O yalaxda aparın siz bir qurvan kəsin, bu millət belə qırılmasın, ölməsin. O arvat qalxdı gəldi kişilərin içinə, dedi ki, mən bejə yuxumda bir yuxu görmüşəm, ay camaat. Maa yuxuda belə deyirdilər. Getdilər həmən o daşın yanına, arvat yuxuda gördüyü daşın. Baxdılar həmən daşda

gerçəhlimdə[9] yalax var. Kət camaatı yığışdı, bir mal aldılar, həmən orda həmən o qurvanı kəsdilər. Bax onda uşağıydım mən, o uşax zatdarım yadımda qalır ey. Onu kəsənnən sora bütün ev-ev payladılar o qurvanı. Bax onnan sora dedilər, qada qurvanı kəsirih. Bax onnan da ölüm dayandı (S. 11).

## 16-17. DÜLDÜL QAYASI

İnəkdağ kəndinin yaylağında, yəni yaylax deyəndə kəntdən yeddi-səkgiz kilometir yuxardadı, dağda bir ağ qaya varıydı. Qaya çox da uzun deyildi. Ancax qayanın üsdündə çuxurlar vardı. Camahat o qayaya Düldülün qayası deyirdi, yəni Həzrəti Əlinin atının adınnan bağlıyırdılar. Qayanın üsdündəki çuxurları da deyirdilər ki, Həzrəti Əlinin burda oluf, keçəndə atı o yuxarı təpədən sıçrıyıf gəlib bu qayanın üsdünə düşüf. Düşəndə bu dört yer, çuxur, bu, Həzrəti Əlinin atı Düldülün ayağ izləridi ki, burda qalıfdı. Qayanın dibinnən də sısqa bir bılax çıxırdı. Ancax nədənsə, oranı "Düldülün qayası" desələr də, ojax eləməmişdilər. Ora ziyarətə gedif, qurban kəsən, nəzir verən də olmurdu (S. 7).

## 17.

Kəndimizin yaylağında bir Dündülün qayası deyilən ağ əhəng daşınnan o qədər də böyüy olmuyan bir qaya varıydı. Qayanın üsdü nisbətən düzəniydi. Aşağı tərəfinnən ora dırmaşmağ eləməy çətiniydi, ancax yanınnan fırlanıb, yuxarı tərəfinnən keçib gəlməy olurdu. Camaat arasında belə bir söhbət, rəvayət gəzirdi ki, Əli əleysalam

[9] gerçəhlimdə – gerçəkdən də

gəlib dağın o birsi tərəfinnən Düldülnən keçəndə atı ordan şahə qaldırıb, at sıçrıyıf gəlif. O ağ qayanın, əhəng daşı qayanın üsdünə düşüf Düldülün ayağının izləri, orda qalıf. O çalıya yağış, qar suyu yığılırdı. Əhəng daşıydı, yağış, su yığıf çalalar dört dənə yaratmışdı. Onu da deyirlər ki, böyüh çalalarıydı. At ayağının izinnən çox-çox böyüyüydü. Deyirdilər ki, Düldülün ayağ izləridi. Düldül o qədər böyüh, nəhəng at oluf ku, onun ayağ izləri qayıya batıf. Ancağ əslində tarix oxuyanda baxırıx ki, Düldül heş də böyüy at olmuyuf.

İnəkdağında iki ziyarətgah varıydı. Bir İnəkdağının başı, bir alma ağacı. Ancax hər yerdə Əlinin adınnan bağlı olan yerlər ziyarətgah olsa da, Düldülün qayası ziyarətgah deyildi. Orda qayanın dibinnən də bir sısqa su çıxırdı. Rəvayətdə deyilirdi ki, Düldül o qayanın üsdünə düşənnən sora qaya elə sıxılıf ki, o su daşın suyudu. Yəni ordan daşın dibinnən də sısqa bulax kimi çıxır, ətraf da lilpərliyir[10] (S. 7).

## 18. AYĞIR BULAĞI

İnəkdağının yaylağında, Kəlbcərnən İnəkdağının arasında Çalaçuxur deyilən yer vardı. Orda da balaca bir kiçih göl varıydı. Camahat danışırdı ki, Koroğlunun atlarının – o Qıratnan Düratın atası bax bu göldən çıxıf. Ayğır gəlifdi, burda cütləşibdi və bu cütləşməsinin nəticəsinnən də Koroğlunun atası Alı kişinin o iki dənə daylağı oluf. O daylaxlar da böyüyüf Qıratnan Dürat oluf. Onnan başqa ordan bir az keçirdin, şərqə tərəf, yəni doğuya tərəf

---

[10] Ətraf da lilpərliyir – Ətrafda lilparlar açır.

keçəndə Kəlbəcər ərazisi sayılırdı. Orda da bir bulax varıydı. Böyüh, gur sulu bulax, sərin sulu bulax. O bulağın da adına Ayğır bulağı deyirdilər. Deyirdilər, buna Ayğır bulağı ona görə deyirlərmiş ki, bu Çalaçuxurdakı göldən çıxan at gedib ordakı Ayğır bulağınnan su içirmiş. O Ayğır bulağı da neçə ildən bir kükrüyüf daşır və kim onun suyunnan işsə, uzun ömürrü, güclü və gözəl səsli olur (S. 7).

## 19. GÖYÇƏ

Şah İsmayıl Xətayi gəlib ordan gedəndə görüf kü, bu yazın da elə bir gözəl vaxtıymış ki, gül, çiçəy... Özünıuz bilir-sınız da Göyçə nətəər güllü, çiçəhlidi. Deməli, bu gəlir görür kü, həmi bir tərəfdə göl, həmi gözəllih, gül, çiçəy. Elə bil o bə-nöşənin, sarı nərgizin, nə bilim, o gülün, çiçəyin vaxtında gə-lib belə baxanda deyif: “Nə gözəl yerdi bu. Nə göyçəh yerdi”, – deyəndə elə göyçəh... o adnan da Göyçə qalıb (S. 14).

## 20. NAFTALAN NEFTİ

Deyir, o vaxdı Nafdalannan dəvə karvanı gedirmiş. Dəvənin biri qotur oluf, yeriyə bilmirmiş dana. Elə bunu yiyəsi burda buraxıf gedif. İrana gedirmiş dəən. Payız vaxdı qayıdanda görüf ki, dəvə sağalıf, dəvə yaxşılaşıfdı, yarası-zadı qutarıf. Dəvə mazıtda çimif, gün də vuruf. Gölmələri mazıtıymış dana o vaxdı. Onnan sora bax o dəvənin canı qutarıf deyin o mazıt məşşurraşır. Nafdalan qotur dərmanı sora oluf Nafdalan müalicəvi nefti (S.13).

## 21-22.VERGİLİ İNSANLAR

Kəndimizdə danışılan rəvayətlərdən yadıma düşən bir neçəsini sizə söylüyürəm. Dağda bir biçinçi ot biçirmiş. Kəntdən aralı olduğuna görə kəndə tez-tez gəlməsin deyə özünnən qazan-zad aparıb xörəyini də çöldə çör-çöpnən bişirib yeyirmiş. Bir gün baxır ki, üç atdı gəldi. Buraların adamnarına oxşamır. Onlardan biri dili bilir, o ikisiysə dil bilmir. Xəbər alır, deyir ki, biz Hindistannan gəlmişiy. Onnan xəbər alırlar ki, bura filan yerdi?

– Hə.

– Burda belə bir daş var?

– Hə.

– Burda belə bir yer var?

– Hə.

– Orda bizə göstərə bilərsən o yeri?

Deyir ki, niyə göstərmirəm? Tanıdığım yerdi.

Deyir:

– Buralarda ilan olur?

Deyir ki, hə, bu ətrafda ilan olur, adamnar da o daş olan tərəfə heş getmirlər. Bunlar deyirlər ki, sənin o qazanını da bizə ver. Pulunu verərih, bələdçiliy hakqını da verərih. Bunun qazanının pulunu da alırlar, bələdçilih pulunu da verirlər. Bu gedir, o daşın yanına göstərir ki, siz dediyiniz yer buradı. Bunlar baxırlar, burdadı. Deyirlər ki, sən indi çıx get. Bu adama marax güj gəlir, çıxıf gəlir. Daldayın[11] güdür. Baxır ki, bunlar oxudular üfürdülür, oxudular üfürdülər, çox əziyət çəkənnən sonra ordan bir ilan çıxdı. Bu ilanı tutdular, başını

---

[11] daldayn – daldalanıb

kəsdilər, ocax qaladılar, çör-çöp yığıb bişirdilər. Yedilər, qazanı da atdılar. Atdarına mindilər, çıxdılar getdilər.

Buna marax güc gəlir ki, bu görəsən nədi? Bunlar gedənnən sonra gəlir, qazanını götürür. Qazanını götürənnən sonra deyir, ə, bunlar yedi, bunlara bir şey olmadı. Mənə noolar? Baxır ki, qazanın dibində yağ-zad var. Bu yağı-zadı sivirir bir barmağınnan, ağzına qoyur. Bir tikə yeyir də. Görür kü, ətrafındakı otdar, çiçəhlər hamısı dil aşdı danışdı ki, mən filan dərdin dərmanıyam. Onda peşman olur ku, bahoo, niyə gəliv onlarnan bir yerdə oturuv o ətdən də yemiyif ki, daha çox bilsin (S. 7).

## 22.

Bir nəfər çöldə olanda üç atdı gəlir. Onların biri dil bilirmiş, o birsi yox. Bunnan xəbər alırlar ki, bu çöldə, bacada belə bir yer, yurt varmı ki, orda ilan olsun? Deyir ki, hə. Deyir ki, gedəy, oranı bizə gösdər, pulunu verəciyih, zəhmət hakqını. Deyirlər ki, biz Hindistannan gəlmişih. Bunlar ona qoşulurlar gedirlər. Gedirlər, orda oxuyurlar, bir ilan çıxır. Ancax qayanın arasınnan çıxmır. Nə qədər ovsun eliyirlər, neynirlər, ilan o qayanın arasınnan çölə çıxmır ki, çıxmır ki, bunlar o ilanı tutsun. Belə olanda onlardan biri oxuyur, üfürür. Dəsmalına tüpürür, atır ilanın üsdünə. İlan od tutuf orda yanır (S. 7).

## 23. ƏZRAYILA KÜRƏYİNİ SÜRTDÜRƏR

Mömün bir qoca hamama gəlir. Kimsə ona diqqət yetirmir. Qocanın canını almağa gəlmiş Əzrayıl ona yaxınlaşıb kürəyini sürtür. Qocadan xəbər alır:

– Oğuldan-uşaqdan nəyin var?

– Yoxumdu.

– Arvadın varmı?

– Yoxumdu.

Əzrayıl deyir:

– Vaxtında evlənsəydin, oğul-uşağın dadına çatardı.

Qoca cavabında:

– Arvad-uşaq baxar da, baxmaz da. Allahı dost tutsan, o, Əzrayıla kürəyini sürtdürər (S. 7).

## 24. ƏZRAYIL İLƏ İNSANIN ƏHVALATI

Bala, belə söhpət eliyillər ki, bir kişi olur. Bunun canı pisdihlərnən, çirkin əməllərnən dolu olur. Heş kimə yaxşılığ eləmir. Hamının da bunnan zəhləsi gedir. Buna ölüm arzuluyullar. Bir gün Allah Əzrayıla əmir eliyir ki, get o pis adamın canın al. Əzrayıl da, bala, insanın canın alanda təmiz yerdən alır. Nəysə, Əzreyil bunun dalınca düşür. Nəysə baxır ki, bədənində bir pak yer yoxdu ku, ordan daxil ola içəri, onun canın ala. Bütün bunun bədəni günah, babal, pisdih. Allah buna deyir:

– Ə, noludu?

Deyir:

– Get hərrən dalısıra.[12]

Bu, çox hərrənir dalısıra. Bir gün baxır ki, bu, dənizin qırağıynan gedir. Əzreyil düşür bunun dalıncax.

Bu da yolda baxır ki, yolda qırmızı bir balıxdı. Dalğa vurup sudan kənara atıp. Bu nə yeyiləsidi, nə də saxlanasıdı.

---

[12] dalısıra – dalınca

Pis adam buna bir az baxır. Baxır da, əyağıynan vurur da, suya salır. Bu vax Əzrayıl görür ki, bunun bədənində spişka çöpü qədər təmiz yer yarandı. Əzrayıl ordan daxil olup onun canın aldı.

Qayıdır deyir:

– Hazırdı, öldürdüm.

– Ə, nətəər oldu öldürdün?

Deyir:

– Bir balığı suya atdı. Bir belə bədəninnən yer yarandı. Saab elədi. Odu kun, ordan daxil olup onun canın aldım (S. 5).

## 25. ADƏMİN CƏNNƏTDƏN QOVULMASI

Deyir, dünya yeddi qatdı. Yeddi qatında da məleykələr yaşıyıllar. Sizə o gün demişəm, məleykələr hamısı insan şəkilindədilər, qanatdarı var. Məni bağışdıyın, dişi-erkək yoxdu onnarda. Bu şeytanın özü də bir mələhdi. Şeytan ən savatdı mələhlərdən biridi, necə ki, sinifkom kimi.

Sizə o gün dedim ki, Cəbrayıl Allahın elçisidi. Allah tərəfinnən Cəbrayıla əmir olundu, bir dənə yerdə cənnət yarat! Cəbrayıl bütün mələhləri çağırdı, yığdı. Yerdə böyüh, nə bilim neçə hextarda cənnət yaratdı. O cənnətin dörd tərəfi hasarrı, elə bir hasarrıydı ki, heş milçəh də ora keçə bilməzdi. O cənnətdə bütün dünya üzərində olan meyvələrin hamısı varıydı. Yaranannan sora, bir neçə vaxt keçənnən sora, Cəbrayıla əmir olundu ku, Cəbrayıl, cənnət hazır olupdu, indi gərəh orda insan yaradasan, insan yaşasın orda. Hardan yaratsın?

Dedi:

– Yeddi yerdən get torpax gəti, yeddi yerdən də su gəti!

Gətirip onu palçıx halına saldılar və insan şəkili palçıxdan hazırradılar. Cəbrayıl Allaha dua elədi, namaz qıldı, Allaha yalvardı, o palçıx oldu ət, üsdünə dəri gəldi, can gəldi. Bı durdu bir əncir ağacının altında, bir insan şəkilli lüt adam. Ordan ki, belə bir müddət qalannan sonra Cəbrayıla əmir olundu ki, ya Cəbrayıl, Allahın özü təhdi, insan tək olmaz. Gərəh bi dənə bına yoldaş mütləq yaranmalıdı. Nə cür yaradax?

Dedi ki, onun adı nədi, o təzə yaranan adamın?

Dedi:

– Adəm.

Yəni dünyaya Adəm gəlipdi. O Adəmin də gecə yatanda bir vax, gecənin bir aləmində, bının sol qabırğasını çıxardırsan, ordan bir dənə zənən çıxardırsız, Allahın isdədiyinnən. Elə də olur, sabahnan Adəm durdu ku, bunun böyründə bir dənə qadın var. Hər ikisi də lütdülər. Bunnar bir-birrərinnən utandılar, həya elədilər. Əncilin yarpağı enni olduğu üçün həmin yarpağa büründülər, don formasında tihdilər ki, bunnarın həyaları örtülsün və bunnar oldular, bağışdıyın məni, ər-arvad. Bunnar ildə ekiz doğardılar, bir oğlan bir qız. Gələn il o biri ildəki qıznan-oğlan yatanda, bı bacını, o biri qardaşa verərdilər. Onun bacısını da bı biri qardaşa verərdilər. Habilnən Qabil – ən siftə bı iki qardaşdar yaranır. Bir il Habil yaranır bir bacıdan, bir il də Qabil yaranır bir bacıdan. Qabilin bacısını Habilə verillər. Qabilin bacısı bir az göyçəh olduğuna görə, bunu öz qardaşı öldürür, paxıllığ eliyir. Niyə mənim öz bacım göyçəhdi, özüm alardım, niyə ona verdilər? Qardaşını

öldürənnən sora bı peşiman olur. Bahoo, mən öz qardaşımı niyə öldürdüm? Ölüm ordan, bir-birini öldürməy ordan yaranıp. Mən niyə qardaşımı öldürdüm? Bı qardaşının dalında neçə müddət gözdüyür.

Bir baxır, iki qarğa gəldi, ağacın başında dimdihləşdilər, savaşdılar. Qarğanın biri digərini öldürür. Yerə düşən kimi o biri qarğa yenir yerə, qıçıynan xəzəlləri belə belə eliyir, bı ölünü eliyir ora, üsdünü xəzəlnən örtür.

Bı diyir, ə, indi ki elədi, mən qardaşımı neçə vaxdı dalımda niyə gəzdirirəm? Mən də qardaşımı gedim basdırım. Bı da elənçi qardaşını basdırır. Bu basdırmax da onnan yaranıpdı ki, bir-birini öləndə aparıllar, basdırıllar. Bı da öz yerində.

Onnan sora bınnar başdadılar bir-biriynən belənçi yaşamağa. İnsannar törəyir ki, yaransınnar. İndi burada nooldu?

Şeytana əmir eylədilər ki, bütün mələhlər yığıldı, şeytan da bunnarnan barabar. Gəldilər ki, dünyaya birinci adam necə gəlipdi, hamı buna səcdə qılmalıdı, baş əyməlidilər. Adəmnən Havva, arvadın adı Havvadı, kişinin də adı Adəmdi. Hamı, bütün yeddi qatda nə qədər mələh vardı, gəldi. Baş əydilər, şeytan baş əymədi. Dedilər:

– Niyə baş əymirsən?

Dedi:

– Mən ona görə ona baş əymirəm ki, mən oddan əmələ gəlmişəm, o torpaxdan əmələ gəlip. Od torpağı yandırır, ona görə mən ona baş əyə bilmərəm.

Oydu ku, dedi ki, indi ki, sən baş əyə bilmirsən, sən burdan çıxıp, getməlisən. Allahın əmrinnən necə çıxırsan?

Çıx get. Dedi ki, mən çıxıb gedərəm, o hasat şeydi, amma mənim haqqımı verin, çıxım gedim. Dedi:

– Nə hakqın?

Dedi:

– Bir adamı ki işdədirsən fəhlə, onu ki işdən çıxardırsan, onun hakqını verməlisən. Hakqım odur ki, indi mən sənin qabağında namaz qılmışam, oruc tutmuşam, mənim hakqımı ver, mən çıxım gedim.

Dedi:

– Baş üsdə, verəh sənin hakqını, nə isdiyirsən de, verəh.

Dedi:

– Sizdən bir şey isdiyəcəm, mən onu isdəyirəm, dünya durduxca, mən də durum. Ona görə insannar bir belə deyillər ki, şeytan ölmüyüpdü.

Dedi:

– Verdih, Allah sənə nəhlət eləsin, sora nə isdiyirsən?

Dedi:

– Onu isdiyirəm ki, bütün dünyada nə qədir insan var, qəlbində olum.

İndi biz bırda şeytannan danışırıx, başqa yerdə də danışıllar, hamısının qəlbindədi şeytan.

Dedi:

– Daha nə isdiyirsən?

Dedi:

– Üçüncü bunu isdiyirəm ki, sən bilirəm, öz adamlaru yaxşı yollara dəvət eliyəssən ki, günah qazanmasınnar. Hər adamın çiynində iki mələh var, biri sağda, biri solda. Biri günah eliyəndə onu yazır, biri savap eliyəndə yazır. Mən elə

eliyəcəm ki, sizin insannarın hamısını çaşdıram, pis yola düşsünnər, yaxşı yollara düşməsinnər.

Dedi:

– Allah saa nəhlət eləsin, get nə qayrırsan, qayır.

Şeytan çıxdı getdi. Neynədi şeytan? Şeytan fikirrəşdi ki, indi Adəmnən Həva gəlipdi, bunnardan da insan törənəcəhdi. Bütün insannarı törədənnən sora, mən gedim o kişini yolladım, onnan törənənnər hamısı yallanacax[13] oydu ku, nə cür eliyim o bağa keçim? Mümkün dəyildi o bağa keçməh, qəti. Heç milçəh də keçə bilməzdi. Bə neynədi? Getdi, bütün heyvannara, quşdara, dünyada nə vardı cannı həşəratlar, hamısına yalvardı kı, məni o bağa keçirdin. Heç kəs boyun olmadı, heş kəs də onu keçirdə bilmədi o bağa. Axırda neynədi? Getdi, ilana yalvardı. İlana ki, məni o bağa sən keçirdərsənmi?

İlan dedi:

– Bir şərtim var.

Dedi:

– Nə şərtin?

Dedi:

– Mən ağzımı açacam, sən girərsən mənim ağzıma. Mən bir deşihdən keçərəm o yana. O yanda ağzımı açaram, sən çıxarsan, isdədiyini eliyərsən.

Doğurdan da, ilan bunu keçirtdi cənnət bağına. Allah-taala tərəfindən ilana qarğış töküldü. Allah qarğış elədi ki, sən dünya durduxca sürünəsən, sənin qışdarın olmasın və ildə bir dəfə qabıxdan çıxasan. İndi görürsüz, ilan sürünür, qıçı yoxdu. Mən özüm də görmüşəm, sizin atalarınız,

---

[13] yallanacax – aldanacaq

qocalarınız görmüş olallar. Gedirsən baxırsan bir ilan ordadı, amma ilan dəyil, qabığıdı. Nə təhər çıxır ki, göz-dəri, quyruğu belə qabıxdan öz-özünə çıxıpdı və ona Allah tərəfindən qarğış elə oldu, indiyə qədər də hələ sürünür. İlanın qarnının altında xızəvər[14] kimi şeylər var. Onnar getdihcə o ilişir və özünü qabağa verir. İlişdihcə qabağa gedir, ona görə ki, onun qışdarı yoxdu, bu da Allahın qarğışıdı, indiyə qədər də hələ Allahın qarğışı altındadı.

Bunnan sora nə oldu? Bunnan sora ilan girdi bağa, oldu bir qoca nurani kişi. Həvva bir tərəfdə gəzirdi, Adəm də bir tərəfdə. Şeytan Həvvıya iras gəldi. Həvva dedi ki, kimsən, bağa girifsən? Dedi:

– Necə kiməm, mən bırda yaşıyıram.

Dedi:

– Nətəhər yaşıyırsan, mən indiyə qədər səni görməmişəm.

Dedi:

– Mən də səni görməmişəm, noolsun ku, mən burda yaşayıram.

İlan Havvıya dedi:

– Bəs sən təhsən bırda?

Dedi:

– Yox, yoldaşım da var.

Dedi:

– Bəs yoldaşın hanı?

Dedi:

– Bağın o biri tərəfində gəzir.

Dedi:

---

[14] xızəvər –ilan qabığının üstündəki pul

– Hə, indiki belədi, siz burda yaşıyırsız, bəs siz nəynən bırda dolanırsız?

Dedi:

– Necə yanı nəynən? Meyvələrdən yeyirih, dolanırıx.

Dedi:

– Hansı meyvələrdən?

Dedi:

– Nə meyvə olur, hamısını yeyirih.

Qəsdnən apardı, bütün dünyanı gəzdirdi ki, nəkqədər meyvələr var, bunu yeyirsən?

Deyir:

– Yeyirəm.

– Yeyirsən?

– Yeyirih.

Yeyirih, yeyirih, ən axırda gətdi taxılın başına. Taxıl o zaman iriymiş, yemiş kimi imiş.

– Bını yeyirsən?

Deyir:

– Yox, bını yemirih, bını bizə qadağan eliyiflər.

Həqiqi də onnar yaranannan deyillər, bı meyvədən başqa hammı meyvələri yeyirsiz yeyin, o tərnən çıxıb gedəcəhdi.

Dedi:

– Ən daddı meyvə budu, sizə qəsdən qadağan eliyiflər.

Başdadı Havanı yallatdı. Hava dedi ki, elə şey olmaz.

Dedi:

– Necə yanı olmaz? Bir dilim kəsirəm ye, gör nə daddıdı.

Oydu ku, bir dilim kəsdi, ona görə də indi taxılın, buğdanın qarnında bir dilim yoxdu. Haman dilimi verdi,

Hava yedi. Baxdı doğrudan da, çörəh dadıdı. Bı yeyənnən sora yox oldu, qeybə çəkildi, şeytan yoxa çıxdı. Adəm gəzirdi, baxdı gördü Hava taxılın başında, yeyir.

– Ay Allah sənə nəhlət eləsin, sən bizi günaha batırdın, sən niyə bı meyvədən yedin? Bizə demişdilər bı meyvədən yemiyin.

Dedi:

– Əşi, bizi yalladıplar. Bı meyvədən daddı meyvə yoxdu.

Arvat, məni bağışlayın, balalarım, kişini tez yalladar. O da Adəmi yallatdı. Adəm də başdadı yeməyə. Bınnar yiənnən sora, bınnarın qarınnarı şişdi. İndi bınnarı neynəməh lazımdı?

Bınnarı bağdan, hər ikisini də Allah tərəfinnən Cəbrayıl çıxartdı. Birini dünyanın o başına, birini də dünyanın bı başına, necə günüh elədihlərinə görə, Allahın əmrinnən çıxmışdılar, taxılı yemişdilər. Ona görə də bınnarı bağdan çıxartdılar. İndi onnar neçə il müddət ağladılar. Allaha yalvardılar ki, bizi dübarə birrəşdir. Allah tərəfinnən neçə illərdən sora, bınnara yazığı gəldi. Bınnarı gəlip Cıdda tərəfində, dünyanın o biri başında, barışdılar. Onnar orda da ölüp, getdilər. İndi ki, bizim hacılar gedillər haca, o Cıddadan keçib, gedillər. Bınnarın qəbirrərini ziyarət eliyif, sora gedillər, haca. İndi sizə dediyim budu, həmin bırda da qutardı. Dünyada adamlar bax belə bir-birinnən yaranıplar (S. 1).

## 26. SÜLEYMAN VƏ QARIŞQA

İl quraqlıq keçdiyinnən Süleyman peyğəmbər üç gün-üç gecə dua edərəh Allaha yalvarır ki, yağış yağdırsın.

Dua və yalvarışlarının cavabsız qaldiğını görüb kor-peşiman geri qayıdır. Yolda bir qarışqanın da Allaha yağış yağdırması üçün dua etdiyini görür. Qarışqanın duası bitəndə Süleyman peyğəmbər "Amin!" deyir. Bu zaman göy üzünü bulud tutur, yağış yağmağa başlayır. Süleyman peyğəmbər geri dönərəh Allaha dua edir və onnan soruşur:

– Ey Tanrım, məni peygəmbər göndərifsən. Üç gün-üç gecə-gündüz dua elədim, yağış yağdırasan. Nədən mənim dua və yalvarışlarımı qəbul etmədin, amma qarışqa bir dəfə dua etməhlə yağış yağdırdın?

Cavabında səda gəlir:

– Ey Süleyman, dua edərkən səni təsdiqləyən, səninlə həmrəy olduğunu bilirən olmadı. Amma qarışqa dua edərkən sən "Amin!" deməhnən onunla həmfikir olduğunu bildirdin. Onun dedihlərini təsdiqləmiş oldun (S. 7).

## 27. ALLAHIN RUZİ PAYI

Deyir, bir gün bir peyğəmbərimiz gedirmiş. Biri deyir ki, əmi, harıya gedirsən? Deyir ki, Allahın yanına gedirəm. Deyir ki, gedəndə orda de gör biyil mənim ruzum varmı? Deyif ki, yaxşı deyərəm. Nəysə gedir, Allahtalaya deyir ki, filankəs maa bir xayiş-minnət elədi. Dedi ki, gör onun ruzusu varmı? Deyir:

– Biyil ona ruzi yoxdu.

Bu da gəlir, daa bu yazıx gəlif, əkif-bejərif, peyin verif, nə vilim, nə verif. Buğduyu səpir, suluyur, deyir, yoxdu-yoxdu, nolar olar e. Elə olur ku, gəlif keçəndə görür kü, aşıf-daşır da sümbül. Gedəndə deyir:

– Allahtala, bəs siz deyirdinız axı onun ruzisi yoxdu, nətəər sümbül sümbülə söykənif?

Deyir:

– Ruzu dööl ey o. O zəhmət hakqıdı. O qədər zəhmət çəkif ki, o zəhmətinin hakqıdı.

İndi, qardaş (yanımızda oturan kənd icra nümayəndəsinə müraciət edir – top.), zəhmətinin hakqı heş vaxt itməz (S. 14).

## 28. ALLAHIN SINAĞI

İmam Əli əmisi qızınnan nişannı olur. Əmisi qızı xəsdələnir. Bu Əliyə deyillər ki, əmin qızı xəsdələnifdi. Gəlir bu, pərdənin dalınnan danışır (indikilər olsa, içəri yüyürər), əmisi qızının halını xoş eliyir. Deyir:

– Ürəyin nə isdiyir? Sanıa alım gətirim.

Deyir:

– Ürəyim nar isdiyir.

Əli gedir bazara. Bazardan üş dənə nar alır. Gəlir, yolu yarıya çatanda qurvanolduğum o vəziyətdə onun qavağına çıxır. Gələndə görür kü, bir qoja kişi yıxılıf yerə. Buna yaxınnaşır, bunnan hal-xoş eliyir ki, niyə beləsən də, nədi? Deyir:

– Xəsdəyəm.

Deyir:

– Ürəyin nə isdiyir?

Deyir:

– Nar isdiyir.

Bu çıxardır, narın birini buna verir, bu yeyir.

Deyir:

– Yaxşısan indi?

Deyir:

– Yox, biri də olsa, dizi üsdə qalxaram.

Birini də verir buna, yeyir. Yeyənnən sora deyir:

– İndi nətəər hiss eliyirsən özünü?

Deyir:

– Biri də olsa, əyağa qalxaram.

Bunu da verir buna. Deyir, yesin, daa şər qarışır, axşamdı, bu geri qayıdası dööl ha, bazara. Deyir, gedim, evdə deyərəm ki, çata bilmədim dana, savax gedif alıf gətirərəm. Bu gəlir evə, qəmgin gəlir də. Deyir, indi əmim qızı məni gözdədi, bunun ürəyi nar isdədi, nişannılıdı. Gəlir, içəri pərdənin dalınnan ağzını açır ki, buna deyə. Deyir:

– Əmi oğlu, sağ ol, göndərdiyin narrarı yedim.

Bu elə bilir ki, bu buna şey deyir dana. Pərdəni belə aralıyır ki, belə padnusda qavağında. Bu aldığınnan da qəşəh narrar padnusda bunun qavağında, yeyir.

Onda Allah deyir ki, mən səni sınıyırdım, o vəziyyətdə düşmüşdüm sənin qavağına (S. 13).

## 29. AC QARINI DOYURMAQ

Deyir, biri pul yığır Həccə getməyə. Elə bil yoldaşdarı da yığıllar. Opşım, pulu bir yerə yığıllar. Üş nəfər olur, Həccə gedəh. Kişinin də biri gəlir, öydə hazırraşır, gedim mən də paltarımı-zadımı hazırrıyım, savax gedərih. Gəlir, bir qapıdan keçəndə görür kü, içəridə uşağ ağlıyır. Qapını döyür, bir arvad çıxır. Görür kü, evdən də elə pis qoxu, elə pis iy gəlir. Kişi girir içəri, deyir ki, sizin uşaxlar niyə ağlaşır belə? Deyir ki, uşaxlar deyir, ver yeyim, ver yeyim,

ama heş-zat da yoxdu. Uşaxlar ajdı, məəm də o qəddər əlacım kəsilib o qonşudan, bu qonşudan, kimnənsə isdədim, olmadı. Əlacım kəsildi, kuçiy kəsdim. Başını kəsdim, onu qaynadıram, ama ürəyim gəlmir uşaxlara verməyə. Kişi çıxır evdən, gedir, yoldaşlarına deyir ki, mən gedəsi olmadım, pulumu mənim verin. Gətirir bunnara yeməy alır, işməy alır, bazarrığ eliyir. Həmən o pulu bu yetimnərə xarşdıyır. Buna evdə arvadı-zadı deyir, bə sən oruya pul yığırdın, niyə getmədin, filankəsdər getdi, sən niyə getmədin? Bu bir söz demir dana, bunnara demir ki, belədi. O, elə fikirrəşir, ağlıyır ki, getmədim, Allah qismət eləmədi. Yoldaşdarı gedillər. Bunnar Həcdən gələndə bunnarnan görüşür, xoş, beş, on beş. Deyillər ki, ayə, sən ordaydın, sən o lap başdaydın. Sən bizə nətəər yaxınlaşmadın? Deyəndə bu deyib ki, yox, mən getməmişəm axı. Deyib, ə, nətəər getməmisən? Bu təsbehi də sən vermədinmi orda manıa? Deyir ki, yox. Onnan sora deyir, hə, mənim orda verdiyim oysanata keşdi, mən də oldum hacı. Mən getdim, gəldim (S. 13).

## 30. AŞA QARI

Kəndimizdə Aşa qarı adlı bir qadın olmuşdu, kəndin ağbirçəyi olmuşdu. Onun hakqında çoxlu maraxlı hadisələr və rəvayətlər danışırlar. Yəni onun sözünü hətda pristavlar belə yerə salmırmış. Hardasa XIX əsrin sonunda yaşıyıb, XX əsrə kimi yaşamıyıb. Deyirdilər ki, kəndin ən uzun ömürrü, çox yaşıyan bir qarısı, müqəddəs bir adamı olub. Kəndin dükanında da... O devirdə şəxsi adamların dükanı varıymış. Gedirlər ki, bına ağ alsınnar, gətirsinnər kəfən eliyif, dəfn eləsinnər. Görürlər ki, kəndin dükanında

ağ yoxdu, kəfən yoxdu. Adamnarı mindirillər ata. Hərə bir tərəfə, Zoda, Canəhmədə adam göndərirlər ki, o kənddərdən kəfən alıf gətirsin. Bu arada bu adamnar gedif o kəfəni gətirənə kimi gözdədihləri vaxdı görürlər ki, bir nəfər çiynində xurcun gəldi yas yerinə.

– Salam məlöykü.

– Əlöykü salam.

Heş kim bu adamı tanımır. Deyir ki, nə yaxşı, nədi? Deyirlər ki, belə-belə, ölümüz ölüf, kəfən tapammırıx. Adam göndərmişih ki, qonşu kəndlərdən alsın gətirsin. Bu deyir ki, narahat olmuyun. Mən özüm üçün həmişə yanımda, xurcunumda bir kəfən gəzdirirəm ki, yolda-izdə ölüf eləsəm, onu açıf məni dəfin eləsinnər. Onu verərəm sizə, sonra ağı gətirəndə verərsiniz mənə. Mən qoyaram onu yerinə. Camahat bunnan razılaşır. Açırlar, baxırlar ki, bu kəfənin üsdü yazılıdı. Aşa qarının cəsədini qoyurlar bura, dəfin eliyirlər. Dəfin eliyirlər, qəbirsannıxdan qayıdanda görürlər ki, bu kəfən dalınca gedən adamnar gəldi çıxdı. Onlardan aldıxları ağı isdiyirlər ki, o kəfəni verən adama versinnər. Ora baxırlar bu adam yoxdu, bura baxırlar, yoxdu. Onnan bunnan xəbər alırlar ki, ə, bu kəfən gətirən adam kimiydi? Onun kəfənini, ya pulunu verəh, eliyəh. Deyirlər ki, yoxdu. O devirdə Aşa qarı üçün kəfəni verəndə kimsə deyif ki, bax gör xurcununda varsa da, bir dənəsini də pulunu neçə eliyir, mənə verin. Deyif, yox, sənə belə kəfən düşmür. Səni belə kəfəndə dəfin eləməy olmaz. Vermiyib. Sonra da adamlar o kəfən gətirən adamın nə gəldiyinnən, nə də necə getdiyinnən xəbər tuta bilmiyiflər. O deyir, söhbət olarax yaşıyırdı camahat arasında (S. 7).

## 31. VERDİYİN QABAĞINA ÇIXIR

Bi sail olur. Gedir həfdədə bir, on gündə bir gedir bir kəntdə dilənir, başqa bir kəntdə. Gedir bir evdə, həmişə gedəndə pay verillər dana, çörəh qırığı, nəsə dana verillər. Padşahnan oğlu bir gün gedir ziyarətə, haryasa gedillər. Bu dilənçi gedir bunun arvadı öydə olanda arvadına deyir ki, manıa yeməh ver dana. Arvad fikrində tutur ku, çörəyin içinə zəhər qatım verim, bu yesin, canım qutarsın. Bu, elə hər dəfə gəlir, bizim qapıdan dilənir. Gətirir çörəyin içinə zəhər qatır ki, aparsın öyündə yesin, birdəfəlih qırılajax dana hamısı. Bu gəlir, çörəyi götürür, yemir. Gəlir yolda görür kü, bu xanımın oğlunnan əri gəlillər də, Həcdən gəlillər, hardan gəlillər, bilmirəm. Bunnar burda yatıllar. Gəlir, bunnarın yanına çatanda deyir ki, yaman ajmışıx, padşah deyir. Bəkə torvanda çörəh qırığı-zad olar dana. Bilir ki, bu dilənif gəlif. Gələndə, artıxlamasınnan bizə gələndə verərəm. Deyir:

– Vallah, elə sizdən gəlirəm. Xanım manıa bir çörəh verdi, yeməmişəm.

Deyir:

– Yaxşı, ver onu biz yeyəh, ajıx oğlumnan özüm. Evə gedəndə, Allah qoysa, sanıa yaxşı hörmət eliyəjəm.

Çörəyi çıxardır, buna verir. Oğlunnan bu çörəyi yeyəndə ikisi də ölür. Deyir, ay Allah! Ayna qaçır, bayna qaçır, mən, nəydi bunu gətdim verdim, bu öldü. Gəlir xanıma deyir ki, vallah, sən o verdiyin çörəyi verdim, padşahnan oğlu filan yerdə yatırdılar. Getdim, dedilər ki, ajıx dana. Mən də dedim ki, xanım maa bir çörəh verdi. Verdim, yedilər,

öldülər. Deyir, həə, oonçün deyillərmiş ki, nə verirsənsə, qavağına çıxsın. İndi, deyir, mən o çörəyi verdim sizi öldürməhdən ötəri, o gəldi mənim öz qavağıma çıxdı (S. 13).

## 32-33. QƏBİRİSTANLIQDA OCAQ QALAMAQ

İki nəfər bir-birinnən mərcə gəlir. Biri deyir, mən qorxmazam, o birsi deyir, mən qorxmazam. Bu mərci sonlaşdırmağ üçün, onnarın hansının qorxmaz olduğunu müəyyənləşdirməy üçün biri o birsinə deyir ki, onda gəl belə eliyəh. Kim gedif qəbirsannıxda, köhnə bir uçux qəbir var, o qəbrin üsdündə ocağ qalıyıf, bir heyvan kəsif, onu bişirif yesə, onu qorxmaz sayarıx və onu da mərci udmuş sayıf, mərci də ona verərih. Razılaşırlar. Bu adam heyvanı vurur qoltuğuna, gedir şər qarışannan sonra, qaranlıx düşənnən sonra heyvanı kəsir, soyur. Görür kü, qəbirsannıxdı daa, nə olan şeydi? Çox sakitdihdi. Qazanı qoyur, bişirif eliyir. Hələ qazanda ət tam bişməmiş baxır ki, uçux qəbirdən bir əl ona tərəf uzandı. Bu çömçəni salır, bu ətdən bir dənəsini çıxarır, qoyur ovcuna. Çünki bunun özü birinci dəfə çömçəynən bir ət götürürmüş ki, görsün yeyilməlidi, ya yeyilməli deyil? Ona baxannan sonra əli uzanır. Görür ət qoyduğu əl tez geri çəkildi. Bu adam hiss eliyir ki, bu insan əlidi də. İsdidən yandı deyə əli, ətin isdisinnən tez çəkdi. İkinci dəfə bir də... Bir azdan sonra bir də baxır ki, görsün ət bişib, bişmiyib? Bir tikə də yeyəndə bir də baxır ki, əl yenə uçux qəbirdən çıxdı uzandı ki, yəni mənim də payımı ver. Bu bir dəfə də dad eliyir, isdi bir tikəni qoyur bunun ovcuna, bu tələsih çəkir içəri. Üçüncü dəfə də bu yenə ətin bişib bişmədiyinə baxanda ordan əl uza-

nanda bu dəfə çömçəynən bərk vurur ki, ə, köpəy oğlu, qoy bir özüm yeyim, doyum, sonra sənə verim də. Nə isdiyirsən? O qəbirdən bunnan mərşdəşən adam çıxır, deyir:

– Qardaş, mən uduzdum, sən həqiqətən də çox qorxmaz adamsanmış (S. 7).

## 33.

Adamnarın qorxmazdığını müxdəlif üsullarla yoxluyurlarmış keçmişdə. Bir gün adamnar yığılıbmış bir yerə, deyirlər, kim cəsarətlidi, kim qorxmazdı? Onu müəyyənləşdirməy isdiyirlərmiş. Axırda bunu necə müəyənləşdirsinnər? Deyirlər ki, kim gedif köhnə qəbirsannıxda filan qəbrin üsdünə bu şişi taxıb gəlsə, bilərih ki, o, ən qorxmaz adamdı. Biri deyir:

– Mən.

Mərş gəlirlər, o şişi götürür, gedir qəbirsannığa. Gedəndə bunun əbası, – yağışlı günüymüş, yer bərk palçıxıymış – isdanmasın deyə əbasının ətəyi qatdıyır, belinə bağlıyır. Gedir qəbirsannığa, şişi tələsih, hirsnən sancır. Sancanda bilmir ki, şiş əbasınnan dəldi keşdi torpağa. Bu geri qayıdır ki, gəlsin, mən qorxmazam. Baxır ki, bunu kimsə də dartır. Daha bilmir ki, şiş əbasınnan keçib torpağa sancılıf. O qorxusunnan ürəyi partdıyıf ölür. Adamnar görürlər ki, bu gəlmir. Gəlirlər ki, təndir şişi bunun əbasınnan keçif qəbrə sancılıf, bu dartınıf, elə orda da ölüf (S. 7).

## 34. LEYLƏK GƏLİB, YAZ GƏLİB

İki nəfər yaşlı adam yazın gəlib gəlməməsi hakqında mübahisə eliyirmiş. Biri deyirmiş ki, leyləh gəlif, yaz gəlif. O

birisi deyirmiş ki, əşi, bu boran, qar dünyanı başına götürüb. Belə boran, qarda nə leyləh gələr, nə də hələ yazın əsər-əlaməti yoxdu. Birinci kişiynən bu ikinci – yoxdu deyənnən hə deyən mərşdəşirlər. Bu leyləh gəlif, yaz gəlif deyən tez qayıdır evə. Oğluna deyir ki, ay oğul, atını yəhərlə, minginən tez. Get fılan yerə. Fılan qayalıxda leyləhlər gəliflər. Borana düşüflər, orda qayalığa sığınıflar daa, bir yerdə toparlanıf qalıflar. Get ordan leyləhlərdən birini, ikisini götür gətir. Oğul da atını yəhərliyir, yüyənliyir, sürür. Sürür gedir, o atası dediyi yerdə leyləhlər görür kü, həqiqətən yığılıflar bir qayanın yarığına, soyuxdan qorunurlar. Donmuş vəziyətdədi, ölmüyüfdülər, ancax hərəkətsizdilər. Leyləhlərdən ikisini götürür, atır atın xurcununa, çapır gəlir kəndə. Həmin kişi səhər leyləhləri qoltuğuna vurur, çıxır kəndin içinə ki, filankəs, gəl, mərci uduzufsan. Budu, leyləhlər gəlifdi. O, gəlir baxır ki, leyləhlər gəlif. Deyir:

– Həə, ay filankəs, mərci uddun, ancax bu leyləhlər bu kəndə hələ gəlmiyif. Fılan yerdə, fılan qayada borana düşüf qalıflar. İndi necə olufsa, bura gəlib çıxıf. Kim gətirif bilə bilmədim.

Mərci uduzsa da, ancax kim gətirdiyini bilə bilmir. Yəni kişi qoçağ oğlu sayəsində mərci udur (S. 7).

## 35. AŞIQ ƏLƏSGƏRƏ VERGİ VERİLMƏSİ

Ələsgər nə aşıxdı, nə də şairdi. Günüz kotan iməcinə[15] gedip, gecə də kotan öküzün otarmağa gedip. Bir gün yasavullar gəlillər, Ələsgər yoxdu. Hay-haraynan Ələsgəri

[15] iməci – iməcilik, kotan iməciliyi

gəzillər, bizim Qaraqoyunnunun biçənəyinnən gedib öküzdəri tapıllar. Gəlillər ki, Alməmməd kişi, Ələsgər yoxdu. Gəlillər, oruya-buruya baxıllar, – addımlamışam, dörd addım yarım belədi, beş addım da belədi, üsdüörtülü bir yerdi, – görüllər Ələsgərin əyağı orda, başı burda. Kişi deyir, yəqin öldürüf atıblar. Belə baxıllar ki, nəbzi işdiyir. Kəl arabıya qoşuf aparıllar. Bu axşam gedir, sabah axşam çırax yananda qalxır.

Almәmmәt kişi deyir:

– A bala, yatıfsan, belə yatmağ olmaz.

Ələsgər dedi:

– Ay dədə ajıydım, isdədim çörəy alım, dedilər, burda çörəh salavatnandı. Ələsgərin birinci sözü budu:

Şərin şöləsinnən buldum belədi,
Xoş gəldi xoşuma halı qavaxda.
Pir manıa göstərdi şah məqamını,
Gördüm, cəmdi hər cəlalı qavaxda.

Almәmmәd kişi dünyagörmüş adamıydı. Dedi:

– Ə, bu nə dedi? Ə, bala, saa noldu?

Bir neçə sirr gördüm, sirr qaldım aşkar.
Səxavət əhlini yandırmadı nar.
Salavatnan işdiyir hər tükan-bazar.
Zay oldu dünyanın malı qavaxda.

– Ə, daha nə gördün?

Qurulmuş tax gördüm, nuru-münəvvər,
Neçəsi zəbərcət, neçəsi gööhər.
Sağda, solda duran səf-səf mələhlər
Yahu-yahu deyir qulu qavaxda.

– Ə, bala, daha nə gördün?

Yahu deyip bir-birinə uydular,
Ya mənhu deyip təham qoydular.
Cümlə-məxlux yemədilər, doydular,
Qaldı məcmayılar dolu qavaxda.

Əl çəhmə dünyada sonu salatdan,
Təmiz ver qalmasın xümsü-zəkatdan,
Ələsgər, xof etmə pulu siratdan,
İrəhbərdi cənab Əli qavaxda.

Hə, bunnan sora Ələsgərə vergi verildi, o aşıxlığa başdadı. Bu dediyim şeir onun ilk şeiridi (S. 2).

## 36. AŞIQ ƏLƏSGƏRİN ÖLÜMÜ

Günnərin bir günü Aşıq Ələsgər Ağkilsə kəndində yüz beş illiy ömrünü başa yetirmişdi. Agahıydı ölməyi ona. Böyüy oğluna dedi:

– Oğul, Bəşir, get meçidin yanında cəmiyətə denən ki, dədəm dünyasını dəyişir, gəlin.

Bəşir gülə-gülə getdi. Dedi:

– Ə, dədəm deyir, ölürəm. Ölən də gülərmi?

Camahat da bilir ki, Ələsgər yalan danışmaz, camahat yığıldılar, gəldilər. Ələsgər dedi:

– Hamınıznan toy-nişan eləmişih, qonşu olmuşux, hamınız haqqınızı halal eliyin.

Camahat dedi:

– A kişi, xeyrimizin də, şərimizin də yaraşığı olufsan, hamısı halalın olsun.

Sora Aşıx Ələsgər dedi:

– Zərkəntdə – iki kilometr Ağkilsədən o tərəfdədi, – Nəsif, Usufgildə bir yüh yağ var, bir yüh də bal var, gedin onu alın gətirin.

Oğlu dedi:

– Ay dədə, sən nə bilirsən?

Dedi:

– Dədən buludun üsdünü bilir, dəryanın altını bilir, qonşuya yağ-bal gəlir, onu bilmir?

Getdilər Talıf, Nəcəf, Musa. Talıf Ələsgərin öz oğludu, Nəcəf də, Musa da qardaşı oğludu, əmioğlududular. Çağırdılar:

– Ay Nəsif, ay Usuf.

İkisi də çıxdılar çölə. Dedilər:

– Ə, nə yaxşı gəlifsiniz?

Dedilər:

– Bal yeməyə gəlmişih.

– Ə, – dedi, – Kəlbəcərdən bir yüh yağ gətiriplər, bir yüh bal. Yaxşı vaxtında gəlifsiniz.

Onnar öz-özdərinə dedilər, ə, dədəm nə qədər bilirmiş? Bunnar Nəsivi də, Usufu da, yağı da, balı da götürdülər, gəldilər Ağkilsiyə – Ələsgərgilə. Ələsgər xoş gəldin elədi. Çay-çörəh gəlif yiyilənnən sora Ələsgər dedi:

– A bala, osuz da baldan aldığız pulu taxıla verəjehsiniz. Elə bunu taxılınan dəyişəh.

Dedilər:

– Olsa, taxıla verərih.

Öz dedihləri qiymata aldı Ələsgər, hərəsinə bir put – on altı kilo qırmızı buğda da artıx verdi. Dedi:

– A bala, razısınızmı?

– Əşi, bal barmaxda gedər, yağ dırnaxda gedər. Kilo-kilo, kirvəngə-kirvəngə sata bilmirdih, çox razıyıx.

Sora Ələsgər gördü, qonaxlar qapıya baxır. Dedi:

– Ə, deyəsən evıızda ajdıx var.

Dedilər:

– Evimizi aj qoyup gəlmişih. Mən yoldaşıma deyirəm sən de, o maa deyir sən de. Üzümüz gəlmirdi, indi icazə versən, gedərdih.

Gətirip hərəsinin xurcununa çörəh qoydular, yola saldılar. Ələsgər iki yüz kilo balı qulplu qazana töküb, yerinnən tərpətdi. Dedi:

– Çatar.

Dedi:

– Nəyə çatar?

Dedi:

– Mənim ehsanıma çatar.

Qonşularla halal-hümbət elədi. Dedi:

– Oğul, gəl Quran oxu, bir-iki sura.

Dedi:

– A kişi, ölən kimdi?

Dedi:

– Quran əzəl sağ adam üçündü.

Sora dedi:

Sırat-suval qabaxdadı,
Nə təlaşdı dünyada?
Kəlmeyi-şəhadət lazımdı,
Ölən vaxtı dünyada.

Tut orucun, qıl namazın,
Şükür eylə Allaha.
Qul olma dünya malına,
Qalajaxdı dünyada.

Yalan demə, qiybət etmə,
Yazığın gəlsin canına.
Öz-özünə mənəm deyip
Uyma şöhrət-şanına.

Əzrayıl əlində çəngəl,
Gələjəhdi yanına.
Qəzəbinnən gül rəngin
Solajaxdı dünyada.

Şəyirtlihdə can çürütdüm,
Hər gün ustad olmadım.
Nəfs öldürdüm, düz dolandım,
Dosdumnan yad olmadım.

Ələsgərəm, bu dünyada
Ölüncə şad olmadım.
Dosdarımnan fələh manıa,
Qara baxdı dünyada.

Bunu deyənnən sorasına – Nəcəf kişi savatdıydı – dedi:

– Ay dədə, nə deyirsən?

Dedi:

– Kəlmeyi-şahadət, kəlmeyi-tohid dilimdə əzbər eliyirəm. Bala, sizi Allaha and verirəm, mən Ələsgər ölən günü

nə deyirəm, hamıya onu deyin. İndi bunnan sora ölən günü saznan deyəjəm.

Baş Divanı havasıynan görəy Ələsgər ölən günü nə deyib:

Sıtqı dilnən sığınmışam,
Sübhana yalvarıram.
Məhəmmədə nazil olan,
Qurana yalvarıram.

Məshəbim İmam Cəfəri,
Kəbədi qibləm mənim.
İlqarımda möhkəm durur,
İmama yalvarıram.

Atdı şaadət barmağını,
Götdü dəri-Xeybəri.
Çəkəndə Allahu-Əkbər,
Qırdı min-min kafəri.

Zəlillərin umutdarı,
Möminlərin sərvəri.
Şahı-Mərdan şir yəzdənnən[16]
Ona yalvarıram.

Bu günnəri yetiş dada,
Ədalət şahım mənim.
Könlüm qəmgin, gözüm yolda,
Artıbdı ahım mənim.

---

[16] şir yəzdənnən – Əlini şirə bənzədirlər.

Umutvarım, pəriskarım[17],
Sənsən pənahım mənim.
İsmimdi Aşığ Ələsgər,
Çoxdur günahım mənim.

Ay Allah, günahkar aparma məni, duana yalvarıram. Bunu deyir Ələsgər, ömrün cavannara tapşırdı. Hə mənim əzizlərim, bu əhvalat da belə olmuşdu (S. 2).

## 37. ƏLƏSGƏR VƏ KÖTÜK

Ələsgərin bir ili yaz əkininə arpası, buğdası olmur. Durur gedir Kəlbəcər rayonu Yanşax kəndinə. Arvadı ordandı, Anaxanım ordandı. Hajı Zeynalın bajısıdı. Gedir ora. Deyir, gedim qayınnarımnan bir az arpadan-zaddan alım. Gedir ki, onnarda da yoxdu. Deyillər:

– Ə, bir stil – belə də qaba stil deyillər – darı var, onu ək.

Oralarda bir yer verdilər. Deyillər, onu ək, becər. Payız gələr, biçərsən, dəə nə olar, olar.

Deyir ki, yaxşı. Götürür lapatkasını belinə, Ələsgər bu yeri şumnuyur, əkir, darını səpir. Orda bir ağaş kötüyü olur. O ağac kötüyünə qozqara kötüyü deyilir. Qozqara kötüyünə də belə bir şey qayırır ki, quş qonmasın. Papaxzad qoyur ki, dənnəməsin darını, çıxıb gedir. Ələsgərdi də, bilir ki, burdan buna bir şey qalmıyacəhdi. Gedir, payız gəlir ki, kol-kos qırılıb tökülüf, siçan, qarğa, sağsağan dənniyifdi da. Onu bir belə də yolur, bir az da aparır döyür

[17] pəriskarım – himayədarım, qoruyucum

orda. Döyənnən sora darıdan da bir az çox çıxır. Gəlir, fikirrəşir, sazını götürür, deyir:

Arpadan, buğdadan çıxmışdı əlim,
Zəhmət çəkif dedim, bir az darı olsun.
Yolmasını[18] yolmaxdan qırıldı belim,
Bunnan gələn xeyiri zəhirmar olsun.

Odu ki, həmin kötüh ki var haa, o kötüh buna cavab verir:

Aşığ, nə meydanı yalquz alıbsan?
Söz deyim, sözünə bərabər olsun.
Nahax qandı, ortalığa salıbsan,
Elə sükut, onda xeyir var olsun.

Aşığ kötüyə cavab verir ki:

Belinən bu yeri əkdim bir ayda,
Sulamaxdan su da qalmadı çayda.
Əhdim, döydüm, darım çıxdı bir bayda,
Qoy söylüyüm, mahallarda car olsun.

Kötüh cavab verir:

Əfsanə sözdəri danışma barı,
Eşidənnər səni görməsin karı.
Sən səpmişdin ora bir stil darı,
Umud vardı, onnan bir anbar olsun?

---

[18] yolma – Arpa, buğda susuz yerdə bitəndə qısaboylu olur. Onu biçmək olmur, əllə yolurlar.

Aşıx deyir:

Hər kimə gösdərdim, dedilər, göydü,
Eşidib bilənnər çox məni söydü.
Dən tutan yerini sağsağan döydü,
Qarğaynan, siçanın üzü qara olsun.

Kötüh buna cavab verir:

Nahax belə danışırsan sözləri,
Sən də qoş kotana kəl öküzdəri.
Sür kotanı, çevirginən düzdəri,
Günnüyünün biri bir anbar olsun.

Ələsgər deyir:

Ələsgər, başına qəhətdi peşə,
Darı əkib yemiyifsən həmişə.
Sazı bas döşünə, təcnisdən döşə,
Çal, urzanı verən ellər var olsun.

Qara kötüh deyər:

Qara kötüh deyər, tükənsin sözün,
Bu ilki işlərdən nə qorxur gözün?
Bir özünsən, bir arvadın, bir qızın,
Üç adamnan dünya sanıa dar olsun.

Bu da bir qısa dastan (S. 16).

## 38. AŞIQ ƏLƏSGƏRİN HƏCƏRƏ ELÇİ GƏLMƏSİ

Bu (Aşıq Ələsgəri nəzərdə tutur – top.), Aşığ Alının şəyirdi olur. Aşığ Alı Qızılvəngdəndi. Bizim kökümüz ordandı. Bizim ata nəslimiz. Mənim nənəmin anası, dədəmin nənəsi Aşığ Alının bacısı Maral xanımın qızıdı. Orda dörd il şəyird olur. Burdan çıxıb gəlir Ələsgər. Gəlir başdıyır aşığılığ eləməğa, Alıynan ayrılır. Bir vaxt eşidir ki, Musa kişi var, Musa kişinin qızı Həcər heş kəsə tabe olmur, elçilər gəlir-gedir, getmir. Atı minib atasının malını, qoyununu qoruyur. Kişi kimi bir qızdı. "Ə, deyir, yoxsa bunun fikri aşıxdadı, duruf gedim". Bu yaşdı vaxdında durur, şəyirdin də götürüf gedillər. Deyir, onun dədəsi sınıxçıydı, deyax, yolda yıxıldı şəyird, qolunu ağrıtdi. Bir təhər görəğın, qız bəlkə elə səy-süydü, yoxluyağın. Görax ağlı var, huşu var, yoxsa elə-belə. Gəlillər, görür ki, səhəng çiynində bir zirəh qız suya gedir. Bilir ki, bu Həcərdi. Aşığ Ələsgər, yaşdı adam deyir:

– Ay qız, ay qız.

Dönən saatı tanıyır, deyir:

– Bəli, Aşığ Ələsgər.

Deyir:

– Atan evdədi?

Deyir:

– Bəli, evdədi.

Getdilər. Deyir:

– Ədə, bu sərraf qızdı. Mən ay qız, ay qız dediğıma görə o da mənim adımı dedi, nə əmi dedi, nə də dayı. Mən ay bala deməliydim, ay bajı deməliydim, ay qızım deməliydim.

Nəsə... Uzun danışığdan sora buna Kəsəmən kəndinnən elçi gəlir. Yeddi nəfər gəlir o qıza elçi. Hər gələn də – Kəsəməndə bir dənə xarab papax varmış – o papağı gedif prakat götürüf, qoyuf başdarına, elçilər gəlirmişlər. Hər gələnə də bir nişan qoyurmuş o papağa. Molla Balı bəy, elə bil ki, kəndxudaymış, ona elçi gəlir, getmir. Araz qırağınnan kürdlər gəlir, hərəsi yüz dənə qoyun gətirir, getmir. Nəysə, Ələsgər axşam qarıları yığışdırır, ortalığa adam salır ki, deyin görəğın, bəlkə fikri aşığadı. Mən elçiliğə gəlmişəm ona. Qız həya eliyir, deyir:

– Qoy getsin, mən sora xəbər eliyərəm.

Ələsgər sevincərəy gəlir. Həcər fikirrəşir ki, bu getdi, yaz ağzıdı, mal-heyvanın hamısın tökəcəy bazara, satacəhdi ki, toy xərcliyi eliyə. Ələsgərin də nəvə-nəticəsi var. Yaxşısı budu, daldan bir məktub göndərim. Məktubu yazır, verir çapara. Məktub gəlir, o vaxt gəlir ki, bazarda Bəhlul addı bir Zoddu qəssəbnən bazarlaşırlar, satalar. Gəlir, deyir:

– Ay Ələsgər əmi, saa Həcər xanım məktub göndərif.

Deyir:

– Ay oğul, gətir, xeyir xəbər olsun.

Gətirib baxır ki, deyir:

– Oğul, Bəşir, aç oxu.

Ələsgərin özünün savadı yoxuymuş. Orda yazır ki:

Lütfədən kəc olan, loxmadan əyri,
Yüz də salsa, püri-kamala yetişməz.
Bir qul düz dolansa, haqqın yolunda
Qəza tapmaz, ona bəla yetişməz.

Əyər hökmün işdiyir Qafinən Qafa,[19]
Bihudə xərc çəkmə, əfsanə cəfa.[20]
Qəvvas[21] tapar, ləli satar sərrafa,
Nə axmağa, nə abdala yetişməz.

Eşit sözlərimi, saxla yadıgar,
Gözəllərdə həya, iyidlərdə ar.
Əvla[22] köpəy qəysafadan pay umar,
Nahax düşüb bu xəyala, yetişməz.

Var Həcərin gözəllihdə isbatı,
Zər libasa naxış vurur həyatı.
Olur gözəllərin xumsu, zəkatı,
Cavana yetişər, çala yetişməz.

Deyir:

– Ay oğul, bu zalımın qızı məni biyabır elədi.

Təzdən gedir, orda çağırır, qız çıxır qabağa, atın cilovun tutur:

– Dədə, gəl, qadan alım, ay dədə Ələsgər.

Deyir:

– Keçən dəfə niyə dədə demədin?

Deyir:

– Keçən dəfə sən maa dedin, ay qız, ay qız. Mən də saa Aşığ Ələsgər dedim. Sən indi dədə kimi gəlibsən, gəl.

---

[19] Söyləyici Qaf dağlarına "Bu Qafqaz dağları", – deyə izah verdi.
[20] Yanı malları-zadı satma.
[21] Söyləyicinin dediyinə görə, qəvvas dəryalardan ləl axtarandı.
[22] Söyləyicinin dediyinə görə, əvla ərəbcə qoca deməkdi.

Deyir:

– Bu nə biyabırçılıxdı?

Kəsəmənlər necə qoydu papağı?
Sanıa nə dəxli var, vermir vəd yağı.
Onnarın köksünə çəkdirdin dağı,
Mənim kimi şux cavana nə dedin?

Kəlvalayi, molla Vəli bəy,
Gələnə, gedənə bir boyun əy.
Abzərin, İsgəndərin xətrinə az dəy,
Onnar kimi xənnandana nə dedin?

Deyir:

– Heş birinin adın çəkmə, gəl.

Keçirlər içəri, sora deyir:

– Qızım, innən belə sən kimi isdəsən, mən səni ona verərəm.

Qızın da ürəyi öz əmisi oğlu Məhəmmətdəymiş. Ürəyində deyirmiş, keşkə deyə, Məhəmmədə ver. Eli yığır bir yerə Ələsgər, gözəlcənə qıza təhliv eliyillər ki, səni Məhəmmədə verillər, əmin oğluna. Sevinir, şad olur, razılıx verir. Belə (S. 16).

## 39. AŞIQ ƏLƏSGƏRİN QIFILBƏND AÇMASI

Ələsgərə bir bağlama gəlir, qıfılbənd, üç dənə bənddnən. Aça bilmir. İkisini açır, birini aça bilmir. Deyir, durum gedim Məmmədhüseynin yanına. (Məmmədhüseyn də Daşkəntdi şayirdi. Güclü şayirdi. Ona görə Səməd Vurğun

deyib ki, Xəsdə Qasım, Məmmədhüseyn, Ələsgər seçmağ olmur imtahana gələndə). Deyir, duruf gedim Daşkəndə. Mən bunun cavabını bəlkə də bir variyantnan Məmmədhüseynnən alam. Odu ki, durur atını minir, gəlir. Gəlir görür ki, kəntdə yas yeri var, ölən var. Deyir, elə yaxşı oldu, elə deyim ölü yerinə gəlmişdim, sora gedib bir yolnan Məmmədhüseynnən soruşaram. Heş bilməsin ki, mən bağlamanı aça bilməmişəm. İçəri girəndə baxır ki, arvatdar ağlaşmada həmin açmanı bayatıynan deyirlər. Deyir, torpağaa qurban olum, Daşkənd.

İki bədən gördüm, altmış başı var,
Mütəsildi, onda qeyri-sirr olur.
İki sərraf gərdiş qurub dolanır,
Gəhdən iki olur, gəhdən bir olur.

Birisi soltandı, gəzir taxt üsdə.[23]
Biri gah sağ olur, gah zaman xəsdə.
Qocalıxda cavan olur nörəstdə,
Cavannıxda qoca olur, pir olur.

Yüz səysən qolu var, oyun arabıynan.
Üş yüz qulağı var, san hesabıynan.
Beş kəlmə danışır afitəbınan,
Kəlməsində gövhər olur, dürr olur.

Bu Ələsgərin aya, günə, ilə dediyidi. Altmış, üş yüz, bir də beş, elədi üş yüz altmış beş. Bir il. Açması ildi də.

---

[23] Söyləyicinin dediyinə görə, bu misra günəşi, bundan sonrakı misra isə ayı ifadə edir.

O dövrdə şəyird deyir:

Aydı, bayram onun gülüdü,
İki ay bir-birinin mütəsilidi,
Bir ilimiz on iki ay, qırx səkgiz həfdə,
Üç yüz altmış altı gün,
Səkgiz min yeddi yüz səysən saat (S. 16).

## 40. İNKİR-MİNKİR MƏNİ BAĞLAYACAQ?

Məəm bavam molla olufdu. Aşığ Ələsgər yatanda deyif ki, gedin, Molla Qərivi gətirin. Bavamın adı Qəriv oluf. O, Quranı düz bilir, axıra qədər bilir. Ələsgər də hakq aşığı oluf dana. O, bilirdi də Quranı. Deyif, gedin gətirin, o, Yasin surasını axıra qədər bilir. Gəlib bavamı aparanda bavamnan hal-xoş eliyif. Deyif:

– Ay aşıx, yaxşı olajaxsan.

Deyif:

– Yox, ay Qəriv, daa mən ölürəm, iki saat qalıf vaxdıma. Ama yanıma bir qələm, dəfdər qoyan oluydu, bir də yanımda duran oluydu. Görüm hinkir-minkir məni bağlıyajax, yoxsa mən onu bağlıyajam?

Deməh, yəqin bu var ki, bu elə deyif dana. Hinkir-minkir, deyif, məni sorğu-sual eliyəndə görüm o məni bağlıyajax, yoxsa mən onu bağlıyajam? (S. 13)

## II. İNANCLAR

1. Təzə ay çıxanda salavat çəvirirdih üş kərə belə[24] (S. 9).

2. Yağış yağmıyanda biz elə bil gedirdih qəbirstannıxdan, manıa elə gəlir ki, əlnən ölənin torpağınnan gətirirdih, yandırırdıx. Torpağı elə bil qoyururdular. Qoyuran kimi elə bil sınaxlıydı, bir sel suya qarışırdı ki (S. 14).

3. Elə olurdu ku, birdən yağış yağmır da. Bax bu Misgin ojağını, ocağın zadı var da, su lotkası kimi belə bir şeydi da. (Ocağın o ləvazimatı var ey orda. Tutax ki, sənətdərimi, yanı nəyi varsa da, o kişinin əsası-zadı varmış deyilənə görə. Hamısını çıxardıllarmış. Belə ortuya çıxardanda gətiriv onun başında qurvan kəsillərmiş). Onu çıxardırdılar, ona qurvan kəsirdilər bi dənə cöngə. Camaat kəsirdi e. Hah eliyif o cöngəni bölənə qədər sel suya qarışırdı, yağış gəlirdi. Öz də dağ yeriydi də, orda sulamax-zad yoxuydu e. Ancağ dəmyəydi da. Sel gəlirdi, məhsul da bol olurdu (S. 14).

4. Deyir, Fatma nənə qurşax salladı. Gah deyirih göyqurşağı. Göyçədə deyirdih, Fatma nənə qurşax salladı. Burda da gəldim eşitdim, göyqurşağı deyillər (S. 13).

5. Xıdır Nəbi də bilmirəm, vallah. Bala çillədədəmi, böyüh çillədədəmi, yadımnan çıxıf. Ama Göyçədə eliyirdih. Göyçədə qorğa qoyururdular təndirin üsdündə, sajda qəşəh. Xıdır Nəbidə. Bir vedra, iki vedra, üş vedra elə

[24] Söyləyici salavat gətirir.

olurdu camaat qorğa qoyururdu. Sora da kirkirə varıydı. Ya aparıf qonşuda kirkirədə çəkirdilər, ya gətirib evdə çəkirdilər. Göyçədə hər evdə olmasa da, iki evdən birində kirkirə varıydı. Onnan qoyut çəkirdilər, qoyut deyirdilər. O qoyudu da gətirirdilər şirniynən dana, pesoknan, yağnan halva kimi qarışdırırdılar, yeyirdilər. Bu olurdu Xıdır Nəbi.

Xıdır Nəbidə başqa heş nə eləmirdih, elə qoyut çəkirdilər. Burda Xıdır Nəbi eləmillər, Göyçədə eliyirdilər. İndi gələn yerazdar eliyir. Mamamgil tərəf-zad, qızımın da biri ordadı. Göygöl rayonunda yerləşiflər. Göyçəlilər ordadı, onnar eliyillər (S. 13).

6. Cəmlə, deyirdilər, məsəl üçün, torpağa düşdü, suya düşdü, yelə düşdü. Bax belə (S. 14).

7. Bizdə birinci boş çərşəmbəydi. İkinci kül zivil. Ev-eşiyi təmizdəməh. Bu da bir çərşəmbə. Sora üçüncü çərşəmbə gəlirdi, ölü təki. Ölü təki, ölülərin bayramı. Bütün ölülərimizi gedif ziyarət eliyirdiy. Ölü çərşəmbəsinnən sorasına axır çərşəmbə gəlirdi – sulaşma. Elə sulaşma çərşəmbəsiydi də. Həm də axır çərşəmbə deyirdih. Həm də həmin çərşəmbənin axşamı elə bil köhnə suynan sulaşırdıx, uje təzə ilin yox ha.

Mən çox su atmıram, belə oycumaca alıram, özü durur beləjə, üzünə atıram. Deyir, adamı elə bil ayıldırsan üzünə vuranda. Deyirəm, bə o təsir eləməlidi da. İndi biri var, quşkaynan başınnan tökəsən, o düzgün dööl. Mən beləjə üzünəjə vururam, deyir ki, təzə-təzə bayramlara çıxasınız. Belə də davam eliyir. Saat on ikiyi keçənnən sorasına olurdu yeni il (S. 14).

8. Bir də elə bil ölü təkində həmin ili kim ki rəhmətə gedib, ona qara bayram keçirdirih biz. Orda deyirəm e, burda yox. Orda həmin günü bütün camaat toflanırdı. Nə qədər kəntdə məmə dəyənnən pəpə dəyənə yığışırdı, arvatdar yox ha. Arvatdar da ki, gedirdi həmin o kim ki, qara bayram keçirdirdi, onun qapısına gedirdilər. Tutax ki, kəntdə beşdi ölü, həmin ili rəhmətə gedif. Onnarın qapısına gedirdilər, indi gör nağayrırdılar. Həmin günü həmin qapıya gedəndə şirniyat paylıyırdılar. Öy yiyəsi orda şirniyat paylıyırdı hamıya. Tutax ki, dörd qapıdı, dördü də paylıyırdı. Onnan qabağ əmə elə bil çıxırdıx kəndin ortasına, deyirdilər, gedəh qəbirstannığa. Qəbirstannıx yaxınıydısa, gedirdin. Molla onnarın hamısına Quran oxuyurdu, biz də orda işdirak eliyirdih. Nə vilim, deyirdi, bevarislərə Quran oxuyun, nə vilim, kimlərə-kimlərə... belə deyirdi. Orda Quran oxuyannan sora gəlirdi qapılara. Qapılarda şirniyat paylıyırdılar. Şirniyat paylıyannan sorasına bu dəfə ölü yiyələri orda ehsan da verirdilər. Bunnan qutardıxmı? İndi gəldi axşam indi o birsi çərşəmbiyə keşdiy, ilin axır çərşəmbəsinə. İlin axır çərşəmbəsində axşamkı köhnə suyu üsdünə atırdıx kimliyinnən aslı olmayarax. Tutax ki, qonşumsan, gəlirdim səni suluyurdum. Adam var elə-belə üzünə atır belə suyu, adam var bax beləjə vedriyi götürür tökür. O da var. Sulaşmax. Səhərsi olurdu, səhər tezdənnən bu il neçə dənə gəlin gəlifsə, neçə adam bəy olufsa, bəynən gəlini çıxardırdılar bulağın başına. Bulağın başına çıxardanda evdən şirniyat aparırdılar, şirniyat paylıyırdılar. Şirniyat paylıyannan sora həmin gəlini, həmin oğlanı, birdən elə olurdu ku, bax beləjə çaya basıf çıxardırdıx. Gəlini yox

da, gəlinin elə-belə su atırdıx başına. Ama oğlanı bax beləjə çaya basıf çıxardırdıx. Yanı təzə su aydınnıx gətirsin sizə, sizin ömrünüzə (S. 14).

9. Gedirdilər çaydan belə qum gətirirdilər, evə təzə su gətirirdilər. Qumu da gətirib malın axırına da atırdılar bolluğ olsun. Mal da urzadı da. Evlərin künşlərində atırdılar ki, bu il təzələnir, bolluğ olsun dana (S. 11).

10. Çilə çıxartmax varıydı axır çərşəmbədə. Deməli, nağayrırdıx? Qızdar eliyirdi, biz də baxırdıx da. Bir yellənçəh qururdular. Bir də su qoyurdular, çıxırdılar oruya qızdar. Yelləncəyə çıxırdı, deyirdi ki, suyun içində nə görürsən? Deyirdi ki, məsələ, filan şey. Elə də düz çıxırdı ki, inanırsanmı (S. 14).

11. Tac qururdular. Yavıyı-zadı belə baş-başa qoyurdular o vaxd. Oon üsdündə otururdular. Qoyurdular, üsdünə də pərdə atırdılar. Başına da bir xam salırdılar, xam yaylıx da. Suynan da güzgüyü qoyurdular. Güzgünün şüasi o suyun içinə düşürdü da. Qarannığ eliyirdilər, başında yaylığ olurdu. Deyirdilər, gərəh kirpiyini belə çırpıb oana, buana baxmıyasan. Niyət eliyirəm da mən. Məsələ, biri deyirdi, niyət tutmuşam da. İndi saa bildirmirdilər. Sən tutufsan, yoxsa bu tutuf. Deyirdilər, gözünü gətir, kirpiyini yumma. O (niyyətin cavabını nəzərdə tutur – top.), suyun üzünə gəlif görünküjəh (S. 14).

12. Axır çərşənbədə iki dənə yavaan ağız-ağza qoymuşux, üsdə də pərdə atmışıx. Oturan o iki yavaan

altındakı bu üşbucax yerdə oturur. Birdən elə olurdu yerdə otururdu, birdən elə olurdu stolda otururdu. O suyu da qoyurdular qavağına. Ama qarannığ olmalıdı ora. Cavan qızıydı, otururdu orda, niyət tuturdu ki, məsələn, nə bilim, öz fikrində nə varsa. Suyu qoyurdular, bir də qıraxdan güzgü qoyurdular. Güzgünün şüası suya düşsün. Orda nə görsə, düz çıxırdı (S. 14).

13. Çatma qururdular. Deyirdilər, çatma qurax beyjə, yığışağın, cavan qızdar. Çatma qururdular, mən balaca, qanmaz uşağ olduğuma məni çıxardıf oturdurdular.

Baxan adam adi yerdən oturub ora baxırdı. O, çadır kimi belə qurullar, altında oturur. Döşəkcə qoyursan hündürdə. Bax, belə qoyurdular, döşəhciyi də qoyurdular, çıxardıf səni oturdurdular. O tajın üsdündə niyət tutan oturur. Yaylığı da başına atırdılar. Yavaları ağız-ağıza belə qururdular, bağlıyırdılar onu. Döşəhciyi də qoyurdular üsdünə, səni oturdurdular orda. Qavağını da hündür eliyirdilər, o su qavağında hündürdə olurdu. Camaatdan hündürdə. Başına da qırmızı xam atırdılar. O da belə pak qız uşağı ola ey, daa arvad-marvad olmuya. Balaca, özünü qanmıyan qız uşağı. Tapşırırdılar ki, olmuya-bilmiyə kirpiyini belə yumasan. Eləcə gözünü zillə oruya, bax. Məni elə eliyiblər. Gözümü zilliyib baxırdım, niyət eliyərdilər, baxırdım. İndi düşünnəm ki, o gerçəyiymiş. Üsdünüzə sağlıx, bibimin əri ağrıyırdı, məni oturtmuşdular. Maa dedilər ki, (demədilər də, bibin baxdırır)... Maa dedilər, hələ bir bax. Maa da o qədər tapşırdılar, balacaydım ey. Qəti olmuya-bilmiyə kirpiyini yumasan. Mən baxdım-

baxdım, gördüm, iki dənə uşağ oannan gəldi, bir kişi də gəldi, o uşaxlarnan görüşdü, getdi. İndi mən gözümə nə görünkürdüsə də, mən onu təkrar eliyirdim, o böyrümdə-başımda duran adamnara. Olar suyu görmür axı, mən görürəm. Onda dedilər ki, həə, bibinin əri ağrıyırdı, ona baxdırdıx, gəlif uşağınnan görüşüf getməyi də bunun rəhmətə getməyidi. Görüşdü getdi. Bax helə.

Bunu axır çərşəmbədə eliyirdilər. Elə ikinci günün axşamı. Axşam eliyirdih, hava qarışannan sora. Bax, o tonqal-monqal yandırıllar ey, bax o vaxdı. O mənim böyünkü kimi yadımdadı. Bax, o yadımnan çıxmır. Mən dedim, ay haray! Ordan bir kişi gəlir, ona bax. Gəldi o uşaxnan görüşdü, arvat da kənarda durur. O kişi gəldi dedim, uşaxlarnan görüşdü də, çıxdı getdi. Onda onnar dedi, bu məsələ, Bayramdı (yoldaşının adı Bayramıydı), bu uşaxlar da muun uşağıdı.

Baxan adam adi yerdən oturub ora baxırdı, yellənçəhdə də. Elə bil yellənçəhdə də olurdular. O da tamam başqaydı. Bu çatma qurmaxdı, o birisi yellənçəhdi. O yaxşı yadıma gəlmr (S. 11).

14. Onu indi ən çox qızdar işdirak eliyib, onnar daha yaxşı bilər. Ama mən, yanı gördüyümü danışıram. Bir iynəni belə zad eliyirdilər, salırdılar. Tutax ki, biri oğlandı, biri qız. Addandırırdılar bu oğlandı, bu qız. Məsəlçün, filankəs filankəsi isdiyir, görəh bunnar qovuşajax, qovuşmuyajax? Fırranıf-fırranıf bir də baxırdın, gəldi birrəşdi. Deyirdilər, qovuşdular. Elə də çıxırdı. O iynənin arxasına pambıx salırdılar.

Bir də üzüh salırdılar. O üzüyü nətər salırdılar, bax o yadımnan çıxıf. Qızdar eliyirdi e ona görə (S. 14).

15. Navrız bayramındaydı, gənş qızlar yığılırdı, iynənin dalına pambıx doluyurdular. Məsələ, diyəlim ki, Seyfətdini seçirsən, birin də məni seçirdilər. Onu atırdılar bura. O dolanırdı dolanırdı, birləşsəydi, bu ikisi əvlənəcəh deyirdilər öz-özümüzə (S. 9).

16. Qız vaxtı eləmişəm, duzdu kökə də yemişəm. Ayrı adam vermişdi suyu, Müzəffərə gəldim. Əmim oğlu vermişdi. Həqqi düzüymüş e. Yuxumda gördüm kü, yanıram susunnan. Mahmuduydu əmim oğluun adı. Dedim, ay Mahmud, ordan maa bir az su ver. Gətdi bir qab su verdi. Bunnan da zəhləm gedir. Ay Allah, Mahmud man$_{ı}$a su verdi, yoxsa mən Mahmuda gedəjəm? Birdən ağlıma gəldi, dedim, yox, bajı-qardaş kimi yaşıyırdıx (S. 13).

17. Biz hamısın keçirdirdih. Böyüh bayram deyirdih. Biz dört dənə çərşəmbəni elə-belə eliyirdih. Deyir, abi, atəş, xaki, bad. Dört dənə çərşəmbəmiz olurdu. Əslində yeddi dənədi, ama dördünü hesablıyırdıx də. O üçü də onu bilmirəm. Onnara yalançı çərşəmbə deyillər o vaxdı. Elə-belə boş çərşəmbə. Dördü də əsas çərşəmbə. Biz bayrama yeddi löyün deyirdih. Yeddi löyün yeməh bişirirdilər. Bayramda – ilin axır gejəsində. Biz martın yirmi ikisində eliyirdih bayramı. Yirmi ikisində Əli qırmızı geyinif, taxda çıxıf. Əli bayramı deyirdih ona. Ama onnan qabaxki çərşəmbədə, axırıncı çərşəmbədə biz baja-baja deyirdih, nə bilim, ilin axır gejəsi deyirdilər. Niyət tutuf çölə çıxırdıx. Kimsə niyət tutuf suyun başına gedirdi. Helə inanşdar olurdu (S. 13).

18. Deyir, ilin, ayın axır gejəsi yernən göy birrəşir guyə. Bir an deyir, cınqıltı gəlir, deyir. Onda deyir, yernən göy birrəşir. O, bir an olur. Helə bir rəvayət eşitmişəm.

Bir də deyillər ki, guyə bir annıx su dayanır. Axar su dayanır bir an. Guyə deyir, niyətin hasil olur, suyun üzü qızıl olur. Həmən vaxtı kimsə gedif çaydan su götsə, orda deyir, guyə qızıl olur (S. 13).

19. Burda da biz itirməmişih həmin qanunlarımızı. Ama dalıki günü tutax ki, bayram olajax, məsələn deyirəm, 21 günü da. Bayramnan bir gün qabax qurşax deyirih. Papax demiriy ey, papax atmağ olmaz. O da Azərbaycanda çıxdı. Ə, kişi niyə papağını tulluyur kanfetdən ötrü? Ona deyirdilər qurşax atma. O vaxdı kişilər hamısı belində qurşax gəzdirərdilər. O vaxtı da belə öylər yoxuydu ey, bajalar varıydı, gətirirdilər bajadan sallıyırdılar qurşaxlarını, oon da ujuna kanfet, şaqalat, yumurta, qoz ləpəsi, nə vilim nə bağlıyırdılar, o da çəkirdi, çıxırdı gedirdi. Biz də də onu hazırrıyırdıx, bilirdih ki, məsələn, böyün bizim evə hardasa bir yüz nəfər gələjəh. Ona uyğun da şirniyat hazırrıyırdıx, yumurtda boyuyuf qoyurdular, kanfet qoyurdular. Ən xoşumuza gələn qırmızı yumurta, yanı bu bayramdı, bir dəfə olan şeydi da. Kim ki, yumurta verirdi, elə bilirdim maa bir at bağışdıyıf, bax belə.

Bu dəfə mən öz qohumumun öyünə gedirəm, oğlumun öyünə gedirəm, qızımın öyünə gedirəm. Gedirəm bayramlaşıram onnarnan. Kirvəliyə gedirdih. Xala-xala günü deyirdih ona (S. 14).

20. Axır çərşəmbəni bayramnan yaxşı keçirirdih. Onda yeddi cür yeməh bişməliydi. Hər şeydən qoymalıydın stolun üsdə axır çərşəmbədə. Xala-xalada da yeməh bişirdi, məsələn, mən isdiyirəm sən kirvəmsən, kirvəmgilə getməyə. O vaxdı çəmadan varıydı, belə xonça-monça yoxuydu. Çəmədannara ayn-öyün alıf qavlıyırdın, əlinə alıf gedirdin. Yeyif içirdin, çəmədan qalırdı orda, kirvə vermirdi aparmağa, mən də sizə gələcəm deyirdi. Onnan sora da o bizə gəlirdi. Qadınnarın bu da bahanasıydı da yeyiv-işməyə. O da gəlirdi bizə. Çəmədanımızı dolduruf gətirif qoyurdu, yeyirdi-içirdi gedirdi. Bu da olurdu kirvə qonaxlığı. Bayramda xala-xalalıx. Bizdə kirvə şirin oluf (S. 11).

21. İlin axır gejəsinnən sora birinci günü yaz, ikinci günü yay, üçüncü günü payız, dördüncü günü də qış. Eyni də alınır, inanısanmı? Bax bu yil (Söyləyici 2024-cü ili nəzərdə tutur – top.) baxmışıx, yay isdi keçəjəh, payız yenə yağajax (S. 14).

22. İl körpə düşməh odu ki, yaz bir az yağınnı keçir, il körpə düşür. Bizdə dağlıx yeriydi deyin yağınnıx olurdu, o da yağış yağmırdı ey, qar yağırdı. Onda deyirdih, il körpə düşdü bu yil. Yil körpə düşəndə yaxşı hesav olunmurdu. Yil faraş düşsə, daha yaxşıdı, məhsuldarrıx çox olurdu. Faraş düşəndə il qəşəh gəlirdi, həm bolluğ olurdu, hər şey də öz qaydasında. Meyvə-zad, hər şey bol olurdu. Yil körpə düşəndə yox (S. 14).

23. Qarının borcu şeydədi dana, martdadı. Deyir, qarı buraxır zada oğlaxları, otu qutarır. Deyir ki:

Qarı-qarı qarmağım,
Mart g.tünə barmağım,
Yaza çıxdı oğlağım.

Sora martın qəzəbi tutur. Beş günmü, altı günmü aprel-dən borc alır, qar yağdırır, ot yox, qarının oğlaxları qırılır. Hə, çıxır çölə, deyir, indi oyna, qarı, oyna, oğlaxlar qırıldı (S. 13).

24. Quyrux doğanda avqust ayında doğur. Elə bil, deyir, əti kəsiflər, asıflar. Görüflər ki, quyrux dondu də. Qabax yumşax, əriyirdi, indi dondu, elə o vaxtdan da deyillər, quyrux dondu (S. 13).

25. Qora bişirən də bu iyul-zad ayları mökəm isdi olur e, avqustun yirmisinə qədər. O qora bişirən ayıdı. Qora bişirəndə üzümün giləsini bişirir ey. Üzümün giləsi, qora yoxdumu. O qora baxırsan, bişif, göydü. Ona qora bişirən ayı deyillər (S. 13).

26. Qırov da payızda düşür, payızın axır vaxları. Bax innən sora qırov düşəjəh. Elə bilirsən ki, yerə qar yağıf. Savağ ertə durursan ki, qırov düşüf (S. 13).

27. Bizdə dil söznən deyilirdi. Ağlaşma deyilir, dilnən ağladı deyilir. Yas yerinə mərəkə deyirdilər. Elə orda da, burda da (S. 11).

28. Axşam ağlamağ olmaz. Deyillər, onda guya ki, mələhlərin səsinnən xoşu gəlir dana, sanıa bir də yas qismət eliyir. İrağ olsun. Olmaz, axşamüsdü ağlamağ olmaz. Nə qədər əzizin də ölsə, gün dönənnən sora ağlamamalısan (S. 13).

29. Deyillər, pis olur da, günün dalınca ağlamağ olmaz. Ölünün yeri su olur çox ağlıyanda. Ziyannığ olur. Geridə qalannara da ziyannıxdı. Günün dalınca ağlamağ olmaz (S. 11).

30. Şorcada olanda çox adam dil deyərdi. İndi azdı, indi dəyən yoxdu. İndi yaşdı qadınnar deyir, elə o vaxtı da yaşdı qadınnar deyirdi. O vaxtı çox hörmət varıydı. Ölüyə də, ölünün yiyəsinə də. Hamı dil deməyə deyirdi, bir solux[25], biz də deyəh da. Yasında dil deməh ölü yiyəsinə, ölüyə hörmətdi, həmi də köməhdi. İndi bu zamanada yoxdu, bax burda indi yoxdu. Elə hamı ölü yiyəsinin ağzınıca güdür (S. 11).

31. Yasda dil deyənə dayan demillər da. O, bircə qırığ özü dayanan kimi o birsi başdıyır. Gözdüyür kü, o qutaranda bu başdasın (S. 11).

32. Ölü yiyəsinə köməy eliyib ağlıyıllar. Ölü yiyəsi də deyir ki, məsəl üçün deyir, səən də ölünə mən qurvan olum, dərdinə mən qurvan olum. Yaşdı adamnar deyirdi, dayanmırdılar axı. Yaşdılar deyirdi, cavannar da kirimiş otururdu (S. 11).

33. Yasa girəndə qapıdan dil diyə-diyə girənnər də olur. Başdıyır o kimsə əgər yaxınıdısa. İndi bu təzə eşidif gəlibsə, qapıdan girəndə, məsəlçün, ağı deyir, özün döyür, çığırır. Bu özünnən asılı dööl ha. Əzizi yıxılıf, uzadıflar

---

[25] bir solux – bir dayan, dincəl

yerə, ölüb o, özün saxlıya bilmir. Onu deyir. Ama qırağ adamnar yox. Qırağ adamnar, məsələn, girir, salam verir, oturur, o, ağı deyənə də baxır, ağlasa ağlıyır, ağlamasa da, heş nə (S. 13).

34. Burda yasda ağlamağa dil deyillər, ağını molla deyir. Elə bil, arvat mollası gətirirlər, o, ağı deyir. Oturur orda, ağı deyir. Ama ölü yiyəsi dil deyib ağlıyır. Molla bir az uzun deyir. Nə bilim, uzun bayatı çəkir, uzun deyir. Ama ölü yiyəsi də bir az ağlıyır, canı boşalmaxdan ötəri, ürəyi sakitdəşməhdən ötəri (S. 13).

35. Əyər biri gedib biriin yasında dil deyibsə, o da gəlib buun yasında başarsa, deməlidi, başarmasa, məjbur dööl a. Elə adam var ki, əzizi ölür, irağ qulaxdan, dili tutuf ağlıya bilmir. Qınanmalı dööl kü. Eləsi də var ki, məsəl üçün, heç əzizi də ölmüyüf, heş nəyi də ölmüyüf, ama yas yola verir.

Eləsi də olur ki, yasda ağlamır, qınıyıllar onu. Deyir ki, mənnən qabaxlaşsa, mənnən dalaşsa, məni öldürər, ama dədəsinə bir kəlmə dil demədi. İçimizdən gəlir, deməliyih dana, valideyinimizdi. Başqası deməsə də, öz övladı ağlıyıf onu yola salmalıdı. Anamızı özümüz yüyüf basdırmışıx. Bacım rəhmətə gedif, dəm qazınnan boğuluf qırx iki yaşında. O, bajımnan mən onu yümüşüh, kəfənnəmişih. Molla olufsa da, özümüz yümüşüy. Axirət evinə təmiz yola salmışıx. Keşmişdən qoyduxları qanundu, qız ananı yüməlidi. Qızdar yüyüf yola salmalıdı. Əgər qızı yoxdusa, onda kimsə gəlib yüməlidi (S. 13).

36. Biri çox ağlıyanda deyirlər, göz yaşı qəbrə tökülür, ölüyü incidir. Deyillər, az ağla, onun yeri yaş olur, onu incitmə. Eləsi olur, yuxuya gəlir. Deyillər, gəldi, maa dedi ki, yerim yaşdı, yerim sudu.

Ya ölüyə Quran oxutmıyanda, adna axşamı qazan asmıyanda, məsəlçün, Fatihə vermiyəndə baxırsan ki, gəlir, yuxuya girir. Deyir, ajmışam, aj gəlmişəm, gəldim, yoldan qayıtdım. Belə şeylər düzdü, olur (S. 13).

37. Heş kim özünə ölüm arzulamır. Az da olsa, çox da olsa, gözünü yığıb, məsəlçün, Azreyil başının üsdündə fırransa da, o, adam özünü ölüm yoyutmur[26] ki, deyə, məni filan vaxdı yaxşı ağlıyarsan, belə eliyərsən. İndi o, bəzi adamnar xəsdə olullar, yerdə yatıllar, incidillər ona qulluğ eliyəni. Allah heş kimi o günə qoymasın. Onda da deyir, ay bala, mən öləndə heş mənə ağlamayınan. Canım bu əziyətdən, zulumnan qutardı. Genə də baxma da, bala ölənə qədər ana onun yadınnan çıxmır, əsas da qızdarın (S. 13).

38. Camaat deyir ki, məsələ, eysannan sən dadmalısan, o birsi dadmalıdı, oysanata keşməhdən ötəri. Oysanata keşsin də. Bəlkə səən yediyin keşmir, səən (yanımızda oturan kənd icra nümayəndəsinə müraciət edir – top.) yediyin keçir. Hamı isdiyər ki, yeyilsin. O bişifdi yeyilməyə (S. 11).

39. Məsələ, yoxsul olana deyəllər ki, aparın ehsannan verin yesin, oysanata keçər. Hamilə qadınnardı, bax belə insannara, naxoş olannara. Çiy ehsan paylamax varıydı orda.

---

[26] yoyutmur – yozmur

Qırxda paylanırdı. O evdəki külfətə baxır, külfət sayına görə. Yanında da yuxanın arasına halvanı bükürdülər. Çiy ətin böyrünə qoyurdular oon da. Halva bişirif oon böyründə göndərirdilər. Deyirdilər, qoy öz öyündə, biri var stolda hamı görür, o yeyə də bilmir, ama öz öyündə rahat yeyir da. Bax ona görə. Qoy ehsanata keşsin ki, yanı evində neçə uşağa görə olsun. İndi elə aylə varıydı ki, kasıb aylədi, on nəfəriydi. Göyçədə də aylələr çoxuydu. Mən hələ çoxunu bilmirdim. Burda siyahı eliyənnən sora, bütün kəndin siyahısını mən çıxartdım da. Tayfaları çıxartdım, siyahını çıxartdım. Orda onu aparıf verəndə baxdım ki, elə aylə var ki, bir öydən iyirmi səkgiz aylə çıxdı ey (S. 14).

40. Eysan hökmən yeyilməlidi. Yiməsən, günahdı deyillər. Az da olsa, eysannan yeməlisən, rəhmət oxumalısan. Eysan yeməyən adamnara deyirdilər ki, niyə yemirsən? Bir isdəkan da olsa, çay işməlisən (S. 13).

41. Kimsə yasa gəlməyəndə özünə sendirəmmirdin, ölü yiyəsi də deyir ki, məsələ, mən buna neynəmişəm ki, məəm ölümün yerinə gəlmədi filankəs. Elə bura da elədi (S. 11).

42. Biriin yasına getməsən, onda da deyillər, gəlmədi. Mən getdim onun yasına, o mənim yasıma gəlmədi. Toydan qalmağ olar, yasdan qalmağ olmaz (S. 13).

43. Qəbirsannığa getməy olmaz axşam. Deyillər, axşam qəbirsannığa gedəndə guya ölülər hamısı əyağa qalxır. Öz içində vəhimə yaranır (S. 13).

44. Yasdan çıxarmax belədi. Bizdə ölünün ili tamam olmamış axır çərşənbə, Qara bayramı keçirilir. Əgər yaşlı, ya da ölümü gözdənilən bir adamdısa, bəzən axır çərşənbədən əvvəlki çərşənbədə olur. Amma gənc, ya da ki, çox sevilən, ayləsi tərəfinnən əziz tutulan biridisə, axır çərşənbə günü olunur. Ona Qara bayram deyilir, yəni ili çıxmamış ölülərin. Həmin günü, yəni onacan qadınnar qara yaylığ örtür. Bizdə qarğış eliyəndə "Qara tax!", "Göy bağla!" kimi qarğışlar var. Onda yaxın qohumlar məclisə gəlir, qəbirüsdü ziyarət olunur. Yeməhlər, ehsannar verilir. Yaxın qohum, ya qonşu, ya dost, ya yaxın adam, yəni qadınnar arasında. Onda güllü, naxışlı, yəni açıx rəh, qırmızı, mavi... rəhdə yaylıxlar alırlar və gətirib həmin ölü yiyəsinin, məsəl üçün, anası, bacısı, həyat yoldaşı, yaxın adam, yaxın qadınnar, ölənin birinci dərəcəli qohumlarının başınnan qara yaylığını, göy yaylığını çıxarıb, yəni tünd yaylığı çıxarıb yerinə boynuna, ya başına rəhli yaylıxlar atırlar. Bu da yasdan çıxartmağ adətidi. Məsəl üçün, ölənin deyəlim ki, üç qızı var, iki gəlini var, məsəl üçün. Yəni birinə yox, hamısına yaylığ alıb gətirir. Bizim orda adət beləydi (S. 17).

45. Əgər bir ölünün üsdünnən Qara bayram keçirtsəy, yəni Novruz bayramı gəldi keşdisə, o artıx köhnə ölü sayılırdı. Ola bilər ki, Novruza qədər qırxı çıxmasın, onda gələn Novruza qalırdı. Əgər Novruza qədər qırxı çıxıbsa, iki aydı ölübsə, əlli gündü ölübsə, o artıx Novruzdan sora köhnə ölü sayılır. Yəni toy-şənniy, heç bir şey ayıb deyildi. Əgər Qara bayramı çıxıbsa, deməli, köhnə ölüdü. Artığ ilin çıxmağı simvolik bir şeyidi. Əgər Qara bayramı keçirsə, ölü köhnə ölü sayılırdı.

Qara bayram günü uzun illər əvvəl, iki il, beş il, on il əvvəlki ölülər də yad edilirdi. O daha çox axır çərşənbədən bir əvvəlki çərşənbədə qeyd olunurdu, yəni xatırlanırdı, qəbirüsdü keçirilirdi, ya ehsan verilirdi (S. 17).

46. Göyçəlilər keçini qurban kəsməzdilər. Göyçədə qoyun kəsirdilər. Vallah bilmirəm, keçi kəsmirdilər. Keçini kəlbəcərrilər kəsirdi. Keçidən də, deyir, qurvan olur, dəvədən də olur, maldan da olur. Camışdan olmur, atdan olmur. Ama dəvədən, keçidən, qoyunnan, maldan olur (S. 13).

47. Qada qurvanı odu ku, deyirsən, məsəl üçün, filankəs sağ-salamat gəlsin, balalarım olsun, qada qurvanı kəsəjəm. Məəm atam hər il qardaşıma qurvan kəsirdi. Paylıyanda da deyirdih, Yaquba qurban kəsib. Biz üş qız olmuşux, sora qardaşım oluf. Qardaşımın adı da Yaqubuydu. Bavam qoyuf adını Yaqub. Nə bilim, kəsir də, varrı adamıydıx, kəsirdih dana hər il.

O qada qurvanınnan kəsib itə, pişiyə də verirdih. Bə it orda baxsın, biz də qurvan əti yeyəh? O oysanata keçərmi? Elə qanını-zadını verirdi, yeyirdi (S. 13).

48. Məsəlçün, tutax ki, kimsə xəsdəlihdənmi qalxır, kimsə avariya düşür, sağalır. Bax belə şeylərə qada qurbanı deyillər (S. 14).

49. Qurvanı da paylıyanda bilırsanımı elə eləməlisən ki, üş pay. Bir pay özünüzə qalır, bir pay qonşuya, bir pay da qohuma. Bir qoyunu üş yerə bölməlisən da. Biri öz evinə, biri qonşuya, biri də qohuma. Bax belə. Yeddi pay daa, yeddi-

yeddi. Yeddi qonşuya, yeddi də, məsələ, özünıa götürürsən, oğlundu, qızındı, məsələ. Bir pay da qohuma (S. 14).

50. Qurvanın tükünü, sümüyünü o vaxtı atırdıx gedirdi. Sora dedilər ki, saxlıyıllar, torpağa basdırıllar. Mən elə görmüşəm ki, atırdıx Göyçədə. Burda da heç o qədər fikir verməmişəm, ama, nə bilim, deyillər, guyə ki, yerə basdırasan gərəh, qanını yerə töhmüyəsən gərəh. Ama bizdə də qanını yerə tökmürdülər. Ləyəni qoyurdux, ləyəndə kəsirdilər. Vallah deyən onda itə verirdilər, yoxsa vermirdilər daa, o yadımda dööl. Mən elə şeylərə fikir vermirdim (S. 13).

51. Qurvanı kəsən adam çimif təmizlənməli, qüsul-zad almalıydı. Qurvanı kəsən adam qurvana duz-zad edirdi. Oxudurdu, ağzına yaladardı. Nə oxuduğunu bilmirəm vallah. Bisimillah eliyirdi. Atam bilirdi dana, atamın atası mollaydı. Əlində belə nəysə oxudurdu, yaladırdı. Kəsəndə də deyirdi: “Bisimillah” (S. 13).

52. Qurvan deyənnər varıydı, bu işim olsun, qurvan kəsərəm, ama özüm yemərəm. Eləsi də olurdu, deyirdi, kəsərəm, əyaxyalın paylıyaram (S. 13).

53. Deyir, incil ağacın kəsməy olmaz. Ziyannığ olur, deyir, onda. Ya gərəh onda divinə pul qoyasanmı, ya nəsə bir nəzirmi deyəsən. İncil ağacının, deyir, altında duruf şər vaxdı, ya səhərmi Allaha dua eləsən, olur (S. 13).

54. İtin urzasın, deyir, Allah verif, onu eşitmişəm. Deyir ki, itin urzasın da Allah verif, pişiyin urzasın da Allah

verif. İtə də verməlisən də, it də yeməlidi. Mən burda yedim, it baxdı, yox. Elə bil, it adamın qapısına gəlif çıxır ki, urza onun əyağınnan gəlir. İtə baxdı, verdi Allah bizə çörəyi. Belə deyillər, eşitmişəm elə şey (S. 13).

55. İt ulamağı, deyir, iki cür olur. Nə bilim, biri deyir, xeyrinə uluyur, biri də deyir, ziyanına (S. 13).

56. Deyirdilər ki, guya ala mış qızılın üsdündə yatır. Ala mış olan yerdə qızıl olur deyillər. Günə verir, hə, elə deyillər. Deyirdilər, ala siçoyul qızılın üsdündə yatır (S. 13).

57. Deyir, bir oğlan o vaxdı bir ilan öldürüf. Savağı biri qavağını kəsif, onu da öldürüf. Oon da, oon da. Axıra biri qalıf. Axıra biri qalanda öldürə bilmiyif. Axıra qalan ilan indi o oğlanı vuruf öldürüf, ajıyıf[27] (S. 13).

58. Qapıya bayquş gələndə deyir, guyə çörəyin arasına duz qoyuf verirsən, səni and verirəm, bir də gəlmə bu qapıya. Gəlmirdi onda. Elə deyillər (S. 13).

59. Bayquş, deyir, guyə uluyur, nə bilim. Ama onun adı bəyquşdu. O bəyin quşu olufdu nədisə. Deyillər, bəyquş uladı. Elə bil qavağımnan bəyquş uluyuf. Bax belə deyillər dana. Ya it hürüb, it əsniyib elə bil qavağımnan. İşim düz getmiyəndə, deyir, ə, elə bil it əsnədi qavağımda, elə bil bayquş çıxdı qavağıma. Belə bir rəvayətdər var dana, deyillər (S. 13).

---

[27] ajıyıf – acıqlanıb mənasında işlətdi.

60. Bütün quşdar uçur, toyux niyə uça bilmir? Ona da ruxsət verilmiyif dana. Oon da Allah elə yaradıf (S. 13).

61. Deyillər, xəbər gətirir hacıleyləh (S. 13).

62. Qarğa deyillər, gəlib qapıda guyə xəbər gətirəjəh, qonax gələjəh (S. 13).

63. Deyillər, axşam evdən çörəh verməzdər, pul verməzdər. Versən, deyillər, guyə evin urzası, bərəkəti gedər. A qadasını alım, Allah o urzanı manıa verifsə, o qonşu bəlkə ajınnan ölür, onda mən çörəh vermiyim? Elə deyillər, axşamüsdü çörəyə gəlməzdər (S. 13).

64. Deyirdilər, axşam olanda evdən duz verməy olmaz. Duz versən, bərəkət gedir. Maya vermirdilər (S. 18).

65. Axşamüsdü deyillər, evdən pul verməy olmaz. Nə bilim, deyillər, pul verməy olmaz. Əlinin urzası gedir dana, elə deyillər (S. 11).

66. Mal-heyvana göz dəyməsin deyə üzərrih yandırırdıx, duz hərriyirih başına. Südünnən baxırıx ki, iy gəlir, ona da qaşıxnan-zadnan belə qızdırıf dağlıyırıx ki, kimin gözü bunda varsa, gözü yansın. Heyvana göz dəyəndə südünnən iy gəlir. Birdən nəfəs iysi gəlir. Kiməsə elə bil verirsən, deyirsən, filankəsdən qatığ aldım, yaxşı, yağlı qatığıydı. Onda da baxırsan sütdən nəfəs gəlir, iy gəlir. Onda da pıçağnan-zadnan belə xətdiyirsən qızdırıf qaymağın üzünü, yaxşı olsun (S. 13).

67. Deməli, bizdə belədi. Əgər kənddə ya həmin bölgədə tanıdığınız, çox gözü dəydiyinə, nəzəri iti olduğuna inandığımız adamnar varsa, adətən, belə insannar göygöz olur. Niyəsə xalqın nəzərində belə bir şey var ki, göygöz insanların gözü çox dəyir, nəzəri dəyir başqa insannara. Mən bunu öz şəxsi təcrübəmnən də sınamışam. Deməli, bir qadın varıydı, gözləri göyüdü və mənə bir dəfə baxdı, dedi ki, səən nə gözəl ayaxların var. Dümdüz, mütənasib. Nə gözəl gənc qız olacan, nə bilim nə. Biz də uşağıydıx, dizdən paltar geyirdih. Gəldim evdə anama dedim ki, filankəs xala mənə belə dedi. Dedi ki, hə, lap yaxşı. Aradan bir həfdə, on gün keşmədi, mənim baldırlarım dizdən aşağı yara töhməyə başladı. Elə yaralar tökürdü kü, yaranın biri bağlanırdı, o birsi... Xalq arasında o yaranın adı göz yarasıymış, yəni nəzər yarası. Sora anam mənə dedi ki, ged, o qadın həyətdə oturur, uşaxları yığır başına, söhbət eliyir. Onun yanında otur, gizlincə paltarınnan bir sap çəh, mənə gətir. Mən getdim, oon yanında oturdum. Gördüm ki, donunun ətəyinnən bir dənə sap sallanır. Sapı çəhdim qopartdım, xəbəri olmadı. Gətirdim, anama verdim, üzərriyə qatdı yandırdı, başıma fırradı. Sora bir həfdiyə, on günə həmin yaralarım yavaş-yavaş söndü və keşdi getdi. İndi də ayağımda o yaraan izləri qalır. Dərin yaralarıydı çünki. Həm də qaşınırdı.

Üzərriyi də yandırmax belədi. Deməli, üzərriyi götürürsən, quru dəni. Kimnən ki, şübhələnirsən ki, bu adama nəzər dəyib. Onun başına fırrıyırsan. Sözləri var, sözlərini deyirsən və onu yandırıb tüsdüsünü həmin adama verirsən (S. 17).

68. Bir də, bu yaxında başqa bir şey öyrənmişəm. O adam ki, düşünür, məəm bəxdim yatıb. O adam üçün belə bir şey var. Onda da üzərriyi yandırırsan və evin dörd köşəsinə tüsdüsünü verənnən sora həmin adamın başına fırrıyıb tüsdüsünü ona verirsən. Bu da belə. Sözlərə gəldihdə isə üzərriyi yandırmadan əvvəl, qurusunu adamın başına fırrıyıb belə söz deyirsən. Sora atırsan yanmağa.

Üzərriyim havarsan,
Hazar dərdə davasan.
Qohum ola, yad ola,
Nəzərini qavasan.
Atın göydü,[28] üzərriy,
Donun göydü, üzərriy.
Müşkül işim düşüfdü,
Allah oydu üzərriy.
Üzərriyim dana-dana,
Sanıa göz tikənin,
Gözü bu odda yana (S. 17).

69. O torbanın içində zirt-zibil var: sarımsax, soğan qabığı. Ev-eşiyə göz dəyməsin deyə ordan asmışam.[29] Üzərrih də asırıx qapıdan (S. 11).

---

[28] Burda göy atlı deyəndə həmişə bizim bölgədə göy atlı Xızır əleyhisalam nəzərdə tutulur. Xızır da insanların köməyinə gəlir. Yəni göy atlı, yaşıl, ya da göy geyimli insan. O Xızırdı. Yəni atın göydü deyəndə, yəni Xızır kimi köməyimə yetişdi deməhdir.
[29] Divara asılmış torbanın içində nə olduğunu və niyə oradan asıldığını soruşduqda danışdı – top.

70. Hamilə qadın ət isdiyirdi, ət verirdilər. Toyuğ əti isdiyir, onu verməliydilər ki, ürəyi isdiyir, ağzı pisdi. Hamiləlihdə olur dana. Ağzı tamdı da, hamilədi. Ürəyi isdiyir dana, ona ağzı pis deyirdilər. Ağzı pisdi, yəni nəfsi çəkir deməhdi. Yanı ki, məsələ, sən əlində alma yeyirsən, məəm ona nəfsim keçir, hamilə adamam. Bu deyir, sən niyə ona vermədin, hamilədi (S. 18).

71. Deyərdilər, boylu qadına vermə dooşan ətini. Uşağın dodağı çapığ olur, deyillər yarığ olur (S. 11).

72. Əgər bir hamilə varsa, görürsən ki, onun gözü nəyəsə daa belə baxır da çox. Ən birinci oysanat odu. O hamilə qadına onu verməlisən. Çünkü sən gözünnən görürsən. Maqazində üş dənə gəlin, mən də təzə-təzə şaqalat götürmüşdüm belə. Ona qədər gördüm kü, gəlif o şaqalata belə baxır. Demişəm ki, elə bilginən ki, gəlinimsən. Şaqalatdı, sifdə gətirmişih, sifdədi, bunnan götür yeginən. Məni pis mənada, dedim, başa düşmə ha. Elə bil qaynatanam, götür, ye. Mən özümü çox xoşbəxd hiss eliyirəm ki, üş dənə o gəlinə o sözü dedim, yanı oysanata keşdi də o elə bilginən. Mən həyatda elə bildim ki, ən yüksəh pillədəyəm, yanı o cəhətdən ki, üş dənə hamilə qadına onu eləmişəm (S. 14).

73. Deyillər, guya zahı olanda hal gəlir. Ruh bədənnən çıxır. Belə eşitmişəm. Uşağa zada yatanda, deyir, hal gəlir.

Göyçədə, deyir, guya ki, kimsə tutufdu onu. Deyir, üsdə sancax bağlıyanda o sancaxdan qorxur, deyir, yaxın gəlmir ona. Bunu işdədif. İşdədənnən sora elə bil, uşağamı, kiməmi

deyif ki, bunu aş də burdan. O, açannan sora o yoxa çıxıf gedif. Deyirlər, uzun adam olufdu. Arvadıymış, deyir, uzun adamıymış belə, yekəpər. Deyir, belə döşdəri-zaddarı yekə halıymış (S. 13).

74. Deyillər, hal apardı. Doğan qadınnarın yanında, deyir, gərəh adam ola. Guya onu gejə cinnər gəlib aparar, onu hal aparır (S. 18).

75. Allah ölənnərin hamısına rəhmət eləsin. Bir gün qardaşıma yatır anam. Ona qədər baxdım ki, atam gedif baltanı götürüf suyu belə qılışdıyır. Dedim ki, nağarsan? Dedi ki, a kişi, deyillər ki, arvadı hal apardı. Dedim, nətəri? İndi onun bir sözü var, ümumi camaatımızın içində danışılır. Məhəmməd kişi, deməli, deyir, ə, ala it bajanın üsdündə, mən də qapının ağzında. Bu hardan gəldi bu arvadı apardı? Ba bu deyimiydi camaatın içində. Həqqətən də olurdu. Deməli, biz nağayrırdıx? O dəyqə gedirdilər suyu qılışdıyırdılar. Bir də baxırdın ki, insanın burnu, qulağı çəkilif nətəər gedərmiş. Gözümnən görmüşəm e, onnarın hamısını. Qadını Hal aparanda həmi qulağı çəkilir, həmi burnu təmiz çəkilif gedirdi. Bax, bircə belə qalırdı. Bir də baxırdın, gedillər suyu-zadı qılışdıyıllar. Qonşuda da bir nəfər varıydı. Deyirdilər, bunnarın tayfası cini tutuf. Deyirdilər ki, gedin, onun tez köynəyini gətirin. Köynəyini gətirif keçirdən kimi burnu da öz yerinə gəlirdi, hər şey də. Hal-mal hamısı çəkilif çıxıf gedirdi (S. 14).

76. Deyillər ki, guya halın əyağı dala olur, davanı da irəli olur. Elə deyirdilər (S. 11).

77. Zahıların bıçax qoyurdular yastıxların altına. Al aparmasın diyə. Birisini Al aparmışdı. Xırda köyüydü da, hər kəs bir-birini tanıyırdı. Uşağ üsdündə öldü deyillər. Yaşdılar Al aparmax deyirdilər ona (S. 9).

78. Həmzat deyillər duvadı. Birinin uşağı ölür, ölür, ölür, üsdünüzə sağlıx. Onu gedir mollada yazdırıllar duva ki, bu ölməsin dayansın. Bu olur həmzatdı. Bu adam kimin üsdə gedərsə, ayrı qadın uşağa yatanda üsdə gedərsə, oon da uşağı durmaz, ölər. Həmzatdan qutarmağ üçün gərəh molluya düşəsən (S. 11).

79. Körpə uşağın üsdə çiy ət gətirməzdilər (S. 14).

80. Körpə uşağın üsdə sarı muncuxlu adam gəlməzdi. O vaxdı muncux taxırdılar, sarı muncux deyirdilər. Oon üsdə o sarı muncuxlu adam girməzdi. Uşax səpirdi, sarılıx olurdu.

Onnan duvalı adam gəlməzdi uşağın üsdə, pis əyaxlı adam da (S. 11).

81. Çilə də, o vaxdı deyirdilər ey, indi yoxdu elə şeylər. Uşax belə qıçı bir-birinə həmişə çarpaşık keçir, ona çilə deyillər. Uşax qıçını bir-birinnən aralamır da, üsd-üsdə. Onu da deyirdilər, üş dəfə üçüncü günü uşağın baş barmağına kəndir bağlıyırdılar, xəlbirin içində də oturdurdular. Taxıl eliyən xəlbirin e. Oon içində də oturdurdular, örüşdən gələn çobanın (mala gedən çobanın, qoyuna gedənin yox) üsdünə aparırdılar üş dəfə, hər üçüncü günü. Onun çiləsini kəsdirirdilər. Qayçı götürürdülər özdərinə, o, maldan gələn adam o qayçıynan kəndiri kəsməliydi üş

dəfə. Ona da hədiyə verirdilər da. Üş dəfədən sora ona hədiyə verirdilər (S. 11).

82. Uşağ oldu, gərəh qırxını tökəsən. Qırxın tökürdüh, deyirdih: “İlfas qüsulu deyirəm sümüyün pak olmağı üçün. Qurbətən la illallah”, – üş dəfə. Birinci başımızdan, çiyinnərimizdən də tökürdüh. Qırx günündə çimirdih. Uşağı da çimizdirirdih, birinci başınnan sora çiyinnərinnən. Ona da deyirsən: “İlfas qüsulu deyirəm. Bu uşağın sümüyü pak olmağı üçün”. O suyun içinə heş nə tökmürdüh. Eləcə su sanıyırdıx qırx qaşıx. Su sanıyıf onnan tökürdüh (S. 13).

83. Uşağın qırx tükün əslində yaşında qırxıllar, kim nətəər isdəsə qırxır. Tükü kim isdiyir tulluyur, kim isdiyir saxlıyır. Mən uşaxlarımınkını tullamışam (S. 18).

84. Görürsən ki, biri can verən vaxdı deyir ki, gözdə gələjəm, gələjəm. Onun gözünə gəlir, kiməsə deyir ki, gözdə gəlirəm. Deyir, nə deyirdi? Deyir ki, məsələ, dayımıydı, deyir, səən yolunu gözdüyürəm, tez gəl. Belə söhbətdər var. Mən qonşuda görmüşəm bunu. Bir qonşu varıydı, arvat, vəziyəti pisiydi. Gördüm kü, danışır özü-özünə ki, hə, gözdə-gözdə gələrəm. Elə İmperiyalın qaynənəsi də məəm xalamdı, o da helə danışırdı (S. 18).

85. Sorğu-sualsız cənnətə gedən adamnar var, bala. Bu dünyada o qədər, deyir, xeyir iş görür kü, deyillər, cənnətə sorğu-sualsız gedəjəh. Biri də var, o qədər burda pis əməllərnən məşğuldu, deyillər, o da qır qazanında qaynıyajax (S. 13).

86. Halvıya duz atıllar. Ama az atıllar. Halvanı, məsəl üçün, ölü yerinə bişirirsən də. O ölünün adına duzu atırsan ki, onun eysanında olsun. Məsəl üçün, bunu bişirirəm, bunun eysannığıdı (S. 13).

87. Deyir, torpağa ölünü əmanət verəndə çürümür dana, saxlıyır onu. İki il əmanət verdin, üç il verdin, imkanım olanda çıxardıf aparajam dana. Onda deyirdi ki, çürümür (S. 13).

88. O vaxdı hələ Göyçədə də oluf. Tutax ki, qardaşın hansısa ölüf, onun namusu qırağa çıxmasın deyin arvadını o birsi qardaşına alıflar. Ama o vaxdı oluf. İndi elə şeylər yoxdu, ama o vaxdı oluf. Deyif ki, o səən namısındı, qırağa çıxmamalıdı. Gör nətəər adətdər oluf (S. 14).

89. Boşqabın dibini təmiz sıyıranda nişannın göyçəh olur (S. 13).

90. Qazan dibini yeyənin, deyir, toyunda qar yağajax (S. 13).

91. Vallah, kimsə nəsə yeyirsə, eləsi var tamahı düşür, eləsi də var tamahı düşmür. Tamahı düşənə unsux deyirlər. Unsux olanda həmən o gördüyünnən verillər ona, alladıllar çəkillər, alladıllar çəkillər. Helə düzəlir o.

Mənə onu rəhmətdih qaynənəm deyifdi. Deyif, uşağımın biri umsunmuşdu qonşuda yumurtadan. Mən də, deyir, ona yumurtaan gösdərdim, qayıtdım çəhdim, sora yenə gösdərdim yumurtaan, çəhdim, sora verdim, yedi, düzəldi (S. 18).

92. Məhərrəmlihdə savun olmaz deyillər. Onda üş gün deyirlər, savun axıtmıyasan, yümüyəsən. Aşura günü, bir də onnan sora, bir də onnan sora. Aşura günü, məsəl üçün, şərbət paylıyırdılar. Göyçədə eliyirdilər bunu. Burda da eliyənnər varıydı. İntaası mən hər il eliyirəm. Halva bişirib paylıyırdılar, təziyə tuturdular.

Başa boya qoymağ olmaz. Heç olmasa bir on gün, on beş gün saxlıyırdıx burda, Göyçədə. Ama burda indi-indi daa hər şey yaxşı olufdu. Camahat, hamı daa ayılıf dana. Qavaxlar Savet hökümətinin vaxtıydı, heş kimi qoymurdular eləməyə. İndi, Allaha şükür, hamıya müstəqilliy, azatdıx verilib. İmamımız da hörmətdi tutulur, ölənimiz də hörmətdi tutulur, şəhidimiz də hörmətdi tutulur (S. 13).

93. Bir adam ağır xəsdələnəndə, xüsusən, uşaxlar, onu sağalmaz sayanda, həkimlər bir tədbir görə bilmiyəndə yerdən bir lağım atırdılar. O lağımı elə atırdılar ki, üsdü torpağ olurdu, aşağısı, yanlar torpağ. Bu lağım hardasa bir metir, iki metir uzunnuğunda olurdu. Bir tərəfinnən xəsdəni salırdılar, o birsi tərəfinnən dartıb çıxarırdılar. Və hər dəfə bu xəsdəni lağımın bu tərəfinnən salıb o birsi tərəfinnən çıxartdıxca ora bir yumurta çırpırdılar, qırılıb tökülürdü. Beləcə üş dəfə xəsdəni o lağımnan keçirənnən sonra lağımın üsdündəki torpağı tapdalıyıb tökürdülər ora. Üsdünü də torpaxlıyırdılar, örtürdülər. Az qala bir qəbir kimi bir şey yaranırdı. Onnan sora xəsdə sağalırdı (S. 7).

94. Bir gün də, deməli, qonşumuz əmim oğlunun yoldaşı getdih ki, bu öz-özünə belə danışır, nə vilim, nağarır.

Belə elə bil nətəər deyim e, özündə dööl belə. Danışır, deyillər gəlin gedəh, bunu asdananın altınnan keçirdəh da. Asdananı qazırdılar, ordan keçirdəndə ayılırdı da. Nəysə, asdanıyı tez qazdıx, indi ordan keçirdəjih da. Bu da inanşdı ha. Nəysə, asdananı qazdıx. Ə, dedim, qoy görüm hələ, özüm keçə bilirəmmi? Burdan keşsəm, onu svabodnu keçirdəjih dana. Özüm oruya zad eliyənnən sora nətəər burdan çiyinnərim sıxılarsa, nə anarı, nə bəri. İndi məni çıxardan yoxdu. İnan, nəfəsim nətəər darıxdısa, az qaldı ürəyimjə partdıya e orda. Çıxdım, dedim, ay öyünıuz tikilsin, mən ölmüşdüm, hələ bunu diriltməy var. Təzdənnən gətirdiy onu, keşdiy asdananın altınnan, onnan da düzəldi (S. 14).

95. Asdananı elə qazırdıx ordan sığışası qədər. Daa hamısın dağıtmax yox ha. Elə bil qapıdı, qapının altınnan asdananın altı deyirdilər. Əsas deyillər cinnər, şeytannar asdananın qabağında olur, arxasında olur, altında olur.

Onu ordan elə bil qazırdıx, inancıydı da. Uşağı da keçirirdih, böyüyü də. Elə bislimillah eliyib onnan sora da keçirdirdih. Qaloşun içinə yumurtuyu qouf üsdün də basdırırdığ orda. Köhnə qaloşun içinə qoyurdux çiy yumurtuyu, qaloşun bir tayının içinə qoyuf üsdün də basdırırdığ. Onnan sora da elə basdırırdılar ki, yumurta qırılmasın da, bax belə. İndiki kimi dööldü ha. O vaxtı astana olurdu, torpağ olurdu. Belə evlər dööldü də, orda torpağ evləriydi. Onu hamı eliyirdi. Amma kişilər. Onu kişilər götürüf ordan keçirdirdilər, adyala büküf keçirdirdih. Vallah, dəən qırmızı adyala büküf keçirdirdih, manıa elə gəlir ki, bükürdüy, ordan da keçirdirdih. Dil qaşma,

sıxılma, nə vilim, bax belə xəsdəlihlərdə. Beyqafıl birdən baxırdın özünnən getdi. Sıxılanda deyirdilər, toxunmadı. Sıxılırdı, özünnən gedirdimi, deyirdilər, bu toxunmadı. Dediyirdilər, buna toxunuflar (S. 14).

96. Şəxsən anam həmən o qardaşımın hamiləlih vaxdı... Allah cəmi ölənnərə rəhmət eləsin. Deməli, üş günüydü gərəh ki. Yerə su atmışdı, bütün, deməli, hamımızı elə bilginən ki, yatmax nədi e, elə bil hamımıza toxunuflar. Mən bir yana yıxıldım, o birsi qardaşım ordan, nə vilim, dili qaşdı, nağardı. Obşım, getdilər, molluya baxdırdılar. Dedilər ki, sən yerə isdi su atıfsan, ona görə elə oluf. Onnan sorasına bizdə isdi suyu yerə atmax qəti olmadı. Elə o vədədə də, bu vədədə də isdi suyu yerə atmax düzgün dööl (S. 14).

97. Axar suya tüpürməy olmaz. Çünkü suda mələhlər var, mələhlərə tüpürürsən elə bil (S. 11).

98. Ev tikəndə bünövrüyə pul, qəpiy atırdılar. Duası filan yoxuydu, elə-belə pul atırdıx (S. 14).

99. O vaxdı deyirdilər ki, ovçuynan çovan ən qəddar insandı. Niyə? Ovçu harda hamilə olsun, balalı olsun, nə olsun, öldürür. Çovan da çörəyi otarır. Niyə? Qoyunun qarnı doysun deyin aparır buğduyu, arpıyı otarır, əmə o haxsızlıxdı.

İndi qəssav, belə deyəh da. Qəssaf məjburdu onu kəsməyə. Ama insannarın çörəyini otarmağ olmaz. Çörəyi biz Qurannan əvvəl gəldiyini biliriy. Ona görə də o Qurannan əvvəl gəlifsə, deməli, sən onu otarırsansa, Qurana hörmətsizliy eliyirsən. Çörəyi otarmağ olmaz (S. 14).

100. Qoçu qoyuna qatanda suyun üsdünnən keçirib sonra sürüyə qatardılar (S. 17).

101. Qızıl tapbax çox bədbəxtçilih gətirir. Gərəy onu tapanda oon üsdünnən bir ovuj götürüf ya paylıyasan, ya arxıya tulluyasan ki, kimsə tafsın da, yanı onun zadını çıxırsan da elə bil. Yoxsa elə bunun hamısını mən tapmışam, aparım gedim, mütləq onun ziyanını çəkəjən. O da varıydı (S. 14).

102. Kirvəən qızın almağ olmaz. Qan töküfsən nətəər kirvədən qız alasan? Qan töküfsən e onnan. Elə bil, qan qohumusan. Qəti olmaz. Uje elə bilginən ki, tutax ki, məəm oğlumnan kirvəmin qızı qardaş, bajıdı elə hesab elə. Qan töhmüşüy axı (S. 14).

103. Birinci çörəyi kəsmirdilər sifdə. Deyirdilər ki, məsəl üçün, bu sifdə çörəyini kəsəndə baş yoldaşına nəsə olar. Birinci çörəh soradan qarışırdı o birilərinə, kəsilirdi də, yeyilirdi də. Elə deyirdilər da. Həə, dalı çörəyi çıxardanda onnan uşax kəsif yeyirdi.

İtə də çörəh atırdıx ki, iysi gedir da. Ama sifdə kəsmirdin da, təndirdən çıxan kimi kəsmirdin (S. 11).

104. Birinci çörəyi yolnan keçənə kəsif verirdilər. Birinciyi yox, o qarışırdı, soradan kəsilirdi da elə bil (S. 14).

105. Çörəh düşəndə də küt olurdu, yerdə qızarırdı, təndirin içində. Kütün də qızarmışın o vaxdı yeyirdih ki, pul tapajıyıx. Həə, deyirdilər, kütü yeyin, pul tapajinız (S. 11).

# III. TÜRKƏÇARƏLƏR VƏ BİTKİLƏR HAQQINDA MƏLUMAT

1. Mal siyəndə onu götürüb başdarını yuyurlarmış ki, kəpəy olmasın. Onu eşitmişəm (S. 11).

2. O vaxdı saçımızı qara sabınnan yuyurdux. Qatıxnan da yuyurdular qoja arvatdar. Yuyannan sora bir dəfə qatığı qayırıf töküf yuyurdun başına. Üsdünnən də suynan yuyurdun gedirdi. Savınnan yuyurdular, sora da qatığı suda çalırdılar, ayran kimi eliyirdilər. Başdarını yuyannan sora da qayıdıf o qatığın zadını suynan yuyurdular. Əlvəəl duruluyurdular da. Yuyannan bir az sora da suynan yuyurdular. O başın zadını, hər şeyin təmizdiyir da. Qovax-movax[30] heş nə qalmır da (S. 11).

3. Qızılxallı balığ olurdu Göyçədə. Ən dəyərri balığı elə o qızılxallı balıxdı. Farel deyillər, ama qızılxallı deyirdih biz. Keçən il Kəlbəcərdə getdih, tutdux o balıxdan. Paah nə ləzzətdiydi! Biz əlnən də tuturux da onu. Daşın altınnan əlini soxursan, baxırsan oynaşır belə-belə. Mən cəld oluram, hər adam onu tuta bilmir ki. Oon da yolları var dana. Getdih, orda tutdux gətirdih. Çiçəhlərin hamısını bir-bir billəm. Bax o zad çiçəyi var ey, qəntəpər çiçəyi. Bir nəfər keysəriyə olmuşdu, oon təzdənnən bir də aperasiya eləməy isdiyirdilər. Nəysə iltihabı prases baş vermişdi. Həmin çiçəhdən isdifadə eliyənnən sorasına hər şey çəkildi getdi. Çayını işdi. Ancax çayınıja. Bütün iltihabı

---

[30] qovax-movax – kəpək-məpək

bədənnən təmizdiyir. O ərazidə bitir. Bilirsən, oranınki yaxşı olur. Bu dağlarda bitər ey, o Hajıkəntdə-zadda. Göyçəninki kimi keyfiyətdi olmur (S. 14).

4. Kəkotu ödə xeyirdi. Ödün normal işdəməsinə köməy eliyir, qaraciyəri təmizdiyir. Pilus söyuxdəymə olanda oon tez götürür. Boğaz ağrısını bax belə şeyləri. Öysürəh çox uzun müddət gedəndə onnan içəndə o öysürəyi dayandırır (S. 14).

5. Taxılın yetişən vaxdı, buğdanın yetişən vaxdı, bir az qalmış sütül deyirdih. Biz onu elə qoyuruf yeyirdih. Ona sütül deyirdih. Qoyurmurduğ e, o elə bil ki, topada yandırırdığ, o qoyrulurdu. Elə bil onu tofluyurdux, tutax ki, bir azca nətəər deyim, topa yandıranda o qurunun zadına yaş da yanıf qoyrulurdu. Nə zad olmurdu, quru qovruğ olmurdu e. Ama qovrulurdu. Yiyəndə sütül deyirdiy ona. O qədər ləzətdiydi ki, deyiləsi dööldü.

Sora bizdə gülür deyirdih, mən gətdim, burda da əkdim onnan. Gülür bitkidi. Rusdar qarox deyir e. Ən datdı şeyiydi o. Dağda bitirdi, biz əkirdih də belə. Bax bu dəyqə göyçəlinin luboyuna deginən sizin kəntdə gülür əkilirdimi? Deyər, hə. Özü də kütləvi şəkildə gedif onu yığıf yeyirdilər. O qədər datdıydı ki.

Kərdiyar[31] – yanı arpa, buğdanın əkilməsində, ikisi arpa, buğda eyni əkilib, bir yerdən çıxanda kərdiyar

---

[31] Qarışıq nikahlardan doğulmuş uşaqlara da xalq arasında zarafatla kərdiyar deyirlər.

deyirdih da, ikisi olurdu. Yem üçün əkirdiy onu. Malın yemi üçün əkirdiy, həm buğda, həm arpa. Arpa yaxşı olurdu, buğda da tam dəymirdi da biçiləndə. O da gəlirdi xırmanda da quruyurdu, gəlif çatırdı. Ama qarışıx əkirdih. Bir də ki, belə deyəh. Hədih-zad bişirirdilər, o hədihdə də tamam başqa şeyiydi. Hədih kərdiyardan da bişirilirdi. Həm arpa atılırdı, həm buğda atılırdı. Arpanın yarması, arpa çox xeyirri şeydi (S. 14).

6. Qılçıxsız bir sortu vardı buğdanın. Ən çox onnan əkirdih. Bir də qırmızı buğda deyirdih. Qılçıxsız sortu çox məhsul verdiyinə görə onu dəyərri sayırdılar. Ama qırmızı buğda çox xeyirri buğdaydı. Onun iyisi, çörəyin iyisi kəndin başında bişirəndə əyağında duyurdun oon iysin. Toxumunnan gətirə bilmədih. Burda gəlif onnan görmədim (S. 14).

# IV. YUXUYOZMALAR

1. Pis yuxu görəndə deyirsən, Allah xeyirə calasın. Suya danışırsan. Ölülərdən də nəsə görəndə soğan dişdiyif çölə tulluyursan ki, ziyannığ olmasın. Ölü görəndə ziyannığ olur dana. Birdən deyirsən ki, filankəsi gördüm, ziyannığ olmasın (S. 13).

2. Deyir, çörəh urzadı. Çörəh görəndə deyirsən, yaxşıdı, urza görmüşəm (S. 13).

3. Yuxuda at görəndə yaxşı olur. At murazdı deyillər (S. 13).

4. Su aydınlıxdı deyillər (S. 13).

5. Qan qoyuşuxdu (S. 13).

6. Pul da, qızıl da, deyillər, yaxşıdı yuxuda görəndə (S. 13).

7. Şirin şey görürsən, yaxşıdı (S. 13).

8. Üzüm görəndə deyillər, göz yaşıdı (S. 13).

9. Qazdı (uçan qaz), camışdı, yuxuda görəndə deyillər, xəsdəlihdi (S. 13).

# V. ETNOQRAFİK MƏTNLƏR

## 1. TAYFALAR HAQQINDA

Bizim kəndin yaşlı adamları deyirdilər ki, camaatımız əvvəlcə Zod kəndində zoddularnan bir yerdə yaşıyıflar. Qohumluğ əlaqələrini son devirə kimi də davam eliyirdilər. Onnardan bizimkilər qız alırdı, bizimkilərdən də onnar. O yaşlı nəsillər deyirdilər ki, biz əvvəl İnəkdağı kəndinə köçüf gəlməmişdən İnəkdağınnan Zodun arasında, təxminən ortasında Ağbulağın axıb gəldiyi yerdə bir daşlıx yer varıydı. Ora bizim camaatımız "Ağılın altı" deyirdilər. Yəni ağıl heyvan saxlamağ üçün kənarları daşdan düzülmüş üsdü açıx yerə deyirlər. Deyirdilər ki, orda daxmalar quruf yaşıyırdıx. Həmin devirdə orda iki-üş də erməni ayləsi varıydı ki, biznən bir yerdə yaşıyırdı. Deyir, o erməni aylələrinin qadınnarı, axcihləri bizim uşaxlara elə bayatı, elə layla deyirdilər ki, bizim arvatdar heç onlar qədər elə şirin və təmiz laylalar deyə bilmirdilər. Deyir, onlar həmişə biznən də danışanda bizim dildə danışırdılar. Deyir, biz onlardan xəbər alırdıx ki, bəs siz erməni dilini bilirisinizmi? Ermənisiniz, kilsəyə gedirsiniz? Deyir, deyirdi ki, kilsədə keşişlə dini biz nə qədər başa düşürüh? O mollalar dediyində siz nə qədər başa düşürsünüzsə, keşiş dediyini də biz o qədər başa düşürüh (S. 7).

## 2. ÇOBAN MƏHƏMMƏDİN AİLƏSİ

Altmış üçüncü ildə atam namus üsdə dava elədi, şəhid oldu. Biz qaldıx yetim. Atam şəhid olannan sora

Talıb babam gəldi, Aşığ Ələsgərin oğlu. Gəldi, bizi apardı, məni babamnan nənəm böyütdü Göyçə mahalında, Aşığ Ələsgərin ojağında. Anamın dayısıdı, atamın da əmisi oğludu. Ama bizdə əmioğlu-zad söhbəti yoxdu. Elə hamı mənim qardaşımdı, balamdı, biz belə millətih. Hə, apardı babam bizi Göyçəyə. Göyçədə böyüdüh təzdənnən ağlımız kəsəndə qaşdıx ki, atamız Azərbaycandadı, gəliriy Azərbaycana. Gəldiy, ata nə gəzir? Atanın qəbri də yoxdu. Bura qayıtdıx gəldiy altmış yeddidə. Bu dəfə Nafdalana yox, Goranboya gəldih. Hə, gəldih böyüh bajımı Safıkürdə gəlin apardılar. Məni də bajım saxladı. Üş bacıyıx. Zeynab, Zəhra, mən. Qardaşdarım körpəykən ölüb. Mən familyanı-zadı dəyişməmişəm. Ata familyamdı. Zeynəb, mən bilən, qırx altının noyabrıdı, nəyidi. Zəhra qırx səkgiz. Onlar da sağ-salamatdılar, Nafdalanda yaşıyırlar.

Atam Ağkilsədə doğulub da 1920-də. Atamgil üççə dənə qardaş oluflər də. Məhəmmədin əvvəl əmisi qızınnan iki oğlu, bir qızı olub. İki arvadı olub Məhəmmədin. Arvadı ölüb, gedib Kəlbəcərdən bir qız gətirib. Əmisi qızı ölüb, üş dənə uşax qalıb. Sora uşaxları körpə olanda gedib Kəlbəcərdən bir gəlin gətiriblər. Gəlini gətiriblər elə bu zaman bir pis xəsdəlih gəlibdi, Göyçəni çolğalıyıf[32] da başdıyıb qırmağa milləti. Elə bu xəsdəliyin güjdü vaxdında babam görür kü, gejə asdanadan süfrə açılanda asdananın altınnan dümağ, belə kötməçəl[33] ilan çıxdı. İlanın başında araçkın, üsdündə dəsdə-dəsdə ətirri güllər, çiçəhlər. Çöldə də qar dizdən. Qışın günündə də ilan çıxdı üsdündə gül-

[32] çolğalıyıf – yayılıb
[33] kötməçəl – burada gözəl anlamında işlədilib.

çiçəh. İlan birinci babamın qabına dil çalır, sora gəlinin qabına dil çalır, sora uşaxların qabına. Babam deyir ki, qorxmuyun, bu bizim loğmanımızdı, Allahtala tərəfinnən gəldi, bizi qorumağa. İlana dəymiyin ha, bu ölsə, biz ölərih. Hamı qırılır, Məhəmmədin ayləsinə heş nə olmur. Babama deyirlər ki, gedirih aranda mal-heyvan satmağa, sən də aparırsan mal-heyvan?

Deyir:

– Hə, mən də gedirəm.

Gəlinə tapşırır ki, ilan amanatı ha. Uşaxları qoymuyun evdən çölə çıxalar, birdən ilanı öldürərlər ha. Uşaxlar qırılar. İlana dəyməyin. Babam o yana gedən kimi uşaxlar gəlini itəliyir, çıxırlar çölə. Çölə çıxırlar, soruşurlar ki, bə hamımız öldüh, hamımın ayləsinnən adam öldü, siz niyə ölmədiniz? Dəəndə uşaxlar dedi:

– Bizim loğmanımız var.

– Ə, loğmanınız kimdi?

Deyirlər ki, bəs belə bir ilan var bizim asdananın altında. Gəlir, qabımıza dil çalır, gedir, bir də girir asdanaan altına. Qonşular deyir ki, tez gedin onu öldürün, o sizi zəhərliyir. Uşaxlar gəlir lomu salır, asdananı qaldırır, qırır, altınnan ilanı çıxardıb öldürürlər. İlanı öldürürlər, öldürən kimi uşağın üçü də qusur, ölür. Gəlib yazığ gəlini evdən qovurlar ki, həə, sən uşaxlara zəhər veribsən, oon üçün üçü də birdən ölüf.

Məhəmməd arandadı, yazığın nə xəbəri var? Məhəmməd yola düşən günü balaları qırılıf, arvadın da evdən qovuflar. El yığılıb, evdən qovublar. Babam qayıdır gəlir alverdən. Nə gəzir, nə arvad var, nə uşax var. Yurdu

verandı. Onnan sora babam çox ayləsiz qalır. El-oba yığılır, qohum-əqrəba. Babama deyirlər ki, gəl sən evlən. Babam o aylədən sora isdəmir evlənməy. Evləndirirlər, bi dənə Bahar adında çox igid bir qadın alır. Bahar dəən öz kəndimizdən olub, bilmirəm. Yanı ata yanımda olmadı, ana erkən yoxdu, qardaşdar qırıldı. Mən nə bilim kim nə olubdu? Hə, beş il uşaxları olmur. Tamam qojaldımı babam? Çoban Məhəmməd də deyirlər, şayir Məhəmməd də deyirlər. (*Alim olan bəndə gələr o kişinin, Məhəmmədin vərəsəsin axdarar, nəvəsin axdarar, sağdısa, uşağın axdarar, yazar. Bular heç gəlib sizi axdarmıyıb yazmıyıb. Heç bir şey də kitabda yoxdu.*[34] Qulağ as, gör nə deyirəm. Onnarda günah yoxdu. Biz kişilərnən danışmırıx. Biz cavab vermirih heş kəsə. Bu qardaş gəldi, sifdə bizə dedi Kəlbəcərdənəm. Bizim də nənəmiz Kəlbəcərri olufdu. Anaxanım nənəmiz. Aşığ Ələsgərin xanımı. Ona görə mən sizi qəbul elədim. Biz heş kəsi qəbul eləmirih, danışmırıx kişilərnən. Sirrimiz də ürəyimizdə gedir qəbirə. Ona görə alimləri qınamıyın. Biz hər adamnan danışmırıx. Mən heş kəsnən danışmıram. O darvazadan əmimoğlu da girə bilmir, dayımoğlu da girə bilmir. Heş kəs). Beş il uşağı olmur. Beş ildən sora mənim atam olası olur. Olası olanda babam gedir, canavarı vurur. Beş ildən sora atam Allah-verdi olur. O hələ dünyaya gəlməmiş nənəmin könlü ət isdiyəndə babam gedir, canavarı vurur, öldürür. Ürəyini çıxardır, deyir ki, ay arvad, bu ürəyi kabab eliyirəm, ye. Qoy oğlumuz igid olsun, canavar kimi mərd olsun. Oğlu-muz igid olsun, mənim qoja vaxdımda yurdumda yurdçu

---

[34] Kursivlə verdiyimiz cümlələr toplayıcıya aiddir.

olsun. Nənəm də canavarın ürəyini yeyir. Kavaf eliyirlər, yeyir, sora atam anadan olur. Sora yirmi üçüncü ildə əmilərim olur. Həsən, Hüseyin əkiz olurlar. Sora bir şey çəkmir, babam ölür. Babam ölür, nənəm qalır. Uşaxlar elə körpəydilər. Atamın beş yaşı ancağ olmuşdu. Beş, yeddi belə. Yox, çox körpə olub. Hə, nənəm də bir şey çəkmir, nənəm də ölür. Çox çəkmir Bahar da ölür. Uşaxlar qalır tam yetim. Babam[35] başdıyır, üş qardaş evdə, mal-heyvan-zad oluf dana. Atam idarə eliyib o... Yeddinci sinifdə oxuyanda kəndə ÇETEZE[36] gəlir. Gəlir tıraxtır, iz tıraxtırı gəlir. Tıraxdor gəlir yer şumlamağa. Heş kimin başı çıxmır. Atam qoyur kitabçanı qabağına, tıraxtoru sökür, tökür, təzdənnən yığır. Onnan sora başdıyır sürməyə. Atamı məytəfdə məllim qoyurlar yeddinci sinifdə oxuyanda. Gündüz məllimliy eliyir, gejələr kəndin torpağını əkif, sahələr əkif. Gejənin bir vaxdı görür kü, tıraxdor dayandı. Gejənin laaap lüt yarısında[37] tıraxdor dayandı. Baxır ki, iki dənə qıça yerdədi, iki dənə də qıça, baş bu yannan tıraxdorun üsdünnən aşırılıb, belə ağzın ayırıb atamı udmağa. Yırtıcı bir heyvan aşırılıb, dayandırıb tıraxdoru. Heyvan hə, goraşen. Hə, atam nə qədər bunu vurur, dişdiyir, nağayrır, görür, yox e, daa ağzını ayırıftı. Oon ağzı bezrazmeldi da. Ayırıf udmağ isdiyir yeddidə oxuyan oğlanı. Əskini götürür tez, ruçkanı başına doluyur, od vurur, yandırır, verir onun ağzına. Ağzı

[35] Söyləyici atasına baba deyir.
[36] ÇETEZE – Çelyabinsk Traktor Zavodunun (ÇTZ) istehsal etdiyi traktorun adı
[37] Gejənin laaap lüt yarısında – Gecənin tam yarısı, ən qaranlıq vaxtı

yaloylanır, ağzı yananda tıraxdorun üsdünnən düşür. Düşəndə atam əlində məşəl düşüf goraşenin dalınnan.

Əmisi oğlannarı biri raykom olur, biri kalxoz sədiri. Bilal Mamedov raykom olur, qardaşı Nəcəf Mamedov kalxoz sədiri olur. Onnar da Aşığ Ələsgərin qardaşı Xəlilin oğlannarıdı. Gəlirlər ki, tıraxdor dayandı. Niyə dayandı? Uşağa noldu, görən? Gələndə görürlər ki, əlində məşəl, budee, goraşeni qovur. Onnan sora... Day indi sorasını bilmirəm. Ta nətəər olur, kalxozu idarə eliyir, müharibiyə gedir, getmir. Bunu manıa danışmıyıflar. Bilmirəm gedif, getmiyif. Onu manıa nənəmgil danışmıyıblar. Çünkü mən çox körpəydim, balacaydım. Atamı on iki yaşında gördüm, on üş yaşında öldü (S. 23).

## 3. QOYUN AĞILI

Basarkeçər qəsəbəsinə, yəni rayon mərkəzinə şərq tərəfdən gələn yolun üsdündə, Zoddan, Nərimanlıdan, İnəkdağından gələn yolun solunda tuf daşdarı[38] üst-üsdə yığmışdılar. Adətən belə yerə xalxal, qoyun ağılı deyirih. Ancax o çox balacıydı. Qoyun ağılını geniş eliyirlər. Ora belə on-on beş adam ancax sığırdı. Qapısı da daşdan, nə bilim, ağaşdan. Heş nə yoxuydu. Elə daşları yığmışdılar üst-üsdə. Sonra onu götürürdülər, arvad-uşağ girirdi ora, ziyarət eliyirdi. Çıxanda da yenə yığırdılar ki, mal-heyvan keçməsin də. Bura əsasən ermənilər gəlirdi ziyarətə. Mən orda ermənilərin qadınnarını, uşaxlarını görmüşəm. Ziyarətə

---

[38] tuf daşdarı – yüngül, məsaməli daşdır. Bu daşların içini oyub bulanıq suyu süzmək üçün də istifadə olunur.

gələnlər xoruz gətirif orda kəsərdilər. Yadımda qalan oydu ku, onlar xoruzu özləri kəsmirdilər. Orda durub baxırdılar ki, bir adam gəlsin, o xoruzu kəssin. Mənim 13, 14, 15 yaşlarım olanda ordan keçəndə dəfələrlə mənə xoruz kəsdiriflər və əvəzində necə deyərlər, həvəsləndirməy üçün şirni, kanfet-zat veriflər. Mən yaşda erməni uşaxları da olsa, bilmirəm, onlar o xoruzu kəsməyə cəsarət eləmirdilər, ya onlara inanmırdılar, ya onnarın dini inancınnanıydı, ya nəydisə də, xoruzu adətən bizlərə, ordan keçən müsəlman uşaxlarına və yaxud da böyühlərə kəsdirirdilər. Mənim yaşıtlarım da 12-13 yaşınnan yuxarı, onnan kiçihlər ora tək getmirdi, orda nəyşi var idi. Niyəsini o devirdə heç maraxlanıf öyrənməmişəm (S. 7).

## 4-5. TASQURMA

Mənim bavam molla olufdu. Adı Molla Qəriv olufdu. Göyçədə yaxşı molla olufdu, elə belə yox. Bu elə bilginən ki, o vaxdı həkim-zad yoxuymuş dana, dəli olannarı, həmzatı olannarı, səysənən uşaxları, ya ölü götürənnəri, bunnarı yaxşı bilirmiş da. Xorasanda oxuyub gəlibmiş o. İndi bəlkə Göyçə camaatı kitavı oxusa, bilər, tanıyar.

Bibim deyirdi ki, (burda bibi deyillər, biz mama deyirih), mamam uşağ vaxdı bizə danışırdı ki, o vaxdı pulu olan adamnarı qulaxlığa salırlarmış.[39] Bavamın imkanı olduğuna görə bavamgili qulağ eliyiflər. Köçürdüflər gəlif bunnar Daşkəsənə, Şahbulağa. Şahbulağa gəliflər. Gələndə, deyir, aradan neçə gün keçənnən sora Zərəngiz mamam

[39] qulaxlığa salırlarmış – kulak edirlərmiş

deyirdi ki, kəndimizdən – Göyçədən, Zoddan bir dənə kişi gəldi. Gələndə gördüm ki, bir dənə də adam gətirif, öz bajısını. Gələndə, deyir, gördüh kü, bu belə özündə dööl, sözündə dööl də, havalanıfdı. Bavama deyif ki, ay Qəriv dayı, Mehmanı gətirmişəm (qızın adı Mehmanıymış). Bunu belə elə sağalmağa. Bavam muna tas qurur. Körpə uşaxlar baxırmış ona, yaşı az qız uşaxları – həddi-buluğa çatmıyan-nar. Bavam da – öy yiyəsinin iki dənə qızı varıymış – bunnarı qoyuf tas qurufdu. Gejə savağa qədər o uşaxlar o suya baxmalıdı ki, görə kim gəlir. Bavam da Quran oxuyur-muş, üfürürmüş ki, o fərişdələr gəlsin, görəh bunu niyə vuruflar. Savağa yaxın mamam deyir ki, gördüm kü, qızdar çığırışır ki, ay bava gəldi, ay bava gəldi. Deyir, dedi ki, nətəər gəldi? Deyir, dedi ki, ay bava, bir quyu tüsdülüyür. (Biz Göyçədə əv damı deyiriy, orda təndiri içəridə basdı-rırdılar. Çöldə qar olduğuna, qiyamat, söyuğ olduğuna görə çörəh bişirməyə təndiri evin içində basdırırdılar). Deyir, ay bala, gördüm kü, bir quyudu, tüsdülənir, içinnən bir dənə ağaş çıxartdı, tulladı. Bu, həmən bax bu arvad – gəlin tulladı kravatın altına. Kravatın altında bir ana qucağında uşax yandı. Fərişdənin uşağı yandı. Sora, deyir, bavam onu oxudu üfürdü, oxudu üfürdü. Sora, deyir, kişiyə dedi ki, get, qırx günnən sora duanın o birsin də apararsan, yazajam. Mamam deyirdi, qırx günnən sora gəldilər. Gələndə, deyir, gördüh qızın ağzında yamşax. Utanır da belə. Heş, deyir, gördüyüm o insannan əsər-əlamət yoxdu, sağalıb, yaxşı-lanıb. Gəldi, deyir, sakit, ağıllı. Duasın da, deyir, apardı getdi (S. 13).

**5.**

Görməmişəm, ama eşitmişəm ki, deyirdilər ki, guya Quran yazısı olan mis kasa olur, mis kasanı da qoyurlar orda, suyun töküllər. Nəm içinə nəsə də qoyullar, bəkə də qoymullar, bilmirəm. Suyun içinə də o, uşaxların başına qırmızı salır, uşaxlar oturur içində, baxıllar da. O gələndə şəkli düşür suyun içinə. Onu oxuyuf üfürür. O gəlir, o suyun içində onun şəkli düşür. Deyir:

– Ay bava, gəldi.

Deyir:

– Nə gəldi?

Deyir:

– Arvad gəldi, qucağında da uşax.

Həmən bu arvad zadı, biz kösöv deyirdih, bunnar da (söyləyici Qasımbəyli kəndinin əhalisini nəzərdə tutur – top.) ağaş deyillər, deyir, ağacı götürdü belə, kravatın altına atdı. Bu, elə bil təndirdə kösövü qarışdırır, çıxardır, oddu-oddu tulluyur, o da gedir, ona toxunur.

Bu sonradan bılar (söyləyici yanımızda hərlənən nəvələrinə işarə edir – top.) oldu. Bunnarın yanında cinmi qalar? (söyləyici gülür – top.) (S. 13).

## 6. HEYDƏR, GƏL

Bəndəmi[40] gətirillər, həyətə sərillər. Sora gəm olur da belə. Taxdadan altında belə-belə pıçaxlar, dəmirrər. İki dənə də malı qoşullar, ya öküz olsun, ya inəy olsun. Onu belə sürüllər. Minirsən, belə-belə sürürsən.

---

[40] bəndəm – dərz

Xırmanı sürənə gəm deyirih. Onu belə sürürsən, samannan çıxır, buğda çıxır. Əlnən çəkirdilər, samanı bir yana gedirdi, buğdası bir yana tökülürdü. Onu eliyəndə oxuyurdular:

– Heydar, gə. Heydar, Heydar, gəl, atıya saman apar.

Onu anamgil deyirdi. Məsələ, noxud əkirdilər da. Onu döyürdülər ağaşnan. Oon çıxanda belə savırırdılar, deyirdilər: “Heydar, Heydar, gəl, atıya saman apar”. Yanı yel isdiyirdilər, külæg isdiyirdilər. Gəl, atıya saman apar (S. 9).

## 7. BEŞİKKƏSMƏ

Biz Seyfətdinnən beşih kəsməsiyiz. Seyfətdin bir ağabeyisi on yeddi yaşında rəhmətə gedib hələ Seyfətdin yoxkən. O da bir başqa kəntdən qız səvib. Atası da deyib uzaxdı. On yeddi yaşındaymış. Onu da almıyıblar. Sora dedilər ki, qara sarılıx nədisə, o bilmirəm. Qara sarılıx geçirib rəhmətə gedib. Sora bir böyüh bacısı da məəm böyüh qardaşımnan əvliydi, o, bir qız doğdu, o da gənşkən rəhmətə getdi. Şannı Seyfətdinin böyüh bacısıdı. Mənim də qardaşım arvadı. Biz onnardan qız almışıx. Qomşuyux da, bizim aramızda yol var, bura bizim əvimizdi, ora da onnarın. Pəri bacısı da uşağ üsdündə öldü. Həm uşağı da öldü, həm də özü öldü. Seyfətdin indi o Pərinin adını nəvəmizə qoymuşux. Ay qoymuşux başına – Aypəri.

Bu Seyfətdinin anasının adı da Fatmadı, bibimin adı da Fatmadı. Fatmaya cici deyirdih biz. Bizim uşaxlar, gənçlər, məhləmizin uşaxları da, cici deyirdih. O, bir daşın üsdündə oturardı. Onun da gözü tutuldu ağlamaxdan oğluna. Oğlun da adı Heydardı. Gedirdiy otururdux qaça-

qaça hamımız. Çünkü onun cebində qavırğa varıydı, şəkər varıydı, qənt. Yazıx elə də kirli-kirli cebinə qoymuşdu, qara-qara. O zaman nəydi ki? Bir də iydə olurdu cebində. Bizə iydə verirdi, qavırğa verirdi, şəkər verirdi. Otururdu, bizə nağıl deyirdi. Ama heç bir dənəsin xatırlamıram.

Seyfətdinin babasın da mənim babam tanıyır. Dedim ya, onun uşaxları öldü, Seyfətdinin anası bir yerdən gəldi. Bizim kəndə iki uşaxnan gəlmişdi. Mənim babam ağsakqal, muxdarıydı deyə kimin sorunu vardısa, gəlirdi, babam çözürdü. O dul qadını da Seyfətdinin babasına alıb, əvləndirib. Onnan da olubmu Seyfətdin? Sora Seyfətdin üç yaşındaymış, məəm anam hamilə qalıb məyə. Seyfətdinin babası da deyib ki, qız olursa, bunu alacam oğluma.

Ama ağlım başıma gəldihdən sora (söyləyici yetkinlik yaşına çatmağını nəzərdə tutur – top.), məsələ, ordan məhlədən qadınnar çıxırdı, qızlar çıxırdı hər kəs bir yerdə. Ən çox da onnarın həyətində toplanırdılar. Ora toplanırdılar, mən belə baxırdım, Seyfətdin orda olanda getmirdim. Elə hirsdənirdim, deyirdim, çıxıb getsə, mən də gedərəm da, marağ edirəm gənşlərin, qızların yanına. Utanırdım bə. "Gəlinim, gəlinim" deyirdi atası. İndi, məsələ, bayramçalıxda[41] da hamımız toplanırıx, bunnara gedirih. Bayramçalıxda şey topluyurux ya. Sizdə yoxdu? Gedib bi şeylər topluyurux, verillər. Yumurta verillər, cəviz verillər. Bayramçalıx yığmax. Mən gedirdim, məyə corab qoyublar, nə bilim, nə qoyublar. Mənim buxçam bir belə olurdu. Məyə çox qoyurdular gəlinimdi diyə. Cəvizdi, yumurtadı, ən çox yumurta boyuyurdular. Məsələ, o qədər yumurta topluyurdux ki (S. 9).

[41] bayramçalıx – bayram payı

## 8-11. KEÇMİŞDƏ

Uşağı dalına şəlliyirdi arvatdar. Uşağı alır dalına, şaldı belə salır, uşağın dalına gətirir, arxadan da bağlıyır. Çal-çarpaz eliyir, arxadan bağlıyır. Açılmır. Yeriyif yüyürənə qədər şəlliyirlər. Uşax yerdə-yurtda şey olmasın. İşi çox olan adam eliyir. İşi olmuyan adam nə uşağı dalına şəlliyir? Burda mən görməmişəm, o tərəflərdə olufdu. Şəxsən abır eləmişəm mən, uşağı qucağıma almamışam, qaynımnan utanmışam. Yoldaşımın yanında heç döş əmizdirməmişəm. Qaynənəmin yanında mən uşağı yumamışam da, görmüyüfdü də. Aramızda pərdə oluf. İndikilər yuyur. O devir yaxşıydı maa elə gəlir. Bilirsən, avır-həya varıydı. Şəxsən mən bu yaşımda da heş qaynımın yanında yeməh yemirəm, stolda çay işmirəm, yanı hörmət mənasında (S. 18).

### 9.

Bizim dövrümüzdə boşanma yoxuydu. İnsanın canı onnan da çıxmalıydı. Deyirdi, bəyən al. Mən zornan demirəm, get bunu al. Özün bəyən, bəyəndinmi aldınmı? Bax sən onnan baravar axıra qədər yaşıyajan. Uşağ olmuyanda da eləsi varıydı, heş boşanmırdı. Üsdə arvad almax varıydı. Onu da hamı eləmirdi (S. 14).

### 10.

Biz ata-ana yaanda, yaşdıların yaanda uşağı qucağa götürüf əzizdəməh yoxuydu. Eləməzdih. Mən özüm utanardım. O bizim dəyərrərimizdə yoxuydu axı. Övlatdarım da eləmillər. Mənim uşaxlarım yaxşı bilir ki, olmaz elə (S. 14).

## 11.

Anam ölən gününə qədər yaşmax alırdı. Gəlinnər gələndə də heç hası almadı. Daa burda gördüh ki... Bilirsən, biz nə vaxdı dəyərrərimizi dəyişdih? Doxsanıncı ildə ki, o şənniy evi çıxdı, gətirdih gəlini ki, oturtdux o zadda e. Bizdə elə şey yoxuydu. Üzü-gözü açıx gətirtdilər oturtdular orda. Kişilər onnan sora daa quyruğu ələ verdilər. Siz də məni bağışdıyın, o düzgün zad dööldü.

Toyda bizdə nətəriydi? İndi toya aparıflar da. Bir evdə camaat yeyif-içən yerdə yox ha. Toyda oynanılan yerdə gəlinin başına qırmızı, belə zərri-zaddı yaylıx salırdılar. Heş görünmürdü e, gəlinin üzü görünmürdü orda. Axırıncı dəfə gəlini çıxardırdılar beləcə ortada, oynamırdı da ey, elə beləcə hərrənirdi. Camaat onun başına hərrənif, pulmu verirdi, nağayrırdı, qutardıx. Bir dəfə gəlini orda görərdilər. İndi dəyqa başına gəlin çıxır, tans oynuyur. Bu yoxuydu bizdə axı. Hə, bax o bizdə çox möhkəmiydi. Din içində din saxladıx, dil içində dilimizi saxladıx, ədət-ənənələrimizi saxladıx (S. 14).

## 12. ALIŞMA

Alışma malı kəsib ətini satmaxdı. Nətəər alışma eliyirsən onu? Elə bölürsən ki, hər yerinnən düşür orda. Daa yoxsa çap, birinə bir belə ver, birinə belə elə, yox. Tutax ki, heyvanı gəliv qılçı qırılıf da, ya da malmı vuruf, ya nəsə zədə alıf. Onu qonşular yığılır, kəsirdilər, bölüşdürüllər. Onu əvvəldən elan eliyirdilər ki, belə iş var, yığılağın.

O vaxtı bizdə hərə deyirdi ki, a qardaş, bir toğlu verəjəm, bir quzu verəjəm. Sən$_{ı}$ın malın$_{ı}$ı diriltməy üçün da, saa köməhlih üçün. Qonşular bilir ki, sən$_{ı}$ın olan-qalan

bir inəyin vardı, o da öldü. Bə bu savax nağarsın? Munun balaları var. Onu fikirrəşif hərə bir dənə quzu verirdi. Deyirdi ki, o quzuyu satarsan, özünıə bir inəy alarsan. O vaxtı. İndi yoxdu elə şeylər.

Ya da elə olurdu ki, mal köpüf. Sağlam maldı da. Onu da yığılıf alışma eliyirdilər. Orda sora bordanan mallar[42] varıdı. Hamımız qonşuyux. Qəssaf orda nəəzirdi? Yığılırdığ onu böləndə, pay bölünürdü, daa kilo-kilo tərəziyə ət qoyulmurdu. İndi ona da pul verən pul verirdi, pul vermiyən də paya bi dənə quzu. Orda deyirdilər, pul alan pulunu alırdı, pula yaxın durmuyan da quzunu alırdı. Onu da verirdih, onnan da qutarıf gedirdi. Sağlam malı da, bax, kökəldilən malı da elə kəsirdih (S. 14).

## 13. NOVRUZ BAYRAMI

Nədi o şayirimiz. Allah rəhmət eləsin e, sizin yerriniz – Bəxdiyar (Bəxtiyar Vahabzadəni nəzərdə tutur – top.). Deyir, dedilər, Bəxdiyar məllim, bu Noyruz bayramı nətəər keçir? Deyir, dedi, gedin, iki dənə göyçəli tapın, onnardan soruşun, görün. Bütün Noyruz bayramının ədət-ənənələrin sizə aydınlaşdırajax. Yoxsa yalandı? Bax biz Noyruz bayramını hələ ermənінin içində saxlıyırdıx, ermənilər bizə qonax gəlirdilər həmən onda. Deyirdilər ki, ərə, elə bil bizim bayramdı.

Qorğa qoyururduğ, öz də az yox ey, meşoknan. İndi bayramlarda göyərdillər, deyillər səməni. O səməni dööl ey. Ay qardaş (kənd icra nümayəndəsinə müraciətlə danışır –

---

42 bordanan mal – içəridə saxlanıb kökəldilən mal, yaxud da çöldə xüsusi otarılan heyvan

top.), onu göyərdirdilər, onu döyürdülər, səməni bişirirdilər. Biz səməni halvası demirdih, ancax səməni. Səməni bişirirdilər. Niyətnən bişirənnər də varıydı. Onu yaşdı arvatdılar bajarırdı ey, bunnar (söyləyici arvadına işarə edir – top.) bajarmır. Nə qədər də dedim örgənin, örgənmədi bunnar. Onu döyürdülər, suyunu çıxardırdılar. Duru hallı bişirillərdi onu. Bunnarı görmüşəm ey, gözümnən görmüşəm bunnarı.

Çovdarın qəşəh qorğası olur, öz də şirin qorğası olur e, buğda kimi yox. O daha şirin olur. Sora, onun çörəyini bişirirdilər qapqara (S. 14).

## 14-15. QOVURMA

Biz Göyçədə qovurma qoyururdux. Heyvan kəsirdilər iki dənə, üş dənə bordağ erkəhlər olurdu, kəsirdilər. Təndirin üsdündə mamam qovurma eliyib yekə qazannarda tökürdü şirəli qablara, qazannara. Qışda da çıxardırdı, məsəl üçün, nə işdə isdifadə eləsən, yeyirdin. Heyvannar kəsilir, ət doğranır. Qoyun eliyirdih, dana eləməmişih biz. Bəlkə başqaları eliyif, biz eləməmişih. Erkəh qoyunnarı kəsirdi, papam doğruyurdu. Yekə qazannarda qoyurdular təndirin üsdündə, o, öz yağına qovrulurdu, bişirdi. Yağı çıxırdı üzünə qədər. Onu da tökürdülər şirəli qazannara, vedralara. Qışda da kəsirdih, tökürdün qazannara qəşəh. Bunu elə evdə saxlıyırdıx. Ora sərin olurdu axı. Biz xaladelniki o vaxdı işdətmirdih ha, çox vaxdı. Bəlkə yayda kimsə alardı. Soradan da ədət düşdü, hamı aldı. Adicə krantdan gedif suyu götürüf evə gətirənə qədər vedraların üzü buz donurdu, sular donurdu. Ora çox söyuğ olurdu (S. 11).

## 15.

Qovurmanı da, toyları da, şənnihləri də, sünnətdəri də hər şeyi payızın ilk aylarında, hələ çox yağıntı düşməmiş edərdilər. Çünkü heyvanın ən yağlı vaxdı sentyabr, oktyabr, oktyabrın əvvəli olur. Dağda, bağda ot saralmağa başdıyanda o vaxt heyvanın ən yağlı vaxtıdı. Bütün qovurmalar o vaxdı olur. Toy, nişan, məclis harda ki, ət yeməyi veriləcəh, hamısı o vaxda salınır. Belə deyəh da indiki təqvimnən sentyabr ayı. Ən münasib ay sentyabr ayıdı.

Qoyun yaxşı yağ tutan vaxdı, dediyim kimi, payız aylarının əvvəli, soyuxlar başdıyanda qovurma qoyulur. Qovurmalar əsasən qoyun ətinnən qoyulur. Mən görməmişəm, amma eşitdiyimə görə, mal əti də qatanlar var. Ama təbii ki, olar ayrı-ayrı bişirilir. Ət doğranır və ocağın üsdündə bişirilir. Yağlı qoyun ətidi, quyruğu da ora doğranır. O vaxda qədər bişirilir ki, ət tamamiylə bişir və yağa düşür. Yağda qovrulanda götürülür və küplərə, qazanlara doldurulur, soyux yerə qoyulur. Gərəy ətin üsdünə piy qatı çıxa. Piy qatı çıxmasa, o ət qalmaz, xarab olar. Bəzən belə vəziyətlər də olur ku, görüllər, piy çıxmadı, düşündühlərinnən yavan çıxdı ət, onda yağ əridib töküllər üsdünə. Mütləq yağın içində donmalıdı, donmuş yağın içində qalmalıdı ət. Əks təqdirdə nə qədər soyuğ olur olsun, ət xarab olur. Yəni soyux yerlərə qoyulur, ərzax otaxlarına qoyulur, xüsusi otaxlara və qış yazacan isdifadə olunur.

Qışda heyvan arığ olur, yəni heyvan kəsilmir, ya bala verən vaxdı olur. Ümumyətlə, qış aylarında heyvan əsasən kəsilmir. Yəni qovurması olan qovurma isdifadə eliyir. Qovurmanı götürməyə qovurma eşməh deyillər, get,

qovurma eş gəti. Hə, deyillər ki, qovurma eş gətir. Göndərillər qovurma gətməyə. Əsasən bir çox yeməyin yanında yeyilir, xəmir xörəhləri xaric. Bizdə xəmir xörəhləri ətli olmur. Əsasən olmur, zövqə görədi, təzə ət olsa, olur, qovurmaynan olmur. Yəni ərişdə plovudu, xəngəldi, xaşıldı, bular ətsiz yeyilir, ama bunnan başqa bütün tərəvəz yeməhlərinin yanında qovurma olur qış yazacan. Hətda şorbalara da, az da olsa, piyinnən də olsa, qıraxbucağınnan da olsa, qatıllar. O aylələrin iqtisadi vəziyətinə baxır da, gen-bol işdətməh, ya qənayətnən işdətməh. Mütləq vurulur, çünkü ləzzətli olur. Həm ləzzətli, həm qüvvəli olmağ üçün. Məsəl üçün, ən dar macalda qonağın gəldi, ya tələsih yeməh lazımdı, kimsə ajdı, yeməh verilməlidi, tez qızdırılır ət, qoyulur süfrəyə, yəni o çörəhnən, ya da yanındakı başqa yeməhlərnən yeyilir (S. 17).

## 16. YARMA XƏŞİLİ

Yarma xəşili buğdadan olur, yəni yarma buğdadan hazırlanır. Buğdadan iki növ qışlığ azuqə hazırlanır, bir yarma, bir bulğur. Oların fərqi odu ku, yarma çiy buğdadan hazırlanır, bulğur isə bişmiş buğdadan. Yəni oları götürüb əlinə alanda, olara diqqətnən baxanda fərq hiss olunur. Yarma bir qaba yığanda, şüşə qaba baxırsan bankada görürsən ki, şəffaf deyil, yəni hardasa bir az unlu kimidi, buğdanın öz xüsusiyəti. Amma bulğurda bişmiş buğda olduğu üçün o parlağ olur və unu olmur, deməy olar ki. Unlu kimi görünmür. Buların fərqi budu.

Qaldı yeməhlərdə oların hərəsinin özünə uyğun bişirilmə yerləri var bizim mətbəximizdə. Bulğur əsasən ətnən yeyilir. Bayax danışdım qovurmada. Qavırmada bulğur, çəhmə plovlar deyilir, çəhməcə deyirih, çəhmə plov, yəni ki, süzmə yox. Daşma plov da deyillər, çəhmə də deyillər. Onun bir çox növləri var. Şil aşı da deyillər. Şil aşı əsasən yavan olur, ona görə şil aş deyillər, yəni topal aş. Yəni ətsiz olmağına işarə vurullar.

Yarmanın da xüsusi yeməhləri olur. O yeməhlər qış yazacan yeyilir. Ümumyətlə, bular əsasən qışda yeyilir. Düzdü, bütün aylarda yeyilir, ama əsasən qış, yaz azuqəsi üçün hazırlanır. Yarmanın da növləri olur. Yarma xəşili nisbətən kiçih yarmadan olur, yəni ufax deyirih. Onun suyunun miqdarı indi buğdanın, yarmanın növünnən aslıdı. Ama əsasən dörtdə bir nisbətdədi, yəni dörd stəkan su götürürsənsə, bir stəkan yarma götürürsən, çünkü çox şişir. Onu qaynar, duzlu suya tökürsən, bişənə qədər tez-tez qarışdırmax lazımdı. Bəzən görürsən ki, su artığ oluf, yarma toplanmadı, bişdi, amma sulu qaldı. Onda azca həmin yeməyə un vurmağ olar suyun yığılmağı üçün, kütlə olmağı üçün azca un da vurmağ olar gözünə. Amma un həmişə vurulmur. O zövqə görədi. Bəzi adamlar unlu xoşduyur. Amma əsasən yarma xəşilinə un vurulmur. Sora hazır olanda qablara yığırsan, ortasında çuxur açırsan. Çuxura yağ əridib tökülür. Kənarlarına isə bizdə qış yazacan süzmə qatığ olur, ya da qurut olur. Sağılanın, əgər südün yoxdusa, ağartı yoxdusa, qurutlar əzilir, sarımsaxlı qurut vurulur. Ümumyətlə, bizim bölgədə qış yazacan sarımsaxlı qatıx, ya da qurut yeyilir. Mən belə fikirləşirəm

ki, iqlim çox sərtdi və insanların xəsdələnməh dərəcəsi yüksəhdi deyə sarımsaxlı qatıx qorunmağ üçün isdifadə olunur. Hər halda belədi. Çünkü bizim bölgənin mətbəxində sarımsağ əsasən qatıxnan, yəni qurutnan isdifadə olunur. Bu da, deməy olar ki, qış yazacan yeyilir. Həftədə iki dəfə, üş dəfə, dörd dəfə süfrədə sarımsaxlı qurut, ya da sarımsaxlı qatığ ola bilər. Yarma da bu şəkildə, sarımsaxlı qatıx qabın kənarına tökülür, ortasına da balaca çuxur açılır və ora yağ qoyulur, yəni yağa və qatığa batırarax qaşıxlanıb o şəkildə yeyilir. Bu danışdığım yarma xəşilidi (S. 17).

## 17. QAZIN QURUDULMASI

Qazın ayazda qurudulmağı var bizdə. Qazın da xüsusi sezonu var, yəni qaz kəsməyin. Qaz gərəh qar yeyə. Xalq arasında belə bir fikir var ki, qaz qar yeməlidi. Qar yemiyən qaz ləzzətli olmur. Ya nəyə görəsə. Bəlkə də daxili orqanları təmizlənir, bilmirəm. Həm də qazlar qarda çimillər, xoşduyullar, qarda qanadların açıb çimillər. Həm də tükləri təmizdənir toz-torpaxdan. Yəni belə bir fikir var ki, mütləq qar yağmalıdı qaz kəsilməyi üçün. Yəni birinci qar yağannan sora payızın son aylarında qaz kəsimi başdıyır. Qazı da saxlamağ çətin olduğu üçün, yəni bəsləməh, yedirtməh çətin olduğu üçün qazın əksəriyətin kəsillər eyni vaxtda. Həm də ki, kəsilməyi iqtisadi cəhətdən də uyğun gəlir. Çünkü onun tükünnən isdifadə olunur və onun tükünü təmizdəməh, emal eləməh bir az çətin olduğu üçün hamısın bir yerdə eləməy isdiyillər yəqin ki. Qaz kəsimində də deyəh ki, bir evdə bəzən otuz, qırx, əlli

qaz kəsilir və olar hamısı, təbii ki, eyni vaxda yeyilə bilməz. Hətda mən görmüşəm bəzən qazın da qovurmasını eliyillər. Qaz ətinnən də yaxşı qovurma olur. Bir də qazın sərilərəh qurudulmağı var. Onda da qaz təmizdənir, daxili orqanları çıxarılır. Qaz ayaza asılarax, yəni çox soyux havada ayazda qurudulur, qaxac olunur. Belə qaxac olunmuş əti yazacan saxlamax mümkündü, yəni soyuğ otaxlarda, xüsusi yerlərdə yazacan saxlanılır və hissə-hissə bişirilir, yəni istədiyin qədər götürüf qaxac ətdən bişirə bilərsən. Qədimdə, yəqin soyuducu olmuyan vaxtlarda xalqın ərzağını qorumağ üçün fikirləşdiyi üsullardan biriydi yəqin ki, bu da (S. 17).

## 18. ÇƏKMƏ AŞI

Çəhmə aş bulğurdan hazırlanır. Bunun sezonu yoxdu, yəni qışda da, yayda da, həmişə hazırlana bilər. Yağlı toyuxnan, yağlı qaznan, ya da ki, qoyun ətiynən, fərqi yoxdu, hazırlanan yeməhdi. O da bulğurnan hazırlanır, plovdu, yəni süzülmür. Yəni daşma plov. Suyunu, ətini hər şeyini hazır qoyursan və ağzın örtürsən bişir, dəmlənir, aş olur. Çəhmə plov deyirih. O da dediyim kimi bu ətlərin hamısınnan hazırlanır, amma ən ləzzətdisi qaz ətiynən olandı, yəni qaz ətinnən olan çəhmə plov. Yəni bulğur plovu deyəh da. Həddindən artıx ləzzətdi və keyfiyətlidi (S. 17).

## 19. ŞALĞAM

Biz bir də şalqam elirih qara kökdən. Havuç yoxdu? Onun qarası. Onu dorğuyursan, qırmızı pancardan qoyur-

san, içinə bulğur qoyursan, yarma, bir qaşıx. Duzunu qoyursan, bir az şəkər qoyursan mayalanması için. Onu da doldurursan şaşallara[43] belə böyüh. Bax, onnarı (rəfi açıb ora yığdığı şüşə qabları bizə göstərir – top.) onun için yığmışam. Bitdihcə atmışam oraya. Ona qoyursan, bir iyirmi gün qalır. Onnan sora açırsan baxırsan ki, havası yoxdu. Bax, belə doldurursan, elə? Elə olur ki, ta bu buraya gəlir. Aşağıya düşür. Yeməhdə də kullanırdıx (S. 9).

## 20. QUYMAQ

Biz uşağa yatırıx da, anam bizə mutlaka quymax bişirərdi. İndi də bişirillər. Mən də gəlinnərə bişirmişəm, xoşdarına gedibdi. Bir də baharatlar olur da, kəfləmə deyirih. Məsələ, tarçındı, havlıcandı, beş-altı baharatdı. Havlıcan nədi? Kökdü, o da bir kökdü. Belə bir köhdü. O gün əlimə gəlib (havlıcanı bizə göstərir – top.). Ağac kökü kimidi. Onu bu səfər qaba qoyullar, ortasını açıllar, ortasına da mal yağını qoyullar, bir də kəfləməni töküllər. Kökdən hazırladığımız. Üyüdüllər də. (Havlucanı Türkiyədən almışdıx. Bunu döyüllər ya. Onu əliyirdilər süzgəcdə, onun altını quymağa tökürdüh. Üzünün irilərinnən də çay dəmlirdih. Çay dəmliyirdilər, mutlaka o çayı verirdilər doğan qadınnara). Nabat daha faydalıdı. Nabat şəkəri var ya, isdiyir onu çək, qat şəkər yerinə. O yoxdusa şəkəri qoyursan. Quymağın üsdünə onu tökürsən, o qədər gözəl olur ki, o. Doğan qadınnarın qarnını ısıdır, eyiləşdirir (S. 9).

---

[43] şaşal – şüşə

# VI. XATİRƏLƏR

## 1.

Bizim bir dənə tanıdıx varıydı, gənc oğlan. Oon atası demişdi, bacısımı, nəyi o tayda qalıb. O da o uşax axlıynan Arazı keşmişdi o yana. O yana keçəndə əsgərrər buna dur deyiblər. Bu da qorxub da, isdiyib təkrar geri dönsün, vurmuşdular onu. Ama geri dönmədi. Sora onu xatırlamıram. Nə zaman sora işdə hasdənəyə aparıblar. Hardan keçirtdilər onu bilmirəm. Gətirtdilər ki, ayağı kəsilib. Navrız diyə birisiydi. Yanı tanıdığımızıydı da, köylümüzdü. Ama heç onnan heş bi şey də sormadıx. Soran olub bəlki, ya da demiyibdi. Onu da bilmirəm.

Qaçaqaş zamanı ermənilər gəliblər bizim kəndə hamilə qadınnarı, hər kəsi yığıblar dama. Orda hamilə qadınnarın qarnını süngüynən vurub daa, anası can verərkən o şeyi (doğulmamış körpəni nəzərdə tutur – top.) çıxardır, atırmışdar havaya, süngüynən belə vurullarmış. Onnan sora bizim məçidin həyətinda da havuz var. Bütün öldürdühləri insannarı ora atıllarmış. Bizim məçitdə də varıymış da qan izi. Ama bizimkilər onu sıvıyıblar. Yani məscidi sıvıyıblar yaşlılarımız qan getsin diyə. Halbuki o qalsaymış tarixiymiş. Elə zulum eliyiblər bizimkilərə (S. 9).

## 2.

Atamgil bizə çox şey anlatmırdı. Atam yığırdı bizi başına, uşaxları belə. Biz, deyir, erməni zulumunnan qaşmışıx. Məəm Fatma bibimin Safiyə diyə qızı da qalmışdı o tayda. Beş-altı yaşındaymış. Qaçaqaş zamanı əmimin

arvadının yanına qoyubdu. Deyib, burda dursun. Daa şey daşıyıllar da elə bil, yük daşıyıllar. Bunu qoyub gəlim alım. Mal arabasıynanmı, atnanmı gedillər. Gəlir baxır ki, uşax Leylan xalamın, yəni əmimin arvadının yanında yoxdu.

– Hanı, hanı?

O da deyir:

– Bilmirəm, bir də baxdım yoxdu.

Məyərsə öz-özünə düşünüb ki, bir də bu uşaxdı, bunu kim daşıyacax bu qaçaqaşda, birinə veribdi. O verdiyi yerdə də qoz yetişirmiş. Bibim həp onu deyirdi. Ağlıya-ağlıya gözdəri tutulmuşdu. O zaman demirdi, soradan-soradan dedi yanı. Qoz yetişirmiş, bir də Ordubad əriyi. Bunnan çözürəm, deyirəm ki, bibimin qızı Səfiyə Ordubatda qalıb deyə düşünürəm. Mən elə düşünürəm, indi bilmirəm. Bizim də, məsələ, bağımız varıydı. Məəm atamın bağı varıydı. Bizə deyirdi ki, bunnarın hamısının toxumunu o taydan gətirmişəm. Ama Ordubatdan demirdi. Adını qoymuşdu, bu Ordubat əriyidi, bu ağ ərihdi, bu keçi məməsi üzümüdü, bu alyanax,[44] nə bilim, həpsini deyirdi.

Onnan sora şəfdəli varıydı. O toxumların hammısını ordan gətirib özünə bağ salmışdı. Biz 88-də gələndə də baxdım, aynı atamın bağı, necə üzümləri tar yapıb. Ermənisdan tərəfdən gəldih biz 88-də. Baxdım üzüm bağlarının hammısı aynı mənim atamın saldığı bağ kimindi. O zaman öz-özümə dedim ki, deməy, atam burdan gətirib o şeylərin hammısını, aynısını salıb oruya.

Biz Iğdırda doğulmuşux. Ancax babamız, atamız o tərəfdə doğulub. İrəvan hizasında. Bir az yuxarsında, bu

---

[44] alyanax – bir üzü ağ, bir üzü çəhrayı rəngə çalan üzüm növü

tarafda Kərimbəyli var. Kərimbəyli, Qalxan kəndi var o tayda. İndi Ermənistan dediyimiz yerdə. Musaoğlu Abbas deyirdilər məən atama. O Musa orda ölmüşmüydü, gəlmədi, yoxsa niyə özü keşmişdi. Qız (bizə müraciət edir – top.), uşağıx da, soruşmamışıx, onnar da qorxularınnan çox demirdilər. Ancax məən atam danışırdı belə. Elə bil ki, bizə dərs verirdi məkdəb kimi. Biz də o zaman anlamırdıx ki. Ya boğuşurdux, ya bir-birimizi vururdux. Uşağ ağlı da. Belə oturax dinliyəh (S. 9).

### 3.

Mən uşağıymışam. Altı-yetdi yaşımda ancax yadıma gələr da. Birazını görürəm, birazını da hayəl edirəm, yanı bilirəm. Birazın da onnardan eşitdihlərim. Atam bir gün əkin suvarmağa gedir. Arazdan su gəlir da.

Məsələ, Kərimbəyli var aşağısında, yuxarsında Gecəzən var. Tam Arazın qırağıdı da. Ordan arx gəlir, Arazın suyu. Ordan kəsib şey suvarıllar. Deyir, baxdım ki, iki dənə atdı gəlir. Elə bir gəlir ki, sürətnən. Mən tez, deyir, qaşdım girdim şeyə, buğda tayaları var da, tayaan bir bağını çəhdim, girdim içinə. Gəldilər, bu hara qaşdı, hara getdi, deyiblər. Hatta deyir, biri də deyib ki, gəl bunu oda verəh, yandırax. Sora o birsi də deyib ki, yox, buralardadı, hara gedəcəh? Gediblər o taya qalıb, gidərkən elə o birsi... Tayalar da şeydi da, on beş dənə, iyirmi dənə. Belə bağları yığırsan. Buğdaan yığıb bağlıyıllar bəndəmnən. (Bəndəm, buğdanın başağı olur da. Buğdanı çəkillər bir belə, beş-on dənə. Bir belə də o yannan, onu belə hörüllər. İki dənə şey dəyil? Bir dəsdə buğda burda, bir dəsdə burda. Bunun başını belə eliyillər.

Hördülər, bağladılar, qoydular. Sora bunu açıllar o yığdıxları buğdanı buun arasına qoyullar. Sora dönüllər onu büküllər, o orda olur sağlam. Neynirsən elə, uçmaz. Yəni ordan traxtura yühlüyəcəhlər, ya da mal arabasına yühlüyəcəhlər, əvə gətirəcəhlər, o dağılmaz. Ancax üyüdəndə belə açırsan). Onu on beş dənə, iyirmi dənə taya yapıllar. Bir az burda. Gedillər bir az o tərəfdə. Gediblər o birsini yandırıb geçib gediblər. Bunu eliyənnər də mən, nə bilim, deyir, o yannan ya casusmuş, ya nəymiş da. Ermənilərmiş. Kim olar?

Məən çiçəm də, anamın anası, Əllicəmdə qalırdı o. Ayrı bir kəntdə. O hardadı? Tam Arazın belə qırağındakı yerdədi. Adam burdadı, bizim əsgər də burdadı. Bir-birlərinə çörəh-mörəh də verillərmiş, danışıllarmış. Arazın o tərəfiynən. Elə yaxınıydı. Çiçəmgil orda olurdu. Çiçəm də çox şeylər bilirdi. Çiçəm də anlatdığına görə, danışdığına görə, Göyçə mahalınnanıymış. Gözləri belə mavi. O hər gün gözünə sürmə çəkməsə olmazdı, özü də belə imparator kimi bir qadınıydı. Dört dənə oğlu, iki dənə qızı vardı. Hər kəs ona sayqı duyurdu ağa kimin. Sözü keçirdi, elə bir qadınıydı. Çiçə deyirdih ona biz. Çiçəmin adı Urqiyə (S. 9).

**4.**

Məəm qardaşım Seyfətdinin ablası rəhmətə gedənnən sora biriylə əvləndi. Onun nənəsi də, anasının anası da o taydan əvliymiş. İki dənə oğlu varıymış. Qaçanda (erməni zülmündən qaçanlari nəzərdə tutur – top.) qocası yaralanıb. Elə deyillər qurşunluyublar.[45]

---

[45] qurşunnuyublar – güllələyiblər

Bu o tərəfdən əvliymiş. Abla deyirih qardaşın arvadına. Qardaşımın arvadının nənəsi o tərəfdəniymiş. Qaçaqaş zamanında iki dənə də oğlannarı varmış. Qaçıblar, qocasını[46] qurşunluyublar. Qocası qalıb orda. Sora bunnar bu yana keçib. Soradan ayrıldı. Onnan sora deyiblər ki, eyiləşdi. Qocan eyiləşdi, uşaxlarını götür gəl. Bu da oğlannarını götürüb gedillər. Sora oğlannarını bunun əlinnən alıllar, qadını göndərillər bu yuza. Bu da bu yannan bir Mürsəl kişiynən əvlənir. Ablam bi kərə anlatmışdı. Yanı oturanda nə, televizyon yoxuydu, bir şey yoxuydu. Bunnar anlatılırdı. Nağıllar deyirdih (S. 9).

**5.**

Bizim mallarımız çoxuydu. Bizim yeka həyatımız varıydı. Orda əmimin arvadı, uşağı, bu yanda bizimkilər. Bir araya yığışanda, məsələ, gəlinnər, qızlar bir sürfa qurardıx yerdə. Çobannarımız da çoxuydu, mal otaran, quzuçu, çoban. Dört-beş dənə çobannar varıydı. Onnara da bir, kişilərə də bir. Üş sürfa qururdu anam. Üş sürfada çörəh yeyirdih. Çobannarimiz kürtdərdəniydi. Kirvə deyirdih, kirvələrimiziydi. Ama çox yaxşıydılar, abırlıydılar. Diyəlim ki, biz burda oturmuşux, burdan keşməzdilər. Qızdar, gəlinnər oturub o kişilər burdan keşməzdi, yolunu uzadıb uzaxdan keçərdilər. Kürtdərə qız verməzdih ama (S. 9).

**6.**

Əsil bizim kəndin adı Qamışlı oluf, sora Qannı deyiflər ona. Nə bilim nəysə Qannı deyiflər da. Orda qamış

---

[46] qocasını – ərini

bitərmiş, ora suluğ oluf qabaxca, orda qamış-zad bitib. Bizim kənd nə qalxoz olmuyuf, nə savxoz olmuyuf. Qannıdı elə. Eləcə bax rayonda, məsələn, şofer olan şofer oluf, qəzet idarasında işdiyən gedib işdiyib, gəvə toxuyan gəvə toxuyuf, qartof əkiflər qapılarına. Bizim kənd elə olub. Böyüh kəndiydi, hə. Elə işdiyiflər. Qalxoza-zada tabe olmuyub bizim kənd. Bizim torpaxları da alıf başqa kəntdərə, məsələ, Tüsdülü erməni kəndiydi, böyrümüz Kərkibaşıydı (Kərkibaş müsurman kəndiydi), onnara bölüb o vaxdı veriflər bizim torpaxları, sahə torpaxlarını. Biz eləjə qalxozsuz, savxozsuz yaşamışıx.

Ay bala, erməni imkan verirdimi? Rayona çıxmağa qoymurdular, harda görsələr, tutuf döyürdülər. Bizim Qannı kəndində neçə evi yandırdılar hələ çıxmamış. Bizim kəndi yandırdılar. Biri mənim bibimin evi, asfaltın qırağınnan Yerəvana, Sevana gedən yolun qırağındaydı da ev, asfalta yaxınıydı. Həmən o evləri yandırdılar. Sora erməniynən nə qədər şeylədilər, daa baxdılar ki, əlaj yoxdu da. Erməni Yerəvannan tökülüf gəlir ki, sakqallı-sakqallı kişilər ki, çıxın. Daa məjbur qalıf hamı uşağını götürdü, məjburu çıxdılar. Kim evini-eşiyini qoyuf çıxardı?

O qabax vaxtdar da dağılıb e. Onda məəm anam, dədəm uşağ olufdu. Qızım, onnar (yaşlıları nəzərdə tutur – top.) danışırdı, biz onnara fikir vermirdiy axı elə. Uşağıydım da, deyirdim ki, əşi nə bilim. Onda da erməni-müsurman hak-hesavı oluf, onda da çıxardıflar. Sora bir də qayıdıflar geri. Hər keş öz kəndinə gəlif, orda da məskunnaşıflar (S. 11).

## 7.

Əslində biz, babalarım da, o Göyçə gölünün elə bil qərb hissəsində (indi ermənilər oranı Axtamar addandırır) Adatəpəsi deyirih da, babalarım orda yaşıyıf. Bizimkilər oruya Adatəpəsi deyirdilər, soradan orda bizim məbəd oluf, müsəlman məbədi oluf. İndi onu dəyişdirərəy eliyiflər xristiyan məbədi. Məbədi yox, daha doğrusu, kilsə eliyiflər. Ama əslən ora mənim babalarım yaşıyan kəndin məbədi oluf. Sora onnar ordan gör neçə dəfə qaşqın düşüflər. Bir dəfə Çarın vaxtında orda yola getmədihlərinə görə ərzə veriflər ki, belə-belə də, burda yola getmirih, belə olur, helə olur. Həmin o Adatəpəsinnən sora Şorca kəndi var orda. Biri var Yuxarı Şorca, Aşağı Şorca, bir də Şorca var, üş dənə kənd var. Gəliflər oruya, nəysə daa bütün tayfa orda yaşıyıf, bir neçə tayfalar. O vaxt tayfalarnan axı tanınırdı bütün orda camaat. Bu vaxtı verdihləri ərzənin cavabı olarax, bu dəfə malakan rusdarını gətirif ora yerrəşdirif, bunnarı köçürdürlər Aşağı Şorcuya. Oralar da bir az meşəliy oluf, gözəl yerrər oluf. Bunnar gələnnən sora pərən-pərənə düşürlər, bunnar isdiyiflər köşmüyələr. Sora deyiflər, yox e, köşməlisən burdan. Rusdar köçürdüf malakannarı yerrəşdirir, rus malakannarının o sürgün olunmuşdarını yerrəşdirirlər. Deyir, bir də baxdın ki, arabalar çıxdı gəlir. Bunu da mən babamnan eşitmişəm. Həə, deyir köşdüh gəldih bu dəfə Aşağı Şorcuya. Aşağı Şorcadan da tayfalar bölündü, indi yerrəşmiyif də, elə bir yerdədi ki, o da, bir az dağın döşüydü. Gəlif düzənniy olan Yuxarı Şorca kəndinə yerrəşdilər. Həə, Yuxarı Şorca kəndinə gələnnən sorasına orda məskunlaşıf. Qabaxcan

Aşağı Şorcuya, sora Yuxarı Şorcuya gəliflər. Savetin vaxtında bu qaşqın ermənilərə deyirdilər qaxdağan ermənilər, yanı gəlmə. Gəlmə erməniləri gətirib yerrəşdirdilər yavaş-yavaş. Orda Norakert kəndi varıydı, yanı nora-təzə, bilmirəm o kert yadımda döyül, nədi. Deməli, təzə kənd kimi dəə, bax, belə gəlir. Bir-bir, orda sora Bilan kəndi varıydı, ora yerrəşdilər, sora o Martuni deyirlər, indi Qarannığ rayon. Göyçənin beş dənə rayonu var. Ordan da başdadılar azərbaycanlıları sıxa-sıxa gətirdilər o dərəcəyə çatdı ki, artıx o Bəyazit rayonu, deməli, o erməniləşdirilən o Bəyazit (indi Kamo addandırılır) orda da azərbaycanlıları sıxışdırarax, heç orda bir-iki kənd qalmışdı. Qalan hamısını çıxartdılar. Hajı Muxan deyirdilər, nə bilim, bəzi kəntdər vardı, onnarın hamısını yavaş-yavaş sıxışdırdılar (S. 14).

**8.**

Bizim öz tayfamız da çalıb-çapan tayfalardan oluf, qoçax tayfa oluf. Babam danışırdı onu. Deyirdi ki, orda bi dənə zad, ağa gəlmişdi, Avanes ağa, həmən o Bəyazit şəhərinə. Ümumi o Göyçüyə bu ağalığ eliyirdi, deyir. Daa artıx uje gəlif yerləşmişdilər, erməniləşdirmişdilər e. Daa artıx bizə imkan yoxuydu, həm də Çar onnarın arxasında, deyir, dururdu. Həmin vaxdı deyiflər, Avanes ağıya nə cür ziyan vurax? Deyiflər:

– Munun bir ilxısı var, bu ilxının qabağında da bir dənə ayqırı var.

Deyif:

– İmmeni ona ziyan vurmaxdan ötrü gedib onun ayqırını mən gətirəjəm.

Deyiflər:

– Sən gətirəmməzsən.

Getdih, deyir, bir daşdıx belə yer varıydı. Deyir, dedi ki, özünü gözdə. İlxı gəlsə, bizi əyağ altına alar. Deməli, Süloğlu Qasım varıymış. O da bizim tayfadan oluf. Bu Qasım kişi gözdüyür-gözdüyür, ilxının qavağında qaçıb. Adamı görəndə ayqır insana doğru gəlirmiş. O qədər azğınlaşıf ha ilxı. Ayqır buna doğru gələndə bu kəməndi hazırrıyır. Gör nə qədər cəld adam olub. Kəməndi atır, atı minir, deyir ki, sən burdan heç yana çıxma. Ayqır getdihcə ilxı da gedir. Bütün hər teritoriyi hərriyif ilxıyı yorur. Bu gətirir ayqırı, çatdırır buruya, deyir, getdih. Bunu tərkinə alır, götürür gəlir Göyçüyə.

Nəysə, Avanes ağaya çatır ki, bə belə-belə, ilxının ayqırı yoxdu, kimsə aparıf. Deyir:

– Elə şey olmaz, mən Avanes ağa olam, bu boyda Göyçə əlimdə, nətəər ola bilər ki, munu kim apara?

Deyillər:

– Aparsa-aparsa Yuxarı Şorcada filankəs var, aparsa o aparajax.

Avanes ağa gəlir, nəysə, bunun qavağına çörəh-zad qoyullar. Deyir:

– Yemirəm, yox. Manıa bircə, deyir, gösdərin görüm o ayqırı gətirən kişi kimdi, oğlan kimdi?

Bu da deyif ki, a kişi, çörəyini yeginən, biz nə bilirih, bizim xəbərimiz yoxdu. Deyir:

– Yox e, mən Göyçəni ələm-ələm eləmişəm, tapmamışam.

Bunu gətirsə, deyillər ki, göyçəli, məsəlçün, Vaqif-gillər olurdu e burda, o Yaqufgil, Kamandar. Bax onnarın

babaları Qasım kişi. Həə, Süloğlu Qasım deyirdilər. Deyillər ki, o gətirif. Deyir:

– Əşi, çörəyini ye, yaxşı olar.

Deyir:

– Mən onu görməy isdiyirəm e, o ayqırı nətəər gətirif?

Daa ayqır da elə yeyif azğınnaşmış ayqırıymış da, muna görə. Qarşısındakı deyir ki, o bəyaxları ki, sənnən burda oturmuşdu e, o balacaboy oğlan. Bax həmən oğlan ayqırı götürüf gətirmişdi. Deyif ki, o ayqırı verdim ona, mən getdim. Deyif:

– Yox, sənin ilxın yiyəsiz qalar. Ala, bu ayqır.

Deyif:

– Onda onnan yaxşı bir at verəjəm. Onnan yaxşı da bi dənə buzoylu inəh verəjəm ki, qoy o kişi aparsın, uşaxları sağsın, yesin. Halaldı ona o ki, elə bir iş görüb (S. 14).

# VII. NAĞILLAR

## 1. ŞAHZADƏ SALEH

*Əzizlərim, bu nağılı manıa 1940-cı ildən qavax atam söyləmişdi. O, nağıllarnan məşğul olan adamdı. Biz də uşağıdıx da, onun sözdərinin bəzilərin öyrənmişih. İndi o belə deyirdi: Şahzadə Salehin nağılı*

Belə nağıl eliyillər ki, ən qədim zamanlarda Sərəndib ölkəsində bir şah varıydı. O şaha deyərdilər Cəlal şah. Orasın da deyim ki, Sərəndib ölkəsi indiki Məkkəynən Mədinə arasında yerləşən ölkədi. Bəlkə də, heş kitaplarda Sərəndib ölkəsi yoxdur.

O zamannarıydı ki, şahlıxlar azıydı, şahlar bir-birrəriynən qılışnan dava eliyirdilər. Bu şahın da qırx nəfər ən yaxşı, ən bacarıxlı pəhlivannarı varıdı. Bu pəhlivannaların da iki nəfər sərkərdəsi varıydı. Birinin adı Əmiri-Səyyafıydı, birinin adı Əmiri-Teyyubuydu. Bunnan başqa həmin patşahın iki oğlu varıydı. Böyüy oğlu iyirmi beş yaşdı Şahzadə Saleh, kiçiy oğlu Şahzadə Valeh iyirmi yaşdıydı. O zamannarı da oxutmax da varıdı, təlim keşməh də varıdı. Molla yanında oğlannarını tamam oxutmuşdu. Eyni zamanda qılış vurmax, at oynatmax, güləşməh və başqa şeylər də öyrətmişdilər.

Şahzadə Saleh çox qüvvəli və çox gözəliydi. Eyni zamanda Şahzadə Salehin bir gülşən bağı varıdı. Gülşən bağınnan da ayrı özünün bir imaratı varıdı. Onun da güneyində yaxşı bağı varıdı. Ayrı bir imaratda yaşıyırdı, qavağında qulluxçusu, filanı. Bu cavan oğlanıdı, hər şeyi

kutarmışdı, hər şeyi öyrənmişdi. Bu ürəyinə gəldi ki, bir yarış keçirsinnər, görəh şahlıxda ən qüvvəli kimdi? Ona görə də getdi Əmiri-Səyyafın yanına. Dedi:

– Əmiri-Səyyaf, mən belə qərara gəldim ki, gəlin mənim gülşən bağımda yarış keçirdəy, oynıyax, güləh, eyni zamanda pəhlivannarı güləşdirəh. Görəh kim yaxşıdı, kim pisdi, kim yıxılır, kim durur? Biləh, görəh ən qüvvəli bizim şahlığımızda kim olajax? Bax, onu tanıyax.

Əmir Səyyaf etiraz eləmədi. Şahzadə Salehin fikrini bəyəndi. Hazırrıx işdəri gördülər. Bir cümə günü gülşən bağına yığıldılar. Bura həm pəhlivannar gəlmişdi, həmi oynuyannar – rəkqasdar gəlmişdi, həmi də çalğıçılar. Bunnar başdadılar oynamağa, gülməyə, sora başdadılar biri-biriynən güləşməyə. Təşkil elədilər, iki nəfər adam güləşirdi, hər kəs yıxılsa, o geri dururdu, başqa biri gəlirdi. Belə-belə otuz səkgiz pəhlivan güləşdi, axıra qaldı Əmiri-Səyyafnan Əmiri-Teyyuf. Əmiri-Səyyaf Əmiri-Teyyufu yıxdı, deməy, igiddər içərisində ən güjdü adam Əmiri-Səyyaf oldu. Gənə də oturdular, yedilər-işdilər, rəks elədilər. Şənniy axşam tərəfinə qədər çəhdi. Axşam tərəfi Şahzadə Saleh Əmiri-Səyyafa dedi ki, Əmiri-Səyyaf, mən də özümdə güc hiss eləyirəm, gəl sənnən güləşəh, görəh sən qüvvəlisən, yoxsa mən?

Dedi:

– Şahzadə Saleh, mən səni bu camahatın içərisində yıxa bilmərəm, isdiyirsən, özüm yıxılım, səni mən biyabır eliyə bilmərəm.

Şahzadə Saleh dedi:

– Xeyir, mən pəhlivan döyüləm, mən yıxılsam da, zərər yoxdu, mən özümdə olan qüvvəni sınamağ isdiyirəm

ki, mən nəyə qadirəm, hansı qüvvəyə qadirəm. Mən onu bilməy isdiyirəm, yoxsa mənim güləşməhdə başqa məqsədim yoxdu. Nə qədir başarsan, çalışginən yıxasan.

Deməh, bunnar razılaşdılar, başdadılar güləşməyə. Keçmişdə də güləşəndə igiddərin əyağında qassa[47] olurdu, dizdərinə dəmir geyinirdilər ki, dizi yerə gələndə əzilməsin. Bular güləşəndə elə olurdu ku, bir-birinin dizi yeri sürürdü, xış kimi yeri yarırdı. Çox güləşdilər. Əmiri-Teyyuf nə qədir elədi ki, Şahzadə Salehi yıxsın, yıxa bilmədi. Şahzadə Saleh Əmiri-Səyyafın dizin qoydu yerə, arxasını qoydu yerə. Əma çox ajığı tutmuşdu.

Dedi:

– Çox incitdin məni, nejəsən öldürüm səni?

(Əmiri-Səyyaf) dedi:

– Onsuz da mən səni yıxseydim, atan məni öldürtdürərdi.

Şahzadə Saleh dedi:

– Zarafat eliyirəm.

Əmiri-Səyyafı qaldırdı, təzədənnən çaldılar, oynadılar, güldülər, yedilər-işdilər. Axşam hamı dağılıp getdi evinə. Şahzadə Saleh də öz evinə getdi. Getdi yıxıldı yatdı. Səhər tezdənnən həmişə olduğu kimi yerinnən durdu, gülşən bağına gəldi. Gül varıdı, çiçəh varıdı, bulax varıdı, su varıdı. Getdi əlini yudu, üzünü yudu. Qayıtdı gəldi otağa girəndə gördü otaxdan ətir iysi gəlir. Gözətçiyi çağırdı ki, mənim otağıma ətiri kim səpif?

Gözətçi dedi:

– Şahzadə, sənin otağına heş kim gəlif-eləmiyif.

---

[47] qassa – dizlik. Başqa bölgələrdə buna ayna da deyirlər.

Dedi:

– Ola bilməz. Bəs onda bu ətir hardandı?

Dedi:

– Bilmirəm.

Başdadılar axdarmağa. Axdardılar, axdardılar, gördülər, mütəkgənin altında üç gül, bir də məktub var. Məktubda yazılırdı: “Hörmətli Şahzadə Saleh, mən Şahənşah Pəri patışahın qızı Gülzar Pəriyəm. Dünən axşama qədər otuz nəfər kənizimnən bərabər sizin şənnihdə işdirak elədih. Yediy-işdiy, oynadıx, siz bizi görmürdünüz, biz sizi görürdüh. Siz bəni-adəm olsanız da, sanıa aşıq olmuşam. Ölməh var, dönməh yoxdu. Cavabı yaz”.

Məktubu oxuyanda qulluxçuyu çağırdı ki, bəs sən deyirsən, buruya heş kəs gəlmədi. Bə bu məktubu kim qoydu? Qulluxçu dedi:

– Şahzadə, görürsən, o yazır ki, dünən axşama qədər sizin məclisdə iştirak elədiy otuz nəfər kəniznən bir yerdə. Siz bizi görmürdünüz, biz sizi görürdüh. Bə sən otuz nəfəri görmüyüfsən, mən onu hardan görüm? Məleykədi, qapını açanda qouf da, çıxıf gedif, mən neynim ona?

Deməh, bir gün keçənnən sora bu xəbər şaha da çatdı, şahın arvadına da. Bular çox narahat oldular. Qarolçunu çağırdılar, gözətçiyi çağırdılar. Dedilər ki, sizi biz bura gözətçi qoymuşux ku, birdən bizim oğlumuzun yanına gələn olar, gedən olar, zəfər yetirən olar.

Nəysə, bu gün belə keşdi. Şahzadə Salehin ürəyinə bir tıkqıltı düşdü, savağısı günü yenə də bullar – Şahzadə Saleh çıxdı, üzünü yudu. Qayıdıf otağa gələndə gördü, dünənkinnən də ətir çoxdu. İndi ətirin yerin bilirdilər.

Yasdığı gedip qaldırıp gördülər ki, bu səfər beş güldür, bir şəkildi və bir məhtupdu. Yazır: "Hörmətli Şahzadə Saleh, sən demə ki, sanıa aşıq olan qız necə qızdı. Bax, bu mənim şəkilim. Ölməh var, dönməh yoxdu. Mən səni sevirəm, sən də məni sev və manıa cavab yaz". Beləcə də yazıf ha!

Təzdənnən bu xavar getdi şaha çatdı, şahın arvadına çatdı. Şah oğlunu çağırdı:

– Oğul, gəl səni evləndirim. Hansı şahın qızını isdiyirsən, alım gətirim.

Şahzadə Saleh dedi:

– Heş yana gedən döyüləm, heç evlənəsi də döyüləm.

Deməh, bullar narahat oldular. Ağladılar, sıtqadılar. Dedilər, indi biz nə biləh, o qız kimdi? Gedərsən onun dalıncax düşərsən, sanıa pis olar.

(Şahzadə Saleh) dedi:

– Yox, bilmirəm o haralıdı? Şahənşah pəri şahın qızıdı. Amma nətərdi, nejədi, onu bilmirəm.

Axırı ata-anası and işdilər ki, sən o qızın dalıncax getmiyəjən. Bu da and işdi ki, mən o qızın dalıncax getmiyəjəm. Ancax qəlbində qıza vurulmuşdu. Ona görəydi ki, evlənməh xoşuna gəlmirdi.

İndi bu çox fikir eliyirdi ki, qızın məhtuvuna cavaf nə yazım? Xülasə, yazdı. Yazdı ki, ey mələh! Atam manıa and işdirif. Mən heş yerə gedə bilmirəm. Özü də sən sevirsən məni, mən də səni sevirəm, ancax manıa imkan yoxdu sənin dalıncax gəlməyə.

İkinci gün bunun məhtuvunun cavabı gəldi. Qız yazırdı ki, sən mənim dalımcax gedə bilməzsən, nə də məni tapa bilməzsən. Ancax sən fikrini düzəlt. Mən də öz

ata-anamı razı salım. Çünki olar da razı olmaz mənim bəni-adəmə getməyimə. Öz ata-anamı razı salım. Onnan sora mən özüm gələrəm. Mənim dalımcax gəlməhnən sən bir tərəfə çıxa bilməzsən. Mən özüm gələjəm. Anannan, atannan pis olma, həmişə oların sözünə bax.

Bunnan sora olar mütamadi olarax bir-birinə məhtub yazdılar. Ollar hər ikisi bir-birinə məhtubu yasdığın altına qoymaxnan çatdırırdılar. Bullar günnərin belə keçirirdilər. Bullar günün burda keçirməhdə olsun, sizə başqa bir pəri patışahınnan söylüyüm.

Başqa bir pəri patşahının bir qızı vardı – Səyyat Pəri adında, yeddi də oğlu varıdı. Onun iki qoşun bölməsi vardı: biri pərilər qoşunuydu, biri də devlər qoşunu. Pərilər qoşununun rəhbəri öz qardaşı oğlu Şəmail Pəriydi, Devlər qoşununun sərkərdəsi Uduvan devidi.

Bu qız gəlip yetişmişdi on səkgiz yaşına. Heş kəsə getmirdi. Uduvan dev də bu qızı isdiyirdi. Başqa şahlıxlardan da gəlip bu qızı isdiyənnər varıdı. Nə qədir isdiyirdilər, heş kəsə ərə getmirdi. Atası, anası bunu çox dannadılar. Dedilər, ay bala, day bizim qapımız hər gün doludu adamnan, hörmətdi adamları geri qaytarırıx. Day sən qutar e, qutar! Kimə gedirsən, get. Öz əmin oğlu Şəmail Pəriyə get.

(Səyyat Pəri) dedi:

– Ata, onda icazə ver gedim, bir ay gəzim gəlim, əgər Şəmail Pəridən gözəlin tapsam, ona gedərəm, tapmasam, onda Şəmail Pəriyə ərə gedərəm.

Deməh, icazə verdilər. Səyyat Pəri öz kənizdəriynən bir ay gəzdi. Pərilər ölkəsini gəzdi, bəni-adəm ölkəsini gəzdi, cinnər ölkəsini gəzdi, şəitinnər ölkəsini də gəzdi.

Şəmail Pəri kimisin tapa bilmədi. Bir aydan sora gəldi, atasına dedi ki, ata, daha razıyam, məni əmim oğluna verə bilərsən. Çox sevindilər, sora çox götür-qoy elədilər. Ağsakqal, qarasakqal dedi ki, bir ad qoyax, bir balaca nişan qoyax, üç aydan da sora toy eliyərih. Deməh, bunnar qohum-qardaş getdilər yığıldılar bir yerə, qızı nişannadılar Şəmail Pəriyə. Bunnan sora Şəmail Pəri öz bağına gedirdi. Öz kənizdəriynən gedirdi, özünün xüsusi bağı vardı. Bağda gəzirdi, gəlirdi. Bunnan sorasına Şəmail Pərisiz orda çörəh yeyə bilmədi. Əmisi oğluna sifariş elədi ki, hər günorta gəl biznən baravar burda çörəh ye, get. Bunnan sora hər günorta Şəmail Pəri gəlirdi, yeyir-içirdilər, sora Səyyat Pəri qalırdı, Şəmail Pəri gedirdi.

Günnərini bir ay, iki ay belə keçirdilər. Sora bir gün oturup çörəh yeyirdilər. Çox sənniy eliyirdilər, rəks eliyirdilər, oynuyurdular, gülürdülər. Bir də gördülər ki, başdarının üsdündə otuz bir dənə göyərçin hərrənir.

Səyyat Pəri dedi:

– Pəri, bu, hər kəsdisə, bizə kölgə salır. Sən icazə ver, onnarı məclimizə dəvət edim.

Dedi:

– Əmiqızı, məsləhətdi. Bir kənara çıx, onnardan xayiş elə. Bəlkə, adamdılar, insandılar, pəridilər, bəlkə, elə quşdular.

Səyyat Pəri çıxdı kənara, dedi:

– Ey quşdar, sizi and verirəm Allaha, hər kəssəniz, yenin gəlin, bizə qonax olun, bizim məclisimizdə işdirak eliyin.

Deməli, bunnar hamısı geri çəkilif yerə töküldülər, oldular otuz bir qız. Qızdarı məclisə dəvət elədilər. Bu vax Şəmail Pəri dedi:

– Əmiqızı, indi sizin qız qonaxlarınız gəldi, mən gedim, lazım olsam, çağırarsınız.

Deməh, Şəmail Pəri getdi, bullar başdadılar söhbət eləməyə. Yedilər, işdilər, oynadılar, onnan sorasına bu gələn qonaxlardan soruşdu:

– Siz kimsiniz? Hardan gəlirsiniz, haraya gedirsiniz?

Bu gələn qızdarın başçısı dedi ki, biz cinih. Bular da mənim kənizdərimdi. Mən də bir oğlana nişanlanmışam. Bizdə də adət-qaydadı, qız olanda gedip hər yeri gəzməyə icazə verillər. Amma gəlin olannan sora ərimizin yanınnan o tərəfə gedə bilmərih. Ona görə də mən getdim hərrəndim gəldim və icazə verdim, məni də öz əmim oğluna nişannadılar. İndi yeddi günnən sora bizim toyumuz olacax. Mən də gəldim, sizin şənniyinizi gördüm. Sizə kölgə salmax isdiyirdim, mən yenməy isdəmirdim. Məclisiiz xoşuma gəldi, isdədim, sizin üsdüüzə kölgə salam, siz çörəh yeyasız. Siz də dəvət elədiz, mən də yendim.

Bunnan sora Səyyat Pəri başdadı:

– Məni də neçə yerdən isdədilər. Atam dedi get, anam dedi get. Hər kəsi dedilər, xoşuma gəlmədi. Atamnan icazə aldım, getdim. Bütün pərilər ölkəsinə, devlər ölkəsinə. Pərilər ölkəsində axdardım, amma heş kim xoşuma gəlmədi əmim oğlu Şəmail Pəridən başqa. Gəldim əmim oğlu Şəmail Pəriyə icazə verdim, razılıx verdim və atam məni ona nişannadı. İndi elə bu saatacan burdaydı. Siz gələndə durdu getdi.

Dedi:

– Səyyat Pəri, onda əmioğlunu çağır. Görəh o nejə oğlandı ki, sən onu burda qoyup başqa yerdə adam gəzirsən.

Pərilərin birin yolladılar getsin Şəmail Pərini çağırsın. Şəmail Pəri gəldi. Bu cinin qızı çox bəyəndi Şəmail Pərini.

Səyyat Pəriyə dedi:

– A bajı, sənin dünyada dərdin-qəmin yoxdu. Belə oğlanı nişannamısan, tay sənin dərdin, qəmin olmaz. Nə üçün bunu burda qoyuf, başqalarını gəzirdin?

Səyyat Pəri dedi:

– A bajı, mənim dərdim həddinnən artıxdı. Mənim dərdim kimi dərt yoxdu.

Dedi:

– Xeyir ola.

Səyyat Pəri dedi:

– Mənim dərdim onnan ibarətdir ki, mən əmimn oğluna nişanlanannan sorasına o itip, yoxdu.

Qız kiridi, sora cevinnən bir kağız çıxartdı. Cinin qızı oxudu dedi ki, Uduvan dev, devin bir xalası var – Fitneyi-cadu. O gedip Fitneyi-cadudan isim[48] öyrənməyə. Sizə gəlif xətər toxuyajax – deyəndə Səyyat Pəri ağladı. Bunun ətəyinnən tutdu, dedi:

– Aman günüdü, deyəsən, sən hər şeyi bilirsən. Aman günüdü, biz neyliyəh ki, o bizə xətər toxumasın?

Dedi:

– Səyyat Pəri, san$_{ı}$a yazığım gəlir. İndi ki belə oldu, mən iki gün qalaram. San$_{ı}$a müəyyən isimləri öyrədərəm, ancax gedif toyumuzu kutarannan sorasına öz nişannımı da götürüf gələrəm. Nişannım Şəmail Pəriyi öyrədər, mən də səni öyrədərəm. Olardan canınız kurtarar.

---

[48] isim – Tilsim mənasında işlədilir.

Deməh, belə razıdaşdılar. Şəmayil Pəriyə dedi ki, Şəmail Pəri, bu qız belə deyir.

Dedi:

– Əmiqızı, onda mən gedim, siz qalın. İki günnən sora olar gedəndə məni çağırarsan, gələrəm.

Dedi:

– Yaxşı.

Şəmail Pəri getdi. İki gün bular dərs keşdi, isimləri öyrəndi. Məsələn, min kilometri necə getməh, necə gəlməh, necə gözə görümməh, necə gözə görünməməh, necə başqa sifətə düşməh. Bu isimlərin hardasa yarısınnan çoxunu öyrətdi. Sora Səyyat Pəriyə xavar göndərdilər ki, daha qızdar getməy isdiyir. Sorasına Şəmail Pəri otuz bir dəst paltar gətirdi.

Dedi:

– Qonaxlar, siz xoş gəlifsınız, xoş gedirsınız. Biz sizin toyunuzda işdırak edə bilmiriy. İndi zəhmət çəkif gəldin$_{ı}$ız, biznən tanış oldun$_{ı}$uz. Bu da hərənizə bir dəs paltar bizdən hədiyyə.

Toy paltarrarıdı, götürüp geyinip. Deməh, qızdar götürüp getdilər. Vədə elədilər ki, toyumuzdan sora nişannımızı götürüp gələyin. Bunu da razılaşdılar. Bullar çıxdı gedə. Bullar gedənnən sorasına Şəmail dedi:

– Ay əmiqızı, san$_{ı}$a bir söz deməy isdiyirəm. Olarmı? İcazə verirsənmi?

Dedi:

– Buyur, əmioğlu.

Dedi:

– Vallah, hər günorta çağırırsan məni buruya. Çörəh yeyirik, su içirik. Amma qızdarın yanında sanıa biz söz deyə bilmirəm, danışa bilmirəm. Biz xüsusi söhpət eliyə bilmiriy. İcazə verərsənmi, heç olmasa, sənnən bircə gün təh qalax da, söhpət eliyəh.

Dedi:

– Əmioğlu, vallah, mənim də ürəyimnən keçirdi. Amma fikirrəşdim ki, sən manıa yaxşı baxmazsan. Deyərsən, bu qız nə hayasızdıx eliyir. Elə mənim də ürəyimdə oyudu. Əgər razısansa, qızdarı yolluyum getsin. Özümüz tək qalax.

Deməh, Səyyat Pəri kənizdərə dedi:

– Ay qızdar, gedin. Biz burda təh qalacıyıx.

Bullar getdilər. Bullar gedənnən sora qucaxlaşdılar nejə bir ər-arvat kimi, öpüşdülər, bir-birrərinə sıxıldılar, əhdi-peyman etdilər, keçmiş ürəhlərində olan sözdəri danışdılar. Onnan sorasına əzaf çəhdihlərini bildirdilər. Bu xeylam çəhdi. Sora gördülər hava qaralıf, yağmax isdiyir.

Səyyat Pəri dedi:

– Əmioğlu, gəl burdan çıxax gedəh. İndi yağış yağajax.

Dedi:

– Yağış bizə neyniyəjəh? Biz qucaxlaşarıx, yağış təpəmizdən töhsə də, biz çox isdanmarıx.

Səyyat Pəri dedi:

– Yox, mən bu yağışdan qorxuram.

Yağış başdadı. Bu vaxt yağışın içinnən bir səs gəldi. Dedi:

– Ey Şəmail Pəri! Mən sənin əminin ölkəsini qoruyajam, sən də gedip əminin qızıynan kef eliyəjən? Dayan gəldim.

Sora bu yenə dedi:

– Dilini bağla, əlini aç. Görüm manıa neynirsən?

Belə deyəndə Səyyat Pəri qorxusunnan bir çivin oldu da, getdi bir ağacın deşiyinə girdi. Şəmail Pəri qaldı burda. Bu vaxt bulutdan bir ildırım çaxdı Şəmail Pərinin bütün başına. Şəmail Pəri yandı, kül oldu, bir dəri qaldı, bir sümüy. Əridi də, töküldü. Təzədənnən bulut çəkildi.

Səyyat Pəri ağlıya-ağlıya getdi, atasına dedi ki, Şəmail Pəri belə oldu. Yığıldılar gəldilər, Şəmail Pərinin sümühlərini yığışdırdılar apardılar. Yas başdadı. Yasın səhərisi günü gördülər ki, Səyyat Pərinin bir qardaşı yoxdu. Matəmin ikinci günü ikinci qardaşı yox oldu, üçüncü gün üçüncü qardaşı yoxdu, dördüncü gün dördüncü qardaşı yoxdu, beşinci gün beşinci qardaşı, altıncı gün altıncı qardaşı və nəhayət, yeddinci gün yeddinci qardaşı yox oldu. Nə qədir axtardılar, nə ölüsünü, nə də dirisini tapdılar.

Atası dedi:

– Ay qızım, mənim başıma bəla gətirən sənsən. İndi get qardaşdarını tap, ya ölüsünü tap ver manıa, ya da dirisini.

Bunnan sora Səyyat Pəri başdadı ölkə-ölkə gəzməyə. Qardaşdarının vəziyyətinnən halı olmağa.

Səyyat Pəri bəni-adəm ölkəsini, devlər ölkəsini, pərilər ölkəsini gəzirdi. Heş yerdə bu barədə söz-söhbət olmurdu. Ancax bir pərilər ölkəsində danışırdılar ki, filan patışahın yeddi oğlu itip. Ancax qızı da onu axtarır, heş bir yerdə tapa bilmir. Bax, eşitdiyi aman-zaman bu sözdəriydi. Nə qədir ölkələr gəzdi, bir xəbər almadı. Bu pərilər ölkəsinin yaxınnığında bir böyüh sahə varıdı. Çox meşəliyidi, dağlıx-daşdıx, vəhşi heyvannar – oralar heş bir devin-fılanın ayağı aşmırdı, getmirdi. Onun şimal tərəfi

Səyyat Pərigilə yaxınıydı. Fikirrəşdi ki, gedim, bəlkə, öldürüp, oralarda meşənin qırağına-zadına atıplar. Durdu bir bülbül sifətinə düşdü də, çıxdı getdi. Uça-uça getdi, şimal tərəfdə gördü bir bulax var. Suyu qumun içinnən çıxır. Lilparlı bulaxdı, axır, beş metirrihdə batır. Susamışdı, düşdü yerə, pəri sıfatına düşdü. Sudan işdi, əlini yudu, üzünü yudu. Gördü ki, elə bir yaxşı hala düşdü kü, heç olmıyan təki. Elə bil anadan təzədən doğulup. Oturdu, əlini-üzünü yuyannan sora çox fikirə getdi. Burda bir ağac vardı, bulağın üst tərəfində. Oturdu onun altında, başdadı ağlamağa. Bir az ağlamışdı, gördü ağacın başına üç göyərçin qondu. Biri dedi:

– Ay bajı, siz bu qızı tanıyırsınızmı?

O biri dedi:

– Tanıyıram, bəli. Səyyat Pəridi, onun yeddi qardaşı itip. İndi bilmir, hara gedip, atası da ona tənə edir. Bu da düşüp çöllü-biyabana, nə qardaşının ölüsünü tapır, nə də dirisini.

Onatan üçüncü göyərçin dedi:

– Ay qız, eşit. Bax gör, sağ tərəfdə böyüh qayalıx var, onu görürsənmi?

Dedi:

– Bəli, onu görürəm.

Dedi:

– Onun bəri divində bir quyu var, Fitneyi-cadunun ora mağarasıdı. Sənin qardaşdarını Uduvan dev aparıp, Fitneyi-cadunun yanında bir otaxda gizdədip. Onun məksədi budu ku, bu yas məsələsi kutarsın. Onnan sorasına adam göndərsin ki, Səyyat Pərini manıa versinnər, mən

onun yeddi qardaşın axtarım tapım. İndi onu ancax bir bəni-adəm kurtarajax. Adı Saleh, özü saleh, kürəyinin arasında da, əlif işarəsi var, get, o oğlanı tap gətir. Qoy sənin qardaşdarına köməy eliyip oları quyudan çıxartsın.

Bu qız çox sevindi. O, o dağın divinnən çox keçmişdi, amma o quyunu görməmişdi. Durdu, sevinə-sevinə yola düşdü. Başdadı bəni-adəm ölkəsini gəzməyə. Utandığınnan qayıdıp, atasının, anasının yanına getmirdi. Atasının, anasının da gözü ağlamaxdan tutulmuşdu, amma ürəhləri yananda da bu qıza tənə eliyirdilər. Deyirdilər: "Xalxlar qızınnan xeyir görür. Biz də qızımızı böyütdüy, oxutdux, bir gözəl elədiy, ancax axırda zərərin gördüh". Odu kun, atasının-anasının yanına getmir, gözdərinə də görünmürdü. Evlərinə gedəndə də öz pəri qızdarının yanına gedirdi. Lazımı sözdəri ollara deyip qayıdırdı.

Sözüm onda döyül, bu, həmin o bəni-adəmi axtarırdı. Çox gəzdi, amma tapa bilmədi. Məsəl üçün, gedirdi bir kəndə, Saleh adlı bir adam tapırdı. Elə vaxt olurdu ku, həmin adam bir həftə soyunmurdu. Onun kürəyinin arasına baxa bilmirdi. Bir həftədən sora baxırdı kı, bu, axtardığı adam döyül, əlif işarəsi yoxuydu kürəyində. Ona görə işi çox uzanırdı. Nə qayıdıp evə gələ bilirdi, nə paltarın dəyişə bilirdi. Bu minvannan nə qədir kənd-şəhər axtarsa da, tapa bilmədi. Axırı başına sirkə düşdü, pit düşdü, əynindəki paltarı da töküldü. Bir dilənçi sifətində, bir bulağın başında, ağacın altında oturup ağlıyırdı kı, ey xudaya, mən neylədim ki, məni bu hala saldın? Mən neyləmişəm ki, manıa bu qədir əzab verirsən? Keşkəm mən öləydim, mən olmayaydım, mənim qardaşdarım bu hala düşmüyəydi.

Belə-belə ağlıyırdı. Bir də gördü kü, göydən bir dəsdə göyərçin yendi yerə. Bu göyərçinnər otuz bir dənəydi, sora oldu hərəsi bir qız, otuz bir qız oldu. Olardan biri ayrıldı gəldi. Bu da başı aşağı durur. Dedi göyərçin:

– Ey qız, kimsən, nəçisən, niyə ağlıyırsan?

Bu qayıdıp baxanda gördü kü, Gülzar Pəridi. Gülzar Pəri bunu tanımadı, amma bu onu tanıdı.

Gülzar Pəri dedi:

– Niyə ağlıyırsan? Dərdü de görəh, çörəh isdiyirsən verəh, su isdiyirsən verəh, bir yana getməy isdiyirsən səni aparax, çıxardax.

Daha da bu, Gülzar xanımı gördü, başdadı ağlamağa. Sora yıxıldı Gülzar xanımın ayağının altına, başdadı öpbəyə. Dedi:

– Ey Gülzar xanım! Mənim dərdim çoxdu, mən sail döyüləm.

Bu vaxt Gülzar Pəri onu qaldırdı, saşlarına baxanda gördü, bu, Səyyat Pəriyə oxşuyur. Dedi:

– Ay qız, sən Səyyat Pərisən?

Dedi:

– Bəli.

– Bəs sən niyə çöllərə düşüpsən? Nədi sənin məksədin? Hanı sənin çadırrarın, hanı sənin kənizdərin? Bu nə haldı, ay bajı?

Dedi:

– Onnarın hamısı məhv oldu, getdi. Mən bu günə düşmüşəm dərd əlinnən.

Daha Gülzar Pəri bir söz demədi. Əmir elədi qızdara, çadırrarı qurdılar. Qızdara Gülzar Pəri əmir elədi, çörəh

hazırrıyın. Sora su qoydurup, Gülzar Pəriyi[49] çimizdirin. Sora əmir elədi ki, buna təzə libas geyindirsinnər. Bütün bunnarı eliyənnən sorasına onu gətirip oturtdular məclisdə. Xörəh hazır oldu, yedilər-işdilər. Yeyip-içənnən sorasına dedi:

– İndi de görüm, dərdin nədi, sən nə üçün bu günə düşüpsən?

Səyyat Pəri əvvəldən başdadı nə qədir ki mən sizə söyləmişəm, buruya qədər hamısını söylədi və dedi ki, mən bir dənə bəni-adəmi axtarıram. Adı Saleh, özü saleh, kürəyinin arasında da əlif işarəsi. Nə qədir axtarıram, tapa bilmirəm. Özü də quş olup hər yeri gəzirəm. Nə fayda? Tapbıram ki, tapbıram. İndi evə getməyə üzüm yoxdu. Yol axtarıram kı, özümü necə öldürüm, bu həyatdan canımı necə kutarım.

Gülzar Pəri dedi:

– Ay qız, qorxma, yaxşı olar, darıxma. Sən gözəlsən, sən pəri xanımsan. Sənin xətiri mən çox isdiyirəm. Sənnən də dosdux, tanışıx. O oğlanın yerin mən bilirəm, əmma... – deyəndə Səyyat Pəri dedi:

– Bajı, əmma nədi?

Dedi:

– O mənim nişannımdı, qorxuram gedəsən, onnan əlaqiyə girəsən, söhpət edəsən, onu mənim əlimnən alasan.

And işdi, əyaxlarına döşəndi, əyaxlarınnan öpdü, əlinnən öpdü, dedi:

– Gülzar Pəri, mən and içirəm anamın südünə, and içirəm atamın çörəyinə, ömrümün axırına kimi sanıa kəniz

---

[49] Söyləyici Səyyat Pərini bir çox yerdə Gülzar Pəri adı ilə təqdim edir. Burada da Səyyat Pəri əvəzinə Gülzar Pəri deyir. Mətnin digər hissəsində həmin yanlışlıqlar düzəldilib.

olaram. Mən sənin nişannını əlinnən almaram, manıa köməy elə. De, o kimdi? Nəçidi? Harda yaşıyır?

Gülzar xanım dedi:

– İnandım andına. Gedərsən Sərəndip şəhərinə, orda Cəlal şah var, onun böyüh oğlu var – Şahzadə Saleh, özü saleh, kürəyinin arasında da əlif işarəsi. Gözəl bir oğlandı, pəhlivan oğlandı. Belə bir oğlan nə devlərdə, nə pərilərdə, nə də bəni-adəmdə var. Mən onu özüm sevmişəm, onnan da məhtublaşmışam. Mən ona söz vermişəm, o da manıa. Mən ona gedəjəm, indi get onu axtar, tap. Onun ayrıja evi var, ayrıja bağı var. Get bağdamı görəjən, evdəmi görəjən, get axır ki, onu tap. Onu nə dilnən gətirəjən, onu bilmirəm. Ona and işdiriplər, o, mənim dalımcax gəlmiyəjəh. Atası-anası onu heş yana buraxmır. Onu gətirməh sənin öz boynaa.

Səyyat Pəri Gülzar Pəriynən öpüşüp ayrıldı.

Səyyat Pəri dedi:

– Gülzar Pəri, sanıa mən kənizdiy eliyəjəm, əgər o mənim qardaşdarımı tapıf versə.

Durdu, düşdü yola. Bu səfər Gülzar Pəri ona Sərəndib ölkəsin göstərmişdi. Gəldi çıxdı Sərəndip ölkəsinə, axtardı Şahzadə Salehin otağını tapdı. Gördü kü, Gülzar Pəri buna həqiqi aşiq olup. Dünyada nə gözəllih varsa, Şahzadə Salehdədi. Fikirrəşdi ki, mən neyliyim? Buna and işdiriplər ki, heş yerə getməsin. Mənnən getmiyəjəh, mən necə eliyim ki, mənnən getsin? Çox fikirdən sora bir balaca bülbül olup otağın içində bir yerə gizdəndi.

Şahzadə Saleh bu vaxt yıxıldı, yatdı. Otağın içi dümağ işiğıydı.

Birdən Səyyat Pəri bülbül sifətində dilləndi:

– Ey şahzadə, uyan!

Uyandı, gördü heş kəs yoxdu. Səyyat Pəri görünmürdü. Sora Səyyat Pəri dedi:

– Ey Şahzadə Saleh, savah yoldaşdarıynan Ceyrançölə çıx. Orda gözəl bir ceyran görəssən. Ona ox atma, onu qılışnan vurma, onu tut. O, sənin qismətindi, onnan axırda xeyir görərsən.

Şahzadə Saleh baxdı, gördü, heş kim yoxdu. Səhərə qədər yuxusu gəlmədi, yata bilmədi. Səhər tezdənnən duruf getdi Əmiri-Səyyafın yanına. Dedi:

– Əmiri-Səyyaf, başıma belə bir iş gəldi, qeyipdən manıa bu sözdəri dedilər. Hazırraş gedəh, görəy o ceyran necə ceyrandı.

Dedi:

– Baş üsdə, şahzadə, səhərə hazırrıx görərih.

Şahzadə Saleh yüz nəfərnən atdı oldular. Kəmənt götdülər, qılış götdülər, ox götdülər. Ancax Şahzadə Saleh əmir elədi ki, ancax onu onun kəməndinən tutajıyıx. Ona qılış vurmax olmaz. Ona ox atmıyajıyıx, onu diri tutmalıyıx, manıa belə tapşırıplar.

Çıxdılar Ceyrançölə, getdilər, gördülər, bir ceyran otduyur. Qaşı qara, gözü qara, saşdarı tökülüf üzünə, kürəyinin ortasında zeh var. Qara zehin o tərəf, bu tərəfi qara tühlərdi. Qara tühlər qız saçı kimi o tərəf, bu tərəfə tökülmüşdü. Özü kök, yorğa yeriyən atdar kimi elə yeriyir ki, inan, onun ayağının altında çivin[50] qalsa, heç ölməz.

Dedi:

[50] çivin – milçək

– Əmiri-Səyyaf, görürsən nə ceyrandı? Bunu öldürməh olmaz. Bunu ancax kəməndinən tutmax lazımdı.

Əmir elədilər, yüz nəfər atdı bu ceyranı dövrüyə aldılar. Yavaş-yavaş qoşun ceyranın halqasın daraltmağa başdadılar. Ceyran gördü, qoşun bunu tutur, yavaşıdı. Axırı ki, qoşun atdan düşdü, yedəyinə aldı ceyranı. Şahzadə Salehnən Əmiri-Səyyaf qoşa gedirdi. Şahzadə Saleh dedi:

– Əmiri-Səyyaf, sən mənim atımı saxla, mən gedim əlinnən tutum, ona yaxınnaş! O mənim əlimnən qaça bilməz.

Onu deyim ki, hələ ova gəlməmişdən qavax Şahzadə Saleh demişdi ki, ceyran kimin tərəfinnən qaçsa, onun boynu vurulajax. Əmiri-Səyyaf onun bu sözünü yenidən onun yadına saldı. Sora dedi, hamısınnan yaxşı qoy mən gedim tutum. Əgər ceyranın baldırı bunun əlinə keşsəydi, day qaça bilməzdi. Ceyran şahzadənin sözün eşitmişdi, oyudu ku, başqa adamın yanınnan qaşmax isdəmədi. Oyudu ku, şahzadənin başının üsdünnən hopbandı qırağa. Şahzadə peşiman oldu. Dedi:

– Əmiri-Səyyaf, mən məğrurruğ elədim. Mən dedim ki, kimin yanınnan qaşsa, onun boynun vurdurajam. İndi mən özüm gedəjəm ceyranın dalıncax.

Nə qədir yalvardılar, yapışdılar kı, bu getməsin, amma bu razı olmadı. Dedi:

– Ancax özüm gedəjəm, bir az da hirsdəndi, onnan sorasına hamı dağıldı.

Şahzadə Saleh də getdi ceyranın dalınca.

Ceyran görür kü, Şahzadə Saleh hansı sürətnən atı sürür, o sürətnən qaçırdı. Ceyran gördü kü, bu ox atmağ isdəmir, ancağ əlindəki kəməndinən onu tutmağ isdiyir.

Ona görə də ceyran buna mənzil verirdi ki, kəmənd ona çatmasın. Özü qəsdən elə yolnan gedirdi ki, at ona çata bilməsin. Dəriyə düşmürdü, təpiyə çıxmırdı, düzən yerrərnən gedirdi. At da çətinnih çəhmədən bunun dalıncax gedirdi. Belə-belə axşama qədər getdilər, axşam bir meşənin qulağına çatdı. Şahzadə yorulmuşdu, atı bulağın başında yançıdar[51] elədi. İsdədi çörəh yesin, bir də fikirrəşdi ki, bir az dincəlim. Sora durub, yeyib uzandı. Uzandı, bir sahat sorasına qaltdı, xurcunu da götdü gəldi bulağın başına. Bulağın başına çatanda gördü, bir xoruz – beçə bişip, təzəcədi, ət buğlanır.

Dedi:

– Ey yeməyin sahıvı! Kimsən, nəçisən, nə karəsən? Çıx meydana.

Nə qədir çığırdı, heş kəs səs vermədi. Fikirrəşdi ki, qeyifdən manıa urza gəlip. Oturdu bu ətin yarısını yedi, yarısını da səhərə saxladı. Sora gəldi atın yəhərini aldı, atı tumarradı, onnan sorasına yıxıldı, yatdı. Səhər açılanda fikirrəşdi kı, ceyran qaşdı, çıxdı getdi. Çıxım gedim evə. Bir də baxdı kı, ceyran orda otduyur. Bu ceyran başıynan him elədi ki, gəl. Şahzadə Saleh gördü kü, ceyran bunu çağırır, düşdü yenə ceyranın dalınca. Dünənki gəlişdən özünə nəticə çıxartdı.

Dedi:

– Bu kimdisə, məni harasa aparır, qoy bunun dalıncax gedim, görüm hara çıxır?

Deməh, bu dediyim kimi on beş gün yol getdi. Hər gün o xörəh hazır olurdu, hər gün yeyirdi, səhərə də

---

[51] yançıdar – uzağa getməsin deyə heyvanın ipini ayaqlarına sarımaq

saxlayırdı. Bu minvalnan on beş gün yol getdi, çox yoruldu, bədəni kirrəndi. Getdi, bir bulağın başına çatdı, sora özün-nən getdi. Bir zaman ayıldı ki, bir imaratın içərisindədi. Dörd tərəfində qızdar oturup. Gözünü açıp dedi:

– Bura haradı, məni bura kim gətirip?

Qızdardan biri irəli gəlip, dedi:

– Ey şahzadə! – Gördü kü, paltarınnan şahzadiyə oxşuyur. O dövrdə də paltarınnan şah da tanınırdı, nökər də. – Sən hardan gəlif, harıya gedirsən? Sən gəlip bizim bulaxda xəsdələnmişdin. Üş gündü ayıltmağ isdiyiriy. Axır kin, zornan ayıltmışıx. Söylə görəh, hardan gəlip, harıya gedirsən? Kimsən? Nəçisən?

Dedi:

– Mən Sərəndip ölkəsində Cəlal şahın oğluyam. Məni ora bir ceyran gətirdi. Ama bilmirəm, hara aparır.

Qızdar dedi:

– Sənin isdədiyin-zad varmı?

Dedi:

– Vallah, elə nişannım yoxdu, amma bir sevgilim var, Gülzar Pəridi adı.

Dedi:

– Odu. Sən çox yorulmusan. Ayıpdı Gülzardan. Sən çim təmizdən, yarım ay da bizə qonax ol. O qız da mənim dosdumdu, gedər, onu gətirərəm, götürüp çıxıb gedərsən. Bu qızdar ona xidmət elədi.

Şahzadə Saleh soruşdu:

– Ay qızdar, siz kimsiniz?

Qız dedi:

– Zəfər Cin padişahın qızıyam mən. Bular da mənim kənizlərimdi. Səni gətirmişih, sanıa qonax kimi hörmət eliyəjih.

Bu, özünə gələnnən sorasına qız dedi:

– Şahzadə Saleh, mən onnan da gözələm. Neynirsən Gülzar Pərini axtarıp? Uzaxdı. Mən sana ərə gedirəm. Gəl razılaşax, gedim sanıa.

Şahzadə Saleh dedi:

– Əzəl, birinci, mən ona söz vermişəm. İkinci tərəfdən, biz sənin dilini bilmirih, sən də bizim. Gedər, ata-anamnan dolanmazsan.

Bu, and içip dedi:

– Dolanaram, sənin xatirin üçün sənin atannan da, anannan da dolanaram, gedəh.

Dedi:

– Yox, mənimki ancax Gülzar Pəridi, ikinci söz ola bilməz.

Dedi:

– Yaxşı, sən onda burda dayan. Mən bir altı nəfər də götürüm, gedim.

Deməh, bu şahzadə qız altı nəfər də götürüp getdi Gülzar Pəriyə qonax. Bular pəri qızdarı, cin qızdarı, şəitin qızdarı – bular hamısı dostudular, bir-birrərini tanıyırdılar. Gülzar Pəri Zəfər Cin patişahının qızını gördü. Qabağına yeridi, üzünnən öpdü, xoş gəldin elədi.

– Ay qız, sən nə yaxşı buralara gəlmisən? Ay qız, – dedi, – sən bir bəni-adəmi salıpsan düzdərə. Niyə bunnara bu qədir əziyyət verirsən?

Dedi:

– Bəni-adəm kimdi ki?

Dedi ki, Şahzadə Saleh. Dedi:

– O hardadı?

Dedi:

– O, gəlip bizim bulağa çatmışdı. O, özü də, özünnən getmişdi. Biz onu gətirip qonax kimi saxlamışıx. Sora da öyrənmişih ki, sən onu sevirsən, o da səni. Biz başa düşdüh kü, sən ceyran sifətində onu gətiripsən. Odu ku, gəlmişih aparax səni. Sən də qoşulup ona çıxıp gedəsən.

Dedi:

– Ey pəri! Ey qızdar! Mən onu sevirəm. O məni görmüyüp, ama mən onu görmüşəm. Mən ona gedəjəm. Mən onnan başqa heş kimə getməyəjəm. Ancax mən ceyran sifətində onu gətirməmişəm. O kimsə də onun ayrı məksədi var. Ceyran məksədinə çatsın, mən onnan sora gedəjəm. Siz xoş gəlifsiniz, gedin ona salam aparın. Deyin ki, arxeyin olsun, mən heş kimə gedən dəyiləm, yalnız ona gedəjəm. O, əl çəhməsin, o ceyranın dalıncax getsin.

Bu qızdar qayıdıp olan məsələnin hamısını Şahzadə Salehə dedilər:

– Bə indi neyliyirsən, nağayrmağ isdiyirsən?

Şahzadə Salehdən soruşdular. Dedi:

– Səhər qayıdıf ölkəmizə gedəjəm.

Qızdar hazırrığ işdəri gördülər. Yola çörəh-zad hazırradılar, qoydular. Səhər hamısı dəsibir[52] başladılar Şahzadə Salehi öz ölkəsinə yola salmağa. Elə gəldilər, bulağın başına çatanda bir də gördülər, ceyran ordaja otduyur.

Dedi:

---

[52] dəsibir – birlikdə

– A qızdar, a qızdar, bax, bax, bax, həmən ceyrandı məni gətirən.

Qızdar baxdılar, valeh oldular ceyranın gözəlliyinə. Dedilər:

– Oğlan, elə bu ceyrandı? Bu saat onu tutarıx.

Dedi:

– Tutun.

Otuz bir qız dövriyə aldı, günortayatan nə qədir ortuya aldılar, hopbandı, çıxdı qırağa, hopbandı, çıxdı qırağa. Axırı Şahzadə Saleh dedi:

– Ay qızdar, mənim ceyranım məni aparır. Qayıdın gedin, hörmətinıza görə sağ olun.

Daha öyrənmişdi yolun-yolağazın. On beş gün də yol getdi. Yenə xəsdələndi, yolda qaldı. Bir də gözün aşdı kı, bir başqa qızdardı, başqa imarətdi, bu da onnarın ortasındadı.

Dedi:

– Məni bura kim gətirip?

Bir qız irəli durup dedi:

– Biz gətimişih, sən gəlip bizim bulaxda xəsdələnipsən. Ona görə də biz səni gətirdih bir qonax kimi, sağaltmışıx, özuva gətirmişih. Söylə görüm, kimsən? Hardan gəlip, hara gedirsən?

Bu, başına gələn əhvalatdarı söylədi və dedi:

– Məni bir ceyran gətirip.

Dedi:

– Sənin nişannın-zadın varmı?

Dedi:

– Nişan qoymamışıx, amma Gülzar Pəriynən məhtubumuz var. O məni görüp, mən onu görməmişəm. Mən onu alajam, o da maa gələjəh.

O qızdar dedilər ki, sən burda otur, mən gedip onu gətirərəm, o mənim dosdumdu. Dedi:

– Nolar, get gətir.

Bu səfər də Bulqarı Cininin qızı bir beş-altı nəfər də özüynən götdü, Gülzar Pəriyə qonax getdi. Gülzar Pəri bulların hamısını tanıyırdı. Xoş gəldin elədi, qəbul elədi, çörəh, su qoydu. Çox ehtiramnan sora dedi:

– Nə yaxşı gəlifsiniz?

Bular gəldikləri məksətdəri dedilər. Dedilər:

– A qız, bu bəni-adəmi niyə düzdərə salıpsan, yazıx döyülmü?

Dedi:

– Bəni-adəm kimdi?

Dedi:

– Şahzadə Saleh.

Dedi:

– O hardadı?

Dedi:

– Bizdədi.

Dedi:

– Nəynən gəlif? Kim gətirif onu ora?

Dedi:

– Belə-belə deyir, bir ceyran gətirip. Sən döyülsən?

Dedi:

– Xeyir, mən ceyran döyüləm, nə də onu ceyran kimi gətirməmişəm. Yəqin ceyranın bir məksədi var. Mən ona

gedəjəm, onnan başqa heş kəsə getmərəm. Gedin mənnən salam aparın ona. Deyin kı, Gülzar Pəri deyir ki, gessin ceyranın dalıncax. Ceyran məksədinə çatannan sorasına mən özüm gələjəm. Onun mənim dalımca gəzməsi lazım döyül, nə də getmirəm. Mən gessəm, ceyranın məksədi pozular, qorxmasın, gessin ceyranın dalınca.

Bullar isdəhlərinə nail ola bilmədilər, kor-peşman geri qayıtdılar. Gəldilər oğlana xəbər verdilər ki, Gülzar Pəri belə dedi. Dedi:

– Ay qızdar, sağ olun.

– İndi harıya getməy isdiyirsən?

– Nağayıram qayıdıp, evimizə gedəjəm.

Qızdar buna çörəhdən-sudan hazır elədi. Aparıp yola salanda gördülər, ceyran gənə orda otduyur. Dedi:

– Bax budu, bax bu ceyran.

Bu qızdar buna baxıp, heyran oldular. Dedilər:

– Ey oğlan, həqiqətən də, sən namusdu, qıryatdı bir oğlansan. Belə ceyranın dalınca getməh yaxşıdı. Heş belə ceyranın sözünnən çıxmağ olmaz. Bu ceyran sanıa necə xidmət eliyir?

Dedi:

– Vallah başqa xidmətini bilmirəm, ancax qeyipdən manıa xörəhlər gəlir, yeyirəm. Bu da dağa-daşa düşmür. Elə yolnan gəlir ki, mən atı sürə bilirəm, dəriyə-təpiyə düşmür, çaya-çaylağa, uçuruma getmir. Düzən yollarnan gedir, mən də atımı sürürəm dalıncax.

Dedi:

– Oğlan, get, Gülzar Pəri də dedi, gessin.

Dedi:

– Sağ olun.

Bullardan ayrıldı. On beş-iyirmi gün yol gəldi, bəlkə də, bir ay yol gəldi. Deməh, Gülzar Pəri bunu gətdi bulağa kı, göyərçinnər bulaxda bu sözü demişdi. Gəldi bulağa, bulaxda oturdu. Atı bağladı, gördü qəşəh sudu, işdi. Belə baxanda gördü, yaxşı meşə xoruzdarı var, oxu götürüp beş-altısını vurdu, gətdi dəridən çıxartdı. Turulğadan[53] süpürgə qayırdı. Odun yığdı, kabab bişirdi, gördü kü, sağ tərəfdən ağlaşma səsi gəlir. Kabavı odun üsdünə düzmüşdü, gedəndə gördü kü, bir ağacın dalında gözəl bir qız elə ağlıyır, elə ağlıyır kı, gözünnən yağış kimi abu-leysan tökür.

Dedi:

– Ay qız, sən kimsən, niyə ağlıyırsan? Bu sahibsiz meşədə niyə ağlıyırsan?

Qız daha da köörəldi, daha da ağladı.

Qılıcı çəhdi, dedi:

– Boynunu vurram, kiri sanıa deyirəm.

Kiridi. Əlinnən tutdu, çəkə-çəkə gətdi bulağın yanına. Gəldi gördü, kabavın da yarısı yanıp. Dedi:

– Ay qız, sənin uzunnan kabavın da yarısı yandı. Bişir kabavı.

Qız qorxusunnan kabavı bişirdi, otdular baravar yeyənnən sora dedi:

– Ay qız, sən kimsən, niyə ağlıyırdın? Sənin atan-anan, qardaşın bu meşəliyə səni niyə buraxır? Belə gözəl qız sahıbsız meşədə neyliyirsən?

Baa kövrəldi, daha da ağladı.

Dedi:

---

[53] turulğa – kol

– Şahzadə Saleh, mənim başıma bəlalar gəlip. Əgər and işsən, sanıa köməy eliyim, mən dərdimi sanıa söylüyərəm.

Bu baxdı, çox fikirrəşdi, dedi, nolar qız xeylağıdı, elə savafdı, görəh nə deyir? Odu kun, and işdi, dedi:

– Anamın südü hakqı, sanıa köməy eliyərəm, söylə.

Bu əvvəldən başdadı danışa-danışa əhvalatı düz buruya çatdırdı, hamısın buna danışdı. Dedi ki, kastumuun yaxasına bax gör, o çil-çil nədi?

Dedi:

– Bilmirəm, yaqın yağış suyudu.

Dedi:

– Yox, yağış suyu döyül, o mənim göz yaşdarımdı. O xörəyi sanıa özüm gətirirdim. Bir dəfə gedip kənizdərimə əmir eləmişdim ki, manıa xörəyi hazırrıyın, saxlıyın. Uçuf gedirdim, xörəyi gətirirdim, gejə sənin yanında yatırdım, kürəyuu arasına girirdim, atu gözdüyürdüm. Ağlıyırdım, göz yaşdarım tökülürdü sifətimə, ordan da paltaraa düşürdü. Sən o bulaxlarda xəsdələnəndə də, o qızdara qonağ olanda da mən ağlıyırdım. Mən görürdüm səni, sən məni görmürdün. Nəhayət, səni buruya gətirdim. İndi sən burda quş vurup, bişirməhdə oldun, mən də çəkilif qayanın divinnən baxırdım. Gördüm ku, qayanın dibi od tutup yanır. Deməh, sən nə ora girə bilərsən, nə də ordan adam çıxarda bilərsən, ona görə də ağlıyırdım.

Dedi:

– Ay qız, Allaha pənah, səbr elə, görəh, nə olur axırı.

Bir az oturmuşdular, gördülər, həmin göyərçinnər bir də gəldi.

Göyərçinin biri dedi:

– Ay qızdar, Şahzadə Salehi qız tapıb gətirip.

O biri dedi:

– Nolsun tapıb gətirip, ora od tutup yanır, oruya girməh mümkün döyül.

Kiçih qız dedi ki, oğlan, eşit məni. Bu ismi oxu, ora bir ox at, ox gedip o pərə dəyəjəy, o keçəjəh. Qırx gün gözdü-yün, ora soyusun, soyuyannan sorasına sən yüngülləş, ancax bu isimi oxu da, yüngülləş. Qoy qız səni zoru çatıp da apara bilsin. Gedin quyunun başına, quyu qırx metirdi. Qırx metirin aşağısında bir mağaradı, üç otaxdı. Birində Uduvan div yatıp, birində Fitneyi-cadıdı, birində də yeddi qardaşındı, Fitneyi-caduynan, Uduvan dev yatır. Əvvəl Fitneyi-cadının qapısı açıxdı, o iki qapının haçarı Fitneyi-cadudadı. Qapıdan girərsən, o yuxudeykən, onun başın kəsərsən, açarı onun saçının arasınnan götürərsən. Qapını açıf Uduvan devi öldürərsən, onnan sorasına oğlannarın qapısın aç. Oğlannar o qızı çox isdiyir, baxma kı, özdəri zindandadı. Onnar qızı görən kimi qəşş eliyip yıxılajaxlar, olar özdərinnən gedəjəhlər, çatdıyıp ölə də bilələr. Olara qız görünməsin. Bu duanı verərsən oxuyar, ollar da yüngülləşər, qız sizi ordan çıxardar, gətirər buruya. Burda oğlannar əllərini yusunnar, bir az da işsinnər, içən kimi ollar öz hallarına düşəjəhlər. Eşit bil, həm sənin, həm də Şahzadə Salehin atası, anası o qədir ağlıyıp kı, oların gözdəri görmür, gözdəri tutuluf. Bu sudan götürün aparın, həm oğlanın atasına, anasına, həm də qızın ata-anasına verin, işsinnər, gözdərini yusunnar. İnşallah, gözdəri açılıp, öz övladdarını bəsrə gözdəriynən görəllər.

Bunnan sora Şahzadə Saleh dedi:

– Səyyat Pəri, day indi xoş getdin. Sən çıx get, mən də qayıdıp evimizə gedirəm.

Bala (toplayıcılara müraciət edir – tərtibçi), o bu sözdəri, göyərçinin dedihlərini eliyip Səyyat Pərinin qardaşdarın özünə verənnən sora dedi:

– Day Səyyat Pəri, qardaşdaruu verdim, çıx get!

Dedi:

– Xeyir, elə şey ola bilməz, bə mən gedip deyəjəm ki, mənim qardaşdarımı bəni-adəm kutardı, gətdi. Bə deməzdərmi ki, bu kimiydi? Ona nə hörmət elədih? Sən mutlax getməlisən.

Nə qədir yalvarırdı, Şahzadə Saleh qəbul eləmirdi. Birdən gördülər ki, bir qırmızı sakqal kişi gəldi, əma atının ayağı yerə dəymir. Səyyat Pəri bildi ki, bu müqəddəs bir adamdı. Durdu, bunun üzəngisinnən yapışdı, əhvalatı buna söylədi. Dedi:

– Baba, manıa köməy elə, Şahzadə Saleh getmir bizə.

Bu üzünü Şahzadə Salehə tutup dedi:

– Oğlum, sən biləsən ki, mənim adım Şəmail şahdı. Məni Həzrəti Süleyman buruya qoymuşdu. Mənim kitablarımda, dəfdərrərimdə yazılıf kı, buruya ilk dəfə Şahzadə Saleh gələjəh. Onun atı əbədi olarax burda sakin olajax, yəhəri də bu ağacın başında qalajax. Səni buruya bu qız gətirip, sən qayıdıp oruya gedə bilməzsən. Sənə qız bələdçilih eliyip neçə günnəri, neçə ayları. Sən ancax getməlisən şahlığa. Onnar sanıa köməh eliyip, aparajax atanın yerinə. Əgər inanmırsan, bu qardaşımnan xəvər al.

Belə qayıdıp baxanda gördü kü, şah qeyb olup, özü də şah dedi ki, burda əjdahalar var, sən gəlməmişdən üş

gün qavax manıa xavar verdilər. Olların hamısın qovup, aparıp o dağın dalına qoymuşam, saa zəfər yetirməsinnər. Ona görə də sən sağ-salamat burdan get. Atın da burda qalajax, yəhər də burda qalajax. Get, qorxma, Allah sanıa yaxşı yol versin. Odu ku, Şahzadə Saleh özünə gəldi, bulaların sözünü eşitdi, sora Şahzadə Saleh yüngülləşdi. Pəriləriydi, Şahzadə Salehi də götürdülər, uça-uça getdilər Səyyat Pərinin məhləsinə, Səyyat Pərinin o gözəl gülşən bağına. Töküldülər buruya, qız da suyu götdü getdi, atasının yanına. Əyax şıkqıltısı gəldi, atası gördü kü, kimsə də gəlir.

Dedi:

– Kimdi gələn?

Dedi:

– Ata, qızındı, Səyyat Pəridi.

– Qızım, bə hardasan neçə müddətdi? Bə tafdınmı qardaşdarını, çıxartdınmı? Ollar haqqında hardasa xəvər, səs-səda eşitdinmi?

Dedi:

– Ata, eşitmişəm, yaxşı olajax!

– A qızım, niyə yaxşı olajax, götürər, gələrdin da.

Dedi:

– Ata, indi bir iş var.

Dedi:

– Nə var, qızım?

Dedi:

– Oğlannarını gətirmişəm, yaxındadı. Ancax su gətirmişəm – dirilih suyu. Sən də, anam da içiniz, bəlkə, gözdəriniz açılsın. Öz oğluuzu özünüz görərsınız.

Oyudu ku, suyu töhdü, bullar işdilər, əllərini yudular, gözdərinə sürtdülər, bəsrə gözdəri açıldı.

Dedi:

– Durum gedim, qardaşımı gətirim.

Dedi:

– Yox, həsrət çəhmişəm, mən gedəjəm oğlannarımın əyağına.

Qoca durdu, haseynən də yeriyə bilmirdi, taqəti yoxuydu, o qədir sınmışdı, o qədir ahu-zar eləmişdi, dirənə-dirənə gəldi, Səyyat Pərinin bağına çıxdı. Gördü, oğlannarı ordadı. Görüşdülər-öpüşdülər, yığıldılar gəldilər şahlığa.

Bütün pəri ölkələrinin şahlarına xavar çatdı kı, bəli, Səyyat Pəri gedip bir bəni-adəm gətirip, o da Səyyat Pərinin qardaşdarını xilas eliyif. Hamısı yığıldılar gəldilər, bir yeddi nəfər Səyyat Pərinin atasına gözaydınnığı verdilər, şaddıx oldu. Dedilər:

– Yaxşı, bu oğlan buruya gəlif, bu şah oğludu, buna qızıl lazım döyül, gümüş lazım döyül. Örgənin görəh, bu evlidi, yoxsa evsiz.

Örgəndilər, gördülər, evsizdi. Dedi:

– İndi gəlin buna bir pəri qızı verəh, aparsın, getsin.

Deməh, bullar danışdılar, hamısı dedilər ki, nejə qızdarımızı buna göstərəh. Hamısı razılaşdılar kı, gessinnər qardaşının şəkilini gətirsinnər. Deməh, bu arada Səyyat Pəri dedi ki, Şahzadə Saleh indi bura yaxındı. Sən icazə ver, gedim Gülzar Pəriyi gətirim, bir axşam sənnən burda qalsın, üzbəüz görüşün.

Dedi:

– Çox yaxşı olar.

Deməh, Səyyat Pəri uçuf getdi, muşdulux verdi, dedi:

– Gətirmişəm nişannını, gedin üzbəüz görüşün.

Dedi:

– Çox yaxşı olar!

Deməh, "Səyyat Pəri uçuf getdi", – deyənnən sorasına onu da dedi ki, mən ölənətən sanıa kənizəm. Gülzar Pəriyi gətdi, bir gejə də Şahzadə Salehin yanında qaldı, söhbət elədilər. Dedi:

– Ay oğlan, mən özüm gələjeydim, indi ki, iş belə oldu, sən atama elçi göndər, məni ordan al gətir buruya, burdan da çıxax gedəh.

Dedi:

– Yaxşı.

Gülzar Pəri qayıtdı evlərinə. İndi bu səfər şahlar qızdarının şəkilin düzdü. Yeddi dənə şəkil düzdülər oruya. Dedilər ki, bax, bizim qızdardı, hansını bəyənirsən verəh sanıa. Əlin qoydu Gülzar Pərinin üzərinə.

Dedi:

– Mən bu qızı bəyənirəm.

Gülzar Pərinin atası çox sevindi. Dedi:

– Allaha şükür ki, bu qədir qızın içində mənim qızımı bəyəndin. İndi, ay şahlar, mən gedirəm evə. Siz həmi maa elçi gəlin, həmi qızımı çağırax, oğlanı tərifliyəh, həm də anasını razı salax. Sora qızı verim, götürün gəlin.

Odu ku, Səyyat Pəri oğlanı da götürdülər, bu altı nəfər şahları da götürdülər, getdilər Şahənşah pəri patışahına qonax. Şahənşah pəri burda lazımi qədər tədarüh görmüşdü. Yeməy-içməh, şənnih, deməh, kef-damaxdan sorasına qızını çağırdı.

Dedi:

– Qızım, bu qonaxlar bilirsən niyə gəlip? Bir bəni-adəm Şahzadə Saleh adında Səyyat Pərinin qardaşdarını ən ağır vəziyyətdən kutarıp. İndi sənin şəklini görüp, aşiq olup. Sən gedirsanmı bu oğlana?

Dedi:

– Atam verənnən sora mən niyə getmirəm? Mənim atamın sözünə ikinci söz ola bilməz.

Dedi:

– Bərəkallah, çox sağ ol, indi get ananı buruya çağır. Getdi, anasın çağırdı, anası gəldi. Bu sözdəri arvadına da dedi.

Arvad dedi:

– Sən nə danışırsan? Bəni-adəmə mən qız verə bilmərəm. Kim gedəjəh onun dalıncax, kim gələjəh? Bəni-adəmnən mənim nə işim var. Burda o qədər pəri şahlar mənim qızıma elçi gəlip ki, birinə verəjəm, çıxsın gessin.

Nə qədər yalvardılar, gördülər ki, arvad razı olmadı. Şah Gülzar Pəriyə dedi:

– Qızım, get, bəlkə, ananı başa salasan?

Təzədənnən Gülzar Pəri anasının qolunnan tutdu, apardı otağına. Başdan əyağa bu əhvalatı ona söylədi.

Dedi:

– Ana, bir ildi mən onu sevmişəm, onu gətirən də mənəm, təşkil eliyən də mənəm. Oğlannarı kutartdıran da mənəm, ona söz verən də mənəm. Mənim eşq yolumun qabağını kəsmə. Aman günüdü, mən sözümü döndərə bilmərəm, sən gəl razılığını ver.

Oyudu ku, arvat hər şeyi başa düşdü, qayıtdı, öz razılığını bildirdi. Olar öz qayda-qanunnarıynan neçə gün, neçə gejə toy elədilər, Gülzar Pərini verdilər Şahzadə Salehə.

Şahzadə Saleh həmin pərilərnən birrihdə gəldi Gülzar Pərigilə. Səyyat Pərigilə gələnnən sorasına bu şahlar dedi ki, gəlin Gülzar Pəriyi təh yola salmıyax, gəlin görəh razı qalırmı Səyyat Pəri? Səyyat Pərini də ona yoldaş verəh. Dedilər, yaxşı. Əvvəl Gülzar Pəriyi çağırdılar, dedilər, biz belə fikirə gəlmişih, sən nə deyirsən? Əsas adam sənsən.

Dedi:

– Mən heş-zad demirəm, razıyam.

– Çağırın görəh, Səyyat Pəri nə deyir? Səyyat Pəriyi çağırdılar, bu məsələyi aşdılar. Səyyat Pəri şahların qavağında əyildi, Gülzar Pərinin əyağınnan öpdü.

Ağlıya-ağlıya dedi:

– Ey şahlar, bilin, bu naniyəti[54] verən Gülzar Pəridi. Mənim qardaşdarımı kutaran budu. Mən ona söz vermişəm, ölənə qədər sanıa kəniz olajam. Odu ku, Gülzar Pərini təh buraxmıram, gedirəm Gülzar Pəriynən. Amma kəniz gedirəm, mən ona günü getmirəm, mən qıymıram o günülü olsun. Mən ölənə qədər Gülzar Pəriyə kəniz olajam.

Gülzar Pəri başını qaldırıp dedi:

– Əzizim, sən də cavansan, qıymaram sanıa, baravar gedəh. Orda da bir yaşıyax, ölənətən.

Odu kun, razılaşdılar, pərilər böyüh qoşunnan böyüh mükafatnan, böyüh qızıl-gümüşnən, bir neçə pəri kənizdərinən yola saldılar bəni-adəm ölkəsinə. Sərəndib ölkəsinə

---

54 naniyəti – məsləhəti

gəlməyə başdadılar. Qoşunnarnan birrihdə gəldilər, Şahzadə Salehin bağına düşdülər.

Şaha xavar getdi ki, Şahzadə Saleh gəlir, iki gözəl kəniz də yanında gətirir. Bu şah çox sevindi, çox ağladı, ancax gedə bilmədi, gözdəri görmədi. Dedi ki, gedin Şahzadə Salehin əlini əlimə verin. Mən onun əlinnən tanıyajam.

Getdilər Şahzadə Salehə dedilər, ataan gözü görmür, gələ bilmir. Dedi:

– Bu saat mən özüm gedərəm. Getdi, atasının, anasının gətdiyi suyu töhdü, əlin yudu, üzün yudu, bəsrə gözdəri açıldı, öz oğlun gördü.

Dedi:

– Ata, sən manıa dedin ki, getmə, mən getmədim. Ancax elə şərait yarandı ki, getdim həmin qızı da, başqa bir qızı da götdüm gəldim. İndi gəl öz gözdərınnan gəlinnara bax.

O çox sevindi, durup gəlinnərinə xoş gəldin elədi. Gətdilər öz adəti-qaydalarıynan neçə gün, neçə gejə toy eliyip, yenidən o iki gözəli Şahzadə Salehə verdilər. Şah öz başınnan tacı çıxarıb, qoydu Salehin başına, dedi:

– Oğul, çox sağ ol sən etdiyin hünərə görə, mən sənnən razıyam. Düzdü, mən demişdim getmə, ama Allahtaala yazannan sora heş kəs onun qarşısın ala bilməz. Allaha şükür kü, getdin, öz nişannnı gətirdin.

Bunnan da nağıl qutarır, çox sağ olun, eşidənnər də sağ olsun. Siz də öz arzu-diləhlarınıza çatasınız. Övlatlarınız beləjə yaxşı gəlinnər gətirsin, yaxşı toy-nişan edəsiniz. Sağ olun! (S. 21)

## 2. QƏŞƏMİN NAĞILI

Belə nağıl eliyillər ki, Ərəbistan yarımadasında Misir addı bi şəhər vardı. Bu şahın adamnarı, dosdarı, mütdəfiqləri çoxuydu. Həmişə toplantılar keçirirdi, məəyyən toplantılar keçirərdilər. Camahatın vəziyyətinin yaxşılaşması üçün məəyyən işdər görürdülər. Bir günnəri də toplantı eləmişdi, bu söhpət eliyirdi. Birdən söhpət əsnasında bir dərviş gəldi. Dərviş gəldi, Allahın şəninnən yüksəy oxudu. Şahın çox xoşuna gəldi. Şah çıxartdı buna ənam verdi. Bu da civinnən bir şikil çıxartdı, qoydu şahın qavağına. Şah gördü, bu dünya gözəli bir qızdı. Dedi:

– Dərviş baba, bu kimdi?

Dedi:

– Onun adına Gülüqakqax deyəllər. O Gülüstani-Baqi-İrəmdə olur. O, güləndə ağzından gül tökülür.

Şah dedi:

– Bəh-bəh-bəh….. Belə bir oğulın ola, gedə onu gətirə, gülə, ağzınnan tökülən gülnən bütün imarətimizi bəziyə.

Bunun iki oğlu varıydı; biri evliydi, biri evsiziydi. Qəşəm bu sözü eşidip çıxdı çölə. Çıxdı çölə, ajığ elədi, çıxdı getdi. Bu xəbər şaha çatdı kı, Qəşəm məclisdən ajığ elədi getdi. Onun yoldaşdarı dedi:

– Gedin Qəşəmi çağırın, gəlsin, görüm mən ona nə demişəm?

Getdilər, Qəşəmi qaytardılar gətdilər. Dedi:

– Ateyi-mehriban, sən nə deyirsən?

Dedi:

– A bala, sən nə üçün məjlisdən getdin?

Dedi:

– Ata, sənin üç oğlun var. İkisi evlidi, bir dənə mən subayam. O dediyin sözdər manıa ayıtdı. Mən nə bilim, Gülüstani-Baqi-İrəm hardadı? Ora nejə getməy olar? Nejə gəlməh olar? Qızı nejə gətirməh olar? Bəs sən məni ölümə göndərirsən. Mən sənin məjlisində nejə durum?

Dedi:

– Ay oğul, o bir sözüdü, ağzıma gəldi, dedim. Mən bilməzdim sən ajığ eliyəssən. Sən heş getsən də, mən qoymaram.

Beləlihnən, oğlan çıxdı. Bir neçə gün yoldaşdarıynan şəhəri gəzdi. Bu şəhərin yaxınnığında dərya vardı. Həmişə ətrafında olan adamlar bura gəzməyə gəlirdilər. Orda gəzirdilər, orda balıx tuturdular. Onnarın həmişə gəzmə yeri o dərya kənarıydı. Aradan iki gün keçənnən sora bu şahın oğlu Qəşəm iki nəfərnən atasınnan icazə alıp at minip gəldilər bu dəryanın qırağına. Günorta vaxdı gələndə gördülər, balıxçılar dəryaya tor atıllar. Dedilər:

– Baxax görəh, necə balıx tutullar. Həm də alax, bişirəh, yeyəh.

Balıxçılar toru çəhdilər, çoxlu balıx çıxdı. Gördü, bu balıxların içində bir cüt balıx var. Elə gözəl balıxlardı kı, iki göz isdiyir tamaşa eləsin. Əmr elədi, bir tabax gətdilər, için suynan doldurup balığı qoydular bu tabağın içinə. Balıxların nəfəsi kutarmışdı, az qalmışdılar ölsünnər. Bir xeyli çalxalandılar, çalxalanannan sorasına başdadılar çabalamağa, sora bunnar qoşalaşdılar, başdarın çıxardıp Qəşəmin üzünə baxdılar. Qəşəm o saadı başa düşdü kü, balıxlar bunnan nicat isdiyir. Odu ku, balıxları götüdü atdı dəryaya. Balıxçı buna dedi:

– Sən balığı suya atdın, biz bunu satıp min manat alajeydih.

Qəşəm çıxartdı min manat verdi. Dedi:

– Bu yerdəki balıxlardan beş-altısın ver, bişirəh, qalanını da saa bağışdıyıram. Bu şərtnən mən burdan gedirəm, həmişə sənin yanında olmuyajam, havax bu bir cüt balıxlar tora düşsə, gəl maa xəvər ver, saa pul verəcəm.

O da dedi:

– Mənim gözüm üsdə.

Bu da bir neçə balıx götüdü, apardı, yoldaşdarı bişidi. Otudular yedilər, yatdılar. Axşam tərəfi olanda Qəşəm çölə çıxmalı oldu. Yoldaşdarına dedi, bir dəryanın qırağına gedip gəlirəm. Bir xeylax gedənnən sora gördü bir qayalıxdı, yeriyip dənizin içinə. Xeylax olar bunun məsafəsi. Burdan da keşdi, getdi bir kolun dibinə dəyip qayıdanda gördü kü, bir təpənin üsdündə bir adam durup. Dedi:

– Hörmətdi şahzadə, xoş gəlmisən.

Dedi:

– Hardan bildin, mən şahzadəyəm?

Dedi:

– Gəl dalımca.

Qəşəm dedi:

– Neynirsən məni?

Dedi:

– Mənə lazımsan.

Bu, pəhlivan kimi bir oğlanıydı, heş kimnən qorxusu yoxuydu. Addadı, keşdi bunun yanına, düşdü qabağına. Getdilər, hərrəndilər dəniz tərəfə. Dəniz tərəfə hərrənəndə gördü, meydança var, bir qapı var. Qapını aşdı, gördü kü,

bura zəfər cinnərin yeridi. Biri çalır, biri oxuyur, biri oynuyur. Hamısı bunu görən kimi başdadılar: “Qəşəm, xoş gəlifsən. Qəşəm, xoş gəlifsən”. Bunu çəkə-çəkə apardılar başa. Dedi, deməli, mən bura düşdüm. Mollaların rəvayətinə görə, zəfər cinnərin vətəninə düşən kutarar, ancax çörəyini yesə, kutarmaz. Bunu bizim ata-babadan söhbətdər edillər. Bu da fikirrəşdi, düşdüm-düşdüm, ancax çörəhlərini yemiyim. Bir nə qədər söhbətdən sora çörəh gəldi. Çörəh gəldi, buna ayrı xüsusi yeməhlər gəldi, qoydular bunun qabağına. Gətirən adam dedi ki, şahzadə, buyur, ye. Dedi:

– Mən yemiyəjəm, balıx yeyif gəlmişəm.

Gətirən adam çox təkid durdu ku, yeməlisən. Dedi:

– Qardaş, gəl açıx danışax, mən sizin yeməhdən yeməy isdəmirəm, nə də sizin içinizdə yaşamax isdəmirəm. Çünki sizin içinizə düşən adam sizin çörəyinizi yeyərsə, sizin içinizdə qalmalıdı. Mən isə şah oğluyam, öz ölkəmdə şah olmağ isdiyirəm, toy eləməy isdiyirəm. Mən sizin içinizdə qalmağ isdəmirəm.

Dedi:

– Qəşəm şahzadə, mən sanıa dost çörəyi yedirirəm, düşmən çörəyi yedirmirəm.

Dedi:

– Sən manıa necə dost çörəyi yedirirsən ki, sən mənim atama tabe döyülsən, nə də gözə görünmürsən, nə də bizdən bir ehtiyacınız yoxdu. Bə sən manıa necə dost çörəyi yedirdirsən?

Cin dedi:

– O düzdü. Qoy saa deyim, indi gör mən saa dost çörəyi yedirirəm, yoxsa düşmən?

Dedi:

– Buyur.

Cin dedi:

– Mən zəfər cin patşahıyam. Hər şey əlimnən gəlir. Dəryadan çıxmax, dəryaya girməh, göynən uşmax, yernən getməy, birinin gözünə görünməh, birininkinə görünməməh – hər şeyi bilirəm. Mən dəryalar patşahının dosduyam. Bu gün səhər getmişdim qardaşdığımnan görüşməyə. Dərya patşahıynan görüşəndə onun oğlannarı dedi – onnar da məni tanıyıllar, əmiləriyəm, – bizi apar, dərya qırağına gəzdir. Onnarı yanıma alıp dərya qırağında gəzəndə üçümüz də tora düşdüh. Sizin bir "pissimillah" sözünüz var, onu deyəndə mən tordan düşdüm. Uşaxlar qaldı torda. Onnar az qaldılar ölsünnər. Sən gəldin oruya, bir tabax gətirdin, için suynan doldurtdun, uşaxları götürüp qoydun o tabağın içinə. Onnar az qalmışdı ölsünnər. Sora onnar nəfəsdəndilər, nəfəsdəri özdərinə gəldi. Qalxıp buraxılmağ üçün sənə müraciət elədilər. Sən götürüp onnarı suya atdın. Balıxçıya da min manat pul verdin, tapşırdın kı, bunnan sora da bu balıxlar tora düşsə, at dəryaya, gəl, sanıa min manat pul verəjəm. Mən uşaxları apardım getdim, atalarına verdim. Ataları çox təşəkkür oxudu sizə. Dedi ki, vax gələr Qəşəmnən məni görüşdürərsən. O ku mənim oğlannarımı ölümnən kutarıp, onnan dost olmalıyam. Ona görə həmi o dosdu sənnən, həm də mən. İndi çörəyini ye, arxeyin ol.

Bunu deyənnən sorasına Qəşəm gördü kü, həqiqətən, dost çörəyi yedirir. Bunnarın çörəyinnən yedi. Oynadılar,

güldülər burda bir-iki saat. Durdu Qəşəmi götüdü, gətdi azad elədi. Dedi:

– Get.

Başının da tükünnən kəsdi verdi Qəşəmə, dedi:

– Qəşəm, hansı dəyqa lazım oldum, odda, yanındayam.

Qəşəm bu tükü də götdü, civinə qoydu. Gəldi, ama yoldaşdarına bir söz demədi bu barədə. Yoldaşdarıynan da bir nə qədər hərrəndilər, çıxdılar gəldilər evlərinə. Aradan bir on beş gün keçənnən sora Qəşəm yenə də yoldaşdarına təkid elədi ki, gəlin gənə gedəh dərya seyrinə. Yenə yoldaşdarı ata mindilər, gəldilər dərya kənarına. Həqiqətən də, gördülər ki, balıxçı balıx tutur. Gənə aldılar bişidilər, yedilər, gəzdilər axşam vaxdına qədər.

Axşam tərəfi gənə bu çölə çıxmalı oldu. Bunun yoldaşdarı burda qaldı. Bu, piyada getməyə başdadı. Bu səfər o dərya səmtinə tərəf yox, meşə varıydı, o səmtə getməyə başdadı. Getdi meşəliyə, bir dalda yerə dəydi. Sora gördü kü, saz səsi gəlir. Durdu, birbaşa gəldi meşənin ortasına. Gördü, meşənin qarannıx yerində iki aşıx bir şəkili asıf ağaca, oxuyullar. Elə eşqili-eşqili oxuyullar, yanıllar, tökülüllər. Gedif şəkilə baş əyillər, gəlif durullar, genə sığışmıllar, genə oxuyullar. Bu dözə bilmədi, onnarın yanına gedəndə aşıxlar gördü, adam gəlir. Dərhal aşıxlar şəkili götüdülər. Şah gəldi:

– Salam əleyki.

– Əleykə salam.

Qəşəm dedi:

– Aşıxlar, nə yaxşı oxuyursunuz, nə yaxşı söhbət edirsiniz.

Aşıxlar gördülər, bu əyninnən-başınnan şahzadiyə oxşuyur. Dedilər:

– Şahzadə, nə bilim, vallah dəə, bir az kefimiz qaltdı, oxuyurdux.

Dedi:

– Bəs orda bir şəkil varıydı, o nəyidi?

Bular gördülər ki, şəkili görüfdü.

Dedi:

– Şahzadə, o xatalı şəkildi. Xaiş eliyirəm, onu nə xəvər alma, nə də bizdən isdəmə.

Dedi:

– Bu ola bilməz. Bu şəkili manıa verəjehsiniz, onun kim olduğun manıa deyəjehsiniz.

Dedi:

– Bu, Hələp şəhərinin patşahının qızıdı. Özü də o qadağan eliyif onun qızının şəkilinin başqa ölküyə getməyini. Biz onu oğurruxnan almışıx. Özü də qız xatalı qızdı. Sən onun dalına düşmə də, getmə də.

Dedi:

– Niyə xatalıdı?

Dedilər:

– Bu qız yeddi yaşındeykən Kahal dev şəhərin üsdünnən keçəndə onu görür. Yenir, deyir o qızı manıa verin.

Deyillər:

– A dev, qızın yeddi yaşı var.

Deyir:

– Yox, ya maa verinən onu, ya şəhərinizin üsdünnən daş tökəjəm.

Bullar da qorxularınnan deyillər ki, onda qoy qız yekəlsin on dört yaşına qədər, on beş yaşına qədər. Qız sənindi.

Dev deyir:

– Mən onnan razıyam. Amma bu şərtnən ki, pul yığın, bir stadyon tikəh. Qız da mənim yanımda qalsın. Həmişə bura gələh, bu stadyonda məəyyən güləşdər keçirəh, fokusdar göstərəh, oynuyax, güləh. Toplanan pullar da mənim bir aylıx yeməyimə və burda işdiyinnərin əməh haqqında sərf olunsun.

Bunnarın əlacı kəsildi, buna da razılıx verdilər. Həmin o vaxdan indi yeddi il keçir. Dev həmişə bu stadyona gəlip. Neçə ki igid bu qıza aşiq olup stadyona gəlip, dev onnarın hamısını öldürüp. Ona görə də biz məsləhət bilmirih, sən o qızın şəkilin alasan, onun dalıncax gedəsən.

Dedi:

– Aşıxlar, xoşnan verməsəniz, sizi öldürüp şəkili tapajam.

Buların əlacı kəsildi, şəkili verdilər. Qəşəm şəkili götdü, qoydu cibinə, aşıxlara da dedi:

– Hələb şəhərini tanıyırsınız?

Dedilər:

– Bəli, tanıyırıx.

Qəşəm dedi:

– Sizi də özümnən aparajam. Mənim yoldaşım siz olajeysiniz.

Buları götdü gəldi öz yoldaşlarının yanına. Bulara dedi:

– Mənim səfərim var. Hələp şəhərinə gedirəm bu aşıxlarnan.

Bular da şah oğluna nə desin? Dedilər:

– Gedirsən, get.

Ama demədi ki, mən filan qızın dalıcax gedirəm. Bu aşıxlar dedilər:

– Bizim atımız yoxdu.

Dedi ki, sizə də at düzəldərəm. Bu iki dosduna dedi ki, atınızı verin bu aşıxlara. Bunnar razı qaldılar. Getməmiş Qəşəm fikirrəşdi ki, gedim bir qardaşdığımnan görüşüm – cin patşahıynan. Ona görə də çıxartdı tükü, yandırdı. O sahat cin patşahı gəldi:

– Qardaş, xoş gəlipsən, səfa gəlipsən. Məni nə yaxşı çağırdın?

Qəşəm dedi:

– Vallah, qız dalıncax gedirəm, devnən vuruşmağa gedirəm. İsdədim ki, sən gedip dərya patşahını gətirəsən, bəlkə, öldüm elədim, görüşüm.

Cin dedi:

– Mənim gözüm üsdə.

Ancax o söhpəti burda danışmıyax. Belə deyip bunu da götdü, getdi öz imarətdərinin yanına. Hansı kı orda şəətinnər[55] qalırdı.

Cin dedi:

– Sən burda dur, mən bu saat gəlirəm.

Getdi dərya patşahına dedi ki, Qəşəm gəlip, mənim evimin yanında səni gözdüyür. Dərya patşahı durdu gəldi Qəşəmin yanına. Bu dərya patşahı Qəşəmə öz təşəkkürünü bildirdi ki, sən mənim oğlumu ölümnən qutarmısan. Mən sənin qarşında hazıram, nə isdəsən lazımı köməhlər edə bilərəm. İndi nə yaxşı gəlifsən? Hara gedirsən? Bu danışdı, dedi ki, gedirəm Hələp şəhərinə, devnən vuruşmağa, orda

[55] şəətinnər – şeytanlar

bir qızı var, onu almağa. Dərya patşahı dedi ki, devnən vuruşmağa sənin qılıncın varmı?

Dedi:

– Var.

Dedi:

– Necə qılışdı?

Dedi:

– Misri qılışdı. Bütün məclisdə, söhpətdə hamı onu tərifliyir.

Dedi:

– Hardadı o qılış?

Dedi:

– Böyürümdədi.

Dedi:

– Çıxart, onu daşa vur, görüm.

Bu qılışı çəhdi, vuran kimi qılış para-para oldu.

Dedi:

– Sən bu qılışnan devnən dava edə bilməssən.

Dedi:

– Bə mən neyniyim?

Dedi:

– Həzrət Süleymanın devrinnən məndə bir qılış var. Gedim o qılışı da, qalxanı da gətirim belaa bağla, get, inşallah, qalip gələrsən.

Dedi:

– A bala, atın varmı?

Dedi:

– Var, bəli.

Dedi:

– Misir köhləni. Misir köhləni dillərdə əzbər olup.

Dedi:

– De görüm, Misir köhləni suda üzə bilir?

Dedi:

– Yox.

– Havada uça bilirmi?

Dedi:

– Yox. Quruda qaça bilir.

Dedi:

– Dev sənin başaa göydən daş tökə bilər, sənin atın göynən uça bilməsə, ona nejə qalip gələ bilərsən?

Dedi:

– Bə neynim?

Dedi:

– Oğlan, burdan gedərsən, üş vers yol var dəryanın qırağına, orda bir kümbəz olajax. Kümbəzin içinə keç, Həzrəti Yaqub peyğəmbərin atı dəryadadı – Nuri Səməndər. Orda yəhər var, bir də yüyən var. Dedi, götür yüyəni, at dəryaya, denən:

– Ey Nuri Səməndər, Həzrəti Yaqub peyğəmbərin eşqinə çıx, gəl bəri.

O at gələjəh. Götür qandarğanı[56] başına qoy, yəhəri də belinə qoy, min get. O at göydə uşmax bilir, quruda qaşmax bilir və suda üzməh bilir. Sən onnan devnən dava edə bilərsən. Deməli, bu balıxnan xudahafizləşdi, ayrıldı. Getdi o künbəzi tapdı və balığın dediyi kimi götdü yüyəni, atdı suya, dedi:

– Ey Nuri Səməndər, Həzrəti Yaqub peyğəmbərin eşqinə.

---

[56] qandarğanı – qantarğanı

Bu vaxt at dəryadan çıxdı gəldi. Yəhəri qoydu atın belinə, qılış da gəldi, qalxan da gəldi, belinə bağladı, gəldi yoldaşlarının yanına. Öz atını da verdi aşıxlara.

Aşıxlara dedi:

– Bu dev havaxt gələjəh.

Dedi:

– İrmi günə qədər gəlməlidi.

Başdadılar getməyə. Bu yoldaşdarnan sağollaşdılar, düşdülər yola. Qəşəm Nuri Səməndərin qaşmasını da bilmirdi, havada uşmasını da bilmirdi. Odu ku, Nuri Səməndərə bir qamçı vurdu. At götürüldü. Bir azdan sora qaltdı göyə. Nə qədir çəhdisə, başını saxlıya bilmədi. Əlajı kəsildi. Qabaxdan gələn daş-qum az qaldı bunun gözün çıxartsın. Bu at getdi, bir şəhərin yanında durdu. At dilə gəldi, dedi:

– Qəşəm, düş, bura Hələp şəhəridi.

Düşəndə baxdı kı, irmi günnüh yolu iki saata gəldi. At dedi:

– Məni niyə vurdun?

Dedi:

– Bağışda, Nuri-Səməndər, mən bilmirdim sənin danışdığı. Aman günüdü, bu dəfə məni bağışda. Bunnan sorasına saa özüm xidmət edəjəyəm.

Dedi:

– De görüm, sən nə yeyirsən?

Dedi:

– Ancax mən kişmiş yeyirəm, kişmişdən başqa xörəh yemirəm.

Qəşəm getdi, bir qarı tapdı. Sora getdi bazardan kişmiş aldı, gətdi. Qarıya da tapşırdı kı, bunu atın qabağına töh.

Sora gəldi oturdu qarının yanında. Xəvər aldı kı, buranın şahının qızı Güləndamın[57] evin tanıyırsınızmı?

Qarı dedi:

– Oğlan, sənin ağzınnan od insi gəlir. Güləndam xanımın adını çəkənin boynun vurullar. Mən oruyu tanıyıram. Amma oruya getməh-gəlməh çətindi.

Dedi:

– Qarı nənə, mən o qızdan ötrü gəlmişəm. Ala, bu bir kisə qızılı saa verirəm. Sən birtəhər elə də, get ona çatdır kı, Misir patşahının oğlu Qəşəm səni görməy isdiyir.

Arvat çox fikirrəşənnən sorasına dedi:

– Yaxşı, gedərəm.

Onnan sorasına getdi bazara, iynə aldı, sancağ aldı, düymə aldı, xırda-xuruş, darağ aldı – qız şeyləri aldı. Getdi Güləndam xanımın bağına. Bağın qapısını döydü, gəldi bir qız dedi:

– Nə isdiyirsən?

– Qarı nənə qadanı alsın, çarşı xırdası satıram camahata, görün alan varsa, gəlsin, onu satım.

Getdi bunu Güləndam xanıma dedi. Güləndam xanımın da bütün qarabaşdarı, kənizdəri burdaydı. Güləndam xanım dedi:

– Buraxın gəlsin.

Buraxdılar gətdilər qarı birinə düymə satdı, birinə sədəf satdı, axırı qızı təhlədi. Dedi:

– Güləndam xanım, Misir patşahının oğlu Qəşəm sənnən ötəri gəlip.

---

[57] Söyləyici eyni personajı gah Gülüqakqax, gah da Güləndam adı ilə təqdim edir.

Qız ağladı. Dedi:

– Ay nənə, mənim nə gündə olduğumu sən bilirsənmi? Yazıxdı. O nə üçün manıa aşiq olup? Mənə aşiq olannarın neçəsini görmürsən dev öldürüp? Yazıxdı, manıa aşiq olmasın. Çıxsın getsin. Mən ona qismət dəyiləm. Mən devə qismətəm. Dev də aparıp məni öldürəjəh, neyliyəjəh, bilmirəm.

Dedi:

– Yox. O deyir ki, mənnən görüşsün, heç olmasa söhbət eliyəy onnan.

Dedi:

– Yaxşı. Gətirinən sabahnan. Qızdardan çəkinməyinən. Qızdar mənim kənizimdi. Manıa hes zad deməzdər. Gətir oğlanı buruya.

Səhər muşdulux gəldi oğlana kı, bəs qıznan razılaşdıx. Bu gün get, görüş. Qəşəm onsuz da pəhlivan paltarını geymişdi. Yavaş-yavaş qarının qabağına düşdü, getdilər Güləndam xanımın bağının qavağına. Darvaza açıldı, Qəşəmi buraxdılar. Qız bir könüldən min könülə Qəşəmə aşiq oldu. “Xoş gəldin” elədi, əlinnən tutdu, apardı yanında oturtdu. Dedi:

– Oğlan, kimsən?

Dedi:

– Mən Misir patşahının oğluyam. Sənin şəkilini görüb də sənin dalıncax gəlmişəm.

Dedi:

– Məni yeddi ildi dev yanında saxlıyır. İndi böyünmü, sabahmı məni toy eliyif devə verəjəhlər. Mənim eşqimə

neçə oğlan gəlif devnən vuruşup. Dev oları öldürüf. Hayıfım gəlir sanıa. Çıx get.

Qəşəm dedi:

– Xeyir, mən getmiyəjəm. De görüm, devin gəlməyinə neçə gün var?

Dedi:

– İrmi gün var.

– O burda nə qədir qalır?

Dedi:

– Bir ay qalır.

Dedi:

– Sən icazə ver, bu irmi günü gəlim sənnən günümü keçirim, sora gedim devin məclisinə. Allah ya maa verə, ya ona.

– Mənim gözüm üsdə. Amma mən deyirəm, sən hayıfsan, ölmüyəsən.

Qəşəm dedi:

– Yox, burda ayrı məsələ yoxdu. Ya mən səni kutarmalıyam, ya mən də ölməliyəm.

Odu ku, razılaşdılar, qayıtdılar gəldilər qarının evinə. Onnan da irmi gün Qəşəm gedip qıznan gününü keçirtdi. İrimi birinci gün dev gəldi, stadyonu hazırradılar. Qızı apardılar qoydular onun mənzilinə. Camahat yığılıp gəldi. Dalbadal rəfləridi, qabaxda da meydan yerrəşirdi. Bu rəflərdə oturdular.

Qəşəm də atı mindi, binanın arxasında bir dərə vardı, orda qalxanı, qılıncını çıxartdı. Bu heyində aşıxlar gəldilər. Dedilər:

– A kişi, ancax irmi gün at çapıp gəlip çıxa bilmişih.

Qəşəm dedi:

– Mən iki saata gəlmişəm.

Qəşəm atı, qılıncı, qalxanı verdi, aşıxlar saxladı. Özü gəldi, yapıncıya büründü, birinci sırada oturdu.

Dev çıxdı küləfirəngiyə, göz əzdirdi. Dedi:

– Ey çovan!

Gördülər, heş səs gəlmir. Bir də dedi:

– Ey çovan.

Hamı bir-birinə baxır. Bir də Qəşəmə dedi:

– Ey çovan, sanıa deyirəm, ora bahadı. Orda niyə oturmusan? Ged o dalda otur. Ora sənin pulun çatmaz.

Dedi:

– Elə mən bircə gün gələjəm buruya. Bunnan sora day gəlmiyəjəm, burda otururam ona görə.

Bunnan sorasına başqa bir pəhlivan Güləndam xanımın eşqinə gəldi girdi devin meydanına. Nolajax, dev dərman daşdı gürzünü bu oğlanın başına saldı da, əzdi. Meyidini götürdülər. Camahat ağlaşdı, çığırışdı. Bu səfər Qəşəm oturduğu yerdən qaltdı, dedi:

– Ə, mənim atımı gətirin.

Atı minip meydana girəndə dev dedi:

– Pahoo, pahoo, sən də Güləndam xanımın eşqinə gəlipsən?

Dedi:

– Bəli. Mən də gəlmişəm.

Dev dedi:

– Birinci növbə mənimdi, yoxsa sənindi?

Qəşəm dedi:

– Sənin.

Dev dedi:

– A yazıx, gürzü birinci mən qaldırannan sora saa növbə çatmıyajax. Elə qabaxca gəl sən vur.

Qəşəm dedi:

– Yox, sanıa verirəm.

Qəşəm atın üsdündə durdu, qalxanı başına çəvirdi. Dev bunun duruşuna, şücaətinə baxdı kı, bu, çox qəribə oğlandı, pəhlivandı. Öz gücü ilə yox, bir az yüngül onun başına dəyirman daşı yendirdi. Yendirdi, ancax bu atın dört əyağı yerə işdədi. Qəşəmə bir şey olmadı.

Dedi:

– Dev, indi sıra mənimdi.

Dedi:

– Buyur.

Atın mindi, qılıcı hərrədi. Devin qalxanı yoxuydu. Dərman daşın başına tuturdu. Bu dərman daşının üsdünnən vurmadı da, sağ tərəfdən onun qollarını vurdu. Devin qırx qolu vardı. Sağ tərəfdən irmisin saldı yerə. İrmisin salan kimi dev əlini atdı Güləndamı küləfirəngidən götdü başdadı usmağa. Baxdılar, baxdılar, baxdılar, gördülər ki, dev uşdu getdi. Hara getdi, niyə getdi, nə təhər getdi bunu bilən olmadı. Şah da burdeydi, Güləndamın atası da burdeydi, qardaşı da, anası da yığıldılar. Dedilər:

– Oğul, sən kimsən?

Dedi:

– Misir patşahının oğluyam.

Şah dedi:

– Mənim qızımın biri onun böyüy oğlundadı. Nə təhər olub mənim qızımın şəkili gedip oruya çıxıp?

Qəşəm dedi:

– Belə, belə. Bəs meşədən almışam.

Şah dedi:

– Oğul, ona qızı yeddi yaşınnan vermişih. Tay o qızın dalına düşmə, o qızı ala bilməssən. Onsuz da verdiy ona, çıxdı getdi. Mən də sənin atanın yanında xəcalətəm, gedərsən, başına bir iş gəlip eliyər. Gəl gedəh qonağımız ol, sora çıx get evinıa.

Bu dedi:

– Mən sənin qonağın olaram, qalaram. Ancax mən onun dalıncax gedəjəm.

Şah bunu evinə gətirdi. Çox buna hörmət elədi. Yedilər, işdilər, nə qədir xayiş elədilərsə, Qəşəm qalsın, o bunu qəbul eləmədi. Qəşəm atın mindi, başdadı devin dalıncax getməyə. Bircə onu dedilər ki, dev qıvla səmtinə gediv. Bu da atın minip devin dalınca düşməyə başdadı. Bunnar gedip elə yerə çatdılar kı, baxdılar kı, hər yer qardı. Onda Nuri-Səməndər dedi:

– Mən day getmiyəjəm. Bilmirəm hara gedirəm.

Qəşəm yalvarmağa başdadı. Bunun əyağına düşdü:

– Xanımın arxasıncax getməliyəm, neyliyim, nağayrım?

At deyir:

– Neyliyim, başarmıram. Hara getdiyimi bilmirəm.

Qəşəm ata yalvaran vaxt bir də gördü, bir ağsakqal kişi gəlir. Sakqalı dümqırmızıdı. Dedi:

– Oğlum, sən haralısan? Sən nə işdiyirsən? Niyə gəlif buruya çıxmısan?

Qəşəm dedi:

– Baba, nişannımı dev aparır. Onun arxasınca gedirəm.

Dedi:

– Hansı dev aparır.

Dedi:

– Bilmirəm.

Kişi dedi:

– Qız hansı qızdı?

Qəşəm dedi:

– Hələp patşahının qızıdı – Güləndam xanım.

Kişi dedi:

– Ay bala, o, onun öz nişannısıdı, saa nə? Sən nahax onun dalıncax gedirsən.

Qəşəm dedi:

– Baba, mən o qızın dalıncax getməliyəm.

Kişi dedi:

– Bala, getmə. Çox çətin işdi, çox adam bu yolda məhf olup.

Qəşəm dedi:

– Bava, nə qədər çətin olsa da, dözəjəm.

Kişi dedi:

– Bala, onda saa deyirəm. Bu at yalnız göyə qalxmalıdı. Bunu elə. Burdan gedəndə bir yəhər kimi yer görəssən. Orda iki ağaş var. Biri bir tərəfdə yarpaxlı, biri o biri tərəfdə yarpaxsızdı. Bunnar yüz metir, yüz əlli metir birbirrərinnən aralıdı. Sən atı yarpaxsıza bağla, özün də çıx yarpaxlı ağaca. Sən atı bağlıyan kimi əjdaha gələjəh. Əjdahadan qorxmax lazım dəyil. Sən qorxsan, o səni yeyəjəh. O saa iki-üş metir qalmış sən özuu at onun ağzına. Sənin əlin onun ağzına dəyən kimi bütün tilsimlər açılajax. Bu ətrafda gördüyün ağ şeylər qara oxşuyur. Amma tilsimdi, hamsı

sınajax. Oralar Gülüstani-Baqi-İrəmə dönəjəh. Girərsən Gülüstani-Baqi-İrəmə. Bu səfər otuz bir qız ras gələjəh. Ortalarında ən uzun bir qız var. On beş qız sağ tərəfində, on beş qız sol tərəfindədi. Sən qızdara yaxınnaşanda salam ver. Ortada duran qız sənin salamu almıyajax. Deyəjəh:

– Sən kimsən, nəçisən, nə karəsən ki, mənim kənizdərimə salam verirsən, kənizdəri öpürsən? Əyər öpbəy lazımıydısa, onda məni də öpəydin. Sən denən ki, səni öpbəy olmaz, sən zəhərsən, sən ifritəsən, sən bu qızdarı gətirip onnara əzap verirsən. Hələ bir az da artıx sözdər de. Bu sözdəri deyən kimi o, əriyip qızıla dönəjəh. Orda olan o qızdar otuz patşahının qızdarıdı, oları əsir alıp, əziyət verir ollara.

Qoca dedi:

– Qızdardan ayrılannan sora sən ancax yalvarmalısan. Güləndam xanımı Kahal dev aparır Kahzalburuza. Orda bir mağarada saxlıyır. Bunnan sora sən yalvarmaxnan öz məqsədaa çata bilərsən.

Odu ku, bu sözdəri deyip qeyb oldu. Qəşəm qocanın dediyi kimi Nuri-Səməndəri mindi, qaltdı göyə. Hərrənəhərrənə bir neçə gün gedip dağın başında bir yəhər kimi yer gördülər. Gördü, qoca deyən kimi bir yarpaxlı ağaş var, bir də bir çılpax ağaş. Atı bağladı çılpax ağaca, özü qaltdı yaşıl ağaca. Bu vaxt gördü, əjdaha gəlir. Dedi, onsuz da məni bu əjdaha yeəjəh. Ancax mən qocanın sözünə rayət eləməliyəm. Elə ki üş metir qaldı, nolajax olajax deyip əjdahanın ağzına tullandı. Qəşəmin əyağı əjdahanın ağzına dəyən kimi böyüh bir gurultu, bir şarıltı əmələ gəldi. Özü huşdan gedip yıxıldı. Bir də ayılanda gördü kü, nə qar var,

nə boran var. Gözəl bir çəmənzarrıxdı, at da oruya bağlıdı. Qəşəm çox yorulmuşdu. Durdu, atı mindi, yavaş-yavaş sürdü, getdi, gördü gözəl bir şəhər var. Bir yaxşı evlər qıraxdan da bəllidi. Küçeynən gedirdi, gördü, bir yaxşı bağlı-bağatdı ev var. Bunun qabağına sürdü. Ev sahivi bir qadın çıxdı.

– Salamməleykim.

– Əleykə salam. Qonax, xoş gəlifsən.

Qəşəm bir az kiriyənnən sora dedi:

– Baji, çox sağ ol, xoş vaxdın olsun.

Dedi:

– Nə isdiyirsən?

Qəşəm dedi:

– Qonağ olmağ isdiyirəm.

Dedi:

– Düş atdan.

Qəşəm atdan düşdü.

Dedi:

– Mənim atım yalnız kişmiş yeyir.

Dedi:

– Otur burda. Atı bu saat rahlıyıf gələjəm.

Apardı getdi, atı tövlüyə bağladı. Qabağına kişmiş qoydu, su qoydu, qayıtdı gəldi.

Dedi:

– Oğlan, xoş gəlifsən, səfa gəlifsən. Dur gedəh evə. Yorulupsan, bir az çörəh ye, su iç, sorasına söhbətimizin dalını edərih.

Oğlanı gətdi içəri, çay verdi, çörəh verdi. Otdular, yedilər, işdilər. Sora dedi:

– Dincəl.

Oğlan yeyip-içənnən sorasına getdi yatdı, dincəldi. Gətdilər, oturdular söhbətə. Dedi:

– Oğlan, indi de görüm, hardan gəlip hayana edirsən? Kimsən, nə karəsən?

Oğlan dedi:

– Mən Misir patşahının oğluyam. Mənim nişannımı Kahal dev aparır. Gedirəm, Kahalburuza Kahal devin əlinnən o qızı alıp gətirəm.

Dedi:

– Oğlan, oruya getmək, devin əlinnən qız almax çox çətindi. Ancax sən başarsan, fikiri dəyiş.

Bu dedi:

– Mən fikirimi dəyişmiyəjəm. Mən getməliyəm qızı gətirməyə.

Dedi:

– Oğlan, yaxşı, de görüm, sizin yer nejə yerdi?

Dedi:

– Yaxşı yerdi, yaz olur, payız olur, qış olur.

Dedi:

– De görüm payız nədi, yaz nədi, qış nədi?

Dedi:

– Nejə yanı, siz bilmirsınız?

Dedi:

– Yox, bilmirih.

Dedi:

– Yazda güllər açılır, çiçəhlər açılır, taxıl səpilir, ağaşdar əkilir. Yayda becərilir. Payızda biçilir. Qışda da qar yağır. Beləcə günümüzü keçiririh.

Dedi:

– Allah, Allah, sən elə yerrəri bizə qismət eləmə. Nə çətin yerrərdi?

Dedi:

– Yaxşı, o çətin yerrərdə taxılı əkirsiniz, neçə aydan sora biçirsiniz?

Dedi:

– Heş zad. Üç aya əkiriy, üç aya da biçiriy. Ağaşdarı əkiriy, üç ildən sora meyvə verir.

– Allah, Allah, sən özün elə yerrəri bizə göstərmə.

Qəşəm dedi:

– A bajı, bəs sizdə nejədi?

Dedi:

– Biz də bu ayın başında əkiriy, o ayın başında yığırıx. Bizdə ağaşdar bar gətirər. Biz qar görmərih, boran görmərih. İlmiz on iki ay bura Gülüstani-Baqi-İrəmdi, həmişə güldü, çiçəhdi.

Dedi:

– Yaxşı, oğlan, de görüm, siz bir heylə çətinnihdə nə qədir yaş yaşıyırsınız.

Qəşəm dedi:

– Yaxşı yaşdar yaşıyırıx.

Dedi:

– Nə qədir yaşıyırsınız?

Dedi:

–Yetmiş, səhsən, doxsan, yüz irmi yaşa qədər yaşıya bilirih.

Dedi:

– Allah, Allah, sən bizə oraları göstərmə.

Dedi:

– Ay bajı, bəs sizin yaş neçədi?

Dedi:

– Bizim də yaş azdı, ama sizinkinnən çoxdu.

Dedi:

– Nə qədirdi?

Dedi:

– Səkgiz yüz il, dokquz yüz il, min il, min beş yüz il yaşıyırıx.

Qəşəm dedi:

– Çox yaxşı.

Oğlan gözünü otağa gəzdirəndə gördü kü, otax cürbəcür güllərnən, çiçəhlərnən bəzənif. Qırmızı, ağ, yaşıl, göy – bütün güllərnən bəzənif.

Dedi:

– Bajı, de görüm, bu güllər sizin bağda bitir?

Arvat gülsayağı başın aşağı salıp dedi:

– Bizim bir qız var. O güləndə ağzınnan gül tökülür.

Dedi:

– Adı nədi?

Dedi:

– Gülüqakqax.

O saat atasının dediyi sözdər yadına düşdü, dedi, həə, bu Gülüqakqaxdı. Qəşəm dedi:

– İndi o hardadı?

Dedi:

– Uşaxdı, məhtəbə gedip.

Dedi:

– Neçə yaşı var?

Arvat dedi:

– İkijə yüz var. Uşaxdı, məhtəbə gedip.

Bunnan söz kutardı.

Arvat dedi:

– Qəşəm, sən çox yorulmusan, gəl, sən dincəl. Mən də ata-zada xidmət eliyim.

Arvat durdu getdi, ata kişimiş-zad verənnən sorasına düz birbaş qızının yanına getdi. Qızın yolda gördü, dedi:

– Qızım, belə bir gözəl oğlan gəlif Kahal Devin əlinnən qız alıp gətirməyə. Onu başar qoyma. Onu özüna çəh. Onu sev, özünıu ona sevdir. Qoy səni alsın, getməsin oruya. O yazıxdı, gedən kimi onu devlər öldürəjəh.

Gülüqakqax dedi:

– Ana, o mənim işimdi.

Qız gəldi içəri. Ədəp-ərkannan oğlana "xoş gəldin" elədi, "səfa gəldin" elədi. Oturdu, bir az söhpətdən sora dedi:

– Oğlan, gedəh bizim bağı-baxçanı gəzəh.

Durdular, bərabər baxçanı gəzməyə getdilər. Bunnan hal öyrəndi, əhval öyrəndi. Sən nə üçün əlmisən, niyə gəlifsən? Bu, başına gələn əhvalatdarın hamısını Gülüqakqaxa söylədi. Gülüqakqax dedi:

– Qəşəm, ora çətindi, yazıxsan, getmə. Məni al, burdan da qayıdax, çıxax gedəh.

Dedi:

– Yox, mən gedip o qızı gətiməliyəm.

Bu dedi, o dedi. Bu dedi, o dedi. Qız nə qədir təbliğat elədisə də, gördü, Qəşəm razı deyil.

Dedi:

– Yaxşı, bir şey xayiş eliyim.

Dedi:

– Buyur.

Dedi:

– Mənim gözüm səndədi. Gəl manıa toy elə, al. Yarım ay da yanımda qal, onnan sora gedərsən.

Qəşəm razılaşdı. Bunnarın qanun-qaydasıynan arvat toy elədi, Gülüqakqaxı Qəşəmə verdi. Yarım ay da yanında qaldı, başdadı yol getməyə.

Qəşəm qoca deyən kimi otuz bir qıza ras gəldi. Otuz bir qıza salam verdi. Bu otuz bir qızın ortasında olan qız dedi ki, sənin nə ixdiyarın var mənim kənizdərimə salam verirsən? Sən kimsən, nəçisən, nə çarəsən?

Qəşəm:

– Mən qonağam. Gəldim sənin kənizdarı gördüm, xoşuma gəldi, salam verdim.

Dedi də, başdadı qızdarın üzünnən öpbəyə. On beş qız bu tərəfdə, on beş qız o tərəfdə – hamısının üzünnən öpdü. Həmin o ifritənin üzünnən öpbədi. İfritəən ajığı tutdu da, dedi:

– Mən olardan gözələm, oların böyüyəm, nə üçün oları öpdün, məni öpbədin?

Qəşəm dedi:

– Sən ifritəsən. Sən bu otuz patışahın qızın gətirip burda zindana salıpsan. Sən pis adamsan, sən pis gəlinsən, sən pis qızsan.

Bunu heç öpbəh lazım olmadı. Elə ajığınnan döndü oldu qızıl. Qızılları götdü, qızdara payladı, dedi:

– Ay qızdar, siz də çıxın gedin öz evıíza.

Qızdar öz vətəninə getdi, bu da yola başdadı. Bir xeylax getmişdi, şir qoşunnarına ras gəldi. Gördü, şir qoşunnarı bunu dağıtmır, anjax buna yol verillər. Şir qoşunnarınnan keşdi, pələng qoşunnarına ras gəldi. Gördü, pələng qoşunnarı da buna him eliyir ki, gəl adda. Burdan da addadı. Onnan sorasına ayı qoşunnarı da gəldi. Ordan da gəldi. Onnan sorasına Kahalburuzun öz bəniadəm qoşunnarı gəldi. Dedilər:

– Sən kimsən, nə çarəsən, nəçisən, gəlip buruya çıxmısan?

Dedi:

– Belə-belə, Kahalburuza gedirəm. Nişannımı Kahal dev aparıp, gedirəm onu alam.

Dedi ki, biz səni buraxmarıx, ancax şahın yanına apararıx. Apardılar öz patşahlarının yanına. Patışahları bir qızıydı. Patışah buna "xoş gəldin" elədi. Dedi:

– Oğlan, otur, görüm kimsən, hardan gəlif hara gedirsən?

Qəşəm başına gələn əhvalatların hamısın söylədi. Dedi:

– Mən, Güləndam xanımın dalıncax gedirəm. Onu Kahal dev aparıf. Onu onun əlinnən alıf gətirəjəm.

Şah dedi:

– Kahal devin əlinnən qız almağ olmaz. Özü də mən səni buraxmıyajam. Sən məni alıp burda da qalmalısan.

Qəşəm dedi:

– A bajı, mən səni almaxdan ötrü gəlmişəm? Mən gəlmişəm sevgilimi devin əlinnən alam.

Dedi:

– Ola bilməz, mən səni sevirəm. Məni də almalısan.

Nə qədər oğlana dedisə, oğlan az eşitdi. Qız əmr elədi, salın munu zindana, gündə bir isdikan su, iki yüz qıram çörəh versinnər. Oğlanı bu qaydeynən saldılar zindana. On beş gün keşdi. Şah dedi:

– Qəşəmi çıxarın, gətirin.

Qəşəmi çıxardılar, gətirdilər. Dedi:

– Ağlın başaa gəldimi?

Dedi:

– Xanım, gəldi ağlım başıma. Mən nə deyirəm? İcazə ver, gedim Güləndam xanımı gətirim, yenə burda toy eliyəh, səni də alım.

Dedi:

– Ola bilməz, ola bilməz, sən məni almalısan. Özü də burda qalmalısan.

Onnan sorasına qapı döyüldü. Şah dedi:

– Görün kimdi?

Gördülər bir qırmızısakqal kişidi.

– Salamməlöyküm.

– Əleykə salam.

Qırmızısakqal kişi dedi:

– Qızım, olar sənnən bir kəlmə söhpət eləməh?

Dedi:

– Baba, Qəşəmin xayişinə gəlmisənsə, gəlmə, demə. Ayrı bir sözün varsa da, onu deyə bilərsən.

Dedi:

– Xeyir, mən Qəşəmə görə gəlməmişəm. Bir olmuş əhvalatı deməh isdiyirəm.

Dedi:

– Buyur.

Dedi:

– Biz üş qardaşıx. Birimizin adı Qədirdi. Qədir yazıları yazandı. Birimizin adı Qüdrətdi. Qüdrət bütün gözəllihləri verəndi. Mənim də adım Cəzadı. Oların yazdıxlarını mən yerinə yetirirəm. Bir günnəri dördüncü göydə yaqutdan, almazdan, birliyatdan hazırranmış Gülşən bağının qabağında oturup kef eliyirdih. Birdən Gülüstani-Baqi-İrəmdə bir qız oldu. Kefimizin köh vaxdı soruşdum qardaşımnan, qardaş, buna neçə gözəllih verirsən?

Dedi:

– On üş gözəllih.

Dedim:

– Azdı.

Dedi:

– Yaxşı, danışanda qoy ağzınnan güllər tökülsün.

Dedim:

– Çox gözəl.

Böyüh qardaşıma dedim:

– Bu qızı kimə yazırsan?

Dedi:

– Hələ heylə bir oğlan yoxdu, gözdüyəh görəh, nolur.

Aradan yüz irmi beş il keşdi. Genə həmin yerdə oturурdux. Sən anadan oldun. Ay doğmuşdu, on dört günnüy ay. Ay gözəl işıx verirdi. Dedim:

– Qardaş, bunun adını nə qoyursan?

Dedi:

– Bə görmürsənmi, ayın nurunnan əmələ gəlif. Onun adını Aynur qoydum.

Dedim:

– Qardaş, buna neçə gözəllih verirsən?

Dedi:

– On iki gözəllih.

Dedim:

– Azdı.

Dedi:

– Ölkəsinin şahın verirəm.

Dedim:

– Azdı.

Dedi:

– Ölkəsində olan bütün quşdarın dilini bilməh, onnara rəhbərriy eləməyi verirəm.

Dedim:

– Azdı.

Dedi:

– Ölkəsindəki yelin, buludun ixdiyarını da buna verirəm.

Dedim:

– Çox sağ ol.

Dedim:

– İndi deyin görüm bunu kimə yazdız?

Böyüh qardaşım dedi:

– Hələ buna layiq oğlan yoxdu. Dayanax görəh, nolur.

Aynurdan sora əlli il keşdi. Qəşəm anadan oldu. Yenə biz həmin güllü bağda söhpət eliyirdih. Çox kefli günümüzüydü. Dedim:

– Qardaş, bu oğlana neçə gözəllih verirsən.

Dedi:

– Misli görünməmiş gözəllih verirəm. Bir də pəhlivannıx verirəm.

Dedim:

– Qardaş, bəs buna hansı qızı yazırsan?

Dedi:

– Bizim iki qızımız qalıp. Bir qızımız Gülüqakqaxdı, biri də Aynurdu, bunnarın da ikisin ona yazıram.

Aradan on bir il keşdi. Qız anadan oldu, əndamı gül kimiydi. Ona görə də qardaşım bunun adını Güləndam qoydu. Dedim:

– Qardaş, bə bunu kimə yazırsan?

Dedi:

– Bunu da Qəşəmə yazıram.

Dedim:

– A qardaş, bu nə olan işdi? Qəşəm Misirdədi, Güləndam Hələpdədi, Gülüqakqax Gülüstani-Baqi-İrəmdədi, Aynur da Kahalburuzdadı. Mən bunu nejə yetirəjəm?

Qədir qardaş fikirrəşənnən sora dedi:

– Kahal devin eşqini yazdım Güləndam xanıma, yeddi yaşınnan gəlip aşiq olsun ona, aparsın saxlasın. On dört yaşında Qəşəm gəlip devnən vuruşsun, devi yaralasın, qızı götürüp qaşsın. Qəşəm onun dalıncax getsin Kahalburuza, onu öldürsün. Güləndam da alsın gətisin və o iki qızı da yolda tapsın. Dedi, qızım, sən də Qəşəmin nişannısısan, ollar da Qəşəmin nişannısdı. İnanmırsan, bu qardaşımnan soruş.

Belə qayıtdı, gördü kü, qoja qeyb olup. Qız dedi:

– Qəşəm, qoja qanını satın aldı. İndi sənnən şərt kəsirəm. Səni buraxajam, gedəjən. Ancax mən də sənnən gedəjəm. Sən Güləndam xanımı devin əlinnən al. Əgər həqi-

qətən, onda on dört gözəllih, məndə on iki gözəllih olsa, tabeyəm sanıa. Əgər elə deyilsə, sənin boynuu vurajam.

Dedi:

– Baş üsdə, qoy olsun.

Qız dedi:

– Bağışda, saa əzyət vermişəm. Bir on beş gün qal burda, çörəh ye, su iç, sanıa yaxşı baxsınnar. Mən də hazırrıx görüm, şahlığı bir nəfərə tapşırax. Gedəy o əməliyyatı aparıp qızı devdən alax. Sora çıxax gedəh.

Onnar belə razılaşdılar. Oğlan burda on beş gün dincəldi. Onnan sora qız öz gəmisini mindi, oğlan atını mindi, getdilər Kahalburuza. Kahal dev də... Devin mağarasının qabağında böyüh bir düzəngahlıx vardı. Düşdülər düzəngahlığa. Mağaranın qabağında iki uşağ oynuyurdu yeddi yaşında. Kahal Devin oğlannarıydı. Biri bəni-adəm qızınnan olmuşdu, biri də dev qızınnan. Dev qızınnan olan oğlan getdi dedi ki, ata, düşmənin gəlip, dur, öldür.

Bəni-adəm övladınnan olan oğlansa dedi:

– Ata, qızın nişannısı gəlip, ver getsin, dava eləmə.

Dev dedi:

– Südünə çəhmisən. Haram olsun sanıa.

Durdu, oğlana bir sillə vurdu. Tez qaltdı, eşiyə çıxdı. Eşiyə çıxıp bulara tərəf gələndə at dedi ki, Qəşəm, o göyə qalxıp bizim başımıza daş tökəjəh. Ancax o yaralıdı. Mən də qalxacam göyə, o da qalxacax. Sora sənin sağ əlin onun boynuna düşsün. Mən soldan yenəcəm. Onun boynunnan elə vur ku, baş bir tərəfə getsin, bədən bir tərəfə. Belə də elədilər. Dev yuxarı qalxa bilmədi. At onnan yuxarı qaltdı. Dedi:

– Qəşəm, hazır ol, mən onun sol tərəfinnən yenirəm başşağı.

Bu vaxt Qəşəmin sağ əli onun boynuna düşdü. Devin boynunu elə vurdu ku, baş bir tərəfə düşdü, leş də bir tərəfə. Yerə düşüp cəhənnəmə vasil oldu. At da yerə düşdü. Aynur xanım özü gedip Güləndam xanımın əlinnən tutdu, eşiyə çıxardı. Həqiqətən də, gördü, onun on dört gözəlliyi var. Dedi:

– Qəşəm, sən burdan da kutardın. İndi bu qızı da al yanaa, gedəh mənim şəhərimə.

Bular ata minip gəldilər Aynur xanımın şəhərinə. Aynur xanım orda özünə yeddi gün toy elədi, özünü verdi Qəşəmə ərə. Patşahlığı verdi yaxın adamına. Üçü də gəldi Gülüqakqaxın evinə. Bir neçə gün də Gülüqakqaxın evində qonax qaldılar. Gülüqakqaxın anası dedi:

– Qəşəm, anan-atan o qədir ağlıyıplar kı, gözdəri tutulup. Gəl sanıa dirilih suyu verim. Apar atanın, ananın gözünə çəh. O saatı olların gözdəri açılajax. Bəsrə gözdəriynən gəlinnəri görəjəh.

Odu ku, buna dirilih suyu verdi. Qızdarın üçü də mindi gəmiyə, Qəşəm də atnan gəldilər Hələp şəhərinə. Gəldilər devnən vuruşduxları meydana çatdılar. Şaha xəbər getdi ki, Qəşəm qızını da, iki nəfər ayrı gözəli də gətirip gəlip. Patışah, oğlu, qızı, bütün şəhər Qəşəmin pişvazına gəldi. Güləndam xanımın atası gəldi. Qəşəmin üzünnən öpdü, əlinnən öpdü. Dedi:

– Oğul, çox sağ ol. De görüm, sən kimsən, nəçisən?

Dedi:

– Mən Misir patşahının oğluyam.

Dedi:

– Hə, yadıma düşdü. Sənin böyüh qardaşuu arvadı mənim qızımdı. Qohumumun yanında xəcalət olmadım. İndi mənim qızıma da toy eliyəh, götür get. Eləjə də burda da yeddi gün, yeddi gejə toy elədilər. Güləndam xanımı verdilər Qəşəmə. Təzədənnən qoşunnan, ləşkərnən yola saldılar. Qızdar gəmiynən, Qəşəm öz atıynan gəldi, Misirə çıxdılar. Şaha xəbər verdilər ki, oğlun üş gözəl də yanında gəlip. Ancax heyif ki, şahın gözdəri tutulmuşdu. Gəlip oğlunu görə bilmədi. Xəvər göndərdi ki, oğluma deyin, gəlsin. Onun ujundan o qədir ağlamışam, day gözüm heş yeri seşmir. Qəşəm gəldi, atasının üzünnən öpdü. Dedi:

– Ata, sən dediyu yerinə yetirdim. Gözdərı da aşmağa su gətirmişəm – dirilih suyu. Al gözdəruu yu, bəsrə gözdərınıan gəlinnəruu gör.

Atası da, anası da gözdərini yudu, ikisinin də gözdəri açıldı. Öz bəsrə gözdəriynən oğlunu gördü, gəlinnərini gördü. Allaha şükür elədi. Yenidən yeddi gün, yeddi gejə toy eliyif üş gözəli Qəşəmə tapşırdı. Başınnan tacı götürüp Qəşəmin başına qoydu. Ona uğurrar arzu elədi. Bunnan sora olar yedilər, işdilər, uzun müddət ömür sürdülər. Ağ günə çatdılar.

Siz də öz arzunuza çatasınız. Övlatdarızı belə gözəl qızdarnan evləndirip şənniy edəsiniz. Sağ olun, çox sağ olun.

*Mən nağılı yadigar üçün söylədim. Bu nağılı atamnan eşitmişəm 1940-cı ildən qabax. Qoy cavannar da eşqi-məhəbbət dalıncax belə getsinnər (S. 21).*

## 3. SİT-ƏL-HÜSN VƏ HƏSƏNİN NAĞILI

Biri varıdı, biri yoxudu, bir patşah varıdı. Bir gün patşahın vəziri ölür. Vəzirin iki oğlu varıydı. Birinin adı Nurəddinəli, birinin adı Şərikanıydı. Şah bınnarı çağırır, Şərikanı birinci vəzir qoyur, Nurəddinəlini ikinci vəzir qoyur. Şah bir gün deyir:

– Şərikan vəzir, gəl çıxax dünyanı gəzəh. Nurəddinəlini də qoyağ öz yerimizə.

Getməmişdən bir-iki gün əvvəl iki qardaş məclis düzəldillər. Yeyip içəndə Şərikan vəzir deyir:

– Allahdan arzum budu ku, Allah saa da, maa da elə gözəl qız yetirsin, ikimiz də bir gündə evlənəh. Dokquz gün, dokquz ay, dokquz dəyqadan sora mənim bir qızım, sənin bir oğlun olsun. Mən qızımı sənin oğlaa versəm, nə verərsən?

Deyir:

– Üş kənd.

Şərikan deyir:

– Əşi, yox, mənim gözəl qızıma elə üş kənd?

O da deyir:

– Onsuz da hər şey oğulun adıynan ölçülür. O üş kənd bəsdir.

Bunnar belə dalaşıllar. İkisi də gəlir şah divanına. Bınnar aralarında olan davadan şaha bir söz demillər.

Səhərisi şahnan Şərikan səfərə çıxıllar. Bu vaxt Nurəddinəli tax-tacı tapşırır üçüncü vəzirə, çıxır səyahətə. Gəlip çatır Dəməşq şəhərinə. Bırda bir vəzir bının yüksəy adam olduğunu hiss eliyir. Gətirir evlərinə. Vəzir deyir arvadına:

– Mənim gözüm bı oğlanı yaman tutup, gəl qızımızı verəh bına.

Vəzirin arvadı deyir:

– Ay kişi, sən vəzir adamsan, gərəh qızı vəzir oğluna verəsən. Tanımaza-bilməzə qızımızı versəh, camahat bizi qınıyar.

Vəzir deyir:

– Bu da böyüy adamdı, bunun hərəkətdərinnən görürəm. Gəl camahata deyəh, bu oğlan mənim qardaşım oğludu. Qızıma göbəhkəsdi eləmişih. İndiyə qədər başqa ölkədə oxuyurdu, indi gəlir, evləndiririh.

Belə də eliyillər. Bunnar evlənir, qızı verillər Nurəddinəliyə. Bunnar yaxşı şad-xürrəm yaşamağa başdıyıllar. Günnərini şad keçirməyə başlıyıllar.

Bir neçə ildən sora vəzir öldü. Vəzir ölənnən sorasına Nurəddinəliyi qoydular yerinə. Bulların bir il keçənnən sorasına bir uşaxları olmuşdu. Adını qoydular Həsən. Həsən gəldi on altı yaşına çatdı. Bu vaxt qəflətən atası rəhmətə getdi. Birincisi, bunun elə bir valideyni yoxudu gessin şaha desin, şahdan atasının vəzifəsini alsın. Eyni zamanda atasının da əyağını çəkən varıydı şahlıxda. Heş bunu çağırmadılar, vəzirriyi vermədilər. Bir müddət keçənnən sora şah o biri vəziri çağırıp dedi:

– Necə yəni Nurəddinəlinin oğlu yoxdu ku, bu gəlip atasının şahlığın isdəmir?

Vəzir deyir:

– Var, niyə yoxdu? O deyir ki, mənim atamı patşah öldürüp. Vərəmlətdirdi, öldürdü mənim atamı. Gələrmi sənnən işdəməyə?

Şah dedi:

– Beləmi?

Dedi:

– Bəli.

Şah dedi:

– Cəllatdarı çağır, onun boynun vurduracam.

Deməh, bunnar cəllatdarı çağırmaxda olsun, sizə deyim vəzirin dosdunnan. Vəzirin burda bir dosdu varıdı. Bu qaçaqaça getdi Həsəni şəhərin ortasında tutdu. Dedi:

– Həsən, vəziyyət belədi. Səni şah öldürtdürəcəh, qaç.

Həsən evə gəlmədi. Ordan getdi atasının qəbrinin üsdünə. Axşam tərəfiydi. Başdadı atasının qəbrinin üsdündə ağlamağa. Bir xeyləx ağlayannan sora gördü bir yahudu gəlir. Gəldi:

– Salamməlöyküm, Həsən.

– Əleykəssalam.

– Oğlum, Həsən, sənin bir gəmin çıxıp, onu on min dinara sat maa.

Həsən dedi:

– Baş üsdə.

Deməh, bu pulu verdi, gəmini aldı. Bir kağız verdi ki, mənim filan gəmimi satdım bu yahuduya. Yahudu götdü çıxdı getdi. Bu da pulu götürüp papağının tərkinə qoydu. Ağladı, ağladı, daa burda yatdı. Bu burda yatmaxda olsun, saa söylüyüm Şərikan vəzirdən. Şərikan vəzir də şahnan karvannan qayıtdı, gördü Nurəddinəli yoxdu. At mindi, dəvə mindi, hər yeri axtardılar, Nurəddinəliyi tapbadılar. Bunu nə bilən oldu, nə xəbər verən oldu. Təzədənnən qayıtdı evə. Bu da bir qıznan rastdaşdı, evləndi.

Aradan dokquz ay, dokquz gün, dokquz sahat keçənnən sora arvat həmlini yerə qoydu. Bir qız doğdu, adın qoydu Sit-Əl-Hüsn. Başdadı Sit-Əl-Hüsn böyüməyə, yekəlməyə. Böyüdü, yekəldi, on altı yaşına çatdı. On altı yaşına çatanda patşah bunu gördü, dedi:

– Vəzir, o qızı ver maa.

Şərikan vəzir dedi:

– Ey şahım, xətrini isdiyirəm, atam da vəzirin olup, gördün kü, bizim bu söhbətimizə görə qardaşımız da didərgin düşdü. Biz əhd eləmişiy oğlumuznan qızımızı evləndirəh. Sən ağsakqal adamsan, niyə mənim qızıma müşdəri çıxırsan.

Şah ədalətsiz bir adamıydı. Əmr elədi, Şərikanı saldılar zindana.

Bunun bir qulu varıydı – qozbel, əmr elədi toyunu elədilər buna. Başdadılar yeddi gün, yeddi gecə toy elədilər, qızı verdilər qozbelə, qızın bacılığı qızı qonağ aparmışdı. Qonaxlıxdeydi. Bu zaman Həsən qəbirin üsdündə yatırdı.

Cinnən Cinniyə ər-arvatdılar. Onnar göynən uçurdular. Qəbirisdannıxda qəbirin üsdündə yatmış bir oğlanı gördülər. Gördülər, elə gözəl oğlandı, elə gözəl oğlandı. Cinniyə dedi:

– Görəsən, bunnan gözəl adam varmı?

Cin dedi ki, yox, Sit-Əl-Hüsn bunnan gözəldi.

Cinniyə dedi:

– O gözəldi.

Cin dedi:

– Bu gözəldi.

Dedilər:

– Gəl götürəh Həsəni.

Götürüp Dəməşq şəhərinnən də keçirdilər o biri şəhərə. O vaxdı getdilər ki, dəfçilər darvazadan addıyıflar gedillər qızı bacılığ evinnən gətirməyə. Özdəri bunu qoyannan sorasına düşdülər adam sifətinə. Bunun hər iki civini qızılnan doldurdular. Dedilər:

– Sən bu dəfçilərnən gedərsən orda bir qız var, onu götürüp gələrsən, onu saa alacıyıx. Özü də dəfçilərə, çalğıçılara da çoxlu qızıl pul verərsən.

Yannarında yengə fılan getdilər qızı gətirməyə. Bu oynuyannara qozbel bir qızıl verirdi, Həsən iki qızıl verirdi. Getdilər bacılığının yanınnan qızı götürdülər, qayıtmağa başdadılar. Yolda oynuyannara qozbel bir qızıl verirdi, Həsən iki qızıl verirdi. Gətdilər darvazanın ağzına qədər. Darvazanın qapısına gələnnən sora bu toyun başçısı – bizim indiki dilnən desəh, masabəyi dedi ki, hamı dağılışsın gessin evinə. İçəri gedəcəh bir çalğıçılar, bir yengə, bir xanım, bir də bəy. Bunnardan başqa darvazadan içəri heş kim buraxılmayacax. Çalğıçılar dedi:

– Xeyir, bu oğlan biznən getməsə, biz getmiyəcih.

Dedilər:

– Əşi, bu, yad adamdı, bunnan nə işin var sənin?

Dedilər:

– Yox, biz getmirih. Xoşunuz gəlir, aparın gəlininizi.

Məcbur qalır oğlanı da buraxdılar. Deməh, oğlan[58] oldu, Həsən oldu, gəlin oldu, yengə oldu, çalğıçılar oldu. Cinnən Cinniyə də gözəgörünməz, özdəri addadılar içəri. Getdilər çıxdılar qızın öz otağına. Qabaxlar belə qanun-

[58] Söyləyici oğlan deyəndə qozbeli nəzərdə tutur.

qayda varıydı, qapıda çalğıçılar çalırdı. Yengə getdi Sit-Əl-Hüsnü bir dəs təzə paltarnan gətirip qozbelə peşkaş çəkdi. Qozbel çıxartdı bir qızıl verdi, Həsən çıxartdı iki qızıl verdi. Deməh, bu qaydaynan yengə yeddi dəs ayrı-ayrı rəngdə, ayrı-ayrı görkəmdə geyindirip gətirip qozbelə peşkaş çəkdi. Qozbel həmişə bir qızıl verirdi, Həsən iki qızıl verirdi.

Beləlihlə, yeddi görüşdən sora Sit-Əl-Hüsnü apardılar içəri. Dəfçilərə də dedilər, gedin xoş. Həsən isdədi ki, gessin, Cinnən Cinniyə dedi:

– Sən getmə, sən burda duranan. Harıya gedirsən?

Bu durdu. Cinnən Cinniyəni bular görmürdülər, ama Həsən görürdü. Həsən dayandı. Bacılığ evinnən gələnnən qızın gözü düşmüşdü Həsənə. Deyirdi, görəsən, Allah məni bu oğlana yazardımı? Məni buna yazmadı, qozbelə yazdı. Deməh, belə-belə ürəyində xəyallar eliyirdi. Bu çıxdı qapıya, gördü hamı gedip, əmə Həsən ordadı. Dedi:

– Oğlan, ayıpdı, indicə qozbel gələcəh, qozbel bura çölə çıxmağa gedip. Get, səni gəlip görər.

Dedi:

– A qız, qozbel nədi, filan nədi, sən mənim nişannımsan.

Dedi:

– Bəs qozbel nə işin sahibidi?

Dedi:

– Biz gözə gəlməyəh deyin biz işi belə quraşdırdıx.

Qız dedi:

– Allaha şükür kü, mən ona qismət olmadım. Di buyur içəri.

Həsən içəri getdi. Əmə qozbel su başına getmişdi. Birdən Cin getdi çıxdı su başına. Birdən siçan oldu girdi tualetin altına. Burda civ-civ, civ-civ elədi. Qozbel əlini uzatdı:

– Siçan! A siçan!

Siçan qaltdı oldu bir pişih. Elə miyoldadı ki, az qaldı qozbelin qulağı bata.

– A kopolunun pişiyi! A filan!

Belə deyəndə qaltdı oldu eşşək. Başdadı ağzını dirədi bunun qulağına, diriyip elə anqırdı ki, qozbelin beyni çatdasın.

– A kopolunun eşşəyi, sən hardan gəlip bura çıxdın, bu kimdi?

Onnan sorasına eşşəh döndü oldu gamış. Gamış götdü bını təpəsini qoydu tualetin o çökəh yerinə. Dedi:

– Kopoyoğlu, qal burda!

Qozbel qaldı burda. Həsənnən qız girdilər otağa. Yengə yer qayırıp. Onnan sorasına gözəl mədəni işdəri düzəldiplər. Bu Həsən paltarını soyundu qoydu o tərəfə. Onnan sorasına bunnar necə bir isdəhli, necə bir dos kimi başdadılar yatmağa. Obaşa qədər yatdılar. Obaşa qədər yatannan Cinnən Cinniyə qapıda gözdüyürdü.

Dedilər:

– Tay vaxdı. Getdilər kirimişcə oğlanı tuman-köynəhdə götürdülər, qaltdılar göyə. Götürdülər Dəməşqə qədər gəldilər. Dəməşqə çatanda göydə ulduzun çarpışması Cini vurdu. Cin öldü. Təzədənnən Cinniyə bunu apara bilmədi. Yavaşca yendirdi, yolun, cığırın qırağına qoydu. Qoydu yolun qırağına, çıxdı getdi. Oğlan tuman-köynəy uzanıp yolun qırağında.

Dedilər:

– Ayə, adın nədi? Kimsən? Nəçisən? Nə karəsən?

Dedi:

– Elə toydan gəlirəm.

Dedilər:

– Ə, necə toydan?

Dedi:

– Filan şəhərdən gəlirəm, toyum olmuşdu, yatmışdım. İndi bilmirəm, məni buruya kim göndərip.

– Ə, sən dəlisən, nəsən, filan şəhər hara, bura hara?

Bu oğlan əslində düz danışırdı, əma bilmirdi ki, bura nətəər gəlip. Camahat yığıldı bunun başına, bunu lağa qoymağa başdadılar. Burda da bir halvaçı Musa varıdı. O gəldi çıxdı buruya. Gördü kü, çılpağ oğlandı, bunu lağa qoyup danışıllar. Bir az baxdı-baxdı, dedi:

– A bala, gedəh maa qonax ol.

Bunu apardı getdi dükana. Bu halva bişirip satırdı. Apardı bunun qabağına çörəh qoydu, su qoydu, əyninə gətdi paltar verdi. Bu başına gələn əhvalatı danışdı. Ama qorxusunnan demədi, mən filan şəhərdənəm, filan şəhərin oğluyam, nəyəm. Dedi:

– Elə atam-anam yoxdu, yetim bir adamam.

Bu dedi:

– A bala, indi ki sən yetimsən, mənim də oğlum, uşağım yoxdu, gəl maa köməy elə.

Bu başdadı burda bına qulluğ eləməyə. Elə ki, dövr gəldi də halvaçı Musa öldü. Bu da başdadı burda halva bişirip satmağa. İndi halva bişirip satmaxda olsun, saa söylüyüm vəzirin qızınnan.

Vəzirin qızı Sit-Əl-Hüsn səər tezdən durdu gördü, sevgilisi yerində yoxdu. Elə bildi, həyətə gedip.

Şah da vəziri zindannan buraxdırdı. Dedi:

– Day iş-işdən keçif.

Şərikanı buraxdılar. Şərikan fikirrəşdi, gedim görüm qızımın günü necə keşdi. Deməh, yavaş-yavaş gəldi qızının mənzilinə. Salamməlöyk eliyənnən sora gördü, qız çox şaddı.

Dedi:

– Qızım, necə keşdi sənin günün bu gecə qozbelnən?

Dedi:

– Ata, qozbel nədi, mənim gözəl nişannım var. Qəşəh oğlandı.

Atası dedi:

– Bə qozbel hanı?

Dedi:

– Bilmirəm.

Dedi:

– Qızım, bə sənin o nişannın hanı?

Dedi:

– Həlbət, həyətə çıxıp.

Vəzir çıxıp taletə gedəndə görür qozbel başı aşağı, ayağı yuxarı durur. Dedi:

– Ə qozbel, burda nağayrırsan?

Dedi:

– Vəzir, gün çıxıpmı?

Dedi:

– Ə, sarsağ oğlu sarsax, neyliyirsən günü?

Qozbel dedi:

– A kişi, mən nə bilim sənin qızının yoldaşı gamışmış. Gamış məni götdü buruya qoydu. Dedi ki, gün çıxana qədər burda dur. İndi gün çıxıp? Çıxıpsa, mən gedirəm.

Dedi:

– Ə köpöyoğlu, dur burdan itil, çıx get.

Gün də çıxıp, hələ günçəhdəyə[59] də qalxıp. Durdu qozbel əkildi, çıxdı getdi. Vəzir qayıtdı gəldi qızının yanına, dedi:

– Yoxdu.

Deməh, bu qaydaynan Həsəni tapbadılar. Nə qədir elədilər hara getdiyini, hardan gəldiyini, kim olduğunu bilmədilər.

Vəzir dedi:

– Qızım, onun nişanınnan-zadınnan?

Qız dedi:

– Ay ata, odey, paltarı orda. Paltarını da çıxartdı, papağını da çıxartdı. Özü də mənnən yatdı, durdu. İndi bilmirəm, başına nə gəldi, kim apardı, noldu?

Təzdənnən yoxladılar kı, bu, bunun paltarıdı. Əma adres-zad yoxdu, papağın içində min dinar pul var. Şərikan çox fikirrəşdi. Bir az fikirrəşənnən sora bir nəkqaş gətirdi. Bu evin nə qaydada şəkilin çəhdidi. Üş-dört dəfə çəhdirənnən sora yığışdırdılar evi. Həsən tapılmadı, qız başdadı yaşamağa. Günnər keşdi, aylar keşdi, dokquz gün, dokquz sahat, dokkuz dəyqa keçənnən sora oldu bunun oğlu. Adını qoydular Əcip. Başdadı Sit-Əl-Hüsn Əcipi saxlamağa. Əcip yekəldi, yeddi yaşına çatdı, yeddi yaşına çatannan sorasına onu məhtəbə qoydular. Alim çağırdılar, molla çağırdılar. Bunu tərbiyə etməyə qoydular. Oğlan böyüdü, yekəldi, on

[59] günçəhdəyə – günortanın yerinə

dört yaşına çatdı. Bu, çox qoçağ oğlanıydı. Həm də bir az da güjdü uşağıdı, dilavər uşağıdı. Bir dəfə məhtəfdən gələndə uşaxların aşığın götdü qaşdı. Uşaxların aşığın götürüp qaçanda burda bir keçəl varıydı. Dedi:

– Ə, a cinnən qalma, a kopoğlu, bizim aşığı hara aparırsan?

Əcip elə bil yuxudan ayıldı. Dedi:

– Ə, mənim babama nəəlip ki, mən cinnən qalmışam?

– Ə, – dedi, biqiryət oğlu, biqiryət, niyə yalan danışırsan? Şərikan sənin atandı, yoxsa ananın atasıdı? Sən cinnən əmələ gəlipsən.

Bu, çox peşman oldu, durdu ağlıya-ağlıya gəldi anasının yanına:

– Ay ana, mənim atam kimdi?

Dedi:

– Şərikan.

Dedi:

– Ana, məni indiyə qədər allatmısan, de görüm Şərikan sənin atandı, yoxsa mənim?

Dedi:

– Mənim atamdı.

– Bə mənim atam kimdi?

Dedi:

– Sənin atanın adı da yadımnan çıxıp. Məni aldı, bir az da burda qaldı, getdi. Hayana getdisə, gəlip çıxmadı.

Əcip dedi:

– Ana, ya özümü öldürəcəm, ya da burax gedim, atamı axtarım.

Bu zamannarı ana, oğul qucaxlaşıp ağlaşırdılar. Şərikan vəzir içəri girdi, gördü kü, qızı oğlun bağrına basıp, hər ikisi ağlıyır.

Dedi:

– A qızım, niyə ağlıyırsınız?

Dedi:

– Ay ata, Əcip deyir kin, mənim atamı verin, ya mən burda durmuram, çıxıp gedirəm.

Şərikan çox fikirrəşdi, çox fikirrəşdi, dedi:

Gedim şahdan icazə alım, bəlkə də, tapdıx. Getdi patşahın yanına, buna bütün məlumatdarı verdi. Dedi:

– Sən özün gördün kü, qardaşımnan mən nəyin üsdündə aralı düşdüh. İndi də qızımın da başına bu iş gəldi. Qızımın da uşağı deyir kin, mənim atamı tapın. İndi sən icazə ver, qoy gedim qəflə-qatır yühlüyüm gəzim, bəlkə, bir məlumat əldə eliyəm.

Bu da buna bir ay vaxt verdi, dedi:

– Allah eləsin, tapa biləsən.

Deməh, bu gəldi qızına muşdulux xəvəri verdi, hazırraşdılar, qəflə-qatır yühlədilər bir böyüh karvan. Vəziri, çörəh bişirənnəri, qoşunu, at saxlıyannarı, çalğıçıları – nə ki lazımdı şənnənməyə filan, götüdülər. Başdadılar yol getməyə. Gəldilər çıxdılar Dəməşqiyə. Dəməşq şəhərinə gələndə düşdülər şəhərin qırağına. Əcip dayəsinə dedi ki, – dayə onu saxlıyan bir qadınıydı – məni apar şəhəri gəzdir. Dedi:

– Nolar, gedəh.

Getdilər bu dayeynən baravar bu şəhəri gəzdilər, gəzdilər, bütün görməli yerrərini gördülər. Gəldilər təsa-

düfən Musanın tükanına çıxdılar. Burda da Həsən işdiyirdi. Gəldilər gördülər ki, bu, nar qavırması bişirip. Dedi:

– Ana, mən bu nar qavrımasınnan yeəcəm. – Buna dayə süd verdiyinə görə ona ana deyirdi.

Dayə dedi:

– Bala, elə bir icazə yoxdu. Vəzir övladı başqa yerdə çörəh yeməməlidi. Atan mənim boynumu vurdurar.

Şərikan dedi:

– İsdiyirsən boynumu vur, isdiyirsən öldür, mən bu nar qavırmasınnan yeyəcəm.

Bu Həsənin könlü bu uşağa elə yapışdı, elə yapışdı, gətdi bunun qavağına bir dolu qab nar qavırması qoydu, bir qav da dayənin qavağına qoydu. Yedilər. Yeyənnən sorasına bular nə qədir elədi, pul götürmədi. Durdular çıxdılar. Bu Həsənin ürəyi dözmədi, bular gedənnən sora çıxdı bunnarın dalınca. Əcip gördü kü, çörəh yedihləri kişi bunnarı təqip eliyir. Dedi:

– Kişi, mənim dalımca nəəzirsən?

Dedi:

– Ay bala, sənin dalıncax gəzmirəm, o tərəfdə mənim işim var. Mən o tərəfə gedirəm, siz çıxın gedin.

Bu oğlan genə yol getdi. Gəlip şəhərin qırağına çatanda gördü, kişi daldan yenə gəlir. Əcip dedi:

– Kişi, saa demədimmi gəlmə?

Əcip də qorxdu ku, babası bilər, anası bilər, acıxları tutar. Yerdən bir daş götürüp bu kişinin dalıncax tulladı. Daş getdi bunun hər iki qaşının arasına dəydi, yaraladı. Yaraladı, qan töküldü. Bu vaxt Əcip cibinnən dəsmalı çıxardıp dayəyə verip dedi:

– Apar, get onun başın sarı. Denən, ayıpdı, məni niyə izdiyir? Qayıtsın, çıxsın gessin.

Dayə gətirip Həsənin başın sarıyannan sorasına dedi:

– Kişi, qayıt, çıx get.

Bullar da gedip karvana çatdılar. Yenə başdadılar sorağ eliyə-eliyə qivlə səmtinə getməyə. Nəhayət, gəlip çıxdılar Nurəddinəlinin vəzir olduğu yerə. Burda məlumat aldılar ki, Nurəddinəli filan vəzirin qızın aldı, vəzir öldü. Nurəddinəli də ölüp, evləri də burdadı. Gəlip Nurəddinəlinin evin tapdı, qardaşının arvadıynan görüşdü. Qardaşının arvadı başdadı ağlamağa. Şərikan dedi:

– Ay arvat, niyə ağlıyırsan?

Bu başına gələn əhvalatı danışdı. Dedi:

– Belə bir oğlum varıdı, adı Həsən idi. Kişi ölənnən sorasına bu vəzirriyi isdəmədi. Sora bir gün şəhərə çıxdı, qayıdıp gəlmədi. Odu-budu, on altı ildi göz yaşı tökürəm, oğlumnan nə ətər var, nə bir şey var.

Bu da yandı-töküldü, ağlaşdılar elədilər. Sora dedi ki, qaynım, icazə ver, mən də sizinən gedim, yerinizi, yurdunuzu gəzim. Bir az dərdim-qəmim azalsın. Dedi:

– Ay yengə, mənim gözüm üsdə, gedəh, gəzəh.

Bunu da götdülər karvana, qayıtdılar gəldilər. Gəldilər, genə Dəməşqidə həmin yerdə düşdülər. Hansı ki, qavaxdan burda düşərgə eləmişdilər. Sorasına bu arvat bir nar qavırması bişirdi. Nar qavırmasınnan bir qav da Əcipin qavağına qoydular. Bir tikə yeyip götüdü qavı tulladı, nar qavırması tamam töküldü.

Dedi:

– Bu nəə lazımdı? Bunu bekara bişirifsiniz, səhər də bir nar qavırması yemişdim. O, hamısınnan yaxşıydı.

Bu vax Şərikan vəzir dedi:

– Dayə, necə yanı bu nar qavırması yedi?

Bu qorxa-qorxa danışdı ki, bəs biz keçən səfər gedəndə filan yerdə nar qavırması yemişdih. Bu belə deyəndə Şərikanın qardaşı arvadı dedi:

– Mən oğluma nar qavırması bişirməyi öyrətmişdim. Bəlkə, elə o mənim oğlumdu.

Belə deyəndə dedilər:

– Yaxşı, gedəh yoxluyax.

Oğlu Əcip də getdi, dayə də getdi. Həsənin anası da getdi, fərraşdardan da getdi, ağsakqallar da hamısı yığışdılar, getdilər Həsənin yanına. Həsənin yanına gedəndə qıraxdakılar baxdı ki, bu Həsən arvada oxşuyur (Şərikan vəzirin qardaşı arvadına – top.). Uşax noolur-olsun, anasına oxşamalıdı – burnunnanmı, qaşınnanmı, baxışınnanmı, nəynən olur, olsun. Hamısı bir-biriynən danışdı kı, bu, arvadın oğludu. Ama arvat tanımadı. Çünkü aradan on altı il keşmişdi. Həsən də evlənip eləməmişdi, bir əz da qocalmışdı. Arvat tanımasa da, başqa adamlar təsdik elədi ki, bu onun oğludu. Bunu burdan götürməy üçün Şərikan getdi şahın yanına. Dəməşqin şahına dedi ki, mən filan yerin patşahının vəziriyəm. Burda bir halvaçı Həsən mənim oğluma nar qovurması yedirdip. İcazə ver, onun tənbehini verim. Bu da isdəmədi o şahlıxnan düşmən olsun. Dedi:

– Get, neyliyirsən elə.

Gəldi, əmr elədi, bu tükanı tamam darbadağıl elədilər. Oğlanın da qollarını bağlıyıf saldılar qavaxlarına.

Gətirdilər həmin o düşərgə yerinə. Düşərgə yerində bunnan soruşdular, ay bala, adın nədi? Dedi:

– Həsəndi.

Vəzir çox fikirrəşənnən sora Həsənin boyuna bir sandıx düzəltdi. Orda buna behişdəri verip yatırdılar. Götürüp onu bir dəviyə yühlüyüp gəldilər öz şəhərrərinə. Yolda bunu qaldırdılar, yedirip, içirdip, gəzdirənnən sora yenə behişdəri verip yola düşürdülər. Deməli, gəldilər çıxdılar qızın mənzilinə. Bunnar bilirdi behişdəri verənnən sora hansı dəyqa qalxacax.

Deməli, gələnnən sorasına nəkqaşın çəhdiyi şəkildəki kimi bu otağı bəzədilər. Oğlanın paltarını, papağını gətirip qoydular soyunduğu yerə, sora bunu soyundurup toy gecəsində olduğu kimi yerin içinə uzatdılar bir tuman köynəyinən. Sorasına üş nəfər də gözətçi qoydular ki, görsünnər ki, bu duranda nə danışacax. Qız da öz örtüsündə bunu gözdüyür. Elə ki behişdərin vaxdı getdi, Həsən ayıldı, gördü, sevgilisi yanındadı. Dedi:

– Ey Sit-Əl-Hüsn, mən yaman yuxu görmüşəm.

Dedi:

– Nə yuxu görmüsən?

– Bir yuxu görmüşəm ki, Dəməşq şəhərinə gedip çıxıram, orda halvaçı Musuya oğul oluram, orda xeylağ işdiyirəm. Bir oğlan gəlir ora, ona qanım elə qaynıyır, elə qaynıyır ki, heç ayrılmağ isdəmirəm. Oğlana nar qavırması yedirirəm, sora düşürəm bunun dalına filan, o da götürür daşı vurur mənim başıma – alnın göstərir – sora indi ayıldım, gördüm burdayam.

Qız dedi:

– Adın nədi?

Dedi:

– Həsən.

Dedi:

– Bəs mənim yanıma gəlməyin, mənnən yatmağın yadındadımı?

Dedi:

– Yadımdadı, niyə yadıma gəlmir. Dəfçilər getdi səni qız öyünnən gətidilər, burda yeddi dəfə peşkaş çəhdilər, beləlihnən, olannarın hamısın danışdı. Sora otağa girəndə paltarımı soyundum, qoydum bura.

Dedi:

– Paltarında bir nişana varmı?

Dedi:

– Ayrı şey yoxdu, ama min dinar pul var. Papağımın tərkinə qoymuşam.

Belə danışanda qız bildi, öz əridi. Qıraxda güdənnər də sevindilər.

Çıxdılar vəzirə xəbər verdilər ki, bəli, öz yoldaşıdı. Odu ku, hər kəs həsrətnən görüşdü. Yenidən Həsənnən Sit-Əl-Hüsnü evləndirdilər. Onnan sorasına oğul atasına çatdı, qız yoldaşına çatdı. Yedilər, işdilər, kef elədilər. Allah sizi də öz arzuuza çatdırsın, bullar kimi sevinəsiz. Sağ olun. Bu nağıl da belə kutardı (S. 21).

## 4. TƏRƏQQİ VƏ TƏNƏZZÜL HAQQINDA

Belə rəvayət edirlər ki, köhnə əyyamlarda bir patşah varıydı. Bu patşah ədalətdi, camahat qədri bilən, xoş danı-

şıqlı bir adamıydı. Həmişə də xəlqin qeydinə qalırdı. Günnərin bir günü bir dələduz gəldi dedi, şahım, sən çox səfliy eliyirsən. Filan şeyi belə elədin, filan şeyi elə elədin. Dedi:

– Sən olsan, neyliyərsən?

Dedi:

– Üşcə günə şahılığı maa ver, gör mən neyliyəjəm.

Dedi:

– Baş üsdə.

Akt yazdılar, üç günnüyünə bu taxdı verdilər bu adama. Şah qayğıkeş adamıdı. Hər gün saat ombirdə[60] gələrdi evə. Bu səfər tez gəldi evə. Arvat dedi:

– Kişi, həmişə gej gələrdiniz. Bu gün nə təsadüf oldu tez gəldiz?

Şah əhvalatı olduğu kimi arvada danışdı. Arvat dedi:

– Ay kişi, sən nə qayırmısan? Adam da şahlığı verərmi? Pul isdiyirdi verərdin, torpağ isdiyirdi verərdin, el isdiyirdi verərdin, qızıl isdiyirdi verərdin, vəzifə isdiyirdi verərdin. Adam da şahlığı verərmi? O şahlıx daha sanıa qayıtmayajax.

Dedi:

– Ay arvat, nə danışırsan? Akt yazılıp, möhür basılıp, camahat qol çəkib.

Arvat dedi:

– Kutardı. Rəhbərriy ona keşdi. Qılış bu saadı onun əlindədi. Əmr onundu, hələ sən öz canınnan qorx.

Bunu arvat deyəndə kişi fikirrəşip dedi:

– Doğurdan da, səhv eləmişəm.

---

[60] ombirdə – on birdə

Ama dört gün dözdü. Dört günnən sora kağızı da götdü, getdi:

– Salaməlöyküm.

– Əlöykə salam.

Hökmət üzvləri yığıldı. Dedi ki, qaytarın mənim şahlığımı. Şah dedi:

– Bu günə kimi sən olupsan, böyünnən sora mən olajam. Sanıa bir sutka vax verirəm. Şəhərdən çıxmasan, səni dardan asdırajam. Dur çıx şəhərdən.

Bu durdu, kir-kirimiş gəldi evlərinə. Arvat dedi:

– Nooldu?

Dedi:

– Sən deyən kimi oldu.

Arvat dedi:

– Mən dedim axı, sən səf eliyifsən.

– Kişi maa dedi, şəhərdən çıx, yoxsa səni asdırajam.

Dedi:

– Eliyəjəh. Çıxah şəhərdən.

Bunun bir oğlu varıydı, beş yaşında, bir oğlu yeddi yaşında. Bir dəvənin üsdündə kacava hazırradılar. İki dəs yorğan-döşəh qoydular, bir nə qədir qızıl qoydular. Mindilər kacavıya, başdadılar qıvla səmtinə getməyə. Şah adamıdı. O zaman telefon yoxudu, maşın yoxudu, boşd [61] yoxudu. Yolnan getdilər. Getdi, bir bulağın başında, meşə kənarında düşdülər, dincəldilər. Yatdılar. Dəvələri də yanında saxladılar. Otardılar. Orda bir gün, iki gün dincəldilər, yenə getdilər. Bir günnəri getdilər meşənin bəri qulağında düşdülər. Bunnardan sora bir karvan gəldi. Ax-

[61] boşd – poçt

şam tərəfiydi. Bir kavran gəldi, keçə, meşənin o tərəfinə düşə. Elə ki, axşam düşdü, bu daldan gələn karvannan iki nəfər gəldi. Dedilər:

– Tacir qardaş, sizə bir işimiz düşüp.

Dedi:

– Nədi? Nooluf?

Dedi ki, bizim karvanda bir gəlin var. O hamilədi, uşağa yatır. Xayış eliyiriy, bu arvadı ver, getsin onu yatırsın. Kişi dedi:

– Arvat, dur, dur get.

Arvat dedi:

– A kişi, mən bu qarannıx vaxdı hara edim?

Bu gələn adamlar dedi:

– Ay bajı, insafın olsun. Bu gəlin yatmalıdı. Bizim əlacımız kəsilip gəlmişih. Bayaxları gedəndə səni burda gördüh. İndi ona görə gəldih sənin üsdaa. Aman günüdü gəlin ölür, gəl gedəh.

Deməh, arvat getməh isdəmədi. Dedi:

– Ay kişi, dur, sən də mənnən gedəh.

Dedi:

– Arvat, uşaxlar yatıp, mən burdayam. Dur get, arvat, dur get. Gəlini kişimi yatırmalıdı? Gəlini qadın yatırmalıdı, dur get.

Dedi:

– Ay kişi, gedəjəyəm, mənim üzümü day görmüyəjən.

Dedi:

– Bekar-bekar danışma, dur get.

Gələn adamlar da and-aman elədilər ki, bajı, səni aparırıx, qaytarıf da gətirəjih. İkisi məjbur elədi, arvat

getdi. Arvat karvana çatan kimi gördü gəlin-zat söhbəti yalandı. Bunu da götdülər qoydular bir karvanın üsdünə, düşdülər yola. Deməh, şah gözdədi səhərə qədər, arvat gəlmədi. Səhər işıxlaşanda yüürdü, getdi gördü karvan gedip axşamnan. Nə izi var, nə tozu. Çıxıf gediplər. Bu, çox ağladı, özü-özünü danladı. Dedi, arvadın sözünə baxmadım, arvadı əlimnən buraxdım. Şahlığı buraxdım. Niyə belə adam oldum mən? İndi fikirrəşirəm, inanmax lazım döyül. Gərəh hər şeyi dəqikləşdirəsən, hər şeyi yerinə yetirip onnan sora əmr verəsən. İndi başa düşmüşəm onu.

Şah öz-özünü dannadı. İş işdən keşmişdi. Bu dəvəni yühlədi. Bu səhər yenə yola düşdü. Day iki dəs yorğan-döşəh çıxarmırdı. Birjəjiyin çıxarırdı. Uşağın birin o qoluna alırdı, birin də bu qoluna alırdı. Gənə günə bir mənzil gedirdilər. Ama bilmirdi hara gedir, bir yaxşı havalı yerə çatıp dincəlirdilər. Bir gün gəlip meşə qırağına çatdılar. Düşdülər burda çörəh, xörəh yedilər, yatdılar. Bir oğru gəldi, gördü burda bir tacir dayanıp, yatıp. Kirimişcə getdi dəvəni aşdı. Elə palaz da, qızıl da üsdündə götdü, çıxdı getdi. Şah səər tezdən durdu, gördü, dəvə yoxdu. Ora dəvə, bura dəvə, dəvəni tapbadı. Qaldı mətəl[62], qaldı ağlıya-ağlıya. Civində beş-üş qəpih varıydısa varıydı, yoxudusa yoxudu. Deməh, dəvə də getdi, qızıl da getdi, arvat da getdi. Nə qədər fikirrəşdi-fikirrəşdi. Dedi, ağlamaxdan nə çıxar? Gəl başda yeriməyə. Əslində insana iradə lazımdı. İşin sonunu gözdəməyi bajarmax lazımdı. Allahtala demişdi: “Tərəqqinin tənəzzülü də olar”. Bu yenə döşəyi dalına alıb yeriməyə başdadı. O beş yaşında uşax yeriyə

[62] mətəl – məəttəl

bilmirdi, ama yeddi yaşında uşax yeriyirdi. Bu səfər gündə bir-iki kilometr yeriyirdilər, bu uşax yorulanda düşür-dülər. Belə-belə, belə-belə, günnərin keçirillər. Bu zaman getdilər iki çayın arasına çıxdılar. Gördülər, çay çox bərk gəlir. Çayın o tərəfi də meşədi, bu tərəfi də meşədi. Hər iki çayın arasındadılar. Bular balaca çayı keşdilər. Gördülər, o böyüh çay çox bərk gəlir. Dedi, mən əvvəl yorğanı aparıp o taya qoyum, sora sizi aparım. Belə də elədi. Apardı qavaxcan yorğan-döşəyi qoydu. Sora gəldi kiçiy oğlunu qujağına aldı. Getdi suyun ortasına qədər. Bu suyun ortasında olanda bu ayı durup bulara baxırdı. Bu suya girəndə gəldi uşağı dalına alıp apara. Bu təntidi, qujağın-dakı uşax yerə düşdü. Yerə düşən kimi uşax itdi. Uşağı da sel apardı. Bu kişi çayı keşdi, düşdü ayının dalına. Ayı özünü meşiyə verdi. Nə qədər axdardı, tapa bilmədi. Oğlannar da əlinnən çıxdı. Kor-peşman, ağlıya-ağlıya gəldi çayın qırağına. "Ay Allah, məni niyə bu günə saldın? Mən saa neyləmişdim? Mən həmişə ədalətnən işdəmişdim. Hə-məşə yaxşı işdəmişdim". Ama iradəsini pozmadı. Dedi, Allaha pənah. Addadı çayı, yorğan-döşəyi çiyninə alıp başdadı getməyə. Civində də az miqdarda pul varıydı. Getdi çıxdı bir şəhərə. Bir uçux karvansara varıdı. Qiyməti ucuzuydu. Burda bir otağ aldı. Kişi gedirdi, çöldə-bayırda çörəh-zad yeyirdi. Burda ağsakqalların yığıldığı yer varıdı. Gəlirdi, boynu büküh kirimişcə dururdu. Bir gün, üş gün, beş gün belə oldu. Bir gün dedilər, şəhərin patşahı ölüp, quş uçururlar. Quş kimin başına düşsə, onu şah qoajaxlar. Vəzirin oğlu paltar geyip bir damın üsdünə çıxmışdı kı,

quş gəlsin, unun başına düşsün. Əmə quş hərrəndi, hərrəndi, gəldi bu şahın başına düşdü. Dedilər:

– Kişi, kimsən, nəcisən? Xəvər aldılar, aylən, uşağın varmı?

Dedi:

– Ayləm, uşağım, heş bir şeyim yoxdu.

Apardılar buna yaxşı bir paltar geyindirdilər, arvadı olmadığına görə bir arvadı bına qulluğ üçün qoydular. Bu arvada tapşırdılar kı, bunun çörəyini, suyunu düzəltsin. Arvat başdadı buna xidmət eləməyə. Bu on bir ay xidmət elədi. Buna on bir aydan sora bir günnəri bir qadın gəldi, dedi:

– Olarmı, ey şah, sanıa bir söz deyim?

Dedi:

– Ay bajı, on bir aydı maa xidmət eliyirsən.

Dedi:

– Bu şahlığa elə adamlar toplaşıllar kı, xəlqin qanını sorullar. Olar hər il təzə bir şah gətirip qoyullar. O şah ta kı olların iç üzünü tanıyana qədər bir il keçir. Bir ildən sora başa düşüllər ki, bulların nöksannarını bu şah öyrənip. Deməh, gələjəhdə bunnarın hakqında lazım olan tədbir görəjəh. Ona görə ona zəhər verip onu öldürüllər. Deməh, yerinə başqasını qoyullar. İndi sənin vaxdına birjə ay qalıp. Bir aydan sora zəhər verip öldürəjəhlər. Gəl, xəzinə də əlindədi, nə qədər götürürsən, götü, çıx get.

Kişi fikirrəşdi, öz arvadımın sözünə baxmadım, pis günə qaldım.

– Bəs, ay arvad, mən hayana qaçım? Yol tanımıram, iriz tanımıram. Harıya gedim, nejə gedim, nə təhər gedim?

Dedi:

– Burda çay var. Çaydan o tərəf başqa hökümətindi. Mən o yolu tanıyıram, hazırraş, səni aparım qoyum ora.

Bu arvadın sözünə baxdı, nə qədər şey götürdü. Hazır olup arvada dedi ki, hazıram. Arvat onu saat on ikidə dəryanın o tayına keçirdir. Deyir:

– Day get, onnar səni tapbazdar.

Bu da öz götüdüyü puldan bir nə qədir bu qadına hörmət elədi, onu geri qaytardı. Arvat qayıtdı gəldi, yerində uzandı. Səhər gördülər, şah yoxdu. Nə qədir axdardılar, şahı tapbadılar. Bu julihlər yenə də bir adam gətirip qoydular şahın yerinə.

İndi deyəh bu şahdan. Bu səfər day yorğan-döşəyi yoxudu. Pul civiynən doluydu. Keçən səfərki kimi naxoş döyüldü. Başdadı yol getməyə. Getaget, bir müddət sora başqa şahlığa çatdı. Burda otax tutdu. Gedirdi, yeyirdi, içirdi, gəlip ağsakqallarınan burda söhbət eliyirdi. Bir ay burda qaldı. Bir aydan sora təsadüfən bu şəhərin də hökmdarı öldü. Yenidən quş uçurdullar. Quş yenə hərrənə-hərrənə gəldi, bunun başına düşdü. Əma bu səfər bunu qoymadılar. Dedilər:

– Ə, sən haranın gəlməsisən? Kimsən, nəçisən buruya şah olursan?

Dedi:

– A kişilər, mən qəriv adamam, şahlığı-zadı isdəmirəm. Kimi qoyursunuz qoyun.

Dedilər:

– Quş yanılıf.

Bu kişini bir uçux dama saldılar. Quşu yenə buraxdılar. Yenə də dediyim kimi vəzirin oğlu, vəkilin oğlu, alimin oğlu… hərəsi bir yaxşı paltar geyinif, bir görkəmli yerə çıxıf kı, quş bizim başımıza düşəjəh.

Quş yenə bulların başına düşmədi. Gəldi, hərrənə-hərrənə uçux damnan keşdi, bunun başına düşdü. Yığıldılar gəldilər, gördülər, quşu qujağına alıf kişi. Deyir ki, ay quş, məni niyə döydürürsən? Manıa şahlıx qismət olsa, öz yerimdə olardı. Güdürdülər. Gördülər, bu şah olup qabaxcadan. Tutdular, bunu qoydular şah. Genə bunun arvadı-uşağı olmadığına görə bir dul arvat təyin elədilər ki, bunun çörəyin qayırsın. On beş il burda şahlığ elədi. Çox ədalətnən, çox insafnan şahlığı elədi. Bu şah on beş ildən sora vəziri çağırıp dedi:

– Ürəyim darıxır, gəl gedəh siyahata. Bu çölləri, biyabanı, dağları, bulaxları gəzəh, sərin sulardan içəh.

Vəzir dedi:

– Noolar.

Bir on nəfər də fərraş götüdülər. Yeməh bişirənnəri də götdülər, getdilər. Bir dağın yanında bir çovana ras gəldilər. Çovan gördü gələn şahzadədi. Çovan gətdi bulara bir heyvan kəsdi. Oğluna tapşıdı kı, oğul, kabaf bişir, ver. Onun bir qoşa oğlu varıdı, çörəh bişirdi, gətidi. Qoydular, yedilər, işdilər. Şahın gözü düşdü bu oğlana. Gördü həm qoçaxdı, həm işgüzardı, həm də boylu-buxunnudu. Dedi:

– Çovan, bu kimdi?

Dedi:

– Mənim oğlumdu.

– Gəlsənıa onu manıa verəsən.

Dedi:

– Şahım, neynirsən onu?

Dedi:

– Aparıp onu qapıçı qoyajam.

Dedi:

– Şahım, mənim bu sürümü saxlıyan odu. Onsuz mən bu sürünü saxlıya bilmərəm.

Şah dedi:

– A kişi, qoyun nədi, zad nədi. Aparax gedəh, bunun özü ağırı saa qızıl verəjəm. Yeddi arxa dönənin yesin kutarmasın. Sürünü də apar sat.

Axırı razılaşdı çovan. Çovan adam göndərdi, bunun ağırrığında qızıl aldı, oğlanı verdi buna.

Şah çox sevindi. Bunu aparıp qoydu qapıçı. Beş-on günnən sora şah dedi:

– Vəzir, keçən səfərki səfərimiz uğurru oldu. Gəl indi də şimal tərəfə gedəh.

Bu səbəbə fərraşdarı, filanı götüdülər, şimal tərəfə yollandılar. Getdilər, yolda çörəhləri kutardı, bir dərmana çatdılar. Dedi şah:

– Vəzir, get gör orda çörəhdən-zaddan var?

Keşmiş zamannarda çörəy ancax dərmannarda olurdu. Dərmançı dedi:

– Oturun, bu saat kömbə salajam.

Tezcə kömbə bişirdi, gətdi, bulların qabağına qoydu. Bunnar yedilər, işdilər, gördülər burda bir yaxşı oğlan var. Şahın gözü bu oğlana da düşdü.

Dedi:

– Gəlsənıa, bu oğlanı maa verəsən.

Dedi:

– Şahım, qoja kişiyəm, tayları götürə bilmirəm. Bu, çualları götürür, tökür, üyüdür.

Deyir:

– Bu qoja yaşında dərmanı neynirsən? Saa bu ağırrıxda qızıl verəjəm, bunu ver maa.

Dərmançi tamahlandı. Qızıl verip onu alıp gətidi. Bunu da ikinci simen qaroolçu qoydu.

Aradan bir il keşdi. O vaxt belə adət-ənənə varıydı kı, təzə şəhərə gələndə bir xonça bəziyip gətirirdilər, şahın qabağına qoyurdular. Şah onnara icazə verirdi, onun bazarında alver eliyirdilər. Bir dilavər tacir gəldi. Basdıbağladı şirin dilnən. Tacir dedi:

– İcazə ver, sənin sarayında alver eliyim.

Şah deyir:

– Qızıl da götü, get. Heş zatsız gəlip alver eliyərsən. Ama qəlbim tutqundu. Axşam gəl, sənnən söhbət eliyəh.

Tacir deyir:

– Mənim arvadım təhdi. Onu heş kimə ümüd ola bilmərəm. O çadırda qəflə-qatırın yanındadı.

Şah dedi:

– Mən öz sarayımın gözəççilərini göndərim, gedip sənin arvadını qorusun. Belə olsa, sən qalıp söhbət eliyə bilərsənmi?

Dedi:

– Bəli, eliyərəm.

Şah əmir elədi, o, iki oğulları çağırdı. Dedi:

– Qılıncı götürün, gedip bu arvadın çadırın qoruyun. O, bu kişinin arvadıdı. Oranı səhərə qədər qoruyarsınız.

Bax, yatıp eləmiyin ha! Əməlli-başdı gözdüyün. Bu tacir də maa söhbət eləsin.

Bunnar əllərini gözdəri üsdünə qoyup dedi:

– Yaxşı, şahım, gedərih.

Bu oğlannarı şah tacirə qoşdu. Bunnar getdilər. Karvannan da on beş metir kənarda tacir çadır qurmuşdu. Apardı, çadırı bunnara göstərdi. Bunnarın ikisi də burda qaldılar gözdəməyə.

Tacir də qayıtdı gəldi padşahın yanına. Bunnar söhbət elədi saat ikiyə qədər. Yuxuları gəldi. Şah əmr elədi, onu aparıb bir yerdə yatırdılar. Səhər açılanda tacir naranıydı[63], getdi ki, malın aça, satışa çıxara. Getdi gördü, çadırın yanında heş kim yoxdu. Dedi:

– Ə, bə bu gözətçilər nejoldu?

Əyilip çadıra baxanda gördü kü, arvat uzanıp, bu gözətçilər də onun yanında. Arvadın sol əli birinin, sağ əli o birinin boynundadı. Kirimişcə dillənmədi, tez qaça-qaça gəldi patşahın yanına.

Dedi:

– Ay Allah sənin evini yıxsın, bəs sən dedin, gözətçini göndərəjəm, gessin sənin arvadını qorusun. Onnar gedip mənim arvadımı ələ gətiriplər. Odey, orda arvadımın qolları üsdündə yatıllar. Bəs sən nejə ədalətdisən, nejə şahsan, şahlığı beləmi idarə eliyirsən?

Şah dedi:

– Elə şey ola bilməz.

Dedi:

– Gedəh, öz gözünnan bax.

---

[63] naranıydı – nigaran idi.

Dərhal şah əmr elədi, üş-dört nəfər əli qılışdı getdi bularnan baravar. Gördülər, həqiqətən də, yatışıllar.

İndi bu necə olmuşdu? Deməh, bu oğlannar gəldilər, saat ikiyə qədər gözdədilər. Saat ikidən sora yuxuları gəldi. Onda bulardan biri dedi:

– Gəl, a qardaş, gəl, bir əz söhbət eliyəh, yuxumuz gəlməsin.

Bu oğlan başdadı, qabaxcan söhbət elədi. Mənim atam şah olup, adı budu, filankəs də şah olup. Onu bir dələduz aldadıp, şahlığı əlinnən alıp. Sora anamı bir tacir oğurruyup. Sora məni də bir ayı apardı getdi. Ayının əlinnən çovanın itdəri saldırdı. Çovana oğul oldum. Sora gəldi bu şah məni aldı. İndi də şaha qulluğ eliyirəm.

Bu birsi dedi:

– Ə, aman günüdü, mən də sənin qardaşınam. Bular mənim də yadıma gəlir. Anamı apardıxları da, səni ayının aparmasını da, hamısını bilirəm.

Bullar başdadılar qucaxlaşıp ağlaşmağa. Bu məsələni, bulların söhbətdərini çadırdakı arvad eşidirmiş. Arvat bildi ki, bu oğlan bunun oğlannarıdı.

Dedi:

– Ay bala, mən on beş ildi, bu əclafın əlinə gəlip düşmüşəm. Məni qoymur bir yerə çıxam. Aman günüdü, siz mənim oğlumsuz, gəlin yanıma.

Görüşdülər, ağlaşdılar, söhbətdəşdilər. Sora arvat bunnarı qolunun üsdünə alıp yatırdı.

Şahnan kı vəzir gəldilər, olları bu vəziyətdə görənnən sora qalxızdılar, qollarını bağladılar. Dedilər arvada:

– Çəpəl, düş qabağıma. Hamınızın boynunu vurajam.

Apardı getdi, düz şahlığa çıxardı. Ama şahlıxda bir idara müdürü varıdı, bunnarı çox isdiyirdi. Bilirdi ki, bullar belə iş görməzdər. Şah qırmızı geyinip taxta çıxdı kı, bəs bunnarı öldürəjəm. Elə boynun vurdurmax isdiyirdi ki, arvat başınnan yaylığın açıp atdı, dedi:

– Ədalət, şahım, əl saxla. Bullar mənim oğlumdu.

Arvat başına gələnnəri danışıp kutaran kimi şah özünnən getdi. Bu vaxt tacir qaşmağ isdiyirdi. Bu idarə müdürü qılıncı çıxarıp dedi:

– Hara gedirsən? Başıı kəsərəm, dur burda.

Şah özünə gəldi. Öpüşdülər, görüşdülər. On beş ilin həsrəti qovuşdu.

Sora məhkəmə elədilər. Şah bu tacirin də, bunun sözüynən arvadını aparan o iki adamın da boynun özü vurdu. Bir müddətdən sora şahın böyüh oğlu dedi:

– Ata, maa qoşun ver, gedim o fırıldaxçıdan taxtımızı alax.

Atası qoşun verdi. Bullar yola düşdülər. Kimin qoşunu dura bilərdi bulların qarşısında. Getdilər, oranı aldılar. Məhkəmə düzəldib bu fırıldaxçının da boynunun vurulmasına əmir verdilər. Şah bunun boynun özü vurdu. Beləcə böyüy oğlu burda şah oldu. Şah bir gün kiçiy oğluna dedi:

– Ay bala, day mən qojalmışam.

Beləjə bu şahlığı verdi kiçiy oğluna. Özü də arvadıynan çəkilip bir qırağa sakit-sakit yaşamağa başdadılar.

Bu nağıl da belə kutardı (S. 21).

## 5. ATI ÜÇQIÇLI GÖYGÖZ KOSA

Keşmiş vaxda bir dənə pətşah olur. Bu çox zülümkar pətşah olur. Ona görə də kimlər bunnan yanıxlıdısa da, o adamları ölən vaxdı uşaxlarına tapşırır ki, bala, mənim sizə vəsiyətim var. Bu vəsiyətimi yaxşı eşidin. Buna dediyim kimi əməl eliyarsız. Üç oğlu varmış.

Deyiblər:

– Yaxşı.

Deyir:

– Birinci vəsiyətim budu ku, üş gejə qavırıma qarool çəkərsiniz – bu, bir vəsiyət. İkinci vəsiyətim də budu ku, – üş dənə də qızı varmış, yetişmiş qızdar – üş gejə gəlif qapımızı tıkqıldadajaxlar. Onda hərəniz öz bacınızı, böyüy oğul böyüh bacısını, ortancıl qardaş ortancıl bacısın, kiçih qardaş kiçih bacısını qapının arasınnan nə ki cehiz qiyməti var, onu da qurşağına bağlıyarsınız, verərsiniz bu qapını tıkqıldadana.

Bullar deyillər:

– Yaxşı.

Üçüncü vəsiyətim də budu ku, göygöz adamnan, kosa adamnan nə nökər tutun, nə qapıçı tutun. Onnan yoldaşdığ eləməyin.

Uşaxlar deyir:

– Yaxşı.

Nolajax, bu başın qoyur yerə, ölür gedir. Bunu aparır kəfin-dəfin eliyənnən sora birinci gecə gözətdəməyin vaxtıdı. Bu kiçih qardaş böyüh qardaşına deyir:

– Atam vəsiyət elədi, dur get, sənin nööbəndi. Atamın qəvrinin üsdündə nööbə çəh.

Deyir:

– Ə, lazım döyül, mən getmirəm. Ölünün vəsiyəti tutulmaz, pox yediyi özünə qalar.

Deyir:

– Ə, atama sən heylə söz deyirsən?

Deyir:

– Yaxşı eliyirəm. Yaxşı olaydı, indi qəbirdən çıxartmayaydılar.

Nəysə, bu getmir. Balaca qardaş bir lapatka da götürüp getdi qavıra nöbüyə. Gedir, atasının qəbirinin yanında xəndəh qazır, gizdənir burda. Bir az keçəndə görür kü, bir dənə ağ atdı, ağ paltarrı, əlində qılış gəlir:

– A gorbagor, sən bu dünyada bizə nə gün verdin ki, o dünyada nə gün verəsən. Səni bu gordan çıxardajam.

Gəlir, elə qəbirin yanında atdan aşılıp düşəndə gədə çıxır gizdəndiyi yerdən, lapatkaynan bunun kəlləsinə nətəər vurursa, bu yıxılır yerə. Yıxır yerə, bunun başın əzir, bunun ağ paltarını da soyundurur əyninnən, ağ atını da götürür gətirir evə. Nolajax, patşah evidi, aparır bir tööləsinə bağlıyır, qavağına da kişmiş tökür. Bu atı, paltarı, qılışı da saxlıyır burda.

Savah açılır. Savah üzünıuza xeyirrihnən açılsın. Bu gəlir, qardaşdarına heş bir söz demir.

İkinci gün, nolajax, ortancıl qardaşın vaxtıdı. Amma balaca qardaş baxır ki, heş bu tərpənməh isdəmir. Bu kiçih qardaş deyir:

– Ə, sən dur get, sən də böyüh qardaşım olmadın. Get atamızın qəvrinin üsdündə qaroul çəh beejə.

Deyir:

– Ə, böyüh qardaşımız bir şey bilməsə, elə deməz. Ölünün vəsiyəti tutulmaz. Pox yediyi özünə qalar. Kişiyi heç eliyəllər.

Kiçih qardaş gənə durur, lapatkasını atır çiyninə, gedir. Nəysə, lapatkasını götürür, gedir. Gedir genə o qazdığı yerdə gizdənir. Baxır ki, gejənin bir vaxtında bir göy at, göy paltar geyinmiş qoçağ, əlində qılış gəlir. Deyir:

– A gorbagor, bu dünyada bizə nə gün verdin ki, o dünyada da nə gün verəsən? Gənə yerimizi dar eliyəjəhsən.

Deyəndə aşırılır, atdan düşür. Bu atdan düşməmiş lapatkaynan vurur bunun başına. Bunun da başın əzir. Sora bunu da aparır dünənki qazdığının yanına helliyir[64], salır o çökəyə. Üsdünü torpaxlıyır. Qayıdır gəlir, bunun atını da, paltarını da yığışdırır. Aparır bu atı da o biri atın yanına bağlıyır bir xəlvət yerdə, qavağına da kişmiş tökür.

Nolajax, savax axşam da öz sırasıydı. Kirimişcə durur, lapatkasın götürür, gedir. Gedir, gənə qazdığı çökəhdə gizdənir. Görür kü, bir qara atdı, qara geyimli pəhlivan gəldi. Bu da ollar kimi:

– A gorbagor, bizə bu dünyanı dar elədin. İndi də o dünyuyu dar eliyəjəhsən. Sənı bu saat gorbagor eliyəjəm.

Bu xəlvətcə qalxır gənə, bunu da vurur dığırrıyır. Bunun da başın əzir, tulluyur oruya. Bunun paltarını, atını da soyundurur. Götürür bu atı-zadı da gənə həmən atdarın yanına bağladı. Bu atı da bağlıyır o atdarın yanına, qalxır gedir. Bunu qardaşdarına demir.

İndi dördünjü gejədi. Bir də görür kü, – atası axı vəsiyət eləmişdi, – qapı tıkqıldayır. Qapını tıkqıldadanda

---

[64] helliyir – dığırlayır

atasının vəsiyəti yadına düşür. Böyüh qardaşını qurdalıyır qaldırır, deyir:

– Ə, dur bajını ver. Atamızın vəsiyətidi. Qapını tıkqıldadır.

Bu deyir ki, qardaş, mən sanıa bir dəfə demişəm ki, ölünün vəsiyəti tutulmaz. Vermirəm mən bajımı. Belə deyəndə bu kiçih qardaş gənə qalxır, bu böyüh bajısına nə qədir təmənna lazımıydı, bunun qursağına bağlıyır, qapının arasınnan addadır, gedir. Gedir, nolajax, bu bilmir kimdi, nəçidi, hayana aparajax. Bunnan xəbəri olmur.

İkinci gejədə gəlir ortancıl qardaşın qaldırır, deyir:

– Ə, qalx bajını ver, qoy getsin. Atam vəsiyət elədi.

Deyir:

– Böyüh qardaşım əməl eləmədi, mən də eləmirəm. Vermirəm mən bajımı.

Qalxır bu bajısın da qurşağına evdə olan puldan-muldan bağlıyır. Bunu da yola salır, bu da gedir.

Üçüncü gejə də tıkqıldadanda, öz sırasıydı, durur kiçih bajısını da verir. Bacıları gedənnən sora bunnara artıx evdə qulluxçu yoxdu. Bullara qulluğ eləməyə kimsə lazımdı. Durullar üş qardaş, üçü də şəhərdə, bazarda hərrənillər ki, bir nökər tutsunnar gətisinnər qulluğ eləməyə. Hana hərrənillər:

– Ay nökər olan, nökər olan.

Bir Göygöz Kosa çıxır bulların qarşısına. Qavağına ki, mən isdiyirəm nökər olmax. Axı qardaşdara ataları deyir ki, Göygöz Kosadan nökər tutmuyun. Bullar axşam üsdünə qədər gözdüyüllər, bunnan başqa nökər olmağ isdiyən olmur. Böyüh qardaş deyir:

– Ə, mən sizə dedim ki, ölünün vəsiyəti tutulmaz, qardaş. Gəlin elə bu Göygöz Kosuyu tutağ aparax.

Nolajax, bu Göygöz Kosuyu tutup aparıllar.

Evlərində bullara çay qaynadır, çörəh bişirir fılan. Belə şeyləri yaxşı bilirmiş Göygöz Kosa. Göygöz Kosa burda qulluğ eləməhdə olsun, sizə kimnən xavar verim, qonşu patşahdan. Qonşu pətşahın üş dənə qızı varımış. Bu gəlir buların məmləkətinə. Buların məmləkəti ilə qohum olmağ isdiyir. Deyir ki, bu pətşahlıx o pətşahlığa ziyan vururmuş. Nə vilim, ona üsyan qaldırırmış, torpağın alırmış. Ona görə isdiyirmiş ki, bir dosdux qata. Üç qızı varıymış, bunun böyüyün gətirir, bu şəhərin ortasında elannama verir ki, mənim qızım var, dünya gözəlidi. Bunu nümayişə çıxardır. Nolajax, kəcavədə qızı əylədir.

Deyir:

– Kim qoçaxdı, kimin atı yüyrəhdi, kimin qılıcı kəsgindi, kim iyid oğlandı, gəlsin, mənim qızımı aparsın, bax bu qoşunun içinnən.

Bu qoşun da qızın qavağın kəsip, ona qaroul çəkillər. Bu fikirrəşir, fikirrəşir – bu pətşahın kiçih oğlu da. Bu qardaşdar deyir ki, nola, bir yaxşı atımız olaydı, qılıncımız olaydı, gedəydiy o qızı alaydıx. Dünya gözəlidi, filandı. Axşamnan da qızı ora qoyuflar, qoşun keşih çəkir. Kim qoçaxdı, o da aparmalıdı. Bu kiçiy oğlan gejdənnən durur gedir harda kı bu atdarı gizdədip ora. Bala, bəyax dedim e, o atasının qəbrinə gələn atdarın yanına. Burda bu ağ atı yəhərriyir, ağ paltarı geyinir, qılıncı götürür, ağ atın belinə suvar olur. Millət yığılıp. İndi bütün şəhər əhli, kimin nə atı var, kimin nə qılışı var, hər kəsdə ki götürüp gedip ki, görüm ala bilərəmmi?

Qardaşdar deyir:

– Biz də gedəh, – böyüh qardaşnan, ortancıl qardaş. Gedəh görəh bəlkə bu qızı əldə eliyəh, gələ, qulluğumuzu-zadı eliyə.

Bullar gedənnən sora gədə atı yəhərriyir, yüyənniyir, minir. Ağ paltarı geyinir, bu şəhərin qıvla tərəfinnən özün verir qoşunun içinə, qoşunu qatım-qatım qatdıyır. Bu at qoçağ atdı da, yel atıdı. Özün salır qızın üsdünə, əlin salır qızın qurşağına, alır atın tərkinə. Gəlir harda kı atı bağlamışdı, orda bu qızı saxlıyır.

Savağınnan gənə bu iki qardaş gedir. Bu kiçih qardaş deyir:

– Ə, qardaş, məni də aparın. Allaha baxın, Tanrıya baxın. Bəlkə mən də sizə köməy eliyəm.

Deyir:

– Yox, sən lazım döyülsən. Sən kosaynan evdə otur.

Bullar gedənnən sora gəlir, bu dəfə də o göy atı, göy libası geyinir. Atı minir, yel atıdı da, uçur, havalanır gəlir. Burda qoşunu qatam-qatam qatdıyır. Qoşun görür, ə, bir Əzreyil gəlir. Qaçıp dağılıllar. İkinci qızı da götürür, bunu da aparır, qoyur bajısının yanına.

Üçüncü gün də balaca qızı aparır. Qoyur o biri bacıların yanına.

Bunun qardaşdarı ağlıya-ağlıya gəlir. Deyir:

– Bizə pay çatmadı, qardaş. Bir zalım oğlu, bir qara atdı gəldi, qızı apardı.

Qızdar orda, bu da ki Göygöz Kosaynan evdə, qardaşdarıda kı orda-burda. Bir gün deyir ki, qardaş, hazırraşıp toy eliyəciyih.

– Nə toyu?

Deyir:

– Gəlin sizə görkəzim.

Gəlir, görür kü, o gedən qızdar burda, üçü də. Üş dənə də at bağlanıp burda, yəhərri-yüyənni, qılışdar yanında hazır.

Deyir:

– Bu ağ at, ağ geyim böyüh qardaşın. Böyüh qız da sənin olsun.

Göy atı, göy geyimi də ortancıl qardaşına verir. Deyir:

– Ortancıl qız da sənin olsun.

Kiçih qızı da, qara atı da özü götürür, burda qırx gün, qırx gecə toy eliyillər.

Bular toydan sora nolajax. Göygöz Kosa da buların hələ nökəridi. Qapıda-bajada işdiyir. Bu Göygöz Kosuyu buruya nökər tutanda böyüh qardaşnan ortancıl qardaş deyirdi ki, bunu nökər götürəh. Kiçih qardaş razı olmurdu. Ona görə də bu Göygöz Kosa da bunnan yanıxlıdı. Aradan bir az keçəndə Göygöz Kosa gəlir, özü də Göygöz Kosanın üş qışdı atı varıymış. Gedir, atını minir gəlir, bu qızı da götürür – balaca oğlanın yoldaşını, qara geyimi-zadı da götürür, burdan qaçır. Gəlillər ki, balaja qardaşdarının arvadı da yoxdu, atı da yoxdu. Atı üşqışdı Göygöz Kosa götürüp aparır. Nolajax, düşüllər bunun dalınnan. Orda, burda, nə qədə eliyillər bullar atdarını minir, dalınnan düşüllər. Göygöz Kosanın atı – üş qışdı at, mümkün ver-mir. Göygöz Kosanın özü də pəhlivan kimi bir adamımış. Bu qızı bunun əlinnən ala bilmillər. Aparır gedir qızı. Bu balaja oğlanın da adı Məhəmməd idi. Məhəmməd, nolajax, daha öydə durmur, düşür qarabaqara, arvadını axtara-

axtara gedir. Görür kü, bir cəzirəlih, fızıllıx meşənin içində bir dənə tüşdü çıxır. Gəlir, deyir, həm ajıxıbmış, həm də susunnan yanırmış. Deyir, hələ gedim görüm bu nə tüşdüdü. Yaqın burda bir yaşayış var. Gəlir, bajadan baxır, görür kü, bu özünün böyüh bajısıdı. Təhcə oturup evin içində, əyaxlarını təndirə sallıyıp. Burda öz-özünə gumbul-danır qız təhcə. Gəlir, qapını tıkqıldadanda qız baxır ki, bah! Məhəmmətdi gələn. Sən demə, bunu aparan devlərdi. Bu ərazı boydan-boya devin imiş. Onnar da hərəsinin ayrı-ayrı mənzildə bir günnüh sahəsi varımış. İndi dev – böyüh qardaş pətşahın qızın gətirip, o ku gejə verdi, o qızdı. Burda bu evdədi. Gəlir Məhəmmədi görəndə ağlıyır, deyir:

– Qurvan olum sanıa, sən nə təhər gəldin çıxdın buruya? Nəyə gəldin, xeyir ola?

Deyir:

– Belə-belə. Atı üşqışdı Göygöz Kosa varıdı. Atımı apardı, getdi.

Elə deyəndə gördü kü, gümbültü gəlir. Qız əlbəəl bilir ərinin gəldiyini. Deyir:

– Ay qardaş, Məhəmməd, dev gəlir. Amanın bir günü-dü, səni öldürəjəh.

Bunun da atasının vəsiyət elədiyi adam devimiş. Bu gəlir, səni öldürəjəh burda. Onun insan oğluynan arası yoxumuş.

– Bə nağayrım?

Qız bir dənə ismi-əzəm duası oxuyur. Onu bir süpürgə eliyir, qoyur qapının dalına, Məhəmmədi.

Dev içəri girəndə deyir:

– Paho, adam-adam insi gəlir, sakqılı badam insi gəlir. Buruya adam gəlip. Ay insan oğlunun qızı, kim gəlip buruya?

Deyir:

– İndi adam gəlip deyin, mənimi öldürəjəhsən? Mən daşın dəliyinnən çıxmamışam. Bəlkə qardaşımın biri gəlir buruya, onnan sora bir qohumum gəlir. Sən elə insandı deyin, onu öldürəjəhsən?

Deyir:

– Böyüh qardaşın gəlsə, nola yolu düşə, sağ tikəsini qulağı yekəlihdə eliyərəm. Ortancıl qardaşın gəlsə, gənə heylə. Amma Məhəmmət gəlsə, gözüm üsdə yeri var.

Çünki Məhəmmət verdi bu qızı buna.

Deyir:

– Məhəmmət gəlip.

Deyir:

– Bə hanı?

Qız isimi-əzəm duasını oxuyur, Məhəmmət gəlir, burda devinən görüşür. Oyan, buyan. Məhəmmədə deyir:

– Məhəmmət, xeyir ola, bizim üçün nə qulluğ eləməh lazımdı?

Məhəmmət deyir:

– Qul sahıvı olasan. Mənim belə-belə, Göygöz Kosadan nökər tutmuşduğ, arvadımı da, atımı da aparıp.

Dev deyir:

– Əyə, a zalım oğlu, deməli, o sənin arvadınımış? Biz üş qardaş bir oldux, göydən daş tökdüh, yerdən, nə vilim, neynədih, mümkün olmadı. O gözəli onun əlinnən ala bilmədih. Sən getmə onun dalınca, səni öldürər.

Deyir:

– Yox, ölsəm də, gedəjəm.

Deyir:

– Onda gəl səni aparım o biri qardaşımın məmləkətinə qoyum gəlim. Ordan anarı bir az yaxınnaşırsan. O Göygöz Kosa o bir qardaşdarın ərizisinnən o tərəfdə yaşıyır.

Bu Məhəmədi aparır o biri qardaşının evini göstərir. Deyir:

– Qardaşımın evi budu. Qorxma, – deyir, – biz qardaşdar sənnən dosdux. Getginən buna, bu da saa köməh eliyər.

Gedir, görür bajısı gənə içəridə təhcənə oturup. Məhəmmədi görəndə ağlıyır, sızdıyır:

– Qardaş, əcəb-əcəb, nə yaxşı gəlipsən!?

Bu dəmdə dev gəlir. Gəlir, görür, Məhəmmət gəlip. Görüşüllər, öpüşüllər:

– Məhəmmət, mənim üçün nə qullux?

Deyir:

– Ə, Göygöz Kosa arvadımı da, atımı da aparıp gedip.

Deyir:

– Ə, üş qardaş biz onun əlinnən ala bilmədih. Sən getmə, o səni öldürər.

Deyir:

– Öldürsə də, gedəjəm!

Bu da aparır o biri qardaşın teratoryasında qoyur bunu. Bu devlər üş qardaşdı, bunnarın üş bacısın alıp. Bu gənə də gedip kiçih bajısın görəndə bu qız da ağlıyır-sızdıyır, oyan-buyan.

Dev gələndə bu qız bir ismi-əzəm duası oxuyur, bunu eliyir iynə, taxır döşünə. Deyir ki, bu çox hersdidi, səni öldürər.

Dev gəlir:

– Adam-adam insi gəlir, sakqılı badam insi gəlir, burdan adam insi gəlir. Mən onu yeyəjəm, kabab eliyəjəm.

Bu dev belə deyəndə qız ağlıyır, deyir:

– Bəlkə bir adamım gəlip. O adamdı deyip yeyəjəhsənmi?

Deyir:

– Böyüh qardaşın gəlsə, əlimnən kutarmaz. Ortancıl gəlsə, gənə onun kimi. Məhəmmət gəlsə, gözümün üsdündə yeri var. Çünki qızdarı o verip.

Həə, nolajax, qız ismi-əzəm duasını oxuyur, Məhəmmət çıxır üzə. Məhəmmətnən öpüşüllər, görüşüllər. Deyir:

– Məhəmmət, bizə görə nə qullux?

Deyir:

– Göygöz Kosa arvadımı aparıp.

– Ə – deyir, – biz üş qardaş onun əlinnən qızı ala bilmədih. O səni öldürər.

– Bə nağayrax?

Deyir:

– Gəl gedəh. Bir iş eləməliyəm, sənin arvadını nə yolnan olur olsun, onun əlinən almalıyam. Gedəh görəh neyniyirih.

Gedillər, görüllər, başqa bir yerdən də tüsdü qalxır. Deyir:

– Bu da Göygöz Kosanın evi.

Bala, bu da dev cinsiymiş. Gedip bajadan baxanda görüllər ki, qız içəridə oturup, Göygöz Kosa da başını qoyup qızın dizinin üsdünə, yatır.

Dev deyir:

– Sən çağır yoldaşıı, danışdır.

Məhəmmət burdan çağırır nişannısın:

– Ay qız, ay qız!

Qız yuxarı baxanda görür kü, Məhəmmət bajadan baxır. Deyir:

– Aaz, – dev örgədip bunu – nətəər eliyəh, sən gələsən, aparam gedəm səni.

Deyir:

– Gəlim, çıxax gedəh.

Qız yavaçca Göygöz Kosanın başın qoyur yasdığın üsdünə. Qız qalxır gəlir. Bunnar buruya devin atıynan gəlirlər – yeznəsinin atınnan. Qız gəlir, elə atdarı minip xeyli gələndə, Göygöz Kosanın üşqışdı atı oruya bağlıymış. Təpihnən vurur Göygöz Kosanı:

– Ay zalım oğlu zalım, nə yatıpsan? O zulumnan gətdiyin, hayhaynan gətdiyin gözəl getdi.

Göygöz Kosa qalxır ki, qız yoxdu. Başını yerə qoyup, özü qalxıp gedip. Üşqışdı atı minillər, sürüllər bunun dalıncax. Deməli, üşqışdı düşür bunnarın dalınnan. Bu atdar da gedillər yolnan. Üşqışdı at burda kişniyəndə bu atdarı nə qədər döyüllər, vurullar, başın-gözün əzillər, o atdar yerinnən tərpənmir ki, tərpənmir. Atı üşqışdı Göygöz Kosa gəlir yetirir. Görür kü, Məhəmmət gəlipdi, arvadın yiəsidi.

Əlinnən arvadı alır, deyir ki, Məhəmmət, böyüh qardaşının xətirəsi üçün – axı olar nökər tutmuşdu bunu – səni bu dəfə bağışdıyıram. Bir də buralara gəlsən, öldürəjəm səni. Arvadı əlinnən alır, gənə geri qaytarır. Korpeşman bular da gəlillər nolajax. Gejə qalıllar, savahınan deyir:

– Gənə gedəjəm. Ölsəm də, gedəjəm.

Dev, – bunun bacısının yoldaşı, – bunu təh buraxmır. Hərəsi bir at minir, gedillər gənə bajadan baxıllar ki, Göygöz Kosa gənə yuxuya gedir. Məhəmmət səs eliyəndə qız başını qaldırır ki, Məhəmmət gənə gəlif. Deyir:

– Məhəmmət, gəlirsən səni öldürəjəh bu köpöyoğlu.

Deyir:

– Gör neyniyirsən.

Başını gənə qoyur yasdığın üsdünə, qalxır gənə atdarı minip gedillər.

Göygöz Kosanın atı təpiyinən vurur, bunu qaldırır. Deyir:

– A gorbagor oğlu, sən nə yatırsan? O qiyamatnan, müsibətnən gətdiyin arvadı apardılar.

Qalxır bu, atı minir, gənə düşür dalınan. Burda bu at kişniyəndə orda o atdar durur. Nə qədir başına-gözünə döyüllər, mümkün olmur. Atdar getmir ki, getmir. Gəlif çatır. Göygöz Kosa deyir:

– Bu da ortancıl qardaşıı xətrinə. Bir də gəlsən, səni öldürəjəm.

Arvadı bir də alır aparır. Üçüncü günü bir də qayıdır bu zalım oğlu. Deyir, nətəər olur olsun, gərəh aparam arvadımı. Bu yeznəsi də bunnan əl çəhmir. Gənə gəlir bajadan baxanda qıza deyir ki, gəl, mən ölənə kimi sənnən əl çəhmiyəjəm. Bu dəfə də qız bunun başını yasdığa qoyur. Özgə yolnan qaşmağa başdıyıllar. Gənə üşqışdı at Göygöz Kosuyu vurur:

– A gorbagor, nə yatıfsan? Gətdiyin gözəl getdi.

Bu qalxır, üşqışdı atı minir, gənə səkə-səkə bunun dalıncax düşür. Gənə də burda at kişniyəndə o birilər durullar. Bu dəfə yetirir, Məhəmmədi parça-parça eliyip tulluyur ora. Bu vaxt onun yeznəsi dev gəlmiyip da. Bir qara tulaları varmış, bunu yanına qatıbmış – Məhəmmədə qulax hayanı. Bunu ku, kəsip tulluyup, arvadı da götürüp aparanda bu bağıra-bağıra gedir devin yanına – kiçih bajısının yanına. Gedir tula bağırır, hay-haray salır, deyillər, yaqın Məhəmmədi öldürdü Göygöz Kosa. Gəlillər ki, dört-beş devnən bajısı yığışdırır, aparır, gedillər ki, evlərinə Məhəmmədin meyidini basdısınnar. Qız ağlıya-ağlıya bu meyidin kəsihlərini bir-birinə calıyır kı, bütöv olsun, aparsınnar basırsınnar. Bir də görür kü, tufarın dibinnən bir dənə bir siçovul çıxdı. Qaçanda, ağzında da nəysə var, o biri siçovul gəldi. Hayhahay, burda bunu basmarradı, boğdu öldüdü. O ağzındakı şey düşdü, orada qaldı. Bu ölüsünü də götdü getdi. Qız gəlir görür ki, o düşən bir belə ot qırığıdı, ot parçasıdı. Bunu götürür gətirir tulluyanda Məhəmmədin ölüsünün üsdünə düşür ot qırığı. Görür kü, bu ot düşən kəsihlər yapışdı bir-birinə. Bu qız bunu götürür Məhəmmədin kəsihlərinə sürtdühcə Məhəmmədin doğranmış yerrəri bitişir bir-birinə. Məhəmmət aysırır qalxır, götü üsdə oturur, deyir:

– Baho, nə çox yatmışam.

Qız deyir:

– Ananıa qurban olasan, yatmışam nədi? Dev səni parça-parça eləmişdi. Bu otunan səni sağaltmışam.

Deyir:

– A bajı, o otu saxla, bəlkə manıa gənə lazım oldu. Mən nə ki ölüf yerə qarışmamışam, arvadımnan əl çəkən döyüləm.

Qıza deyir:

– Aaz, aparmağa gəlməmişəm, gəlmə.

Qız deyir:

– Məhəmmət, nə təhər oldu, dirildin? Səni Göygöz Kosa parçalamışdı. Dört-beş parça eləmişdi. Qolunu bir, qıçını bir kəsip tullamışdı.

Deyir:

– Dirildim da. Nəysə. Ancax bircə şeyi sən onnan örgən gör, denən, öldürdün getdi. Bə o nə işidi? Kosanın qılığına gir, örgən. O nətəər işidi ki, sənin atın orda kişniyəndə o atdar dururdu, sən gəlip bizə çatırdın? Onu örgən, gör nə deyəjəh. Öryən, mən ona bir çarə qılajam. O at kişniyəndə bu atdar burda əylənməsin, bizi pis əyaxda qoymasın. Atı sürəh gedəh, dalımıznan çatmasın.

Deyir:

– Yaxşı.

Bu qurdalıyır devi (Söyləyici Göygöz Kosanı nəzərdə tutur – top.) o üzünə, bu üzünə çöyürür, dev qalxanda deyir:

– O da bir insan oğluydu, öldürdün getdi. Neynirdin ki, sənin atın kişniyəndə o atdar getmirdi?

Deyir:

– A zalım balası, neynirsən mənnən xavar alıp? Alma xavar mənnən.

Deyir:

– İsdiyirəm öyrənəm da, o nə təhər şeydi ki, o at kişniyəndə bu atdar onun sözünə baxırdı, heş getmirdilər.

Deyir:

– Bu, atdar pətişahın oğludu. Mənim bu üşqışdı atım... Burda bir qaya var. O qayıyı gedirsən üş gün qoyun quyruğuynan yağlıyırsan. Qırx günnən sora o qayadan bir qapı açılır. İldə bir dəfə bu şey olur. Qapı açılanda orda bir at var. O atın doğum günüdü. Bala doğulanda dört dənə canavar yetirir, bu balıyı yeyillər. Mən getdim, üş dənə qoyun cəmdəyi aparmışdım. Apardım qırx gün o qayıyı yağladım. Qırxıncı gün at kı qulunu doğdu, canavarrar peyda oldu. Hərəsinin ağzına birin atdım, birinə pay çatmadı. Canavarın biri də atın bir qıçını çəhdi çıxartdı. Ona görə mənim bu atım üşqışdıdı. Bu, atdar pətşahının oğludu. Ona görə də bu at burda kişniyəndə o atdar getməz, öldürsən də, getməz. Ona görə mən sizə yetidim.

Bunu belə deyip dev başını qoyup yatır. Məhəmmət gəlir:

– Aaz, bir şey örgənə bildinmi?

Deyir:

– Belə-belə şeylər dedi.

Məhəmmət qayıdır bacısını verdiyi devnən gəlir, qoyun quyruğu gətirillər. Qırx gün, qırx gejə bu qayıyı yağlıyıllar. Devin, Göygöz Kosanın dediyi qayıyı. Yağlıyıllar, qırxıncı gün tamam olanda qayadan bir qapı açılır. İçəridə atın vaxdıymış. Elə at balalıyanda onun balasın tutullar. Cəmdəhləri atıllar canavarın ağzına canavarrar peydah olanda. Qulunu götürüllər. Bu da atdar pətişahının oğluydu. Altı aydan sora yekə minih at olur, yel atıdı. Bu atı gətirillər, yəhəri belinə basır. Məhəmmət gedir... Nolajax, həmin qayıyı ki, yağlıyıp atı götürmüşdü, həmən atı-

nan gedir. Gənə görür kü, üşqışdı Göygöz Kosa başını qoyup arvadının dizinin üsdünə, yatır. Bajadan arvadın çağırıp deyir:

– Aaz, indi özgə at gətirmişəm. Elə o üşqışdının qardaşın gətirmişəm. Dur gəl, görəh indi axırımız nolajax.

Qız gənə başın qoyur yasdığın üsdünə, qalxır gəlir, bu atı tərhləşillər ikisi də. Gənə də üşqışdı at Göygöz Kosuya bir təpih vurur, deyir:

– Ay yatağan köpəyoğlu, həmən adam gəlmişdi, arvadını apardı getdi.

Durur gənə üşqışdıyı minir. Düşür bunun dalına. Bu at burda kişniyəndə bulların atı da burda kişniyir (Göygöz Kosanın atı – top.).

– Ə, əylən, getmə.

Bu da deyir:

– Niyə getmiyim? Bir özün ağılda Göygöz Kosuyu mindiripsən belaa, hayana gəlirsən bizim dalımızcax? Gəlmə! Havalan, havalan, onu yerə elə vur ku, qoy parça-parça olsun.

Bu üşqışdı havalanır – yel atıdı da, – burda nətəər çönür, kəlləsi üsdə Göygöz Kosa gəlir, darmadağın olur. Geri gəlillər, orda Göygöz Kosanın nəyi varıdısa da – olan-qopan daa, qızılını-zadını götürüllər, gəlillər. Ordan gəlillər kiçih devi, ordan gəlillər ortancıl devi, ordan gəlillər böyüh devi götürüllər, bacılarını da gətirir. Burda qırx gün, qırx gejə toy eliyillər. Məhəmmət arvadıynan evlənir. Orda ollar ömür sürməhdə olsunnar, sizin də canınız sağ olsun. Atasının pətşahlığın da Məhəmmət götürür, uzun ömür sürüllər. Sağ olun.

*Bu nağılı mən rəhmətdih anamnan öyrənmişəm (S. 6).*

## 6. ƏLİ İLƏ VƏLİNİN NAĞILI

Biri varıydı, biri yoxuydu, iki dost varıydı. Birinin adı Əli, biri Vəli. Əliynən Vəli bir şəhərdə qalırdılar. Çox möhkəm dosduydular. Bir günnərisi gedillər bunnar dəlləh tükanında başdarın qırxdırmağa. Bı dosdu gedir baxır ki, o biri dosdu da ordadı. Bınnar görüşüllər, öpüşüllər. Bir adam otumuşdu, başını tıraş eliyirdi. Bunnar gözdədilər ki, o kutarsın. Gözdədilər, o kutarannan sora bı dedi ki, Əli, dur otu sən. Bı da dedi:

– Yox, Vəli, dur sən otu.

Bı bına dedi, o bına dedi. Axırısında Əli durdu otdu. Əli durdu oturannan sora bının başını dəlləh qırxdı qəşəh. Gəldi üzünün bir tərəfini qırxanda bir tərəfində baxdı ki, yara var.

Bı Vəli dəlləyə dedi:

– Dayan, sözüm var.

Dedi:

– Əli, de görüm, bax bı nişana nədən olupdu, nədən baş veripdi bı?

Dedi:

– Əşi, bekara şeydi, üsdünü vurma.

Dedi:

– Yox, biz dosdux, gərəh deyəsən ki, noolup. Nə olupsa, nağılla da.

Dedi:

– Ə, sən Allah, boşda, bekara şeydi.

Dedi:

– Yox.

Dedi:

– Ə, mən bını danışsam, uzun şeydi.

Dedi:

– Noolur olsun, danış.

Dəlləh dedi:

– Əşi, durun çıxın eşiyə, siz cəng eliyirsiz. Bırda söhbət eliyirsiz, mən indi dört-beş baş qırxmışdım, bu qədər pul almışdım.

Çıxardı Vəli pulunu verdi dəlləyin. Dedi:

– Ala, pulunu verim, səsini kəs, otu yerində. Qoy bu nağıllasın, nə qədər pul isdiyirsən, mən sənə verirəm.

Oydu ku, bu dedi ki, vallah, mənim atam dövlətdi bir insan idi.

Əli dedi:

– Biz şəhərdə yaşıyırdıx, şəhərin kanarında yol üsdündə atam bir bina tihdirmişdi. Ordan hər kəs gəlip keşsəydi, onnarın hamısını qonax çağırırdı, yedirdip-içirdip yola salırdı. Atam neçə illər bı işnən getdi. Atam irəhmətə gedənnən sora mən başdadım atamın işini davam eləməyə ki, atam necə hörmətdi adamıydı, mən də onun işini davam eliyirdim. Yaxşı da varımız varıydı. Oydu ku, bu işi mən başdadım davam elədim.

Çox neçə ildən sora mənim əlim başdadı kasıplaşmağa. Oydu ku, baxdım camahat içində mən biyabır oluram. Oydu ku, yoldaşıma dedim ki, gəl bu şəhərdən köçəh başqa yerə. Yoldaşım da irazı oldu.

Payız fəsliydi, bı qış ayları gəlirdi. Oydu ku, gecənin bir vaxtında durdux, nəyimiz varıdı, hamısını yığışdırdıx. Onnan sora iki qatır gətdih. Gecənin bir aləmi xalxın, heş

kəsin xəbəri olmadan bu qatırrarı yühlədih. Xırda çadırımız varıydı. Yayda aparırdıx qururdux, içinə girirdih. Çadırımızı da götdüh, uşaxları da. Bir qızım, bir oğlum varıdı. Biri üş yaşında, biri də beş yaşında. Qız üş yaşındaydı, oğlan beş yaşında. Bınnarı da götdüh, gecə düşdüh yola, camahat bizi görməsin. Oydu ku, gecə getdih. Bir səhrada düzəngah yeridi, qar başdadı yağmağa.

Biz day gördüh getməh mümkün olmuyacax, qatırrarı bağladıx ağaşdara. Bınnarın yühlərin qoydux yerə. Mümkün eliyə bilmədih çadırı qurax. Çadırı eləcə uşaxların üsdünə, yorğan-döşəyin üsdünə qoydux. Arvat da bınnarnan çadırın altında yatdılar. Qar yağdıxca çadır ağırrıx eliyirdi. Çadırı dururdux çırpırdıx, təzdənnən bir də qar yağırdı. Beləlihnən, səhərə yaxın oldu, qar başdadı kəsməyə. Qar kəsənnən sora dedim, durum, yühlənəh gedəh. Yoxsa geciyə qalsax, qar yenə yağar, biz yola çıxammarıx. Yoldaşımnan irazılaşdıx. Biz durdux, bunnarı yühlədih, tüşdüh yola. Bir gün səhərdən axşamacan yol getdih.

Bir meşəlihdə bir ağacın altında durdux dincəlməyə. O gecə də orda qaldıx, səhərisi günü durdux yenə yühləndih tüşdüh yola ki, özümüzü bir yerə yetirəh. Oydu ku, gördüh axşam düşür, bir yerdən bir baxdıx ki, işıx gəlir. Dedih, yəqin ora şennihlih bir yerdi, baxax görəh o işıx nədi? Gəldih, gördüh bir bağdı. Bağın içində evlər var, iki mərtəbəli evdi. Dedih, yaxşı oldu, Allaha şükür. Özü də soyuğ idi, uşaxlar üşüyürdü. Dedih ki, gedəh görəh hələ bırda kimdi. Oydu ku, qapını döydüh, bir cahıl oğlan çıxdı. Dedim ki, bizi qonax alarsanmı? Dedi:

– Qonağ Allah qonağıdı, buyurun içəri.

Bizi apardı içəriyə. Qatırrarımızı apardı bağladı, qabağına ot töhdü. Ta ki rahatdıyınca bı arvad-uşağı apardı evə. Bınnarı rahlıyannan sora baxdım arvad-uşağın qabağına çay-çörəh qoyur. Bınnar yeyillər. Amma divarda bir ocax var, ocax yanır. Mən də üşüyürdüm, otdum ocağın dibində ki əlimi qızdıram.

Bir də baxdım, bu oğlan getdi bir uzun şiş gətdi. Şişi götdü, gəldi ocağı qurtdalamağa. Ocağı qurtdalıyanda onun ucu manıa dəydi. Mənə dedi, qonax qardaş, bir xırdax dala, bir xırdax dala. Mən ha dala çəkildihcə bı da bir xırdax dala, bir xırdax dala, bir də gördüm bir quyudu, gupbultuynan düşdüm quyunun dibinə. Ay Allah, bı nəyidi? Quyunun dibinə mən düşənnən sora bu başdıyır, sən demə, bu arvadınnan oynamağa. Oydu bir xeylax keşdi, bir də baxdım tapbıltıynan bir şey düşdü mənim üsdümə. Götdüm baxdım, oğlumdu, öldürüp atıp quyuya. Xeylaxdan sora bir də baxdım, bir şey genə tapbıltıynan tapbıldadı. Bir də baxdım bı da mənim qızımdı. Qızı da öldürüp atıpdı. Bınnarı quyuya atannan sora bir də baxdım, iki dənə uzun şişdər idi. Orda isdi ocaxda qızardıp, qıpqırmızıdılar. Bınnar, sən demə, quyuya bərəbər imiş. Bınnarı yendirir quyuya ki, bəlkə, bırda adam sağ qalıpsa, bı onu öldürə. Odu ku, uşaxların hərəsin bir əlimdə tutdum bı şişdərin qabağına. Şişdər başdadı soyumağa. Bı elə bildi, mən ölmüşəm, bı çəkildi getdi öz yerinə. Bir xeylax keşmişdi. Baxdım ki, səs-səmir kəsildi. Mən durdum, cibimdə qırıx bir pıçağım varıydı, pıçağnan divarı bir az belə elədim, gördüm oyulur. Birini oydum, qıçımı qoydum, o birini oydum, bı biri qıçımı qoydum ora. Belə pilləkən formasında çıxdım. Belə başımı eşiyə çıxardım, gördüm kü, yoldaşımnan qucaxlaşıp yatıpdı.

Yoldaşımın bir qolu bunun boynundadı. Oydu ku, durdum çıxdım eşiyə, bının bir xançalı vardı, asılmışdı göydən. Deyir, xançalı götdüm ki, bını öldürməyə, baxdım ki, yoldaşıma dəyəcəhdi, bir çətinnihnən yoldaşımın qolunu yavaşca onun boynunnan çıxartdım. Döşəyi belə yardım. Yoldaşımı çəhdim kənara. Oydu ku, xançalnan bunun başını vurdum. Baş düşdü bir tərəfə, leşi də bir tərəfə. Deyir, bir də baxdım ki, divar yarıldı, bir qoca kişi çıxdı. Sakqalı bir qarış, boyu iki qarış. Bı gəldi yapışdı mənnən. Sən nə qayırırsan, niyə bunu öldürdün? Arvadım da buna köməhlih elədi ki, məni öldürsünnər. Oydu ku, xənçəli soxdum arvadın qarnına, arvad öldü. İndi bu qoca kişi əl çəhmir, yapışır mənim yaxamnan. Əl çəhmir. Mən ha elədim o yana, bu yana, yıxılmır yerə. Fürsət də tüşmür ki, xənçəlnən bunu öldürüm. Oydu ku, nətəhər oldusa bının əli keşdi mənim ağzıma. Mənim ağzımı yardı. Mən sora fürsət tapdım, xənçəli götdüm, bunu da öldürdüm. Öldürənnən sora bir neçə il də burda qaldım. Qalannan sora dedim, durum burdan çıxım gedim.

Oydu ku, yır-yığış elədim, ordan çıxdım, gəldim. Bax, mənim bu nişanam həmən o kişidən qalıpdı. Oydu ku, dəlləh bunun üzünü qırxdı. Qurtulannan sora dəlləh dedi:

– Vəli, indi gəl, sən otu.

Vəli də otdu başını qırxmağa. Bının üzünü qırxdı qutardı, bının başına gəlip başını düzəldəndə Əli baxdı ki, bının başında bir dənə yara var. Dedi:

– Vəli, de görüm, bu nədi, başına nə olupdu?

Dedi:

– Əşi, insaf elə, bir işdi olupdu, keçipdi.

Dedi:

– Bəs sən bəyax mənnən niyə əl çəhmirdin? İndi ki, biz dosdux, qardaşıx, gərəh sən də nəqilliyəsən, görəh sənin başına nə olupdu?

Dedi:

– Əşi, gəl, sən Allah, üz vurma. Bu çox uzun şeydi.

Dedi:

– Uzun da olsa, gödəh də olsa, mən nə təhər nəqilləmişəm başıma gələni, sən də nəqilləməlisən.

Oydu ku, Vəli naələş qaldı, dedi:

– Bilirsən nə var, nə yox?

Dedi:

– Yox.

Dedi:

– Bu şəhərdə mənim bir dənə dosdum varıydı. O cuhutdarın içində yaşıyırdı. Bu vaxdarısı[65] məni də əsgərə çağırmışdılar.

Mən də otumuşdum dəviyə. O davada mən bilməmişəm, mən onun sahibini öldürmüşdüm. Bınnar isdiyirdilər məni tutsunnar. Mənim xənçəlim varıydı, bı düşdü yerə, bınnar bu xənçəli götürdülər, mən qoydum qaşdım. Bını tapa bilmədim mən. Oydu ku, bir cuhut dosdum varıydı, getdim gecə onnarda qaldım. Bı dedi ki, getmə. Getsən, səni tutacaxlar. Bı, məni orda saxladı. Bir aydan sora mən durdum qonşuluxda bir cahıl qız varıydı on səkgiz-on dokquz yaşında. Onnan mən söhbət eləmişdim və qıza demişdim səni alacam. Oydu ku, qızı da götdüm, düşdüm yola. Gəldim kəndə çatdım. Anamgil-zad hamısı söyünürdülər ki, gəlmişəm və anam maa dedi ki, bı qız hələ xırdadı, qoy bir il qalsın, onnan sora toyunu eliyərih.

---

[65] vaxdarısı – vaxtları

Oydu ku, anam qızı öz yanında, öz otağında saxlıyırdı, yatırdırdı. Mən də gedirdim ova. Ovçuydum. Mənim tüfəngim varıydı, xənçəlim varıydı. Bir gün qız nə fikir eliyirsə, deyir yəqin bı məni bəyənmir, məni gətirip bura, maa sahip durmur. Oydu ku, səhərə yaxın qız durar, mənim paltarımı geyinər, papağımı qoyar və atımı minər, xənçəlimi də asar, düşər yola öz evlərinə qayıtmax üçün. Oydu ku, səhər durdux, qız yoxdu, at da yoxdu, xənçəl də yoxdu, bildim ki, qız qaçıpdı. Təzdənnən mən düşdüm qızın dalınca. Ha bı kəndə, o kəndə, axırda bir böyüh kənt varıydı, gəldim ora. Kəndin qırağında bir oğlan uşağı qoyun otarırdı. Bı oğlan uşağınnan soruşdum ki, belə bir atdı bırdan keşmiyip ki?

Dedi:

– Dayı, iki sahat bunnan qabax bir dənə sən dediyin nişanəli atdı bı kəndə girdi.

Kəndə girdi deyənnən sora elə day dedim ki, bı kəntdədi. Özü də gecə olmuşdu, qarannıx düşmüşdü. Oydu ku, durdum getdim bir qapını döydüm. Baxdım, bir ağsakqal çıxdı. Mən dedim ki, bir gecəliyə məni qonax saxla.

Dedi:

– Buyur içəri.

Çox mərifətdi, qanacaxlı insannarıydılar. Məni gecə qonağ elədilər. Mən gecə qaldım.

Dedi:

– Bə hardan gəlip, hara gedirsən?

Mən başıma gələni bınnara nəğillədim. Dedi:

– Oğul, indi ki elədi, o elə bu kəntdədi. O, səhər kənddən çıxar, indi hələ çıxmaz. Səhərə yaxın mən səni durquzaram. Sən gedərsən onun qabağın kəsərsən, o gəlip yoldan keçəndə

tutarsan. Onda özün bilərsən, neyniyərsən, özün bilərsən. Beləlihnən, kişi məni yatırtdı, səhərə yaxın durquzdu.

Dedi:

– Dur, çay-çörəh ye.

Durdum, çay-çörəh yedim. Mənə dedi ki, çıx kəndin qırağında yol var, yol ayrı yerdə yoxdu. Bir yerdə var. O gəlsə, bu yolnan gələcəh, gedəcəy öz vilayətdərinə. Oydu ku, otdum yolun üsdündə. Bir də baxdım səhər açıldı. Bir xeyli keşdi, sahat təxminən oldu on-on iki. Bir də baxdım bı, atın üsdündə gəlir. Gələn kimi mən bının qabağın kəsdim və dedim ki, aaz, bı nə işdi, sən mənim başıma gətirmisən? Bı namərtdiy elədi, maa dedi ki, sən məni bəyənmirsən, mən də çıxıp gedirəm. Oydu ku, xənçəl əlində mənim başıma xənçəlnən vurdu, mən yıxıldım yerə. Yıxılannan sora bı təzdənnən qayıdar, yaylığını açar, başımı bağlıyar. Bir dənə də cında yandırar, yarama basar, çıxar gedər.

Durdum ki, qız yoxdu. Mənim də başımın yarası ağrıdı. Odu ku, həmən o gecə qaldığım evə qayıtdım. Qapını aşdılar, dedim ki, belə-belə. Mənim başıma belə oyun aşdı qız. Odu ku, mən qaldım orda bir ay. Bir aydan sora mənim başımın yarasını yaxşılaşdırdılar. Mən də təzdənnən düşdüm yola. Tanıyırdım ki, qızı hardan gətirmişəm. Həmən o şəhərə getdim. Getdim çatdım bir evə. Kəndin qırağında. Qapını döydüm, bir qoca arvat çıxdı eşiyə.

Arvada dedim ki, bir gecəliyə məni qonax saxlayın. Dedi:

– Mənim gözüm üsdə, gəl içəriyə. Sən demə, bı qoca arvadın da həmin əriydi ki, mən müharibədə öldürmüşdüm.

Onun üç oğlu varıydı, üç qızı varıydı, üç də gəlini varıydı. Arvat məni evə apardı. Bınnar da hamısı işdəydilər. Bı arvat qalırdı. Qarı maa dedi:

– Kimsən, hara gedirsən?

Dedim ki, filan yerdən gəlmişəm. Orda bir xənçəl asılmışdı. Baxdım mənim həmən xənçəlimdi ki, o adamı öldürüp qaçmışam. Xənçəli oğulları götürüplər.

Dedim:

– Bu nə xənçəldi?

Dedi:

– Vallah, bu filan vaxdı müharibədə biri mənim yoldaşımı öldürüp, uşaxlar da o xənçəli saxlıyıllar ki, vaxt gələr, həmən adamnan bı xənçəlnən onun hayfını alarıx. İndi ki, sən gəlipsən çıxıpsan bura, sən qonaxsan, biz qonağa hörmət eliyərih, gedənnən sora yenə düşmənimizsən. Oydu ku, dedi:

– Oğul, indi onnar gələcəh, səni görsələr, öldürəcəhlər. Gəl bir səbət var, səni gizdədim o səbətin altında. Uşaxlar gəlsin, onnarın ağzını yoxluyum, görüm nə deyillər, nə qoyullar. Onda səni üzə çıxardaram. Oydu ku, məni apardı – bir böyüh səbət vardı – məni qoydu səbətin altına. Bir xeylax keşdi. Tapbatap gəldi. Bir də baxdım üş dənə qızdı, girdilər içəriyə. Anaları da təndir lavaşdarının qurumuşunu, sən demə, qoyub bir az böyrünə donun altına. Bir az qoyub bı böyrünə, bir az qoyub altına, yıxılıp döşəhdə yatırdı.

Qızdar deyir:

– Ana, nolup?

Dedi:

– Xəsdələnmişəm, soyux dəyip. Ölürəm, hər yerim ağrıyır.

Belə çönəndə çörəh xırtaxırt eliyəndə dedi:

– Görürsən, pütün soyux məni qurudupdu.

Qızlar dedilər ki, eybi yoxdu, həkim çağırarıx, səni maalicə eliyər. Bir xelləh keşdi. Bir də gördüm tapbıltı gəldi. Sən demə, bınnar da gəlinnərdi. Gəlinnər də gəldi ki, bə bı arvada nolupdu? Qızdar deyir ki, anamız xəsdələnip. Bir az keşdi, oğlannar gəldi. Oğlannar gələndə dedi, anamıza nolup? Qızdar deyillər ki, bəs anamız xəsdələnip. Arvat bı tərəfə aşır, xırtaxırt. Oğlannar dedi ki, eybi yoxdu, səhər həkim çağırarıx, səni maalicə eliyər. Oydu ku, arvat dedi ki, oğul, vallah, mən öləcəm. Mənim vəsiyyətim var, vəsiyyətimə qulax asın.

Oğlannarı dedi:

– Ana, nə vəsiyyətdi?

Dedi ki, oğul, o xənçəl nə xənçəldi ordan asılıfdı? O elə elədi ki, səbətin altındakı oğlan da eşitsin.

Dedilər:

– Bəs sənin yadında dəyil? Bizim atamızı filan vaxtında bir cahıl oğlan öldümüşdü. Biz isdədih onu tutax, xənçəl əlinnən düşdü, tuta bilmədih. Həmən xənçəli götümüşüh, neçə ildi saxlıyırıx ki, o ras gələndə gəlip bı xənçəlnən onu öldürəh.

Dedi:

– Oğul, indi ki elədi, indi birdən işdi-qəzədi, həmən qonax gəldi bizə. Onda nətəhər olar? Bilmədən gələr qonax çıxar.

Dedilər:

– Qonax gələr, qonax Allah qonağıdı, nə işi varsa, hamısını köməhlih eliyərih, düzəldərih, gedənnən sora bizim düşmənimizdi, biz də onun düşməniyih.

Oydu ku, oğlana dedi ki, səbətin altınnan çıx. Oğlan çıxdı gəldi. Bunnar baxdılar ki, bı bir əhilləşipdi.[66] O zaman cahılıydı, indi bir az əhilləşip. Oydu ku, öpüşdülər, görüşdülər. Dedi:

– Sən bizim atamızı öldümüsən, eybi yoxdu. Qonax gəlmisən, biz qonağı evimizdə öldürmərih. Sənin nə işin varsa, köməhlih eliyərih.

Dedi ki, vallah, bu işdən ötürü gəlmişəm. Bir qız bırdan aparmışdım, mənim başıma bı oyunu gətiripdi, başımı da yaralıyıp. Bir ay da maalicə almışam, gəlmişəm qızın dalınca.

Dedi:

– Həə, yadıma düşdü. Sənin dediyin qızı bıranın patşahının oğluna nişan qoyuplar. Sabah, bürüsüyün qızı köçürdəcəhlər.

Oydu ku, dedi:

– Bəs neyniyəh?

Dedi:

– Heş fikir eləmə, bizim qızdar onun qulluğunda durullar.

Onu bəziyillər, eliyillər. Gəlinnər də orda işdirak eliyillər. Bizim işimiz də odu ku, oğlannarın, biz də onun həyətində, şahın həyətində qaroulux.

İndi sən gecənin bir vaxdında gələrsən, biz səni içəriyə götürərih gəlin gəlməmişdən qabax. Hansı otağa ki, gəlin gələcəh. Biz səni bir palaza pükərih, dayıyarıx divara.

---

[66] əhilləşipdi – ahıllaşıb

Elə ki gəlinnən bəy otağa girəndə ordan çıxarsan, oğlanı öldürərsən, qızı götürüp qaçarsan. Biz sənin atını da eşihdə tərsinə nallıyacıyıx. Əyər at belə gedipsə, onnar elə biləcəh, at belə gedipdi. Onnan sora çıxıp gedərsən. Gedənnən sora, qardaş, sən genə bizim düşmənimizsən. Harda qırax yerdə tutsax, səni öldürəciyih, ancax öz evimizdə yox. Oydu ku, oğlanı da ötüdülər həmən otağa ki, oğlannan gəlin gələcəhdi. Gəldilər o otaxda bını bir xalçıya pühdülər, divara dayadılar. Xeylax keşdi, dəm-dəsgahnan toy çala-çala hamı çəkildi, gəlinnən bəy gəldilər elə həmən otağa. O, ordan xalçanın içinnən çıxdı yanında xənçəli varıydı, oydu ku, oğlanı xənçəlnən öldürdü, doğradı. Qızı götdü, atı mindi, qaşdı.

Boy, bınnar ha gözdədilər ki, bəyin səsi gələcəh, səhər durdular, heş kəs bəs yoxdu. Qapını döydülər, baxdılar, qapı açıxdı. Gəlin də yoxdu, gədəni də öldürüplər. Oydu ku, tüşdülər o yana, bu yana, baxdılar ki, hə, bir atdı burdan çıxıp gedipdi. Dedilər:

– Yəqin ki, o qızı da götürüp gedipdi, qaçırıpdı.

Oydu ku, düşdülər dalına. Oğlan belə getmişdi, amma nalları belə[67] tüşmüşdü. Bı tərəfdən də nə qədir gəzdilər, tapa bilmədilər. Əl çəhdilər.

Oğlan da həmən qızı götdü gətdi evə qoydu. Oydu ku, dedi:

– Əli, mənim başıma gələn əyfalatı haman bı nişannım eliyipdi.

Nağıl bınnan da kutardı (S. 1).

---

[67] Söyləyici nalların tərsinə düşdüyünə işarə edir.

## 7. ƏTİRLİ ŞƏFA MEYVƏSİ

Biri varıydı, biri yoxuydu, bir şəhərdə patşah varıydı. Bu patşahın iki dənə nökəri varıydı; biri bağbanıydı, biri ilxıçıydı. İlxıçı, yanı at otaranıydı. Bu at otaran bir günnərisi atdarı otarırdı. Bir də baxdı kı, bir fırtına qopdu, küləy əsdi. Külək qutaranda bir qırmızı, nəhəng at qənətdi yerə düşdü. Allah tərəfindən yerə düşənnən sora bının qanatdarı yığılır. Qənətinin altınnan bir ağ şey yerə düşür. Odu ku, at gedir atdara qoşulur, gedir ot otdamağa. Oğlan gedir ağ şeyi götürür, görür, kağızdı. Kağızı götürüp görür kü, içində yazılıp: "Sənnən kənarda kim bu kağızı götürsə, onnan yüz metir kənarda ağ daş var. Onu qaldırsan, altınnan yüyən çıxar. O yüyəni götürənnən sora at saa yaxınnaşar, dil açar, sənnən danışar. Hara isdəsən, məksədinə çatarsan".

Odu ku, bu, həmən ağ daşı qaldırır. Yüyəni götürür. Baxır kı, doğurdan, at yaxınnaşdı. Atın üstündə yəhər və pəhlivan paltarrarı, qılış da böyründə. At bunnan danışır kı, məksədin nədi, mən yerinə yetirim?

Deyir:

– Heş bir məksədim yoxdu. Görüm hələ sən kimsən.

Deyir:

– Allah tərəfinnən məni sizdən ötəri yolluyuflar. Day sən əzyət çəkif daşı qaldırma. Mənim boynumnan bir tük götü. Onu saxla əlində. Havax yandısan, mən sənin yanında hazır olaram.

Odu ku, bu tükü götürüp bağban dosdunun yanına getdi. Bağbana da ilxıçı dosdu başına gələnnəri danışır. Gedillər, şaha deyillər. Şah deyir:

– Dəymiyin, qoyun at dursun, lazım olanda işdədərih.

Sizə kimnən deyim, bağbannan. Bağbanın yaxşı bağı varıydı. Bütün o bağa elə baxırdı kı, gözbəbəyi kimi. Odu ku, patşah munu mükafatdandırmışdı. Patşahın qonağı olanda nə meyva lazımıydı bağbana deyərdi. O da xonçalar düzəldər, yollardı. Patşah da onnarın hamısın işdədərdi.

Bağbanın çinar ağacının altında taxdı varımış. Gəlir ki, otura dincələ. Bir də baxır çinar ağacına bir dənə göərçin gəldi. Ağzınnan bir ağ şey saldı yerə. Bu baxdı kı, kağızdı. Kağızı götdü, baxdı, bir dənə toxum var. Meyvə toxumudu. Yazılmışdı kı, bu meyvə toxumun sən əkərsən. Yetişən vaxdı onu kor yesə, gözü açılar, topal yesə, ayağı düzələr, xəsdə yesə, sağalar. Ancağ ağacın başında üç xatası var. Ağac bar gətirən vaxdı çoxlu çiçəy açır. Çiçəhlərin hamısın tökür. Təh bir dənəsi qalır ən ujqar budağında. Bunun da xatası odu ku, üş dev bu meyvənin həvəsindədi. Bu meyvə yetişəndə şamama kimi iy verirdi.

Odu ku, bağban bunun toxumunu aparır, yaxşı yerdə salır. Toxum cücərir, ağac olur. Ağaca qullux eliyir. Ağaş çiçəy açır. Hamısı tökülür, başında bir dənəsi qalır. Bir gün bağban görür kü, alma yetişip. İsdiyir götüsün. Göydən əjdaha uça-uça gəlir, bunnan qabax götürüp gedir. Bir ağaş qalır, bir də ağacın kökü. Odu ku, bunu at otaran dosduna nağıllıyır. O deyir:

– Ağır atımız var, məksədimizi yerinə yetirə bilərih.

Bu, atın tükünü tutuşdurdular, at gəlir. Gəlir, deyir:

– Nə isdiyirsiz?

–Bəs əhdiyimiz meyvəni əjdaha götdü getdi.

At dil açıp deyir:

– Gülşən vilayətində bir keçəl var. Gərəy o məni minə, o qorxulu yerə keçəldən başqa heş kim gedə bilməz. Odu ku, atı minillər, gedip o keçəli tapıllar. Keçələ yaxşı mükafat verillər, razı olur. Atı minir, at onu aparır düz div dayandığı yerə. O divlər düz üş qardaşımış. Biri yüz yaşında, biri iki yüz yaşında, biri üş yüz yaşında. At buranı tanıyırdı. Keçəli gətirir at bir bağa. Keçəl görür kü, bir imarət var. Girir içəri, görür, dev yatıpdı. Keçəl atın gətdiyi qılışnan devin qənətdərini vurup salır. Bu isdir ki qalxa, baxır, qanadı yoxdu. Odu ku, keçəl bunun başını da kəsir. Saxsı qab varıymış. Onu bu əjdahanın qanıynan doldurur. O ağacın xəsdəsiymiş, hər kəs ki onun meyvəsini dərsə, o meyvə, ağaş quruyardı. Odu ku, başdıyır göyərməyə.

Yenə də keçələ deyillər ki, sən biznən qalmalısan. İkinci xatadan da sən kutarmalısan.

Gələn il yenə ağac çiçəhliyir. Yenə başında bir dənəsi qalır. Gözdüyüllər, görüllər, bağı meyvənin iysi götüdü. Bilillər ki, meyvə yetişdi. Keçəl isdiyir, gedə onu götürə.

Bir əjdaha onnan qabax meyvəni götürür aparır. Keçəl gənə atı minir, düşür əjdahanın arxasınca. Bu əjdaha o birinin qardaşıydı. Gedir, həmin evdə bunu da vurur qanatdarın salır, başın kəsir. Qanınnan gətirip ağaca sürtür. Ağac yenə başdıyır göyərməyə.

Göyərənnən sora ağaş yenə üçüncü səfər başdıyır bar gətirməyə. Başında bir dənəsi yenə qalır. Üçüncü əjdaha gəlir bu meyvəni aparanda keçəl düşür dalına. Onu da öldürür, qanını gətirir, sürtür ağaca. Ağac yenə göyərir və xatadan-baladan xilas olur. Meyvə yetişən vax xan xəsdələnir. Nə qədir həkim gətirillər, xan yaxşılaşa bilmir. Xəsdə-xəsdə

xan yuxuda görür kü, bağında bir meyvə var. O meyvəni hər kəs yesə, yaxşı olar. Odu ku, bağbanı çağırıllar, deyillər:

– Bağban, bağda belə bir meyvə var?

Deyir:

– Var.

Xan deyir:

– İndiyə qədər niyə deməmisən?

Bağban deyir:

– Mən qorxurdum, sizə deyəmmədim. Bunun başında üş xatası varıydı. O xatalardan qorxurdum. İndi o xataların hamısı sovuşup gedipdi. İndi meyvə az qalıpdı yetişə.

Odu ku, meyvə vaxdı iysi hər yanı götürür. Keçəl gedir, həmin meyvəni gətirip verir xana. Xan da yaxşı olur. Şad yaşıyıllar. Siz sağ, mən də salamat (S. 1).

## 8. ŞAH OĞLU ŞAH ABBAS VƏ VƏZİR HACI QARA

Bir şah varıydı. Onun vəzirinə deyirdilər ki, Hacı Qara. Bir müddət şah yaşayannan sonra onun bir oğlu varıydı. Adı Abbasıdı. Şah rəhmətə gedənnən sonra Hacı Qara qocalannan sonra bu Abbas şah olur. Ona görə bu Abbasa şah oğlu Şah Abbas deyillər. Şah oğlu Şah Abbas çox ədalətdi bir patşahıymış. Bir gün bunnar deyillər, çıxax camahatın içinə, görəh necə yaşıyıllar. Bunnar çıxıllar camahatın arasına. Gəzillər, gəlillər bir çayçı tükanına çıxıllar. Çayçı tükanında söhbət eliyillər, taki camahat çəkilip evinə gedənə qədər. Axırısı çayçı deyir, mən də tükanı bağlıyıp çıxıp gedirəm. Bunnar çıxıllar eşiyə. Atdarı varıydı, minillər atdarına. Görüllər ışıxların hamısı keşdi.

O vaxdı çırax yandırırmışdar. Görüllər, kəndin başında bir evdə işıx yanır. Şah oğlu Şah Abbas və vəziri Allahverdixan deyillər, gedəh görəh o evdə niyə işıx yanır. Yaqın orda ya bir xəsdə var, ya da bir zənən xaylağı doğur. Baxdılar bir cahıl oğlandı, bir də bir cahıl qızdı. Bunnar yeyib-içib, kefdədilər. Deyillər, gülüllər, oynuyullar. Demiyəsən, bunnar əmi qızı, əmi oğluymuşdar. Bu gədə də ofçuymuş, gedərmiş, ov eliyərmiş, gətirərmiş, bu qız aparıp bazarda satarmış. Sora bunnara bazarrıx eliyip gətirərmiş.

Bir günnərisi şəhərin kanarında bir meşə varıymış. Burda qırx qaçax yaşıyırmış. Onnar gecələr düşüp evləri talıyarmış, tükannarı soyarmışdar, gündüzdər də camahatın içində boş-bekar gəzərmişdər. Bu quldurbaşı – yəni quldurrarın başçısı bazardaymış. Bu qız bazarrıx eliyəndə bu quldurbaşı ona say salır.[68] Neçə günüdü bu qız gedip bazarrıx eliyəndə bına baxarmış. Bir günnərisi qızın pulu azımış. Ucuz mal axtarırmış. Gah bına baxır, gah ona baxır. Qərəz, belə bu quldurbaşı qıraxdan görür kü, bu malları soruşur, ancax bir şey almır. Amma soruşur. Gəlir deyir:

– Ay bacım, ay qızım, niyə bir şey almırsan?

Qız deyir:

– Mən ucuz şey axtarıram, pulum çatmır. Ona görə almıram.

Deyir:

– Sənin ürəyin nə isdiyir al, pulun mən verəcəm.

Qız da, doğurdan da, nə lazımdı, hamısın alır. Pulun quldurbaşı verir.

Buna deyir:

---

[68] say salır – tamah salır

– Hər gün sən gəl, nə desən, mən alaram.

Doğurdan da, qız da həmişə gedərmiş, bu pulu o verərmiş. Qız da gətirərmiş evə əmioğlu-əmiqızı yeyərmişdər. Axırısında elə olur ki, bu qızı ələ alır. Deyir:

– Mən filan meşədə yaşıyıram. Gecələr gələssən ora, səhərə kimi kef eliyərih, səhər də durub gedərsən. Nə qədər desən, pul verərəm.

Deyir:

– Bəs, mən əmimoğluynan qalıram. Mən onu necə qoyub gəlim?

Deyir:

– Mən sənə bihuş verərəm, qatarsan çayına, o yatar, sən də gələrsən mənim yanıma. Savaxdan da durub gedərsən evinə.

Qızı yoldan çıxardır. Doğurdan da, bu qız bunun dediyi kimi eliyir. Axşamnan əmisi oğlunu yatırdır, gedir onun yanına. Səhərə kimi kef eliyillər. Burda yerin altında bir mağara varıymış, orda səhərə kimi kef eliyərmişdər.

Bir günnərisi əmisi oğlu gej yatdığına görə bı bir az gej gedir. Bir saat yubanır. Bı quldurbaşı bunu döyür, deyir:

– Bəs sən niyə yubanmısan? Mənim eyşi-işrətimi pozmusan.

Deyir:

– Əmim oğlu yatmırdı, onu birtəhər yatırmışam. Ona görə yubanmışam.

Quldurbaşı deyir:

– Bir də belə yubansan, sənin başını kəsərəm.

Deyir:

– Baş üsdə.

Ona görə də həmin gecə şah oğlu Şah Abbasnan vəziri gəlib bu evə yaxınnaşanda görüllər, bu qız çaya behuş atır, oğlanı yuxuya verir. Durur, xəncəli götürür, əmisi oğlunun başını kəsir, qoyur xurcuna. Hə... Bunu Şah Abbasnan vəziri görür. Düşüllər bunun dalına qarabaqara izdiyillər, gəlib çıxıllar həmin meşiyə. Baxıllar ki, mağaradı. Qız gəldi, atı bağladı eşiyə. Girdi içəri. Burda onu pusullar. Görüllər, quldurbaşı dedi:

– Sən genə yubanıbsan.

Qız dedi:

– Yox, day mən həmməşəlih gəlmişəm. Əmim oğlu məni həmməşə yubandırırdı, indi day o yoxdu. Gətimişəm onun başın sənə.

Quldurbaşı gəldi gördü, Allah, bu bir oğlandı ki, yemə-içmə, xətti-xalına, gül camalına bax. Dedi:

– Ay kafir, sən ki bına vəfa qılmamısan, onda sən bizə necə vəfa qılassan?

Deyir:

– Götürün bu qızı, tikə-tikə doğruyun, atın eşiyə. Bu ki bu oğlanı belə günə qoyub.

Doğurdan da, bu qızı tikə-tikə doğruyullar, atıllar eşiyə.

Səhər Şah oğlu Şah Abbasnan vəziri Allahverdi xan durub getdilər imarətdərinə. Şah Abbas əmr elədi ki, filan meşədə filan yerdə qırx quldurrar var, gedin, onnarı tutun gətirin. Bunnar gəlir, qoşun bunnarı tutup gətirir şahın imaratına. Dedi:

– De görüm, dünənnərisi neynəmisiz, nə iş görmüsüz?

Dedi:

– Heş bir işi.

Dedi:

– Sizin işdərizin hamısını bilirih, əgər doğrusun deməsəz, hamıızın başını vuracam.

Oğlan naləş qaldı. Olannarın hamısını mən nağıl elədiyim kimi nağıl elədi. Şah dedi:

– Sən bunnarın hamısın doğru dediyinə görə saa filan şəhəri veririh, get dolan, amma bir də belə bir şey eləməyin.

Sora durup belə bir elan yazdı: "Mənim ölkəmdə bir dənə zənən xeylağı qalmasın. Hamısının başı vurulsun. Qadınnar xəyindilər".

Gəncədən başdeyillər arvatdarı qırmağa, beşikdəki uşaxları da qıra-qıra gəlillər. Həmin o şəhərdə də bir çoban varıymış. Hacı Qara qocalmışmış. Şah ölmüşümüş. Vəzirin oğlu çobanıymış. Onun arvadı hər gün onun qabağına çıxarmış. Onnan birrihdə qoyunnarı rahlıyannan sora girərmişdər evə, çörəh yiyər, yatardılar.

Bir gün görür, arvad qabağına gəlmədi. Qoyunnnarı rahlıyannan sora gedip deyir:

– Aaz, niyə çıxmadın?

Baxır kı, qız ağlıyır. Deyir:

– Niyə ağlıyırsan?

Deyir:

– Şahın əmridi, arvatdarın hamısın qırıllar. İndi Gəncədən başdıyıllar qıra-qıra gəlillər. Sabah bura çatacaxlar, məni də öldürəcəhlər. Ona görə çıxmadım, nə çıxacam təzdənnən.

Oğlan deyir:

– Bir şey olmaz.

Oğlanın da bir ağacı, çomağı varıymış. Əlinə alır kın, gedirəm şahlığa, qapısını dağıdam. Onnar xəbər verillər

qoca atasına – Hacı Qarıya kı, sənin oğlun şahlığa hücum eliyir. Deyir ki, ə, deyin, atan çağırır. Bını qaytarıllar, gəlir evə. Atası deyir:

– Ay bala, bu nədi?

Oğlu deyir:

– Hal-qəziyə belə-belə. Mən də ona görə gedirəm, bu nə elandı bu yazıpdı?

Deyir:

– Oğul, indi ki belədi, gəl sən məni bitəər apar o şahlığa. Mən onun atasının vəziri olmuşam vaxdıynan.

Doğurdan da, bunu bir gün aparıp çıxardıllar həmən yerə. Xəbər verillər şaha kı, dədənin köhnə vəziri gəlip sənin hüzuraa, görüşməh isdiyir. Deyir:

– Buyursun, gəlsin içəri.

İçəri gələndə şah onu qarşılıyır. Onun əllərinnən öpür. Deyir:

– Dədəmin qoca vəziri olduğu üçün sən nə yaxşı bura gəlmisən?

Deyir:

– Oğul, belə bir elan eşitmişəm, ona görə bura gəlmişəm. Nətəər olur ku, sən belə bir fərman veripsən, arvatdarı qırıllar, cavan uşaxları da beşihdə qırıllar.

Sizə dediyim hər şeyi ona deyir.

– Arvatdardan acıx eləmişəm. Ona görə onnarı qırdırram.

Deyir:

– Oğul, hər arvad bir deyil ha. İndi qulax as, saa bir əhvalat danışım. Yadındadı, atan şah olan vaxdı gündə bir vəziri yoxa çıxırdı. Vəzirrər şahlıxdan çıxıp evlərinə gedir,

səhər qayıtmırdılar. Deyillər, vəzirrər səhər evdən çıxıp geri qayıtmıyıplar. Odur ku, şahın otuz dokquz vəziri yoxa çıxdı. Qırxıncı vəzir məni tutmuşdu. Mən gəldim saraya, axşam evə qayıtdım, yeyip yatdım. Bu vaxt qapı döyüldü. O vaxdar torpaxlar çox olardı. Ona gora darvazalar yüz metr evdən kənarda olardı. Deyir, mən durdum tuman-köynəhnən gedəm, görən bu kimdi gəlip. Yoldaşım maa dedi ki, sən nətəər vəzirsən. Sənin ağlın başındadı? Tuman-köynəhnən adam qapıya gedər?

Arvad deyir:

– Əməlli-başdı paltar geyin get.

Deyir, durup getməy isdiyirdim, arvadım maa dedi:

– Sənnən vəzir çıxmaz. Bilmirəm, səni nətəər vəzir tutuplar.

Vəzir deyir:

– İndi neyniyim?

Arvad deyir:

– A kişi, silahı-zadı da götür, bəlkə, düşməndi, gəlip səni öldürə.

Silahlarımı da götürdüm kü, çıxım.

Arvat dedi:

– Saa vəzirrih yaraşmaz.

Vəzir deyir:

– Bə neyniyim?

Arvat deyir:

– Atı da min, lazım olar, olar, olmaz yenə qayıdıp gələrsən.

Mən də paltar da geyindim, silah da götürdüm, atı da mindim çıxdım eşiyə. Gördüm, atın belində bir pəhlivan durup, dəbilqəsi də başında. Məni görəndə dedi:

– Allah sənnən razı olsun. Mənim saa bir işim düşmüşdü. Mən gəldim çıxdım, sən kişi kimi mənim qabağıma çıxıpsan. Bir günnüh maa yoldaş olmalısan. Mən həmişə yoldaş axtarırdım – deyir.

Deyir kin, vəzirrər həmişə ağıllı olar deyillər. Ona görə gəlmişəm, sən də kişi kimi mənim qabağıma çıxdın.

Yoldaşıma dedim, mən getdim. Bu qabaxda atda gedirdi, mən də arxada. Fikirrəşdim, bu gecə vaxdı mən dəliyəm munun dalına düşüp gedim? İsdədim buna arxadan zərər yetirim. Bu munu hiss elədi, məni atdan götürüp silkələdi. Dedi:

– Hacı Qara, kişisən, kişi kimi söz vermisən, sözaa əməl elə. Bir gecəlih maa qonaxsan, sora səni buraxacam. Atımın tərkində olan xurcunda hamısı qızıldı, axırda saa verəcəm.

Biz çox getdih, çox getdih, səhərə yaxınıydı, bir meşiyə çatdıx. Gördüm meşənin arasında bir taladı. Otuz dokquz vəzirin hamısının başı da burda kəsilip. Tumankөynəhnən hamısı çıxıpdı. Bu gətirip burda hamısın öldürüp. Qırxıncı vəzir mən olmuşam. Ona görə məni öldürmüyüpdü. Deyir, dedi:

– Hacı Qara, bunnarı görürsən, arvat kimi qabağıma çıxıp, mən də gətirip burda öldürmüşəm. İndi sən kişi kimi çıxıpsan mənim qabağıma, kişi kimi də sözuun üsdündə dur.

Pəhlivan dedi:

– Bu meşədən çıxanda bir düzəngahlıx var. Bu düzəngahlıxda bir mağara. Orda da bir div yaşıyır. Mənim əmim oğlunu toy günü div öldürüpdü. Mən də axtarıram kı, o divdən hayfımı alım. İndi tək getməy isdəmirdim. Bir

yoldaş axdarırdım. İndi sən də mənnən gəlipsən. Düzəngahlığın yanında bir çinar var, atımızı bağlıyarıx ora. Sən atdarı gözdüyərsən, mən gedəcəm, onunnan vuruşacam. Allah ya maa verər, ya ona. Sən bax mən əyər ora çatdım, bir nərə çəkəcəm. Bilginən çatmışam. İkinci nərəm gəldi, bilginən vırışıram. Üçüncü nərəm gəldi, bilginən, qalip gəlmişəm. Nərəm gəlməsə, sən çıx qaç, bu çox qüvvəli bir şeydi. Bu xurcun da, at da saa qurbandı. Doğrudan da, bu getdi, mən də Allaha yalvarıram.

Birdən bir nərə gəldi, bildim ki, çatıp. İkinci nərə gələndə dedim, vallah, vuruşullar. Üçüncü nərədə baxdım, yavaş bir nərə gəldi. Hasardan bu tullandı bu tərəfə. Başdadı gəlməyə. Dedim, Allah, saa şükür. Bu gəldi maa çatdı, baxdım, divin başın götürüp əlinə gəlir.

Dedi:

– Hacı Qara, Allah sənnən razı qalsın. Mən əhdimə çatmışam. İndi sür atı, gedəh.

Deyir, qızılı da, xurcunu da götürüp maa verdi. Düşdü yola. Gəldih iki yolun ayrıcına, biri sağa, biri sola. Deyir:

– Hacı Qara, sağ ol. Mən gedirəm evimə, sən də get öz evinə. Qızılı da saa halal eliyirəm. Bu qız aralanannan sora deyir, dedim, mən Hacı Qara ola-ola, bu qədər əziyət çəkəçəkə bilmiyəm, munun mağarası hardadı. Düşdüm munun dalınca. Getdim, gördüm bir imarət var. İmarətin qabağında ağaş var. Atı bağladı ora. Getdi girdi həyətə. Deyir, yavaşca mən də munun dalınca girdim həyətə. Baxdım bir evdi. Evin içində qəbirdi. Qəbirin başında durup ağlıyır. Başında da dəbilqə.

– Sənin əhdi yerinə yetirmişəm, indi gəlmişəm öləm, sənnən qalam burda.

Xəncərini qoydu yerə, isdədi özün ata xəncərin üsdünə, özün öldürə. Daldan bunu çəhdim geri, xəncəri düşdü yerə. Munun başınnan dəbilqə düşdü yerə. Baxdım, ə, bu bir dənə qızdı. Maa dedi:

– Hacı Qara, sən munu eləmə. Mən demişdim, mənim sirrimi heş kim bilməsin. İndi ki, sən bildin, məni götür get.

Mən də həmin qadını götürüp gəlmişəm evə. İndi, ay balam, hər qadın bir deyil ha. İndi sən qadınnarın hamsın qırdırma. Şah Abbas qadınnarı bağışladı, qadınnarın fərmanın geri oxudu, day qadınnarı qırmadılar.

Göydən üç alma düşdü. Bu da səən nağılıı axırı (S. 1).

## 9. GÜLÜQAKQAXIN NAĞILI

Keşmişdə iki qardaş olur. Biri vəzirimiş, biri də şah. Bu şahın qızı varmış, vəzirin də oğlu. Vəzir qardaşına elçi gedir, qızı vermir. Bu qıznan da oğlan çox sevişmişmiş, çox. Bınnar ayrılmağ isdəmirmiş. Bir gün qız deyir:

– Əmi oğlu, səni maa atam vermiyəcəh. Gə mən iki at gətirim, qızıldan-zaddan götürəh, qaçax şəhərdən. Orda əvlənəh, dolanax.

Deyir:

– Yaxşı.

Deyir:

– Sahat ikidə, gecə gələrsən bıra. Ordan mən atı gətirərəm, bırda minip gedərih.

Demə, bırda bir çovan uzanmışımış ağacın divində. Bının dediyin eşidir. Çovan qızın qahımınnan əvvəl gəlir, durur qızın dediyi yerdə. Qız gətirip bına iki at verir. Qız

qabaxda, oğlan da dalda. Az gedillər, üz gedillər. İşıxlananda baxır kı, ə, öz nişannısı dəyil. Bir motal papax çovandı.

Dedi:

– Adın nədi?

Gədə dedi:

– Baxdıyar.

Dedi:

– Baxdıyar, baxdıma yar gəlmisən, gəl.

Az gedillər, çox gedillər, çay qabaxlarına çıxır. Çaydan keçəndə Baxdıyar görür kü, axı o çovandı daa, çaxmax daşı var. Atdan düşür, o çaxmax daşınnan götürür. Qız baxır görür kü, Baxdıyar qalıf dalda.

Dedi:

– Baxdıyar, o nədi?

Deyir ki, xanım, mən çobanam. Bu çaxmax daşıdı. Vurarsan, ocax çıxar. Ojağımız olmasa, ojax qalıyarıx.

Qız baxır kı, bu lal-cavahır daşıdı. Bunun qıymatı yoxdu. Deyir:

– Baxdıyar, bu qiymətdi daşdı, bunun qiyməti yoxdu patşahın xazınasında.

Gedillər başqa paşşahlığa, ev alıllar. Qalıllar orda. Bir gün qız deyir:

– Get bını paşşahın xəzinəsində xırdalat gəti.

Patşah görür kü, xəzinəsində o daşın qıymatı yoxdu.

Deyir:

– Baxdıyar, xazınamda bu qədər pıl yoxdu. Olannarı apar, qalanını da sora apararsan.

Baxdıyar aldı, gəldi.

Baxdıyar bir gün arvadıynan gəzirdi. Patşah bını gördü. Ölü öküzün gözü kimi bu qıza vırıldı. Belə olanda dedi:

– Vəzir, nə tədbir?

Dedi:

– Nə tədbir olacax? Denən maa o daşnan bir imaarat yap.

Daşdan ee. Həmin dıkqılı daşın qıymatı yoxdu. Patşah Baxdıyarı çağırıp bını beləcə deyir. Bu vaxt Baxdıyar deyir:

– Patşah sağ olsun, bu qədir xazınanda o daşın qıymatı yoxdu. Mən bını nətəər eliyim?

Dedi:

– Mən bilmirəm.

– Ya tikinən, ya da sənin boynuu vuracam.

Baxdıyar gəldi qızın yanına, dedi:

– Hal-qazıya belədi.

Qız dedi:

– Baxdıyar, kefıı pozma. Get qırx gün möhlət al.

Getdi, qırx gün patşahdan möhlət aldı.

Qız dedi:

– Baxdıyar, gedərsən o daşı tapdığın çayı taparsan. O çay yuxarı gedərsən. Orda bir yer var, dev gətirip qızı saçınnan asıp. Qız ona təslim olmur. Saçınnan asır, gedir, gəzir, gəlir. Bir söz desən, o qız ağlasa, düşsə o çayın içinə, olcax ləl-cavahır daşı. Mən adam topluyacam, onu kəsip çıxardıp bir günə divarı qoyup, tikip təfil verəciyih. Çay yuxarı gedəndə bir tikili görəssən, o devin evidi. Qızı telinnən asıp göyə özü gedip gəzməyə. Qızı aç, qoy yerə. Qoymayınan örgən, gör onun canı hardadı. Canın yerin bil. Cana bircə dəfə vurarsan. Bir dəfə vurdun bəsdi, o öləcəh.

Bu gəldi, devin tikilisin tapdı. Gördü gözəl qızdı, saçınnan asıp dev göyə.

Dedi:

– Nəə gəlmisən, oğlan, dev səni öldürəcəh.

Dedi:

– Qoxma.

Qızı aşdı, qoydu yerə.

Dedi:

– Qorxma, səni azad eliyəcəm. Canın yerin maa de. Onu öldürüm, səni də götürüm gedim.

Baxdıyar girdi, gizdəndi. Dev gəldi.

– Burda adam insi gəlir, saxlı badam insi gəlir.

Qız dedi:

– Əvin yıxılsın, bura kim gələr? Məni telimnən asmısan bura. Heş kim gəlmiyip.

Qız ağladı. Dev dedi:

– Niyə ağlıyırsan?

Qız dedi:

– Sən gedip gəzirsən, mən də saçımnan asılı. Heç olmasa canıın yerin de, baxım, qorxmuyum.

Bına vırdı. Ağladı. Ağlıyanda ürəyi durmadı. Dedi:

– Məəm canım o hovuzun içində bir qızıl balıx var, onun qarnında şüşə var, ordadı.

Bunu deyənnən sora dev getdi. Dedi:

– Nə yeyim, plov yeyim. Nə yeyim, çilov yeyim. Yox ee, durum gətirim arpa çörəyiynən turş ayran yeyim.

Onun yeməyi oyudu. Yeyərdi, yatardı. Yedi, yatdı. Tezdən genə turş ayrannan arpa çörəyi yeyip çıxdı getdi.

Baxdıyar gənə qızı aşdı, yerə qoydu. Gördüyü, eşitdiyinin hamısın qız dedi:

– Hovuzun üsdündə yekə bir dəyirman daşı var.

Əlləşdi-əlləşdi, güjü çatmadı. Axırda dedi:

– Ya Allah, sən özün maa köməh ver.

Allahdan quvat gəldi, daşı aşıdı. Gördü, bir balıx hovuzda əənə qaçır, bəənə qaçır. Qızıl balıxdı. Tez qızıl balığı tutdu, yardı. İçinnən şüşəni çıxartdı, vurdu yerə. Bu vaxt dev gəlirdi. Qışqırdı, bir də vur. Baxdıyar, bir də vur.

Dedi:

– Yoox, kişi işi bir dəfə eliyər.

Dev gəldi, orda, qapının ağzında öldü. Saldılar orda quyuya. Qızı da götdü, xəzinədən də birəz götdü. Yerdə qalanını da ordakı nökərrərə verdi. Ordan qızı da götdü gəldi. Suyun qırağınnan keçəndə oğlan nə dedisə, qızın gözünnən bir damla yaş çaya düşdü. Çay döndü oldu ləl-cəvahır daşı. Adam topladılar, alması doğradılar, imarəti yapdılar. Patşah baxdı gördü nəə, imarət düzəlip.

Dedi:

– Ə, belə oğlu öldürməh olmaz. Məndə bınnan yoxdu. Bu hardan tihdi?

Patşah gördü, əə, indiyətən biridi, indi ikidi. O birisi bınnan da başdı.

Dedi:

– Vəzir, vəkil, nə tədbir, bağrım çatdıyır.

Dedi:

– Nə tədbir olacax, əvin yıxılsın, denən Gülüqakqaxın gülün gətisin.

Bını patşah deyəndə oğlan pis oldu. Gəldi, qıza dedi əhvalatı. Qız dedi:

– Qorxma. Gedərsən bu yolnan. Biri sağa gedəcəh, biri sola. Sağ yolnan gedərsən, qabağaa bir ağaş çıxacax. Bırda bir qoca oturup. Qoca sakqalın yolur, pencəyin tikir. Sakqal tühdü daa. Qırılıp tökülür yerə. Sap apar, onu tik qəşəh. O saa yol görkəzəcəh. Onnan sora Gülqakqaxı gətirərsən.

Bırdan getdi, gördü kü, qoca sakqalın yolur, pencəyin tikir. Sakqal tühdü daa. Belə eliyir, tökülür yerə. Aldı əlinə, qəşəh tihdi. Elə bil qasdumdu. Geydi, əynə silkələndi, bəynə silkələndi. Hes zad olmadı, salam verdi.

Dedi:

– Maa sözün?

Dedi:

– Patşah maa belə əmr eliyip, gərəh Gülüqakqax gülün gətirəm.

Deyir:

– Baxdıyar, meşəni görürsən? Koldu – qaratikan kolu, deyərsən, nə yaxşı gəzməli bağdı. O kol saa yol verəcəh. Gedərsən, qabağaa bir çay çıxacax, irin çayıdı. Adam baxır, irgənir da. Pis çaydı. Deynən, nə qəşəh sudu, yaxşı içəsən. Götü, bi quruşqa da iç, qorxmaynan. Gedəssən, görəssən, bir qəpi var, açıx qapıdı, biri də örtülü. Açıx qapını örtərsən, örtülü qapını açarsan. O da saa yol verəcəh. Gedərsən, dənizin qırağında sərv ağacı var. Sərv ağacının böyründə qaratikan kolu var. Girərsən, tikanın içində gizdənərsən. Görəssən ki, üş dənə göyərçin gəldi ağacın başına. Ollar paltarın soyunacax. Öyrən gör hansıdı Gülüqakqax. Onun paltarını oğurra, özü dalınca gələcəy. Ant versə də, buraxma. Denən, “nənəmin südü maa haram olsun, gəlməsəm”, – desin. Onda quş paltarın yox, əyin paltarın verərsən.

Baxdıyar getdi, qaratikana dedi:

– Nə qəşəh bağdı, gəzəsən, seyr eliyəsən.

Qaratikan yol verdi.

Getdi gördü, su var.

– Bınnan da qəşəh su olar? Yaxşı yeyip içəsən.

Bunnan da bir quruşqa işdi.

Getdi, gördü, bir otax var. Qapısının biri açıxdı. Açıx qapını örtdü, örtülü qapını aşdı. Qapılar yol verdi. Getdi, gördü, dənizin qırağında bir sərv ağacı var. Ağacın qırağında kol var. Girdi, gizdəndi. Gördü, üş dənə göyərçin gəldi. Bılların ikisi soyundu girdi dənizə, ama biri gəlmədi. Dedilər:

– Bacı, Gülüqakqax, nolup saa? Niyə çimmirsən?

Dedi:

– Bajı, ürəyimə damıf, böyün maa nəysə olajax.

Allahdan bına agahdı.

Dedilər:

– Sən həmişə belə deyirsən. Bura kim gələjeh? Tez ol, gəl, çiməh, çıxax gedəh.

Bu soyunup gölə girəndə bu paltarı oğlan oğurradı. Qız gördü, paltarın bir oğlan götürüp qaçır.

Dedi:

– Ay oğlan, amanın bir günüdü, paltarımı ver.

Dedi:

– Yox, verməərəm.

Oğlan dedi:

– Denən, anamın südü maa haram olsun, paltarı maa versən, sənnən gələjəm.

Qız dedi:

– Anamın südü maa haram olsun, paltarımı ver, sənnən gəlim.

Oğlan quş paltarın yox, adam paltarın verdi. Qız Baxdıyarın dalınca gəldi. Baxdıyar mazalı[69] söz deyəndə bunun ağzınnan hopu-hopu gül töküldü. Bir məjmeyi düzəldip aparıp verdilər pətşaha. Pətşahın babası, dədəsi qələt eliyərdi, heş belə şey görməmişdilər. Şah dedi:

– Gör Bəxdiyar necə igid oğlandı e!

Vəzir dedi:

– Şah sağ olsun, düz buyurursan, belə oğlanı öldürməh olmaz.

Bir müddət keçənnən sora bu yenə fikrin dəyişdi. Bəxdiyarın gətdiyi qızdarı görəndə dəli oldu.

Dedi:

– Neyliyim, nətəər eliyim?

Vəzir dedi:

– Göndər Hindistanda qırtbaşdı[70] dev var, onun bağında qızıl alma var. Get o almadan gəti maa. Ora gedən gəlməz.

Qırtbaşdı devlər vardı orda. Ora gedənin qayıtmadığını patşah bilirdi. Çünkü orda elə devlər varıdı kı, min ordu belə onun qabağına çıxa bilməzdi.

Patşah munu Bəxdiyara deyənnən sorasına qırx gün möhlət verdi. Bəxdiyar bekaf gəldi evə. İndi ona o biri qız yox, Gülüqakqax yol gösdərirdi.

Gülüqakqax dedi:

– Gedərsən sağ qolu üsdə, dərə var. Dəriyə girərsən, orda tavla var. Girərsən, tavlanın içində üç at bağlanıp.

---

69 mazalı – məzəli

70 qırtbaşdı – qırxbaşlı

Onda denən: "Məni Hindistandakı qırtbaşdı devin sarayına aparıp gətirərsən?" Onda o atdardan biri səni aparmağı boynuna götürəcəh.

Baxdıyar Gülüqakqaxın dediyi kimi gəldi tövlüyə, dedi:

– Məni Hindistandakı qırtbaşdı devin bağına aparıp gətirərsiniz?

Bırdakı qırmızı at dedi:

– Mənim ürəyim gəlmir.

Sarı at da dedi:

– Mən apara bilmərəm.

Qara at dedi:

– Mən aparıp gətirərəm.

Çünkü bu yel atıydı. Uzun sözün qısası, bu mindi ata, getdi Hindistandakı qırtbaşdı devin bağınnan bir xurcun qızıl alma yığıp mindi ata. Bu vaxt dev uzandı. Dev uzandı, amma qara at dedi:

– Onun çığırmağına fikir verip dala baxma, yıxılarsan.

At getdi, dev də dalınca, amma yetirə bilmədi. Baxdıyar gəldi qızdarın yanına. Özdəri də yedilər, bir mejmeyi də apardılar patşaha. Patşah qələt eliyərdi, belə şey görməmişdi, yeməmişdi. Patşah bunun gətdiyi qızdarı almax üçün Bəxdiyarı öldüməh isdiyirdi. Odu ku, dedi:

– Maa gərəh günçıxannan günbatan arasında qızıl körpü çəkəsən, salasan.

Məhəmmət[71] kor-peşman geri qayıtdı. Çünkü günçıxannan günbatan arasında körpü salmağ olmaz kı, özü də qızıldan.

Bunu bilən Gülüqakqax dedi:

---

[71] Söyləyici bu yerdə personajın adını səhvən Məhəmməd deyir.

– Bəxdiyar, kefıı pozma. Gedərsən o Hindistana, getdiyin o qara yel atın minərsən. O səni aparacax günçıxana, həm də günbatana. Qızılın birin orda-burda atarsan, qızıl körpü düşəcəh. Saat yarıma şərqə, bir saat da qərbə gedəcəh.

Bəxdiyar heylə də elədi, qızıl körpü salındı. Patşah bir də gözün aşdı kı, qızıl körpü salınıp, hamı üsdünnən keçir. Mat qaldı.

Dedi:

– Neyliyim, vəzir? Tədbir, öldüm, çatdadım.

Vəzir dedi:

– Şah sağ olsun, bircə dənə yolu qalıp. Denən ki, get o dünyadan dədəmnən xəbər gəti.

Bunun dədəsi qırx il bunnan qabax ölmüşdü. Şah vəzirin dediyi kimi də Baxdıyara dedi:

– Baxdıyar, ba saa axırıncı tapşırığımdı, bunu da elə, kutarax.

Baxdıyar bekaf qayıtdı gəldi evə. Gülüqakqax bunun bekaflığının səbəbin soruşanda Baxdıyar pətşahın dedihlərin Gülüqakqaxa danışdı. Gülüqakqax dedi:

– Baxdıyar, bu, çox asand işdi. Get patşaha de ki, böyüh bir odun topası versin, qırx ton da nefit töhsün odunun üsdünə. Odunun baş tərəfində çardax qursun. Mən çardaxda oturum yanım, gedim o dünyadan dədənnən xəbər gətirim.

Gedip patşaha belə deyən kimi patışah qırx kub metir (söyləyici dediyi kimi saxlanılıb – top.) odun yığdı, qırx ton nefit töhdü odunun üsdünə, çardax düzəltdi, Baxdıyarı çardağa çıxardıp oduna od vurdular. Məhəm-

mət[72] də ordaydı, odun içində. Bu vaxt Gülüqakqax quş paltarın geyip uşdu, Baxdıyarı götüdü, apardı qoydu əvə. Qırx gün yedilər, işdilər, kef elədilər. Odun sönənnən sora Gülüqakqax quş paltarın geyinip Baxdıyarı apardı qoydu külün içinə. Qırxıncı gün patışah adamları külü eşdilər, gördülər, Baxdıyar yeşihdə sağ-salamatdı.

– Baxdıyar, nətəər getdin, nətəər gəldin?

Baxdıyarda patışahın dədəsinin möhürüynən-zadıy-nan kağız varıydı. Bunu Gülüqakqax yazmışıdı e, yalannan. Kağızda yazılmışdı:

– Üzün qara olsun, oğul. Mən səni yekəltdim, pətşah elədim. Amma sən gəlip məni yoxlamırsan. Gəl, məni yoxla daa.

Şah bu sözdərdən pis oldu, dedi:

– Baxdıyar, bə mən nətəər gedim?

Dedi:

– Mən nətəər, həylə.

Patşah dedi:

– Məni isdiyən gəlsin.

Gənə də odun yığdılar, odunun üsdünə nefit töhdülər, yuxarıda da bir yer düzəltdilər. Patşahın özü, vəkil, vəzir, oğlu-uşağı, hamısı yığıldılar odunun başındakı çardağa. Oduna od vurdular. Bulların hamısı yandı, öldülər. Baxdıyar oldu patışah. O üş dənə qızı alıp dünyanın kefin çəhdi. O yedi, yerə keşdi, siz də yeyin, döörə keçin. Göydən üç alma düşdü. Biri Cəmilin, biri nağıl eliyənin, biri də mənim (S. 3).

---

[72] Söyləyici yenə də obrazın adını Məhəmməd dedi. Qeyd toplayı-cılarındır.

## 10. MƏHƏMMƏD VƏ PƏRZADIN NAĞILI

Rəvayətdərin dediyinə görə, Şah Abbas devrində bir Fatı qarı varıdı. Bunun bir nəvəsi varıdı – oğlan nəvəsi. Onnan sıvay heş bir uşağı-zadı yoxudu. Bunun adı da Məhəmməd idi. Məhəmmət çox qəbiliyətdi, qanacaxlı, mərfətdi, dünyagörüşlü çox gözəl uşağıdı. Şah Abbas hər gün dərviş libasında gəzirdi. Bu gəzdi gördü kü, Şah Abbas gəlir – uşax gördü, Məhəmmət.

Dedi:

– Uşaxlar, mən nətəər təzim eləsəm, siz də heylə eliyin. Qoy Şah Abbas bizə ənam versin.

Bu Məhəmmət nətəər təzim elədi, uşaxlar da ona baxdı.

Şah Abbas gördü kü, bu təlim verən uşaxdı, o uşaxlar da ona baxır. Baxdı, gördü, bu uşax çox ağıllı, kamallı, mərfətdi, boyda-buxunda, yaraşıxda çox qəbiliyətdi uşaxdı.

Dedi:

– Vəzir!

Dedi:

– Hey.

Dedi:

– Vəzir, bu uşağı götü gə, aparram saraya.

Uşağı apardılar saraya. Uşağa bir yüngül tapşırıx verdilər işdəməyə. Uşağ işdədi. Şah Abbas baxdı, gördü, uşax çox tərbiyəli uşaxdı, hər nə deyirsən, onu yerinə yetirir. Hər nə deyirsən, onu eliyir. Yavaş-yavaş bunun vəzifəsin artıdı. Vəzifəsin artıdı, bu minvalla yaşadı. Şah Abbas baxdı, gördü kü, bu, çox qəbilyətdidi. Axırda qoydu sərkər maavini – ordunun

başçısının maavini. Bir müddət keçənnən sora sərkər qoydu – başçı qoydu. Tay bunun adı-sanı hər yana yayıldı.

Sora bir gün Şah Abbas dedi ki, filan yerə get. Getdi. Gördü kü, burda bir zənən var. Ya rəbb, elə bil, ay parçasıdı. Hə! Buna söz atdı. Söz atanda bu qız qılıncı çəhdi Məhəmmədin başına vırdı. Ə, Məhəmmət huşun itidi. Qız əyildi ki, bına baxsın. Baxdı, gördü, bir oğlandı. Dedi:

– Ya rəbb, mənim qolum qırılaydı bına qılış vurduğum yerdə. Bına mən niyə qılış vırdım?

Tay iş işdən keşmişdi. Gətdi Məhəmmədin başın yudu, təmizdədi. Dərmannadı, dərman qoydu, böyrünə kağız yazdı. Dedi, mən Hələp şəhərində (Söyləyici şəhərin adın "dayan görüm o hansı şəhər idi" deyərək çətinliklə yadına saldı – top.) orda mən xan qızıyam. Adım da Pərvinazdı,[73] atamın adı da (Yadına sala bilmədi və qoy yadıma düşəndə deyərəm dedi – top.)... Pərvinaz bi namə də yazdı: "Oğlan, əgər sən məni sevdinsə, gələrsən, mən saa aylə olaram".

Qız kağızı qoydu bının başının altına, dərmannarı da yazdı kı, nətəər sürtərsən. Həə! Haçannan-haçana Məhəmməd oyandı. Oyandı, gördü, bir namə var. Namədə yazılıp kı, adım Pərzatdı, gələrsən, mən saa gedərəm.

Məhəmmət çox bekaf oldu, çox məlul oldu, gəldi Şah Abbasın yanına. Namanı verdi, Şah Abbas oxudu. Dedi ki, icaza verirəm, get. Şah Abbas icaza verdi. Məhəmmət düşdü yola. Az getdi, üz getdi, dərə-təpə düz getdi. Getdi, qabağına bir dev çıxdı.

Dedi:

---

[73] Söyləyici personajı gah Pərvinaz, gah da Pərzad kimi təqdim etdi.

– Bura gələn inni-cinni olmaz, sən kimsən ki, sən gəlmisən bura?

Dedi:

– Hələp şəhərinə gedəcəm. İndi mən qız dalıyca gedirəm.

Dedi:

– Yaxşı, qal burda.

Bu dev də gözəl xanım qız gətimişdi. Qız o devə koul vermirdi. Nə qədir dev əlləşirdi, koul vermirdi. Adı da Gözəl idi. Həə! Lövhəsi varıdı qızın. Kim nə desə, yazırdı. İndi sən yazdığın kimi yazırdı. Oğlanı apardı kı, indi qıza sataşacax, dev bunu öldürə. Bırda bir at varıdı, at dilə gəldi, dedi:

– Məhəmmət, çoxları gəlip, dev burda öldürüpdü. Sən Gözəl xanıma baxsan, huşun başınnan çıxacax. Gözəl xanıma baxmaynan. Gözəl xanım nə eləsə, denən ki, bacımsan, sənə kəm baxmax olmaz. Bu sözdərdən artıx söz danışmaynan. Əgər danışsan, dev löhədə yazacax, səni öldürəcəh.

Nəysə, dev getdi löhəni qurdu ku, qız nə desə, onu yazsın, oğlan nə desə, onu yazsın.

Gözəl xanım dedi ki, niyə maa baxmırsan?

Dedi:

– Qıza haram göz baxmaz. Biz insanıx. Haram süd əmən oğlan dəyiləm mən. Mən atamın, anamın halal süt əmmiş halal oğluyam. Mən haram hərəkət eləmərəm. Mən pis oğlan dəyiləm.

Qız nə qədir hərəkət eliyirsə, Məhəmmət baxmır. At demişdi axı. Ona görə də qız nə deyirdi yazırdı, oğlan nə deyirdi yazırdı löhə. Uzun sözün gödəyi, dev gəldi, gördü, qız nə deyip, Məhəmmət yox deyip. Qız nə deyip, Məhəmmət yox deyip.

Dedi:

– Məhəmməd, bura nə qədir adamnar gəlip öldümüşəm. Gözəl xanıma tamahı düşüp, mən öldümüşəm. Sən halal oğlansan. Sən harda dara düşsən, tüh verrəm. Hara gedirsən, mətlabaa çatarsan. Dev deyir ki, tükü tükə tut yandı, mən orda hazır olajam, dara düşsən.

Nəysə, uzun sözün qısası, dev buna iki tük verdi. Dedi:

– Məhəmməd, bu tükü itiməynən. Harda dara düşsən, tükü tükə tut, gəlim.

Uzun sözün qısası, Məhəmmət yol uzunu az getdi, uz getdi, dərə-təpə düz getdi, gəldi Hələp şəhərinə çatdı. Burda bir dənə naxırçı vardı. Bu kim ola, kim olmuya, Pərvinaz xanımın danasın otaran. Məhəmməd buna yaxınnaşdı – adı da Tafdığıdı. Tafdıx dedi ki, Məhəmmət, sən yaxşı adama ras gəlmisən. Mən işi düzəldəcəm. Həə, gəldi Məhəmmədə həmin o qız yazdığı kağızı verdi, aparsın versin xanıma – Pərvinaza. Tafdığ aparıp namanı yaxınnaşdı Pərvinaz xanıma. Məhəmmədə yazdığı məhdubu verdi qıza. Qız bildi ki, Məhəmmət gəlip.

Pərvinaz dedi:

– Məhəmmədə deynən ki, mən Gülşən bağında olajam, özü də qız paltarında gəlsin, gedəcəh bizə.

Həə, qız paltarı geydi Məhəmmət, qoşuldu qızdara. Pərzad[74] xanım Məhəmmədi tanıdı. Bunu apardı əvinə – qız paltarında. Qız paltarında əvinə apardı. O günü hənki gün ola yaxşıdı? Pərvinaz xanımın toy günüydü. O gün toy eliyirdi. O gün gəlməsəydi, iş işdən keşmişdi. Həə, bu oğlan

[74] Söyləyici nağılın qalan hissəsində personajı Pərvinaz deyil, Pərzad adlandırır.

qıza yaxınnaşan vaxdı Məhəmmət orda oldu. Məhəmmədi gizdətdi, əmisi oğlu Pərizada yaxınnaşanda dedi:

– Əluu diş tut. Sənə bir dənə vuraram, orda qalarsan.

Məhəmmət çıxdı, o oğlanın qolun, qılçələrin bağladılar, uzatdılar ora. Pərzadnan Məhəmməd öpüşdü, görüşdü, şaddıx elədilər. Onu orda qoydular. Məhəmmət bir at mindi, özü də qız verdi atı. Məhəmmət bir at mindi, qız da bir at. Oğlan orda qılçələri bağlı, qolu bağlı qaldı. Qıznan Məhəmməd yol getdi. Az getdi, çox getdi. O getməhdə olsun, saa kimnən deyim, o zadın – Məhəmmədin, Pərzat xanımın nişannısınnan. Səər gəldilər ki, orda nolup? Gördülər, orda sızıldıyır. Bunun qolun-qılçasın aşdılar:

– Nolup?

Dedi:

– Belə düşdülər.

Xan oğluydu da, qoşun yığıldı dalınca. Məhəmmətnən Pərzad gəlmişdilər, qoşun gəldi yetdi. Tafdıx da bullarnan gedirdi. Məhəmmət bir yannan, Tafdıx bir yannan, qız bir yannan qoşunu qırdılar. Qollarının taqəti kəsilmişdi.

Qız dedi:

– Məhəmmət, tay qolumda taqət yoxdu, tədbir elə.

Dedi:

– Tədbir var, qorxma.

Tükü-tükə tutdu yandıdı, dev hazır oldu. Dev qoşuna girdi. Qoşunu elə qırdı, elə qırdı, qan sel-su, hərəkət töküldü ora. Həmən qızın nişannısın da öldüdülər. Ta qoşun çəkildi, çıxdı getdi. Məhəmməd, bir də Tafdıx, qız da getdi devin evinə. Devin də hər bir şeyi boludu, varıydı. Devin

qızılı, gümüşü, varyəti o qədəridi ki, pətşahda o varyət yoxudu. Həə, nə qədir qızıl varıydı verdi Məhəmmədə.

Dedi:

– Gözəl xanım məni sevmir. Elə onu da verrəm saa.

Dedi:

– Yox. Qoy Gözəl xanım razı olsun Tafdığa getsin.

Gözəl xanım razı oldu, Gözəl xanımı da Tafdığ aldı. Ordan gəldilər Şah Abbasın imarətinə. Şah Abbas Pərzada baxdı, dodağının altında öldü. Dedi:

– Nətəər ola gərəh mən bu qızı Məhəmmədin əlinnən alam. Özüm alam.

Qıza yaxınnaşdı, söz atdı.

Qız dedi:

– Mən gələndə Məhəmmədə gəlmişəm, saa gəlməmişəm. Ağlıı yığ başaa, Şah Abbas.

Şah Abbas gördü kü, həqiqətən, bu qız Məhəmmədi sevir. Gördü kü, başqa əlaş yoxdu. Əgər ki, davıya düşsə, bu Pərzad elə qoşunun hamısın qıracax. Axırda dedi:

– Mən sənin fiquraa baxdım, bir də sənin ağlaa baxdım. Onçun mən bu sözü dedim. Öz uşağımdı Məhəmməd.

Orda qırh gecə, qırh gündüz toy vurdular. Məhəmməd Pərzadnan, Tafdıx da Gözəlinən əvləndilər, gəldilər Şah Abbasın yanına. Onnar yedilər, işdilər, yerə keşdilər, siz də yeyip içip döörə keçin. Sağ olun (S. 3).

## 11. ŞƏMİL-GÜHUDUN NAĞILI

Köhnə vaxları Şəmil-Gühud addı bir adam olupdu. Bunun arvadı ölür. Ölənnən sora bunun bir qızı qalır, bir özü.

Bı Allah nəhlət eləmişin gözü öz qızına düşür. Bı bına düşənnən sora bı elə-belə bəhənalar eliyir, qıza bi söz deyə bilmir. Durur qızına deyir ki, bı bağ salasan, becərəsən, onu özgə adama versən yaxşıdı, yoxsa özün yesən yaxşıdı?

Deyir:

– Özün yesən yaxşıdı.

Deyir:

– Qızım, mən səni alajam.

O da deyir:

– Dünyasında olmaz.

Neliyir, qız imkan vermir. Bı kişi bir dənə imarat tihdirir. Bının hasarı, hayatı olur. Qırx günnüh səfərə gedir. Qızın qırx günnüh yeməyin-işməyin yığır bıra, çıxır gedir. Qız bı yuxarıkı mərtəbədə ağlıyır, ağlıyır. Orda bir pəncərə varıymış. Allahı çağırır, pəncərədən özünü atır. Divarın dibiynən sürüşə-sürüşə yenir divarın dibinə. Bı qıza heş bi şey olmur. Salamat qutarır.

Bı qaçır gedir, bi meşiyə iras gəlir. Meşədə bütün meyvələrdən tapır yeyir, vəhşi heyvannarın qorxusunnan ağaşda yatır. Şəhərin patşahı Dövlətşah adında bi patşah olur. Yatır, yuxuda görür kü, meşədə bına bi qismət verdilər. Vəzirin, vəkilin də götürür, gəlir çıxır həmin meşiyə. Gəlillər bılağın başına su işməyə. Su içəndə baxır kı, suyun içinə insan şikili düşüp. Demə, qız suyun üsdündəki ağaşdaymış. Belə baxır suya, görür yoxdu. Suyu qarışdırır, görür yoxdu. Su durulanda bir də çıxır. O yana boylanır, bu yana boylanır, qızı görür: “A qız, yen!” Yenir. Qızı alır atın tərkinə, götürür gedir öz evinə. Bını bir ayrı mənzilə qoyur. Bı qız bırda yaşıyır. Bi gün bı qızın yanına bi dənə

zənən göndərir ki, ay qız, kimsən, nəçisən, hardan gəlip hara gedirsən? Deyir:

– Belə azıp gəlmişəm. Mənim heş kimim yoxdu.

Deyir:

– Ərə getmisən?

Deyir:

– Yox, ərə getməmişəm.

Deyir:

– Sən irazı olsan, mən səni alaram.

İrazılaşıllar. Patşah bını alır.

Alannan sora sanıa deyim Şəmil-Gühüddən. Şəmil-Gühüd qırx günnüh səfərinnən gələnnən sora gəlir, görür, bı qız yoxdu. Yenişə-yoxuşa baxır. Görür, pəncərədən izi düşüpdü divarnan aşağı. Bu kişi çox irəmdar adammış. İrəml[75] atır ki, qız hardadı. Bir neçə günə gəlir həmən şəhərə. Şəhərə çatanda örgənir ki, qız gəlip bıra, patşahnan evlənip. Patşahın qorxusunnan bı, bıralara hərrənə bilmir. Bi gün patşahın xəzinəsini oğrular gəlir oğruyullar. Aparıllar, aralıda bir zağada başdıyıllar bını bölməyə. Səhər durullar ki, patşahın xəzinəsin dağıdıblar. İrəmdarrar yığışsın. Bı Allah nəhlət eləmiş də gəlir, patşaha deyir, mən də irəmdaram, mən də gəlmişəm irəml atmağa. İrəml atır ki, filan zağada quldurrar sənin xəzinanı bölüllər. Gedillər, doğurdan da, bınnarı orda tutullar. Bı, patşahın yanında çox hörmətdi olur. Patşah bını öz mənzilində saxlıyır, patşahlıxda saxlıyır. Bı gedir gəlir. Bı qızın da bi oğlu olur patşahdan. Bi gün bı gejə girəvəni salır, patşahın yanına bı o qədər gedip gəlir ki, bı evlərin hamısın örgənir,

[75] irəml – rəml

bı qızı tanıyır. Amma qız bını tanımır. Gejə gedir, qızın uşağının başın kəsir, pıçağı da qannı qoyur qızın döşəyinin altına. Səhər durullar ki, patşahın oğlunun başın kəsiplər.

– Ay irəmdarrar, yığışsın.

İrəmdarrar yığışır. Bı Allah nəhlət eləmiş yeriyir qabağa ki, mən irəml atım. Atır, deyir ki, qiblə-aləm, bı guhut[76] nəslinnəndi. Guhutdarın bir adatı var, sifdə uşağın başın gərəh özü kəsə. Bının başın anası kəsip. Pıçağı da qoyup döşəyin altına.

Gedillər, doğurdan da, bı qannı pıçağı tapıllar. Patşah əmir verir ki, qızın başın kəssinnnər. Cəllad bının başın kəsəndə, bı yeriyir qabağa, deyir:

– Qiblə-aləm sağ olsun, mən də guhutam. Onun namusu mənə çatır, ver onu, mən aparım öldürüm, qannı köynəyin də gətirim.

Bını uşağı da qucağında ağlıya-ağlıya aparır. Qız ağlıyır, özün öldürür, Allah, bu nə işdi mən düşdüm. Birdən qayıdır ki, məni tanıyırsan?

Deyir:

– Yox, tanımıram.

Dedi:

– Mən sənin atanam.

– Allah sənə nəhlət eləsin. Mənim uşağımın başın kəsmisən sən.

Dedi:

– Gərəh gedəsən maa.

Dedi:

---

[76] guhut – cuhut

– Mən müsəlmannarın qanunun qəbul eləmişəm. Cənabı Əlinin qanunun qəbul eləmişəm. Mən saa gedən dəyiləm. Cənabi Əlinin yolunda qolumu da kəsəsən, sənə gedən dəyiləm.

Bı kişi bını bırda qanına qaltan eliyir. Vırır yıxır ora, çıxır gedir. Köynəyi də bılıyır qanına, gətirir patşahın yanına. Bı qız bırda zarıyır. Bi karvan gedirmiş, karvan gəlip keçəndə bını görüllər. Deyillər:

– Ə, bı nə iş görüp bının qıçın-qolun sındırıplar? Həlbət, pis yola gedip.

Deyir:

– Sizi and verirəm Allaha, məni bırda qoymayın. Harıya gedirsiz?

– Ziyarata.

– Sizi and verirəm getdiyiz o ziyarata, məni bırda qoymayın.

Bını götürüllər, sərillər dəvənin üsdünə. Aparıllar çıxardıllar Kalbaya. Orda qoyullar yerə. Çörəhdən-mörəhdən verillər, yeyir, zarıyır. Bı yalvarır kı, məni qoyun, salın ülüzənin içinə. Bını qoyullar ülüzənin içinə. Axşam gəlillər bını çıxarmağa.

Deyir:

– Mənim qıçım var, duram? Qolum var, duram? Məni bırdan çıxarmayın, mən ölsəm də, bırda öləcəm.

Bı qalır bırda. Gecə bırda yatır. Deyir:

– Xudavəndi-aləm, mən gəlmişəm ülüzuya. Mənim günahım nədi, de?

Bir dənə seyid gəlir. Deyir:

– Ay qız, dur ayağa.

Deyir:

– Bə mənim qıçım-qolum yoxdu axı.

Deyir:

– Qolun da var, qıçın da. Dur!

Ayılıf ki, qolu da yerindədi, qıçı da. Deyir:

– Ağa, mən oğlumu da sənnən isdiyirəm.

Bir də bı yuxuya gedir. Ayılır kı, oğlu da yanında. Səhərdən camahat tökülür gəlir ki, ülüzədə möcüzə olufdu. Hamı yığışıp bı arvadı, uşağı ziyarat eliyir. Başdıyır bırda bına bir ev verillər. Bı ziyaratgahı süpürür, təmizdiyir. Bırda ülüzədə pişən yeməhdən öyün eliyir, yeyir, bırda yaşıyıllar. Oğlu yekəlir, məytəbə gedir.

İndi sizə kimnən deyim, patşahdan. Bi gün bı gedir dəlləyə başın qırxdırırmış. Baxır ki, sakqal ta ağarır. Deyir:

– Vəzir, ta sakqal ağarır. Gedəh bir ülüzəni də, Karbalanı da ziyarat eliyax, qayıdax gəlax. Hazırraşın, filan ayın neçəsində cuma axşamı düşəciyih yola.

Bı Allah nəhlət eləmiş deyir:

– Mən də siznən gedirəm.

Elə hörmətdənip ki, patşahın yanında hərrənir. Vəzir, vəkil, bı Allah nəhlət eləmiş, bir də patşah düşüllər yola. Gəlip çıxıllar Kalbaya. Bılar ziyarat eliyillər, qurban kəsillər, paylıyıllar eliyillər. Onnarı sora bı patşah görür kü, bi uşax gedir məhtəbə. Bının elə uşağa qanı qaynıyır. İsdiyir bını özünə götürə. Bı uşağa deyir:

– Bala, sən kimin oğlusan?

Deyir:

– Atam yoxdu.

– Bə kimin var?

– Anam var.

Deyir:

– Anana denən, bizi qəbul eliyə, biz onnan bi söhbət eliyax.

Qız bıra gələnnən bı patşahı da tanıyır, atasın da. Amma bılar bı qızı tanımıllar.

Deyir:

– Bəli, eliyərəm.

Qayıdır patşah pul verir oğluna. Deyir:

– Get anana de, bazarrıx eləsin.

Bı gedir bazarrığ eliyir, xörəh bişirir.

Onnan sora bınnar gəlillər bı uşaxgilin evinə. Bı qadın bi pərdə çəkir. Pərdənin arxasında oturur. Bınnarın üçü də qabax tərəfdə. Qız ordan başdıyır. Qiblə-aləm sağ olsun, əvvəlinnən başdıyır. O necə ki, başına işdər gəlmişdi, danışa-danışa gətirir çıxardır axıra. Bı danışdıxca bı deyir:

– Ay qız, onun axırı nə oldu?

Deyir:

– Amma qoymayın heş kim çölə çıxsın.

Onnan sora deyir:

– Qiblə-aləm sağ olsun, o ku, uşağın başın kəsmişdi. O Şəmil-Gühüt da gəldi irəml atdı ki, dedi: "Bını verin, mən aparım öldürüm". Onnan sora o Şəmil-Gühut qıza dedi ki, gərəh sən gedəsən mənə. O dedi ki, müsəlmannarın qanunun qəbul eləmişəm, mən gedən dəyiləm. Onun üsdə qolumu kəsdi, qıçımı kəsdi. Həmən o qadını da bir karvan gəlirdi ziyarata. Karvana yalvardı, onu götdü gəldi ziyarata. Orda qoydular ülüzənin içinə. Ulüzədə möcüzə oldu. Onun qolu da, qıçı da sağaldı, uşağı da sağaldı. Qiblə-aləm sağ olsun,

bı, sənin oğlundu. Mən sənin ayilənəm. Bizim başımıza oyun gətirən bı Allah nəhlət eləmiş Şəmil-Gühutdu.

Şəmil-Gühutu bi dəli qatırın quyruğuna bağlıyıllar, buraxıllar. Bının tikəsi ələ gəlmir. Patşah yenə bir qurban kəsir, nəzir-niyaz paylıyır. Genə öz oğlunu, öz ayləsini götürür, gəlir. Başdıyıllar yaşamağa. Sağ olun, çox sağ olun (S. 15).

## 12. GÜLMƏZ PADŞAHIN NAĞILI

Bi dənə patşah olur. Patşahın iki dənə oğlu olur. Bı oğlannar çıxır kəndin içində camahatın uşaxlarına çox nairahatdıx yaradıllar, uşaxları döyüllər, eliyillər. Camahat bı uşaxlardan çox narazı olullar. Patşahın da adı Gülməz imiş. Camahat deyir, Gülməzin oğlannarı bizi döyür, eliyir.

Bı oğlannar gəlillər atalarının yanına, deyillər:

– Ata, sənin adın niyə Gülməzdi?

Deyir:

– Bala, gedin gəlin şərtimiz var, onnan sora açıxlayaram.

Onnan sora bı patşah böyüy oğluna bi şillə vırır, yıxılır yerə. Ortancıl oğluna bi şillə vurur, yıxılır yerə. Ən kiçiy oğluna da vırır, amma o yıxılmır, dayanır.

Deyir:

– Həə, oğullarım, belə.

Bı oğlannarı deyir:

– Ata, sənə niyə Gülməz deyillər?

Deyir:

– Bala, sizə qırx gün vax verirəm. Gedərsiniz, manıa bi dənə nar gətirərsiniz, insan başı yekəlihdə olsun.

Bı üçü də özdərinə çörəhdən-zatdan götürüllər, düşüllər yola. Gəlillər yolun kənarına. Görüllər yazılıpdı: "Bu yol uzax yoldu". O birinə yazılıpdı ki, çətin yoldu, amma təhlükəsiz yoldu. Birinə yazılıpdı ki, bı yaxın yoldu, amma çox təhlükəli yoldu. Böyüy oğul deyir:

– Bı uzax yolnan gedirəm.

Ortancıl deyir:

– Mən bı təhlükəsiz yolnan gedirəm.

Kiçiy oğlan deyir:

– Mən təhlükəli yolnan gedəjəm.

Deyillər:

– Etmə, eləmə.

Deyir:

– Yox, mən bı yolnan gedəjəm.

Bı, belə təhlükəli yolnan gedir. Görür kü, qabaxda bi dənə qoşun var. Astafurullah! Bı nə işdi, bı nə xatadı, mən düşdüm. Deyir, bir az irəliliyir, görür kü, bı qoşun daş olupdu, daşa dönüpdü. Bına baxır, keçir. Ancax bıların irəngi qara irəngindəydi, bı daşdarın.

Sora keşdi, gördü, bir dəsdə də qoşun var. İrəli getdi ki, ə, bı da daşdı. Bı dağ irəngindədi. Bir az getdi, getdi, belə baxdı, gördü, genə qoşun var. Baxır ki, bınnar daşa dönüb. Bı da qırmızı irəngindədi.

Bir belə yol gedənnən sora gəldi çıxdı bi qalaçanın yanına. Hərrəndi bı qalaçanın yanına. Hərrəndi bı qalaçanın dört tərəfinə, yol tapmadı içəri girə. Hərrəndi, gördü, bir belə kuluf var, oraynan su aparıllar, su axır. Qılıncın ucuynan bını genəltdi, genəltdi, birtəhər düşüp keşdi içəri. İçəri keçəndə iki ağaş dilə gəldi. Biri dedi ki, vurun, qoymayın, bı bəni-adam

hardan gəlip bıra? O biri də dedi ki, dəyməyin, bı yəəsinin uşağıdı. Bı hərrəndi, qalaçanın içərisində ayınnan-oyunnan tapdı, yedi. Baxdı, gördü bırda bir nar var, adamın başı boyda, bir də bir gül var. O narın birin üzdü yedi, gülü də iylədi. Gülü də iyləyən adam çox yaşıyır.

Bırda üsdəki mərtəbədən bir qadın dilləndi, dedi:

– Ay bala, sən bəni-adəmsən, sən hardan gəlip çıxmısan bıra? Sən mənim yaman xoşuma gəlirsən.

Dedi:

– Ay xala, bə mən nətəhər eliyim çıxım yanına?

Dedi:

– Oğul, bıra çox çətin məsələdi. Saa şərait yaradaram.

İp salladı. Bı oğlana köməhliy elədi, çıxartdı yuxarı mərtəbəyə. Dedi:

– Bı, devlərin evidi. Qara devin evidi. Bı gəlsə, səni parça-parça eliyəjəh.

Bir neçə günnən sora nərilti, gurultu gəldi. Qara dev gəldi:

– Bırdan bəni-adəm iysi gəlir, – dedi.

Bı qadın dedi:

– Ə, bırda harda gəzir bəni-adəm?

Arvat bı oğlanı gizdətdi. Dedi ki, yaxşı, bə sən gedirsən, bəs mən bırda təh qalıram. Sən mənə gərəh canının evini maa deyəsən, mən onnan oynuyam, eliyəm, arvat dedi.

Dev dedi:

– Mənim canımın evi bax o ağaşdadı.

Bı dev gəldi, gördü, bı arvat ağaca zinyət verib, bəziyip, eliyipdi. Dedi:

– Ə, gij, mənim canım orda dəyil.

Dedi:

– Mənim canım orda bir qutu var, onun içində bir dənə quş var. Quşu vırırsan, quşun içinnən uş dənə cüjə çıxır. Mənim canım o cüjələrdədi. Biri qırmızı irəhdədi, biri ağ irəhdədi, biri qara irəhdə. Qırmızı mənim qanımdı, ağ irəh canımdı, qara da qüvvəmdi.

Dev bınnarı deyip getdi. Bı gedənnən sora bı oğlan götdü, bı qutunu dağıtdı. Bırdan quş çıxdı. Quşa birin vırdı, bınnan üş dənə cüjə çıxdı. Dev çığırdı, nərilti-gurultu, filan. Bı oğlan qırmızının başın üzdü, qaranın da başın üzdü, qüvvəsinin də başın üzdü. Qaldı bı ağ. Bının da boğazının yarısın üzdü, ilişih qoydu. Tay dev düşdü canının harayına.

Bı arvat dedi ki, bırda evin badvalında üş dənə qız var. Hərəsi bir patşahın qızıdı. Bı dev gətirip. Dedi:

– Gedəy onnarı da azad eliyəh.

Bınnar getdilər, qızdarı da götüdü, gəldi çıxdı vədə yerinə ki, qardaşdarı ordadı. Böyüh qızı bi qardaşına, onnan kiçiyi bir qardaşına, lap kiçiyi də özünə götdü. Gəldilər dədələrinin hüzuruna. Yolda bı qardaşdar sözü bir elədilər. Dedilər ki, bı qardaşımız diyəcəh ki, getdim narı da mən gətdim, bı qızdarı gətdim, gülü gətdim. Biz elə eliyəh ki, bı qardaşımızı tələf eliyəh. Bı xəyanata düşdülər. Gəldilər, yolda bir quyu vardı. Dedilər, bıra sallanax, bırdan su çıxardax. Böyüh qardaşı salladılar:

– Ay öldüm, ay filan, ay dad! Məni çəkin.

Bını çıxartdılar. Ortancılı salladılar:

– Ay öldüm, ay partdadım.

Bını da çıxartdılar. Axırda bı kiçiy oğlanı salladılar.

Bı su verdi. Yuxarı çıxanda kəndiri vırdılar, düşdü quyunun içinə. Qızdarı da götdülər, narı da, gülü də götdülər, gətdilər verdilər dədələrinə. Dedi:

– Bəs, qardaşınız hanı?

Dedilər:

– İp qırıldı, düşdü quyuya, çıxarda bilmədıh.

Patşah sonra qızdarı çağırdı. Qızdar dedi:

– Yalan deyillər, əhvalat elə olmuyup. Bınnar qəsdən ipi kəsdilər, düşdü quyuya.

Adam göndərdilər, bını quyudan çıxartdılar, gətdilər ki, bı çox ağır vəziyətdədi. Bını birazca malicə elədilər. Malicə eliyənnən sora dedi:

– Oğul, o dev yeddi qardaşıdı. Onun altısını mən qoşun göndərdim, öldürdüm. Bir dəsdə qoşun göndərdim, o dev elədi daş, o birisin də göndərdim, onu da elədi daş. Orda olan arvat mənim arvadımdı. Sizin ananızdı. Mənim əlimnən alıp apardı. Mən onunçün adımı qoymuşam Gülməz. Mən ta gülə bilməzdim.

Hə, bınnan sora patşah tacını qoyur xırda oğlunun başına. Göndərir o dev olan qalaçıya. Həmən qalaçada oğlan patşahlığ eliyir, ömür sürür, şad yaşıyıllar. Sağ olun, sağlıxnan qalın (S. 15).

## 13. PEYĞƏMBƏRİN VERDİYİ UŞAQ

Bala, peyğəmbər dövründə Peyğəmbər camahata belə möüzə eliyirdi. Bizim dilnən deyəndə iclas eliyirdi. Bir dənə cavan gəlin, həm də yoldaşı – ikisi də gəlmişdi bura. Orda peyğəmbər dedi ki, bir qadının boyuna uşax düşəndə öz yoldaşıynan yatmasa, onnan olan uşaxlardan bir şey çıxar.

Bı gəlin bunu yadında saxladı, boyuna uşax düşəndə bu oğlana yaxınnığ eləmədi. Bir gün mahna elədi, xəsdəyəm. Bir gün elə, bir gün belə. Axırı bir gün bu ayın-oyunun götdü, getdi dədəsi əvinə.

Bu oğlan adam göndərdi ayləsinə:

– Gəl.

Gəlmədi. Bir də adam göndərdi, gəlmədi. Bu, burda öz əvində yaşadı, o da öz əvində. Bir gün xəbər gəldi ki bu oğlana, sənin bir oğlun olup. Dedi:

– Mənim oğlum yoxdu!

Gəlini də aser-kəsir, öldürəcəm, çapacam. Bu gəlir, bunun oğlu olur. Yedijə gün keçənnən sora, yeddisin-zadın tökənnən sora durdu, uşağı bölədi-elədi,[77] aldı qucağına, getdi əvlərinə.

Xəvər gətdilər ki bu oğlana, yoldaşın getdi əvə. Xəncəri götdü ki, gedip onu öldürəjəm. Bu uşağı kimnən doğup. Elə belə gələndə deyir:

– Səni öldürəcəm, köpəh qızı.

Deyir:

– Öldürmə, deyim.

Fılan vaxdı məçidə gələndə peyğəmbər belə dedi, mən də onu yadımda saxladım. Sanıa yaxunnuğ eləmədim. Ona görə bu sənin halal uşaandı, mən də sənin halal ayilənəm.

Peyğəmbər deyəndə bunun qolları boşaldı. Bı bir şey eləmədi. Başdadılar bir yerdə yaşamağa.

Bu oğlan çox şuurrü uşağ oldu. Bir gün – o vaxdı camahat əkin əkirdi – cütünən, kotannan əkin əkirdilər – bu dedi:

---

[77] bölədi – bələdi

– Ay Allah, – bu uşax da xırdaydı, gərəh xodax ola ki, cütü sürəh.

Biri boyunduruxda otururdu, biri də macı[78] tutup sürürdü. Yer əkirdilər. Dedi ki, mən bu xodağı hardan alım? Gədə dedi ki, məni apar, mən xodaxlıyım. Gədə də uşaxdı.

– Ə, sən nətəər xodaxlıyaassan?

Dedi:

– Bir dənə səbət bağla boyunduruğa, məni qoy onun içinə. Mən öküzdəri sürəjəm.

Belə elədilər, onu apardılar. Bu, elə sürür kü, heç olmuyan kimi. Elə kin, işdən gələndə bunun anası yumurta boyuyur. Alma, qanfetdən-zaddan uşaa verir, sevindirir.

Bir gün cüt əkirdilər. Baxdı kı, bir dənə çapar atdı gedir. Dedi kin, o yuxu görüpdü, gedir qazıya yuxusun yozdura. Ancax qazı onun yuxusun əlinnən alajax.

Dədəsi gəldi:

– Sənin nə işaa qalıp?

Bunu atdı eşitdi. Gəldi, dedi:

– Oğul, yuxu görmüşəm, düz deyirsən.

Dedi:

– Sən görmüsən ki, qapında bir quru ağaş bar gətirip-di. Qazı onu sənin əlinnən alajax. Deyəjəh, mənim qapımda görmüsən. Denən, öz qapımda görmüsən. O döölətdi.

Bu, atı sürdü, getdi qazının yanına. Dedi:

– Qazı, qazı ağa, bir yuxu görmüşəm.

Dedi:

– Nə görmüsən?

Dedi:

---

[78] maç – kotanın əl tutan yeri

– Gejə yatmışdım, gördüm, qapımızda bir quru ağaş var. Hər budağı bir cür bar gətirip.

Dedi:

– Ə, onu mənim qapımda görmüsən?

Dedi:

– Yox, ə, öz qapımda görmüşəm.

O dedi, bu dedi. Axırda dedi:

– Cütcünün yanında bir uşax varıydı.

O da dedi:

– Sən nə danışırsan, öz qapımda görmüşəm.

Burdan çıxdı getdi. Qazı şüpələndi bu uşaxdan. Bunun da bir qulu varıdı, həmişə alladırdı kı, qızımı verəcəm saa. Qulu müftə işdədirdi, qızı vermirdi bu qazı. Dedi ki, bəlkə, gedax o uşağı gətirəh, tələf eliyəh. O, axırda bizim başımıza bir əngəl gətirəjəh.

Kişi elə belə gəlir, uşax uzaxdan dədəsinə dedi:

– Qazı məni sənin əlinnən alajax. Ama bir az pul al. Qorxma, maa bir şey eliyə bilməz.

– Ə, niyə səni mənim əlimnən alır? Mənim uşağımı niyə qazı alsın?

Qazı gəlir, deyir:

– A kişi, sən bu məhtəp tələbəsin hara aparmısan, sən niyə bu məhtəp tələbəsinə cüt əhdirirsən?

– Ə, mənim uşağımdı, saa nə? – dedi.

Qazı da kişiyə bir-iki ağaş vırdı. Mən bunu aparram oxudam.

– Ə kişi, mənim hodağım yoxdu, fılan, bəhmən.

– Ged, özunıa bir hodax tut.

Dedi:

– Pulum yoxdu.

Qazı bir az buna pul verdi. Bu uşağı götdü, getdi. Uşağı götdü getdi. Gəldi əvə kin, anası çıxdı qabağa, bə uşağım gəlip. Gördü, uşax yoxdu. Kişi də peşmandı.

– Uşax hanı?

Dedi:

– Qazı aldı, apardı.

Arvat tərpəndi. Qazı arvada da uşağı vermədi. Ona da bir-iki bihörmət söz dedi. Arvat qoydu getdi.

Bı qazı bu qula dedi kin, bu, bizim başımıza oyun açajax. Apar bını kəfşanda öldü, qannı köynəyin gəti maa. Bu, uşağı qatdı qabağına, apardı öldüməyə. Dedi:

– Qul, məni aparısan öldümağa, məni öldümə, qazı saa qız verən dəyil. Ama məni öldüməsən, mən saa köməy eliyərəm.

– Ə, – dedi, – sən nə bildin, mən səni aparram öldümağa?

Dedi:

– Bilirəm. Bu dağa da məni çıxartma.

Dedi:

– Köynəyıı çıxart.

Köynəyin çıxartdı, quşdan-zaddan vırdı, bıladı qanına, gətdi verdi qazıya. Bu da keşdi getdi. Bu uşax gördü kü, bu yuxusun yozduğu adamda bir dövlət, var əmələ gəlipdi ki, elədi ki, yemağ-işmax başa gələn dəyil. Bunu görən kimi tanıdı. Dedi:

– Oğul, gəl.

Başdadı bu oğlan da yedi-işdi, yatdı. Yatannan sora saa kimnən deyim, şahdan. Şah bir gün getdi dəryanın qırağına, vəzirnən getdi. Tor atdılar. Bir tor atdılar, boşa

keşdi. İkinci torda bir qızıl alabalıx çıxdı. Üçüncü torda bir balıx çıxdı. Bunu saldılar qrapinkiyə, suyun içinə. Birdən dedi ki, aparax, hovuza salax bu balıxları. Qoy xanımlar bu balıxlara baxsın. Birdən patşah dedi:

– Bunun erkəh-dişiliyin bilmədih, xanımlar nəmərhəm üzünə baxar.

Balığın biri güldü, qaltdı düşdü gənə suya – qrafınkənin içinə düşdü. Dedi:

– Vəzir, balıx niyə güldü?

Dedi:

– Mən nə bilim, niyə güldü.

Dedi:

– Yox, tap!

Dedi:

– Qazın var, qoy o tapsın.

Gəldi, qəzəbnən çıxdı taxta, dedi:

– Qazını çağırın, gəlsin.

Dedi:

– Qazı, əhvalat belə bir şey oldu. Toru belə atdıx, belə elədih. Balıx belə güldü. Dedi, bunu tap.

Dedi:

– Mən nə bilim, su heyvanıdı.

Dedi:

– Yox ey, tap. Qırx gün saa vaxt verrəm. Tapdın, tapdın, tapbadın, boynunu vurduracam.

Qazı kor-peşman gəldi əvə. Çox fikirrəşənnən sora dedi ki, keşkəm mən heç o uşağı öldürməyəydim.

Bu qula dedi:

– O uşağı öldüdün?

Dedi:

– Yaraladım, basdım bir yarğan varıdı, ora. Heş bilmədim öldü, yoxsa qaldı.

Dedi:

– Get gör, bəlkə, qaldı. Başımıza bir qaza gəlipdi.

Bu qul aşdı ki, bu uşax orda yeyip kökəlip, əməlləşipdi. Belə görəndə dedi:

– Qul, gəldin?

Dedi:

– Gəldim.

– Saa dedim, saa lazım olacam, gə gedəh.

– Ə, qorxuram, səni öldürə.

Dedi:

– Qorxma, məni day öldürə bilməz.

Burdan gəldilər çıxdılar qazının hüzuruna. Qazı yeməyişməh hazırratdı, yedilər, işdilər.

Qazı dedi:

– Oğul, belə-belə bir məsəl var, onu deyə bilərsən?

Dedi:

– Yox, sən məni apar ora, denən ki, belə şeyləri mənim tələbəm bilər. Tələbəmnən soruşun. Ona mən o məsələni deyəjəm. Saa da yaxşı olajax.

Qazı səər bını götdü apardı patçahlığa.

Patşah dedi:

– Qazı, tapdın?

Dedi:

– Ə, o nə sözdü, nə şeydi? Mənim tələbəmnən onu soruş.

– Oğul, bunu bilirsən?

Dedi:

– Bilirəm.

Dedi:

– Qıbla-aləm sağ olsun, vəzirnən getmisən dənizin qırağına. Birinci tor atmısan, boşa keçip. İkinci tor atmısan, qızıl, ala balıx çıxıf. Üçüncü torda bir ayrı balıx çıxıf. Salmısan suya, demisən ki, aparax bını xanımlar baxsın. Amma orda demisən ki, bunun erkəh-dişiliyin bilmədih. Qadınnar naməhrəm üzünə baxar. Bu balıx gülüfdü.

Dedi:

– Mən onu qazıya danışdım, açın.

Dedi:

– Gə munu mənnən soruşma. Bu əngəlli şeydi.

Dedi:

– Yox, de.

Bala, bir yuxu da patşah görmüşdü. Orası yadımnan çıxdı. Patşah yatdı, yuxusunda gördü kü, bir atı var, sürür dağa, qayıdır. Sürür dağa, qayıdır. Bir də bını görmüşdü.

Dedi:

– Qıbla-aləm sağ olsun, gə bunu da mənnən soruşma.

Dedi:

– Yox, oğul, de.

Dedi:

– Maa bir kağız yaz ver ki, sənnən mənim işim yoxdu.

Bir kağız da yazır, verir. Dedi:

– Qıbla-aləm sağ olsun, – bunun da qırx arvadı varımış – sənin arvatdarıın içində bir-ikisi var. Balıx gülür kü, biz naməhrəmiy, o naməhrəm döyül, belə-belə.

Şah gəlip arvatdarı yığır evin birinə.

Deyir:

– Paltarrarı soyun, vır qoltuğaa, gə yanımnan keş, get o biri evə. Belə-belə eliyir. Bir-bir soyundurur, keçirir, soyundurur, keçirir. Belə-belə otuz dokquzu soyunur, qalır biri.

– Mənim canım yaradı, fılan, bəsməkan. Axşam gələjəhsən, onda baxarsan.

Deyir:

– Yox, soyun.

Soyundurur ku, bu kişidi. Arvatdarı saxlıyır, heş bunun xəbəri yoxdu. Arvatdarının qırxının da boynun vırdırır.

– O yuxunun biri qaldı. Bə o nədi?

Dedi:

– Sən yuxuda yatmısan ki, bir atım var, sürürsən dağa, getmir, qayıdır. Deyir, o da bu qazıdı. İldə bir dəfə bu qara qulu alladır, işdədir-işdədir, payız qızı verəcəm. Vermir. Genə deyir, işdə, yazda verəcəm.

Şah qazının da boynun vırdırır, qızı da verir qara qula.

Deyir:

– Oğul, get atanı, ananı da gətir.

Özün də götürür vəzir. Yanında işdədir. Sağ olun, sağlıxnan qalın (S. 15).

## 14. PADŞAH QIZININ NAĞILI

Günnərin bir günü bir patşah olur. Patşahın bir gözəl qızı olur. Gözəl qızı olur, ancax bı yaman bir xəsdəlih tapır. Nə qəddər həkim, təbib çağırıllar, bının dərdinə çarə olmur. Qızın bədəni bütün pis qoxu verir. Saray əhli çox narazı olur. Patşaha şikaət eliyillər. Sən bı qızdan ötəri camahatı qırmağ isdiyirsən.

Bir gün bı patşah loğmanı çağırır, deyir ki, bax gör bının dərdi sağalar, sağalmaz?

– Sağalmaz.

Bırdan, deyir, bı qızı götürüp şəhərdən yüz kilometr kənarda bir dənə zağa var, aparın qoyun o zağaya. Yanına su qoyun, yeməh qoyun. Qayıdın gəlin, havağa kimi qalır qalsın. Havax da ölür ölsün.

Qızı götürüllər, aparıllar qoyullar zağıya. Yanına su qoyullar, yeməh qoyullar. Özdəri qayıdıf qaçıf gedillər. Gedənnən sora bı qız bırda qalır zarıya-zarıya.

Bir çoban qoyun otarırdı. O qoyunu otara-otara gəldi bıra. Dedi, gedim görüm, zağada nə var? Gəlir ki, bı zağada bir dənə qız zarıyır. Ölüm halındadı. Deyir, Allah, sənə qurban olum, görəsən, bu nə günah eliyip. Niyə gətirip atıplar bıra. Bı nə işdi?

Qız deyir ki, qardaş, səni and verirəm Allaha, bir qara qoyun südü sağ ver man$_{ı}$a.

Bu öz qabın irgənir, vermir, bir dənə quru insan kəlləsi tapır. Bir qara qoyun südünü sağır, qoyur bırda, özü gedir. Gedənnən sora bı qayanın cırığınnan bir dənə gürzə ilanı çıxır. Gəlir, bı südü içir. Qayıdır genə qusur bı qabın içinə. Göpbəgöy zəhər olur. Zəhər olannan sora qız deyir, əşi, iras ki, məni atadan, anadan sürgün eliyiflər bı xaraba yerə, elə bı südü içim ölüm. Ölüm bı zulumnan yaxşıdı. Bını içir. İçənnən sora bını yuxu tutur. Bı yatır, gejə tərriyir. Səhər durur. Bı ayılır ki, bı olup anadandoğma. Qalxır, görür, hərəkəti var. Ortada çörəh vardı, bi tikə qırır, çörəh yeyir. Yeyənnən sora yavaş-yavaş sürünə-sürünə bı qız gəlir çıxır yola, el yoluna. Yola çatanda karvan gedirmiş. Karvan gedəndə bı tacir baxır, deyir:

– Görəsən, ə, bı qızı nəyə görə belə atıflar bıra?

Qız deyir:

– Qardaş, sizi and verirəm Allaha, məni bırda qoymayın. Mən filan patşahın qızıyam. Məni aparın, sizə çox ənamlar verər.

Bunu götürüp qoyullar karvanda dəvənin üsdünə. Bını gətirillər o şəhərə çatanda deyir:

– Bizim şəhərimiz bıradı. Saxlıyın karvanı.

Saxlıyıllar karvanı. Şəhərin kanarında çadır qurullar. Orda oturullar. Qız deyir ki, get mənim atamnan muşduluğ alın. Gəlip patşahların elçi daşı varıymış, onun üsdündə oturullar. Deyillər:

– Bir tacir sizi görməy isdiyir.

– Qoyun gəlsin.

– Salam əleykim.

– Əleyküm salam.

– Nə buyurursan?

– Qiblə-aləm sağ olsun, sənin xəsdə qızın olup?

– Olupdu.

– O qızın yaxşıdı. Onu mən gətimişəm.

– Hardadı?

– Filan yerdədi.

Adam göndərir, qızı gətirillər. Patşah loğmanı çağırır deyir:

– Sənin boynunu vuracam ki, o xəsdə sağalan xəsdəymiş. Bə niyə sağalıp?

Deyir:

– Bəs mən hardan alaydım yeddi qarın doğmuş qara qoyunun südün, yeddi il bınnan qabax ölən insanın kəllə-

sin, gürzə ilanın zəhərin onu malicə eliyəydim. İnsan kəlləsin də tapbax olardı, qoyun südün də tapbax olardı, gürzə ilanının zəhərin tapbax olmazdı.

Deyir:

– Qızım, nətəhər oldu?

Deyir:

– Siz məni aparıp ora qoyannan sora bir çoban qoyunnarın otara-otara gəldi ora. Mən ona yalvardım, qardaş, manıa bir qab süd sağ ver. Bir qara qoyun tutdu. Orda bir kəllə vardı, insan kəlləsi. Sağdı onun içinə. Onu qoydu yanıma. İsdiyirdim bını içəm, bir də gördüm, gürzə ilanı daşın cırığınnan çıxdı. Gəldi südü işdi. Qayıtdı qusdu ora. Göpbəgöy. Mən də fikirrəşdim ki, day mənim atam, anam məni didərgin saldı. Gəlip düşmüşəm bı xaraba yerə. Mən də işdim, belə sağlam oldum. Bınnan yaxşı oldum.

Patşah o tacirə də böyüy ənam verir. Loğmana da ənam verir ki, sağ ol, sən də yaxşı həkimsən.

Sağ olun, var olun (S. 15).

## 15. İLAN OĞLAN MİRZƏBƏY VƏ ŞAH QIZININ NAĞILI

Bir ağsakqal kişiydi, gedirdi camahatın malın yığıp naxırçılığ eliyirdi. Səhər malları aparıp axşam gətirərdi. Bunun hakqıynan ayləsini saxlıyardı. Bu kişi, beləlihnən, bir nə qədər dolandı. Genə səhər tezdən bu kişi camahatın malın yığdı apardı çölə. Getdi, bir örüşə çatdı. Burda otarırdı. Nolacax, bir də görür, kolun dibində bir yumurta. Bu naxırçı getdi bu yumurtanı götdü, sunkasına qoydu. Dedi, aparım evə, arvat bişirər, çörəynən yavannığ eliyərəm. Ax-

şam apardı camahatın malın verdi, evə getdi. Evə gedənnən sora bu kişi yumurtanı çıxartdı verdi arvada, dedi:

– Arvat, munu sabax bişirərsən, çörəyimin içinə qoyarsan, yavannığ eliyərih.

Dedi:

– Yaxşı.

Arvat bu yumurtanı götdü. Evin başında taxca varıdı, qoydu ora. Sora bunnar yedilər, işdilər, yatışdılar. Sabah açıldı. Sabah hammınızın üsdünə xeyirrihnən açılsın. Bu kişi sunkasını götdü, getdi mala. Malları çöldə otarırdı. Günorta oldu. Bu günorta surfasını aşdı qabağına qoydu ku, nahar eləsin. Aşdı, gördü çörəhdən başqa hessat yoxdu. Nə yumurta var, nə də bir şey var. Dedi:

– Görən yadınnan çıxdı bu yumurtuyu qoymadı çörəyin arasına?

Kişi adəti üzrə camahatın malın apardı payladı, gəldi evə. Dedi:

– Arvat, mən saa dedim ki, bu yumurtanı qoy sunkama çöldə yavannığ eliyim.

Genə yatdılar. Sabah açıldı. Sabah ertə durdu. Sunkasını götdü getdi mala. Bu minvalla üş gün arvat yumurtanı kişinin sunkasına qoya bilmədi. Üçüncü gün bu kişi çöldə surfasını aşdı kı, yeyə. Gördü yumurtuyu arvat yenə də qoymuyuf. Dedi:

– Yaxşı, a kopahqızı, yaxşı, axşam gedərəm.

Nolacax, axşam oldu. Kişi camahatın malını, qoyununu qaytardı geri. Gəldi evə. Burda arvadına təpindi. Dedi:

– A kopahqızı, saa mən dedim, yumurtanı qoy sunkama.

Arvat dedi:

– Kişi, qoy yumurtanın əhvalatın saa nağıl eliyim.

Kişi otudu. Arvat başdadı. Mən camahatdan yun gətirrəm, daraxda darıyıram, cəhrə hərriyirəm. Hakqını verir, mən də buğda allam. İndi yumurta haqq-hesabını saa söylüyüm, sən də eşitginən. Günortaydı, oturmuşdum. Birdən gördüm, həmin yumurtadan bir qapı açıldı. İçinnən bir dənə böyüy ilan çıxdı. İlan gəldi, mənim yanımda otdu. Outran zamanı bu Allah tərəfi dil açıp maa dedi:

– Ana.

Bu vaxt mən özümnən getdim. Bir şeydən xəbərim olmadı. Bu oğlan bir dənə ilan olup maa ana deyən zamanı mən özümnən getmişəm. Su gətirip mənim üsdümə töküp məni dirildip dedi:

– Ana, sən niyə belə elədin? Mən ki adam yeyən döyüləm ha.

Sora arvat qorxa-qorxa dedi:

– Nədi, bala?

– Ana, nə var, nə yox? Atam gələndə deyərsən ki, gedər patşahın qızın maa alar.

Belə deyəndə arvat qorxudan cavap vermədi. Sora indi də oğlan bir ilana dönüp yumurtuya girdi, yumurtanın qapısı bağlandı, oldu yumurta. Bu belə qaldı, a kişi!

Kişi dedi:

– Ay arvat, dəli döyülsən ha. Bizim oğlumuz, qızımız yoxdu. Mən sabah yalannan nətəhər şahın yanına gedim, deyim, sən qızı ver mənim oğluma.

Dedi:

– A kişi, əlaş yoxdu. Yalan-gerçəh get.

Nolacax, bu kişi sabax heyvannarı götürməmiş patşahın elçi daşının üsdündə oturdu. O sahat şaha xəbər verdilər, elçi daşının üsdündə bir adam oturup. Şah dedi:

– Gedin çağırın, görəh nə deyir?

Kişi patşahın qapısınnan girəndə dedilər:

– Sən nə deyirsən? Tez ol de.

Dedi:

–Yox. Mən pətşahın özünü görməy isdiyirəm.

Kişi icazə alıp içəri girdi. Salam, əleykəssalamnan sora şah dedi:

– Ay kişi, xoş gəlmisən, səfa gətirmisən. Nə buyurursan?

Dedi:

– Patşah sağ olsun, xayiş eliyirəm, incimiyəsən. Mənim oğlum evlənməh isdiyir. Sənin qızıı almağ isdiyir.

Patşah deyir:

– Biz bilirdih munun oğlu yoxdu.

Patşahın arvadı da yanındaydı, bu sözü eşitdi. Yavaçca kişinin qulağına dedi:

– Kasıp adamdı, sən Allah, xətrinə dəymə. Buna elə cavap qaytar ki, onun qəlbi qırılmasın. Qonağın qəlbini qırmax çox günahdı.

Bu gəldi, dedi:

– A kişi, gedərsən qırx dəvə yükü qızıl-gümüş gətirərsən, qızımı verərəm, apararsan.

Bu kişi "sağ ol" deyip yollandı evinə, sunkasını götdü, camahatın malını yığıp, götürüp getdi. Çöldə otarırdı. Nolacağ, axşama kimi camahatın malın otardı, gəldi gənə payladı. Evinə gəldi.

Günorta zamanı həmin yumurtadan yenə bir qapı açıldı. Gəldi anasının yanına. Dedi:

– Ay ana, dedin atama mən dediyimi?

Deyir:

– A bala, dedim.

Bu gənə ilan oldu, getdi yumurtuya girdi, yatdı orda. Nolaceydi, kişi axşam gəldi.

– Arvat, noldu?

Dedi:

– Yenə həmənki kimi oldu.

Kişi dedi:

– Sabah açılacax. Mən gənə mala gedirəm. Denən ki, şah deyir ki, qırx dəvə yükü qızıl gətir, mən qızımı sənin oğlaa verərəm. Belə dedi.

Dedi:

– Yaxşı.

Kişi genə camahatın malın götüdü apardı. Genə axşam qaytardı. Günorta yenə də həmən ilan bir oğlan oldu. Yun darıyan arvadın yanında gəldi otudu. Ana – dedi, – atama nə dedin? Anası yenə şahın dedihlərini oğlana dedi.

Dedi:

– Yaxşı. Atama deyərsən ki, səhər tezdən hamısı hazırdı. Aparsın versin.

Sabah açıldı, sabah üzuza xeyirrihnən açılsın. Bu kişi eşiyə çıxdı, gördü kün, qırx dənə dəvədi yühlü, hazırca durup. Getdi qabaxdakı dəvənin ciloyunnan tutdu. Çəkə-çəkə gedip həmin elçi daşının yanında duranda pəncərədən gördülər ki, bu naxırçı kişi qırx dənə dəvəsi hər şeynən hazırdı.

Patşah dedi:

– A kişi, indi bu sözümüz sözdü. İndi gedərsən, bu dönüş gənə bu lal-cəvahirdən üş dəvə gətirərsən, qızımızın toyunu eliyəriy. Amma qabaxkı dəvə xoruz kimi qakqıldıya-qakqıldıya, bannıya-bannıya, ortadakı dəvə də toyux kimi qırtdıya-qırtdıya, axırıncı dəvə cücəli toyux kimi gəlsə, qızımı verərəm sənə, aparar gedərsən.

Nolaceydi, bu kişi gənə kor-peşman qayıtdı gəldi. Arvadına dedi:

– Mənim çörəyimi ver, mən getdim. O ilan oğlan gəlsə, belə de.

Bu yenə mal-qaranı yığdı, örüşə apardı. Günorta oldu. Bu arvat cəhrə əyirdiyi yerdə yumurtadan qapı açıldı, yenə ilan gəldi, oğlan oldu. Dedi:

– Ana, atama nə dedilər?

Bu arvat şahın dedihlərinin hamısını oğlana dedi. Sora gənə bu ilan oldu girdi yumurtanın içinə. Axşam naxırçı camahatın malını payladı kutardı, gənə girdi evinə. Otdu. Dedi:

– Arvat, böyün nooldu?

Dedi:

– Yenə həmənki kimi gəldi, xəvər aldı. Mən dedim. O da dedi ki, ana, atama deyərsən sabah hazırdı. Sabah götürər, gedər alar, gələr.

Nolaceydi, sabah bu kişi tezdən durdu. Sunkasını götürməmişdən necə patşah demişdi elə də hər şey hazırdı. Dəvənin ciloyunnan tutdu, çəkə-çəkə apardı patşaha verdi. Nolacax, bu dönüş patşahın sözü qalmadı. Dedi:

– Yaxşı, bə toyumuzu nə vaxt eliyəh?

Dedi:

– Filan vədə.

Bu, qırx vədə yenə gəldi, anasınnan soruşdu:

– Ana, nə oldu?

Anası dedi:

– Bala, patşah toyu filan günə təyin etdi.

– Zərər yoxdu.

Nolacax, nağıl dili yüyürəh olar. Qırx gün gəldi keşdi. Qırxıncı gün kişi getdi, elçi daşının üsdündə otdu. Dedi:

– Toyumuz toydu.

Burdan patşah başdadı toyu elədi. Dedi:

– Kişinin sözün day yerə salmıyax.

Bu qızı kişi zurnaynan, toynan apardı evinə qoydu. Nolacax, qarvatın böyründə gərdəh asıldı. Gəlin girdi, munun arxasında otdu. Gəlin bir gün belə, iki gün belə, üş gün belə. Həə, nolacax, gördü kü, ə, bunun yanına nə oğlan gəlir, nə bir adam gəlir. Heş kəs yoxdu. Elə bir kişidi, bir də arvat. Kişi camahatın malın yığdı getdi, arvat da yun darıyır.

Bir gün gənə günorta vədəsiydi. Gəlin gərdəyin dalında otururdu. Bir də baxdı ki, taxçada bir yumurtadan qapı açıldı. Bir dənə böyüh şahmar ilan oannan gəldi. Gərdəyin yanına çatan zamanı bir dənə oğlan oldu. Bu qız bu ilanı görəndə çox qorxdu. Gərdəyi araladı, qızın yanında otdu. Dedi:

– Sənin yoldaşın mənəm.

Nolacax, munnan güldü, danışdı, oynadı. Bir azdan oğlan ilan oldu, getdi yumurtasına girdi. Gəlin qaldı burda. Gənə bir gün belə, üş gün belə, atası kasıpçılığın eliyirdi. Gəlin dözmədi. Dedi:

– Mən bu işi belə qoymuyacam.

Gün ortuya çatanda yenə ilan yumurtadan çıxdı. Gəlinin yanına çatanda oğlana çevrildi. Gəlinnən danışdı. Nolacax, gəlin dedi:

– Mən patşah qızıyam. Mən ərə gəlmişəm. Mən gəlmişəm, insana gəlmişəm. Mən gəlmişəm oğlan qucağında outram, mən gəlməmişəm ilan qucağında oturam. Maa bu işi agah elə.

Dedi:

– Aaz, neynirsən, nə isdiyirsən hazır olacax. Paltar deyirsən, qızıl-gümüş deyirsən, dolanma deyirsən, hamısı hazırdı.

Dedi:

– Yox. Ya məni buraxacan, ya qalacan burda.

Dedi:

– Yaxşı, sən deyəni eliyərih.

Bir gün gəlin xamır qatmışdı, təndir qalıyırdı. Qalıyannan sora nolacax təndir yaxşı yanırdı. Bu oğlan bazara getdi, dedi:

– Mən gələnə qədər çörəhləri bişir.

Qız dedi:

– Bura bax, indi mən sənin gözüü qabağında bu yumurta qabığın yandıracam. Bir də sən ora girmiyəcən.

Dedi:

– A qız, yandırma.

Dedi:

– Allah haqqı, yer-göy haqqı, yandıracam. Mən gəlmişəm oğlannan yaşıyam, mən gəlməmişəm ilannan yaşıyam.

Burda bu qız höcətdəşdi. Getdi yumurtanı gətirip təndirə salan zamanı oğlan dedi:

– A qız, bir dəyqa qulağ as, əlinə dəmirdən əsa alacan, əyağaa dəmirdən çarıx geyinəcən, o qədər məni gəzəcən ki, o çarıx yırtılıp ayağın çöldə qalacax. Əsan yeyilip bir qarış qalacax, amma sən məni tapbıyacaxsan. A qız, onu yandırma.

Qız deyir:

– Nolur olsun, mən munu yandıracam.

Bu qız höcətdəşdi. Gədiyi yendi. Yumurtanın qabığın atdı yandıdı. Burda yandıdı. Burda bir nə qədə yaşadılar.

O oğlan bir gün dedi:

– A qız, mən getdim.

Dedi:

– Yox, getmə. Hara getsən, məni də apar.

Axırı qızı aldatdı. Nolacax, oğlan burdan durup o yerə çatdı ki, atasıgil olan şəhərə. Oğlan burda qaldı.

Qız da bir ay gözdədi, iki ay gözdədi, gördü oğlan gəlmədi. Getdi atasına xəbər verdi ki, ata, haq-hesaf belədi. Dedi:

– Ata, mən onu tapıp haqqı-hesabımı çəkəcəm.

Dedi:

– Bala, nolar, özün bilərsən.

Bu qız dəmirdən çarıx geyindi, dəmirdən əsa aldı əlinə. O qədər getdi, o qədər getdi, bu şəhərin patşahınnan, o şəhərin patşahınnan getdi bir vilayətə çatdı. Bu o yer idi ki, bu vilayətdə bir bölüy arvat-uşax su doldurup aparıllar. Çoxlu qız varıydı. Bu qız dedi:

– Gedim, bulaxdan su içərəm, sora gənə gedərəm. Getdi bulağın başında otdu, bir qıza dedi:

– A bala, o istəkanıı doldur ver, su içim.

Bu bulağın başındakı qızdar, gəlinnər bu qıza o qədir tamaşa elədilər ki. Baxdı kı, bu qızın ayağında dəmirdən çarıx var, o qədər yiyilip ki, barmaxlar eşihdədi. Əlində bir əsa var, o qədər yiyilip ki, bircə qarış qalıp. Bu qız bir isdəkan suyu işdi. Dedi:

– Salam olsun İmam Hüseyinə, lənət gəlsin Yezidə.

Qızdar dayanmıyıp soruşdu:

– A bacı, gəlipsən ki, bu haqqı-hesap oldu.

Dedi:

– A bacı, neyneersən? Sən ki, mənim dərdimə ortağ olmuyacaxsan.

Dedi:

– Yox, bəlkə, ortağ oldux.

Qız iki-üş dəfə munnan xayış elədi. Axırda dedi:

– Mən filan şəhərdən gəlmişəm. Mənim belə bir ərim olup. İndi mənnən acığ eliyip.

Dedi:

– Adı nədi?

Dedi:

– Adı Mirzəbəydi.

Suyun başında olan qızdar buna dedilər:

– A bacı, biz bu adamı tanıyırıx.

Dedi:

– Çox şükür Allaha. Sən Allah, onu tanıyırsızsa, gedin ona deyin.

Dedilər:

– A bacı, suyu aparax qoyax, bu saat ona xəbər verərəm.

Bu qız səhəngini götdü, çıxdı getdi evinə. Səhəngi qoyannan sora getdi qonşuya. Getdi, oğlanı tafdı. Dedi:

– Ay qardaş, bulağın başına belə bir insan gəlip çıxıp. Ayağında dəmir çarıx var. Yiilif, əaxları çöldədi. Əlində dəmir əsa. Əsa yiilif, bir qarış qalıf. Gəlif bura çıxıf. Dediyinə gora, səni axtarır.

Bu o saat başa düşdü kü, həmən qızdı. Əynini geyindi, gəldi bulağın başına. Gördü kü, həmin o qızdı, munun arvadı.

Burda otdular baravar, söhbət elədilər. Oğlan dedi:

– Mən bu qızı nətəər aparım kı, anam bilməsin, atam bilməsin.

Axırı olmadı. Çox fikirdən sora oğlan bu qızı üfürdü papax eliyif başına qoydu, getdi evə. Oğlan evə girən kimi anasıgil bellədi:

– A Mirzəbəy, adam-badam insi gəlir. Saqqılı badam insi gəlir. Burdan bəni-adam insi gəlir. O hardadı? Çıxart buruya.

Oğlan dedi:

– Ana, burda bəni-adam zat yoxdu.

Anası üş dəfə buna dedi:

–Bilmirəm hardadı, tap çıxart onu çölə.

Oğlan anasınnan qorxdu. Ona görə başınnan papağı çıxartdı. Oxudu, üfülədi. Həyat yoldaşın diriltdi. Otdular burda. Arvat dedi:

– A bala, sən niyə belə iş görürsən?

Gəldi, gəlinnən öpüşdülər, görüşdülər. Dedi:

– Yaxşı eliyif gəlmisən, maa da gəlin lazımıydı.

Nolacax, burda yaşadılar. Bir neçə günnən sora arvat dincəlmədi. Arvadın dişi giişirdi.

Bir gün hər kəs öz işindeydi. Mirzəbəy də işə getmişdi. Arvat getdi bir vedirə, bir də qazan gətdi bu qızın qabağına qoydu. Dedi:

– A bala, mən qonşuya gedirəm. Gələnə qədər ağlıyarsan, bu qazanı doldurarsan.

Qız məəttəl qaldı. Qazanın başında otdu. Bu Mirzəbəyə agah oldu. Özünü yetirdi. Dedi:

– A qız, nədi?

Dedi:

– Anan maa belə iş tapşırıp.

Dedi:

– Saa demədimmi ki, yumurtanın qavığın yandırma. İndi anam səni yeməy üçün belə eliyir.

– Sən vedraları götür, get göldən su gəti.

Getdi bir-iki vedrə su gətdi, qazana töhdü. Oğlan dedi:

– Ordan bir qoşa ouç duz gəti.

Duzu qazanın içinə tökdü. Sora dedi:

– Qarışdır. Üsdündə ağla, mən getdim.

Qız qazanın başında ağlıyırdı. Arvat gəldi, gördü, qız hələ də qazanın üsdündə ağlıyır. Arvat barmağını qazana apardı, tamsındı. Tamsınan kimi dedi:

– Bu sənin işin döyül, – dedi. Bu, Mirzəbəyin işidi.

Böyün arvadın tilsimi sındı.

Sabah gənə bu arvat yatıf-dincəlmir. Getdi bir vedra darı gətirip şuma səpdi. Dedi:

– Mən gəlincə bu darını yığarsan, vedriya qoyarsan.

Qız dedi:

– Yaxşı.

Amma qız başına-gözünə döydü, o qədər ağladı. Dedi:

– Bu nə işiydi, Xudavəndi-aləm, mən düşdüm?

Heş birini də götürə bilmədi. Mirzəbəy işdəydi. Buna agah oldu. Özünü yetidi. Dedi:

– Ağız, bu nədi?

Qız dedi:

– Anan mənim başıma bu hal-qəziyəni gətirip.

Dedi:

– Mən gedirəm, sən durma, əlıı-əlaa vur, de: “Quşdarım, quşdarım, Mirzəbəyin toyudu. Gəlin bu darını yığın, bu vedrıya doldurun. Bu darıynan Mirzəbəyin yuxası bişəcəh”.

Qız munu deyəndə dünyada nə qədir quş varıydı, gəldi bura. Dedi:

– Quşdarım, Mirzəbəyin toyudu, yığın munu, vedrıya doldurun.

Bu darıyı quşdar dənnədi, gətdi vedriya doldudu. Arvat özün o vaxt yetidi ki, gəlin ağlıya-ağlıya yalannan dən dənniyir. Gəldi, vedrıya baxdı, dedi:

– Bu sənin işin dəyil. Bu, Mirzəbəyin işidi.

Gənə bu arvadın tilsimi sındı. Qaldı belə. Qız yatırdı, dedi:

– Yatma, səni ilan vursun. Gör nə deyirəm.

Mirzəbəy dedi:

– Anam səni sabax xalamgilə aparacax. Elə ki, deəcəh, a gəlin, gedəh bacımgilə, qonaxlığa çağırıflar. Gedəh oruya.

Yolnan gedəcən. Arvat qabaxda, sən dalda gedip bir dənə evə çatacın. Bu evdə uzun küçə var. Bu küçədə bir at var, bir it var, iki gəvə var. Biri göydən asılıdı, biri yerdədi gəvənin. İki dənə qapı var. Biri açıxdı, biri örtülüdü. Dediyimə qulax as. Burda nolaceydi. Görəssən atın qabağında sümühdü. İtin qabağında otdu. Özuu yetirərsən, otu götürər, atın qabağına qoyarsan. Sümüyü götürüp itin qabağına qoyarsan. Görəssən iki gəvə var, göydəkini salarsan yerə. Yerdəkini qaldırarsan, asarsan göyə. Görəssən iki dənə

qapıdı. Biri örtülüdü, biri açıxdı. Örtülüyü aç, açığı ört. Onnan sora gedərsən anamnan xalam xörəh bişirəcəhlər. Səni xörəyə qatıb yeəcəhlər. Ona görə də səni yeməyə dəvət eliyəndə durar qaçarsan həmən o küçəynən. Orda hər şey göyə qalxacax, səni tutacaxlar, sən səs-küyə qulax asma, qorxma, geri baxma.

Nolacax, xörəyi bişidilər, ortuya qoydular. Burda gəlini çörəyə çağıranda gəlin burdan götürüldü. Götürüldü yetirdi qapıya. Bu arvat dalıncax qaçırdı. Qapıya dedi:

– Gəlini tut.

Açıx qapı dedi:

– Neçə ildə ayağı üsdüyəm, ayağ üsdə durmaxdan dabanım yeyilip.

Bağlı qapıya dedi:

– Gəlini tut.

Bağlı qapı dedi:

– Neçə ildi bağlıyam. Bağlı qalmaxdan dabannarım çürüyüp.

İtə dedi:

– Gəlini tut.

İt dedi, neçə ilidi qabağıma ot qoymuşdun, ölürdüm acınnan. İndi sümüh gəmirrəm.

Ata dedi:

– Tut gəlini.

Dedi:

– Niyə tuturam, neçə ildi qabağımda sümüh, ot yeə bilmirdim. İndi ot yiirəm.

Sora gəviyə dedi:

– Gəvə, tut.

Gəvə dedi:

– Neçə ildi, göydən asılı qalmışdım. Qəddim büzülmüşdü. Çürüyürdüm.

Yerdəki də cavap verdi:

– Niyə tuturam. İndi canım dincəlir.

Bunnarın hamısının tilsimi sındı. Sınannan sora gənə gəlinnən arvat gəldilər evə çatdılar. Gecə yatırdılar. Mirzəbəy dedi:

– A qız, yatma, dur, dedi. Saa dedim, yumurtanın qabığını yandıma, pis günə qalacıx. Mən tovlada atdarı yəhərriyirəm. Sən bir dənə ülgüş götü, bir ovuş duz götü (üçüncü əşya söyləyicinin yadından çıxdı – top.).

Bu gədə nə ki, demişdi, qız götdü. Nolaceydi, hazır oldu. Bu getdi atdarı yəhərrədi, gəldi, dedi:

– Hazırsanmı?

Qız dedi:

– Hə.

Sora qızı götdü getdi tovladan atdarı götdülər. "Ya Allah, sənnən mədət" deyip götürüldülər.

Bu arvat atdarın tapbıltısını-gupbultusunu eşitdi. Durdu əyağa. Gördü nə arvat var, nə də gədə. Gediflər. Nə qədir qohum-əqrəbası varıydı, hamısını başına yığdı. Düşdülər munun dalına.

Mirzəbəynən də bu qız atdı gedir, nə gedir. Oğlan dedi:

– Ay qız, geri bax gör o nədi?

Qız baxıp dedi:

– Allaha and olsun, anan ağzı ayrıx, köpühlənə-köpühlənə elə gəlir, az qalır atın quyruğuna çata.

Dedi:

– A qız, ülgüşü tulla.

Nolacax, bu ülgüş almaz dağı oldu.

Arvat nə qədir adam yığmışdı, hamısını doğram-doğram elədi.

Bir az da getmişdilər, oğlan dedi:

– A qız, mənim ürəyim yanır, arxıya bax, gör nə var?

Gəlin baxdı ki, arvat qanın içində gəlir, özü də nə təhəri. Atın quyruğuna çataçatdı. Dedi:

– A qız, duzu tulla.

O saat gəlin duzu tulladı. Duz dağı oldu. Bunnarın yaralarının hamısına doldu. Gənə əl çəhmədilər. Bunnarın arxasınca gəldilər.

Oğlan dedi:

– A qız, ürəyim yanır. Gənə arxıya bax.

Dedi:

– Allah haqqı, anannan baravar adamnar elə gəlir, elə gəlir, güllə kimi.

Dedi:

– A qız, istəkandakı suyu tulla.

İstəkandakı suyu tulladı. Bu istəkandakı su bir dənə dərya oldu. Bunnar gəldi, hamısı dəryıya töküldü.

Onnar gəlif həmin kasıf kişiynən arvadın yanına çatdılar. Bunnar qızıldan, gümüşdən töküp bu kişiynən arvada yekə imarət tihdilər, burda yaşadılar.

Patşah bir gün küləfirəngidən baxırdı. Gördü kü, naxırçının damının yerində bir imarat yapılıf. Patşahın imaratınnan da əladı. Dedi:

– Bu nə haqqı-hesapdı?

Vəziri göndərdilər. Gəldi dedi:

– Həmən sənin qızındı. Bu imaratı onun əri tihdirip.

Burda yaşıyıllar. Patşah söyündu. Allah sizi də söyündüsün.

Göydən üç alma düşdü, biri mənim, biri Cəmşidin, biri də nağıl söylüyənin (S. 4).

## 16. ŞAH QIZI

Gündoğanda bir usda olur. Bunun şöhrəti hər yerə yayılır kı, filan yerdə bir belə sənətkar var. Günbatanda da biri olur. Bu da yaxşı sənətkarıydı. Nolajax, bunun da adı çıxır kı, fılan yerdə belə bir sənətkar var. Heş kim onnara çata bilməz.

Bunnarı bir-biri haqqında o qədir eşidillər ki, gündoğandakı deyir, nolaydı, günbatandakı sənətkarı görəydim. Görəydim o nətəər insandı. Nətəər iş görəndi.

Gündoğandakı da eşitmişdi günbatandakınnan. Demişdi, görən nətəər adamdı, görəsən, onun adı çıxıf bax belə. Gündoğandakı da, günbatandakı da fikirrəşir, bir-birrərin görməy üçün yola düzəlillər. Günbatandakı gündoğana gəlir, gündoğandakı da günbatana yola düşür. O qədər gəlillər. Nolajax. Yolda qarşılaşıllar. Görür kü, bir kişi belə gedir, biri də belə.

– Salam.

– Əleykə salam.

Günbatandakı deyir:

– Ay qardaş, hara gedirsən?

Gündoğandakı cavap verir ki, mən Günbatana gedirəm. Gündoğandakı addı-sannı adamnan söhbət eliyillər.

Ancax bilmirəm, əlinin işini görməmişəm. İsdiyirəm ki, maraxlanam, onun işinə baxım.

Günbatandakı deyir:

– Ay qardaş, mən də gündoğana gedirəm. Orda bir adamnan (sənətkardan – top.) çox danışıllar.

Bu vaxt gündoğandakı deyir:

– Günbatandakı mənəm, elə o söhbətə görə gedirəm.

Günbatandakı da deyir:

– Ay qardaş, həmin adam da mənəm. İndi Allaha şükür kü, biz bir-birimizi tapdıx. Gedək bir məmləkətə, orda əlimizin işin göstərəh. Şərtdəşəy, aparax bazarda saxlıyax. Hər kəsin ki, tez getdi, baha getdi, o ucuz, gej gedən onun qulu olsun.

Deyillər:

– Yaxşı. Nolajax.

Gedillər bazara çatıllar, bu zərgər bir dənə üzüh qayırır. Bazara çıxardır. Gündoğandakı da dülgəriydi. Bir at qayırır. Onnar malların çıxardıllar bazara, bazarda hərrənirdilər. Nolajax. Bir adam gördü kü, bir satan üzüh satır. Dedi:

– A qardaş, neçiyə verirsən üzüyü?

Dedi:

– Min manata.

Üzüyü aldı.

Tez üzüh düzəldən dülgərə dedi:

– A qardaş, indi sən mənim qulumsan.

Dedi:

– Biz belə danışmamışıx. Biz danışmışıx bazar dağılana qədər.

Dedi:

– Hə, baş üsdə, onu da gözdüyərəm.

Noolajeydi, bu burda olsun. Sizə kimnən xəbər verim, bu bazarın məmləkətinin şahınnan. Bu patşahın bir oğlu varıydı. Yaranannan heş gülməziydi, heş danışmazıydı. Atası muna küləfirəngidə bir otax düzəldir. Qoyardı orda. Orda yaşıyardı. Aynabəndi, qəşəh otaxlarıydı. Bu küləfirəngidən oğlan baxdı, gördü, bazarda camahat seyrəlip. Ancax bir kişi var, bir atı var, bu atı mindi, bazarın bir eninə çapdı, bir də uzununa çapdı. Buna baxanda patşahın oğlunun dili Xudavəndi-aləm tərəfinnən açıldı.

Dedi:

– Nolaydı, atam o atı maa alaydı, mən gedər seyr eliyərdim.

Bu oğlanın qaravılı varıydı. Bunu eşidəndə özünü yıxıla-yıxıla çatdırdı patşahın yanına. Dedi:

– Patşah sağ olsun, deməzsənmi ki, oğlun danışdı.

Söyündülər. Camahat töküldü gəldi. Şah dedi:

– Oğul, mənim üçün qulluğun.

– Ata, – dedi, – bazarda bir at var, bir kişi mindi, bazarın bir eninə çapdı, bir də uzununa. O atı maa alginan.

O sahat yüyürdülər, adam göndərdilər ki, get o atı al gəti. Getdilər, bu kişiyi götdülər gəldilər. Dedi:

– Ay qardaş, atı neçiyə deyirsən.

Dedi:

– İki min manata.

Patşahın yoxuydumu?! Qıymatını verdi. Bınnar getdi. Gedən zamanı dülgər zərgərə dedi ki, sən mənim qulumsan. Dedi:

– Düz deyirsən. Səninki baha getdi, mənimki ucuz getdi.

Nolajax bunnar isdədi gedə. Bu oğlan atını aparıb isdədi gedə, başarmadı. O saat patşah dedi:

– Öyrət bu oğlanı. Qoy atı minsin gəzsin.

Gəldi oğlanın yanına, dedi:

– Oğul, bu atın dört dənə tutacağı var, birini burorsan harıya gedirsən, get. Birini burorsan, qayıdırsan öz vilayətınıa. Birin burorsan, göyə qalxır, birini burorsan, yerə enir.

Munu öyrədənnən sora bunnar çıxdı getdi. Öz dedihləri kimi elədilər. Zərgər oldu dülgərin qulu.

Nolajeydi patşahın oğlu bu ata baxdı. Oynadı, güldü, danışdı. Bir günnərisi də kefi qaltdı patşahın oğlunun. Dedi:

– Gedim atamın dünyada nə qədər torpağı var, atımı minim, seyr eliyim. Gəzim gəlim, görüm nə var, nə yox.

Nolajeydi, atını mindi, yedi, işdi, düşdü yola. "Allah, Məhəmmət, Fatma, Hüseyn, ya Əli", – elədi, düşdü yola. Getdi nə qədər atasının torpağı varıydı, gəzdi. Axşam olanda tutacağı burdu, qayıtdı gəldi. Oğlan fikirrəşdi, burda nə vaxtdan qalmışam. Çıxım göyə, görüm göydə nə var, nə yox. Bir səər açıldı. Səər üsduza xeyirnən açılsın. Səər atını mindi. Tutacağını burdu. Qaltdı göyün bir qatına. O qədər qaltdı ki, oğlanın huşu başınnan gedən zamanı dedi, ay hay, mən nətəər eliyim, yerə yenim. Bu nə işiydi mənim başıma gəldi. Oğlan özü də bilmədi nə iş görə. Oğlanın atı o qədər göyə qalxmışdı, öz atasının torpağınnan çıxmışdı. Bir də yadına düşdü kü, buna demişdilər ki, bir tutacağı var, onu bur aşağa, yenə enəjəh. Bu, tutacağı buran zaman oğlan Çin patşahının torpağına düşdü. Getdi, baxdı kı, bu atasının torpağı dööl. Heş kimi tanımadı. Atdan düşənnən

sora atını yedəhlədi. Getdi gördü kü, bir çayçıxana var, yeməhxana var. Getdi atını tifara söykədi. Atını tifara söyküyənnən sora özü də otdu bir tərəfdə. Nolajax. Otudu burda, fikirrəşdi. Civində nə pulu varıydı, nə bir şeyi varıydı.

Burda camahata bir qulluğ eliyən oğlan gördü kü, burda bir oğlan var, atı var. Heş nə gedənnəndi, nə yeyənnəndi, nə deyənnəndi, nə də danışannandı. Elə burda duror. Axşam bu oğlan getdi yeməhxananın başçısına dedi ki, bir belə insan gəlip atnan. Atını söyküyüp divara, özü də durup. Nə durannandı, nə oturannandı, nə yeyənnəndi, nə gülənnəndi, nə oynuyannandı. Bu ustalavoyun sədri gəldi, gördü kü, bı oğlanın gördüyü düzdü. Gəldi oğlanın yanına.

– Salaməleykə.

– Salam.

– Bala, – dedi, – sən nə işin sahıbısan? Hardan gəlip, hara edirsən?

Yeməhxananın müdürü dedi:

Adın nədi?

– Dedi:

– Filankəs. Mən filan patşahın oğluydum. Dədəmin nə qədər torpağı varıydı bu atnan gəzdim. Nəysə də, bir gün kefim qaltdı, göyə çıxdım. Göyə o qədər çıxdım ki, ta bilmədim, hara düşüm. Gəldim, buruya düşdüm.

Deyir:

– Çox yaxşı, bala, nolajax, bura da evdi da.

Bu stalavoyun müdürünün oğlu yoxuydu, sonsuzuydu. Dedi, Allaha şükür kü, gəldi bu oğlan çıxdı.

Apardı çaydan, çörəhdən yedirtdi, içirtdi. Dedi:

– Bala, gedəh bizə.

Apardı evlərinə. Aparan kimi həyat yoldaşına dedi ki, belə-belə, uşağımız yoxuydu, bir belə insan gəlip.

Gəldi oğlanın yanına. Salam verdi. Salamnan sora bu kişi dedi ki, a bala, bizim qızımız, oğlumuz-zadımız, bir şeyimiz yoxdu. Manıa oğulluğa durarsanmı?

Deyir:

– Bəli, duraram.

Nolajeydi, arvad da söyünür. Köynəyinnən keçirir, olur bunun oğlu. Burda yaşıyır. Hər gün gəlir, atasının stalovoyunda oturur. Oturan zamanı görür kü, bir isdolda üş dənə oğlandı. Burda həmi çay içillər, həm də yeməh yeyillər. Bu da bir isdol götdü, bunnarın arxa tərəfinə keşdi. Bunnarın söhpətinə qulağ asdı. Buna qulağ asan zamanı bu üç oğlan dedi:

– Nolaydı, bir dənə quş olaydıx, qənədimiz olaydı, (dəryanın ortasında bir ada var. Adada patşahın oğlu təhcə yaşıyır. Onun qulluxçusu da var.) gedəydiy o qıznan kef eliyə, qayıda gələydih.

Bu oğlan bu söhpətə yaxşı qulax verdi. Bir gün keşdi, ikinci gün keşdi, üçüncü gün dedi:

– Vallah gedəjəm.

Yedi, işdi, durdu, “ya Əli, sənnən mədət” – deyip yola düşdü, getdi. Dəryanın qırağına çatan zamanı atının tutacağın burdu. Havaynan getdi, dənizin ortasında adıya düşdü. Adıya düşən zamanı pəncərədən qız gördü kü, bir belə adam gəldi, qapıyı döydü. Bu qız gəldi, qapıyı aşdı. Dedi:

– Qardaş, sən kimsən? Buruya qatır gələr, dırnax salar, quş gələr, qanat salar. Sən hara, bura hara? Atam bizi burda görsə, parça-parça doğruya bilər.

Oğlan dedi:

– Mən beejə burda qalajam.

Oğlan da, qız da başdadılar kefə. Qıznan oğlan dedi:

– Gəti nərtaxda[79] vurax.

Nərtaxtanı gətdilər ortalığa, öz cannarınnan mərcə girdilər. Dedilər:

– Hər kəs hər kəsi vursa, canı onun ixdiyarındadı.

Oğlan razı oldu. Nolajax, başdadılar nərtaxtıya, bir neçə dənə dövrə vurdular. Axırı oğlan qızı apardı. Aparanda bu qızın ixdiyarı oğlanda oldu. Qız dedi:

– Sən mənimsən, mən də sənin.

Nolajax, bınnan yaşadı, sora atını mindi. "Ya Allah", – deyip gəldi çıxdı atalığının evinə, bu burada yaşamağa başdadı. Bir neçə ay keşdi. Keçənnən sora bunun bir qaravaşı varıydı. Bir gəmisi varıydı bu qaravaşın. Patşahın qulluxçusuydu, aparardı bu qıza xörəyini, çörəyini verərdi, qayıdıf gələrdi.

Bir gün bu qaravaş gəmisini suya saldı. Çörəyini götdü, apardı qıza verdi. Verəndə bu qıza baxdı, gördü kü, bu qız həmlidi.[80] Bu qaravaş dedi, vay, mənim öyüm yıxıldı. Buruya adam gəlip. Patşah bilsə, məni də öldürəcəh, qızı da öldürəcəh. Bu nə haqqı-hesapdı? Qaravaş peşman oldu. Fikirə düşdü. Qayıtdı gəldi. Gəldi, patşah taxta çıxan zaman:

– Salam.

– Əleykə salam.

– Patşah sağ olsun, sənin qızın həmlidi.

---

[79] nərtaxda – nərd taxta

[80] həmlidi – hamilədi

O saat əmr elədi ki, qarvaşın boynun vursunnar. Buraxdı. Patşahın adamları yığışdılar, dedilər:

– Bu nə haqqı-hesapdı?

Axırı qaravaş gördü kü, bunun boynun vurajaxlar. Əl qaldırdı, dedi:

– Saxlıyın, söz deyim.

Dedi:

– Buyur.

Dedi:

– Maa üş gün vaxt verginən, mən onu tapım, tapbasam, başım fərmandadı.

Qaravaş gəldi, evdən quru çörəhdən-zaddan götürdü. Özünü yetirdi qıza. Qızın çörəyini verdi. Sora qayığını çəhdi, qayanın döşünə bağladı. Özü də kolun içində gizdəndi. Burda başdadı busmağa. Gejənin bir vədəsində axşam qarannıx düşən zamanı, dar vaxdı gördü kü, göynən bir dənə atdı gəldi, düşdü bu qızın otağının qabağında. Qapıyı döyən kimi qız aşdı, girdi içəri. O saat özünü yetirdi pəncərənin qabağına, muna qulax verdi. Nolajeydi, gənə burda nərt-taxda oynadılar, kef elədilər. Sora oğlan gedən vaxdı özünü yetirdi şaha. Dedi:

– Patşah sağ olsun, adamı tapmışam.

Dedi:

– Hardadı?

Dedi:

– Qızınan kef çəkir.

Nolajeydi, patşahın əmiriydi, qoşun düzəltdi, dedi:

– Gedəh görəh bu, nə işin sahıbıdı. Gəmilərə mindilər, özdərini yetirdilər, burda vurhavur, gəlhagəldə qızın

gözü birdən sataşdı pəncərəyə. Gördü kü, atasının qoşunu damın dört tərəfini kəmər qaşı eliyiplər.

Oğlana dedi:

– Saa dedimmi ki, atam biləndə səni də öldürəjəh, məni də. Vay bizim halımıza.

Hakqı-hesap bax belə oldu. Oğlan baxdı, gördü kü, qoşun, həqiqətən də, damı üzüh qaşı eliyip. Dedi:

– A qız, nə götürəjən götü, qorxma, dur qaçax.

Qız durdu qızıldan, gümüşdən, ağırdan, yüngüldən götdü. Oğlan dedi:

– Qoy atın xurcununa. Özün də otu.

Qapıyı aşdı. Tutacağı burdu. At qaltdı göyün bir qatına. Bunnar gedəndə qoşun arxada bunnara ox, qılınc, qalxan atdılar, heş birisi təsir etmədi. Bunnar göynən gedəndə bu qızın həmlisi tutur. Dedi:

– Oğlan, daha məni düşürt.

Bunnar yendi yerə. Yenən zaman oğlan atını qoydu yerə. Gələni düşürtdü. Dedi:

– Mən ölürəm.

Bu həmlini qoydu yerə. Onun burda nə odu oldu, nə suyu oldu.

Dedi:

– Ay Allah, bu həmlini yerə qoydu. Buna od-ojax lazımdı. Mən neyniyim?

O tərəfə baxdı, bu tərəfə baxdı, bir şey əmələ gəlmədi. Bu oğlan gördü kü, hey uzaxdan bir işıx gəlir. Dedi:

– Ağız, sən burda olginan, mən gedim o işıx gələnnən oddan-ojaxdan tapım gətirim.

O, öz atına mindi. Ojağa tərəf yola düşdü. Gəlin də burda uşax əlində ağlıya-ağlıya nolajax. Dedi:

– Allah, noleydi, bir od oleydi, ojağ oleydi, bu uşaxı bəliyeydim.

Burda bikef oldu. Oğlan getdi, o yerə çatdı kı, ordan od-ojax gətirə. Bu gəlin baxırdı əri getdiyi tərəfə. O yerə çatdı kı, bir dənə aloyu əri götdü, atnan yarı yolda taxda ata od düşdü. At yandı, kül oldu. Oğlan gəlip arvadına çata bilmədi. Oğlan burda qalsın, sizə hardan xəbər verim, bu gəlinnən. Gəlin də uşağı bələdi. Ağlıya-ağlıya, fikirrəşə-fikirrəşə. Bu uşağı gətdi. Sabax açıldı. Gördü kü, yaxında budu bir yol var. Bir qırmızı şeyi də üsdünnən bələdi. Dedi, bunu yolun qırağına qoyum. Bir adam gessə, bunu götsün aparsın. Mən də dəriyə, təpiyə düşüm. Qurt-quş məni yesin, rədd olum çıxım bu dünyadan gedim. Bunu bələdi, apardı yolun içinə qoydu. Heş gəs görməsin deyin girdi kola.

Nolajax, bir patşah varıydı, seyrə çıxmışdı. Vəziriynən şərtdəşdi ki, seyrdə yolumuzda dünya malı nə olsa sənin, züryət olsa mənim. Burda razılaşdılar.

Bunnar atı mindilər. Yolnan gəlirdilər. O yerə çatdılar kı, hə, yolda bir qırmızı bələhli şey var. Vəzirə dedi:

– Düşəh.

Düşdülər gəldilər, gördülər uşaxdı, züryətdi, çağadı.

Dedi:

– Vəzir, mən deyəndi. Dünya malı olseydi, sənindi. Amma züryətdi, mənimdi. Mənim də züryətim yoxdu, itipdi.

Çağıyı götdülər, atdarını mindilər, evlərinə tərəf yola düzəldilər. Evə çatan zamanı:

– Arvat, – dedi, – bir dənə uşax tapbışam. Ala, köynəyinnən keçirt, bizə uşax olsun.

Arvadı da söyündü, gəldi munu qoynunnan keçirtdi. Özdərinə uşax elədilər. Bu uşax yekəlməhdə olsun, sizə kimnən xəbər verəh, bu uşağın öz anasınnan.

Bu kola girmişdi ki, qurt-quş yesin munu. Burda qaldı, savax açıldı. Gördü kü, bir dənə qoja ağsakqal kişidi. Qavağında bir bölüh mal-qoyun otarırdı, çovan. Bu çovan gəldi gördü kü, bir dənə gəlin xaylağıdı, əlində sunka burda oturup kolun içində. Gəldi, gəlinə salam verdi. Dedi:

– A bala, sən kimsən gəlip bura çıxmısan?

Gəlin dedi:

– Ata, mən filan patşahın qızıydım. Haqqı-hesap belə oldu, gəldim, həmliydim. Həmlimi yerə qoyannan sora yoldaşım getdi ojax tapa. Ərim uzaxdan bir od gətirən zamanı gördüm kü, bir aloy çıxdı da, söndü də. Bu ərimin atıydı. Od düşdü, gəlip maa çıxa bilmədi. İndi mən yiəsiz qalmışam. Ata, – dedi, – bajarsan, apar məni saxla.

Dedi:

– Ata, neçə uşağın var.

Çovan dedi:

– Bala, altı dənə qızım var.

Dedi:

– Ay ata, məni də apar, altı qızıı da saxlıyajam, yoldaşı da saxlıyajam. Ama birjə maa atalığ elə. Vəssalam. Özgə bir şey yox.

Çovanın yazığı gəldi, özü də kasıbıydı. Camahatın malını otarır, ayləsini dolandırırdı. Axşam olanda bu qızı sunkalı-zaddı götdü, evə çatdı. Camahatın malını payladı

kutardı. Evə gələndə çovanın yanında bir dənə gəlin xaylağıdı, bunnan baravar girdi içəri. Bu arvat teztav[81] arvadıydı – arvatdarın xasyətidi teztaflıx.

– Kül başına, a kişi, – dedi, – sən məni, bir də bu altı qızı saxlıyıp boya-başa çıxartdın kı, getdin özaa bir dənə arvat gətdin?

Dedi:

– Arvat, arvat, elə demə.

Gəlin irəli yeriyip:

– Anacan, – dedi, – mən ona arvat gəlməmişəm. Sən anam ol, o da atam. Mən sizi dolandıracam.

Kasıp ayləsi varıydı, nolajax, bir də bir kasıp daxması varıydı. Bu qız xurcunda gətdiyi qızıldan, gümüşdən töhdü, bunnar razılaşdılar. Kişi bu qızın atası oldu, arvat da anası oldu. O, altı qız da bunun bajıları oldu. Burda qızıldan, gümüşdən verdirdi. Yaxşı dam-daş saldırdı. Kişiyə də dedi:

– Ata, day sən qoja kişisən, mala-qoyuna getmə, otu ağsakqallığımızı elə. Biz də lap yaxşı dolanajıyıx.

Bunnar burda dolanmaxda olsun, sizə hardan xəvər verim həmin o çağadan. Bu patşah kı çağıyı aparmışdı. Bu böyüdü. Böyüyən zamanı patşah dedi:

– Ay arvat, bizim oğlumuz day yekəlip.

İndi gəti munu evləndirəh. Arvat da razı oldu. Şah vəzirinə dedi:

– Oğlumu evləndirməh isdiyirəm. İndi nə cür evləndirəh, nə cür adam tapax?

Bu vəzir patşaha yol göstərdi ki, sən patşahsan, əmr elə dünyada, kəndtdə, şəhərdə nə qədir adam var, hamısı

---

[81] teztav – tələsik, düşünmədən danışan

sənin həyətinə yığışsın. Oğlanın da əlinə bir dənə alma verəh. Oğlan baxsın görsün, hər kəs ki, xoşuna gəldi, almanı o qıza vursun. Patşah əmr elədi, bütün qız-gəlin ora yığışdı. Oğlanı da bir hündür yerə qoydular. Dedilər:

– A bala, qız-gəlin gedir, hansı xoşuna gəldi, almıyı at ona.

Oğlan burda hazır durdu. Camahatın qızdarı, gəlinnəri o qədir gəldi keşdilər ki, axırda kutardı. Kutaranda patşah dedi, yox, görün, bəlkə, qalan olar. Dedilər:

– Filan naxırçının altı dənə qızı var. Onnar gəlmiyif. Bir adam yolladılar, həmin altı qızı da gətdilər. Gördülər ki, altı qız döyül, yeddidi. Munun yeddisini də göndərdilər. Gənə bunnar da gəlip camahatın keşdiyi yerdən sıraynan keşdilər. Bu keçən zamanı tapılan gəlin axırdaydı. Bu arxadan keçən zamanı bu oğlan almanı atdı həmən qıza. Gəlini aldı, qoydu evə. İndi bu oğlanın gərdəyə girməh vaxdıydı. Gərdəh asılmışdı. Oğlan gərdəyi qaldırıp qızın yanına girən zamanı bu qız bunu o sahat tanıdı. Ürəyində dedi:

– Bu filankəsdi.

Bu vax gəlin dedi:

– Oğlan, bizim adətimizdi on gün oğlan qıza əl vurmasın.

Oğlanın ağlı kəsdi. On günnən sora yenə gəldi qızın yanına. Qız dedi:

– Bağışda, bizim adətimiz budu ku, oğlan qırx gün qıza dəyməsin.

Bu minvalla otuz dokquz gün keşdi, qırxıncı gün oğlan gənə getdi gərdəyin dalına kı, bunnan oynasın. Nolajax. Oğlan pərdənin dalına girən zamanı axırı qız dözə bilmədi. Dedi:

– Gəl deyim ürəyimdəkini.

Dedi:

– Nədi?

Dedi:

– Bala, sən mənim oğlumsan. Mən sənin ananam.

Belə deyəndə oğlan qıza bir dənə sillə çəhdi. Yüürdü atasının yanına, dedi:

– Ateyi-mehriban, bu çəpəl kimdi, gətirip gərdəyin dalına qoyupsan. Bu deyir ki, mən sənin ananam, sən də mənim oğlumsan.

Belə deyən zamanı şah oğlunun sözün eşitdi. Əmr elədi, camahat yığıldı. Bunu asdırmağa gətdilər. Nə qədər paşşahın camahatı varıydı, hamısı gəldilər. Dedilər, bu nətəər işdi, şah dünən evləndirdiyi gəlini bu gün asdırır. Görən bu nə işin sahıbıdı, gəlini asdırır. O yerə gəldilər ki, gəlinin başına kəndir keçirildi. Hündür döydü. Çoxlu da camahat gəlmişdi. Gəlin baxdı kı, arxadan – camahatın arxasınnan bir dənə oğlan gəlir. Oğlan gələn kimi həmən gəlin tanıdı munu. Gəlin dedi:

– Patşah sağ olsun, icazə verin, bir neçə kəlmə söz deyim.

Dedi:

– Danış, çəpəl.

Gəlin dedi:

– O arxada duran oğlan mənim yoldaşımdı. Gedin gətirin.

Patşah əmr elədi, getdilər, həmin oğlanı gətdilər. Patşah gördü kü, bu itən oğludu. Atnan itənnən tapbamışdı. Həmən oğlan öz ayağıynın gəlip bura çatıp. Şah əmr elədi, gəlini düşürtdülər. Şah sevindi ki, oğlun tapdı. Təzədənnən qırx

gün, qırx gecə bu oğlana toy elədi. Gəlinnən şahın oğlu başdarına gələni şaha danışdılar. Məlum oldu ku, şahın tapdığı uşax öz nəvəsiymiş. Qırx gün, qırx gecə toy eliyip nəvəsinə də bir dənə qız aldı. Beləcə şən yaşadılar. Onnar yedi, yerə keşdi, biz yedih, dövrə keşdih. Göydən üç alma düşdü. Biri mənim, biri nağıl deyənin, biri də Cəmşidin (S. 4).

## 17. ƏZRAYIL İLƏ PİS ADAMIN ƏHVALATI

Deyir, bir dənə əzazıl, pis adam olur. Kiminin malın oğurruyur, kiminin pulun döyüp əlinnən alırdı. Bütün camahat bezir bunun əlinnən. Axırı kın, Allaha dua eliyillər ki, Allah, bunun canın al.

Nəysə, bir gün Əzreyil gəlir, baxır görür kü, bunun tarixi hələ tamam döyül. Odu kun, Əzrayıl buna deyir ki, bu yoldan əl çək, mən səni dolandıraram.

Deyir:

– Əşi, mən necə əl çəkim? Axı mən bunsuz dolana bilmərəm! Məcburam oğurruğ eliyəm, ya talançılığ eliyəm, axırı kın, bir yerdən urza topluyam.

Deyir:

– O urzanı mən sanıa verərəm. Bu şərtnən ki, sən bu əyri yoldan əl çək, hax yola düzəl.

Deyir:

– Nə yolnan?

Deyir:

– Əzreyiləm, harda varrı adam var, gedip onun xəsdəsinin başının üsdündə duraram, xəsdə məni görəndə hiss eliyə ki, ölüm vaxdıdı da. Onda sən danış, deynən mən bu xəsdiyi kutara bilərəm.

Xəsdənin varrı adamlarıynan danış, pul götü boyun ol ku, sağaldacam. Mən onda çəkilip gedərəm, xəsdə də qalxar.

Bu bir neçə müddət belə eliyir. Bir çox xəsdələrin yanına gedip-gəlir, sağaldır. Beləcə çoxlu varranır. Bala, onu da deyim ki, o vaxt Əzrayılnan bu belə şərtdəşmişdilər ki, əgər həmən xəsdənin əyax tərəfində olsam, sən o xəsdənin sağalmasın boynuna götür, yox gördün, xəsdənin baş tərəfindəyəm, onda denən ki, bu mənnih döyül, mənim duamnan üsdündü.

Nəysə, bir gün Əzreyil varrı bir patşahın qızının üsdün kəsdirir. Qız xəsdələnir. Dedilər ki, filan həkimi çağırın, o, belə gücdüdü, heylə gücdüdü. Gedillər, bunu çağırıllar. Bu gəlir, içəri girəndə görür kü, Əzreyil xəsdənin baş tərəfindədi. Düşünür, deyir ki, mən bunnan danışmışam kı, gərəh buna boyun olmuyam. Görür var, pul da əldən gedir. Odu ku, deyir:

– Xəsdəni çevirin.

Xəsdəni çevirillər. Xəsdənin başı bu tərəfə, əyağı Əzrayıla sarı düşür. Beləcə insan Əzrayılı alladıp xəsdəni sağaldır.

Əzrayıl deyir:

– Ay alçax, axırı sataşdın. İndi sənin vaxdındı. Hazır ol, canıı alacam.

Bunu deyip o pis adamın canın alır (S. 5).

## 18. İKİ DOSTUN AQİBƏTİ

Qədim zamannarda bir şəhərdə iki dost olur. Onnar çox mehriban imişlər, amma şəhərrərində heç biri iş tapmır, deyillər, gəl ayrılax, hərəmiz bir səmtə gedəy, görəy

başımıza nə gəlir. Onnardan biri günbatana doğru gedir. Az gedir, çox gedir, gəlib bir şəhərə çıxır. Görür ki, hamı bir tərəfə qaçır. O da camaat gedən tərəfə üz tutur. Gedib görür ki, şəhərin padşahı ölüb, quş uçurdurlar. Quş kimin başına qonsa, onu padşah etsinlər. Quşu uçurdullar. Quş gəlib qonur bunun başına. Hamı qışqırır ki, keçəl bir nabələddən bizə padşah çıxmaz. İkinci dəfə uçurdullar, yenə gəlib bunun başına qonur. Yenə quşu tutub aparıllar. Oğlanı tutub qatıllar bir karvansaraya. Sonra quşu uçurdullar. Quş hərrənib gəlib, yenə qonur onun başına. Camaat deyir, burda nəsə var. Gəlin bunu padşah seçəy. Oğlanı padşah seçillər. Oğlan başlayır bu şəhərə böyühlüy eləməyə.

İndi görəh gündoğana gedən oğlan nə oldu. O, xeyli getdi, bir şəhərə çatdı. O girib dükannara baxırdı. Bir dükanda satıcı bir qız idi. Qız gördü ki, oğlan elə hey veyillənir. Yanına çağırıb soruşdu ki, ay qardaş, sənə nə olub, sənə nə lazımdı? Oğlan dedi ki, mənə heç nə lazım deyil, iş axtarıram. Qız dedi ki, axşam gəl filan yerə, sənə bir yol göstərəcəyəm. Axşam oğlan qız dediyi yerə getdi, gördü qız ordadı. Qız ona dedi ki, gedərsən filan yerdə bir şəhər var. Orda bir dükan var, durarsan onun qapısında, bir nəfər gəlib sənə açar verib deyəcəh ki, bir qız göndərdi. Onu alıb qapını açarsan, ora olar sənin dükanın. İşləyib pul qazanarsan.

Oğlan xeyli sevinib, qız dediyi kimi də elədi.

Günnərin bir günündə bir qoca arvad gəlib buna dedi ki, ay oğul, məni bu dükana süpürgəçi götür. Oğlan razılaşdı. Başqa bir gün bir qoca kişi gəlib buna dedi ki, məni bu dükana qaravulçu gotur. Oğlan onu da götürdü. Sonra oğlan yenə rahat yaşamağa başladı.

Günnərin bir günündə şəhərin küçələrində car çəhdilər ki, cümə günü padşah bacısına toy edir, hamını qonax çağırır. Cümə günü hamı padşahın imarətinə yığışır. Badələr dolur. Padşah ayağa qalxıb deyir ki, camaat, mən ilk badəni doslux şərəfinə qaldırıram. Qoy həmişə möhkəm və sədaqətli dosluğ olsun. Hamı bu xoş sözün şərəfinə badə qaldırır.

Padşah görür ki, bir oğlan badəsini qaldırmadı. Padşah üzünü ona tutub dedi ki, oğlan, sən nə üçün badəni qaldırmırsan?

Oğlan dedi:

– Qibleyi-aləm, sən dediyin sadiq, vəfalı dosları mən həyatda görməmişəm. Mənə elə gəlir, səmimi doslux, sadiq dos yoxdur.

Padşah işarə elədi ki, hamı dayansın. Üzünü oğlana tutub soruşdu:

– Oğlan, sən işsiz idin. Sənə bir qız dükan verdi, ya vermədi?

Oğlan dedi:

– Qibleyi-aləm sağ olsun, verdi.

Padşah dübarə soruşdu:

– Sonra bir qarı sənin dükanını süpürməy üçün sənə xahiş etdi, ya etmədi?

Oğlan dedi:

– Etdi, qibleyi-aləm, etdi.

Padşah dedi:

– Bax o qoca kişi mənim atam, qoca arvad mənim anam, sənə dükan verən mənim bacım, mən də sənin iki il bunnan qabağ ayrıldığın dosdunam. Bu toy ki var, mən bu

gün edirəm, o da bacımla sənin toyundu. Di bundan gözəl, bundan səmimi dosluğ olarmı?

Oğlan yerinnən qalxıb padşahla qucaxlaşdı. Onnar bu vəziyyətdə xeyli qaldılar.

Onlar yeyib-içib, şad-xürrəm yaşadılar. Siz də yeyin, için, muradınıza çatın.

## 19. İNSAFLI OĞRU

Bir ölkə varıydı. Bı ölkədə bir qoca qadın varıydı, uşaxları çoxuydu. Dolandıra bilmirdi, dilənip uşaxlarını dolandırırdı. Peyğəmbərin vaxtındaydı özü də. Orda da bir cahıl oğlan varıydı, on altı-on yeddi yaşında mahir oğruydu. O da oğurruxnan özünü dolandırırdı. Çünki bı səkgiz yaşında olanda anası irəhmətə edir, bı oğlan başdıyır qonşudan yumurta oğurramağa, filan oğurramağa. Axırsında olur böyüh bir dəsdəbaşçısı. Özü də insaflı, qanuni oğru olur. Day əlinə keçəni oğurramır.

Bı ölküyə bir ajdıx düşmüşdü. Heş zad tapılmırdı. Bı qadın nəkqədən gəzdi, bir manat vermədilər ki, apara uşaxlarını dolandıra. Bı oğlan da çox gəzdi, çox dolandı, bir şey tapa bilmədi ki, oğurrasın.

Bir qoca kişi varıydı, onu tanıyırdı. Yüz yaşındaydı qoca kişi. Bı oğruydu. Bir günnərisi axşam çağıydı, bı oğlan gəlip ordan keçirdi. Bı çağırdı:

– A bala, a bala.

Dedi:

– Bəli.

Dedi:

– A bala, əlinə bir şey keşmədi, sən belə boş gedirsən?

Dedi:

– Ay baba, vallah, tezdənnən axşama qədər gəzmişəm, heş zad yoxdu. Çünki ölkə ajdığa düşüp, heş kəsin qapısında bir şey yoxdu ku, nə oğurruyam. Ya da dükan, maqazinnərdə bir şey yoxdu ki, mən onu oğurruyam.

Dedi:

– İndi ki elədi, gəl sanıa bir yer deyim, yaxşı yerdi. Gedərsən, orda yaxşı qazanc eliyərsən.

Dedi:

– Hardadı?

Dedi:

– Şəhərin laap ucqarında bir tacir yaşıyırdı, çox varrı bir tacirdi. Onun bir qızı varıydı, uşağı yoxuydu. Tacir ölüpdü. Var-dövlət hamısı qalıp qıza. Ora getsən, bir şey taparsan.

Dedi:

– Hardadı?

Dedi:

– Bı yolnan getsən, taparsan.

Bı axşamnan düşdü yola, bir az səhərə yaxın idi, həmən bağı tapdı ki, o tacirin evidi. Baxdı, doğurdan da, bir bağdı, içində iki-üş mərtəbəli evdi. Bı cahıl oğlanıydı, hasardan aşdı, o yana baxdı ki, orda bir çərhouz var, cinamaz var, aftafa var.

Dedi, həə, yəqin qız namaz da qılır. Bağı nəkqədən gəzdi, axşamıydı, heş nə tapa bilmədi. Axırsında gəldi imarətin qabağınnan keçə, pəncərənin qabağında baxdı ki,

bir qız qaravatda yatır. Amma yuxarıdan bir ipnən bir kisədi, ipnən asılıp qızın iki döşdərinin arasındadı.

Dedi:

– Sən öl, nə varsa, yəqin bı kisənin içindədi.

Qız da həqiqi bilirdi ki, oğrular var, bılar gəlip oğurruyallar, hər şeyini satıp qızıl eləmişdi və onu doldumuşdu kisiyə. Onu da gecə yatanda döşünün arasında saxlıyır ki, birdən onu əlləşdirəndə onun xəbəri olsun.

Oydu ki, bı oğlan çox mahir oğruydu. Şüşəni nətəhər çıxartdı bilmirəm, qızın döşünün arasınnan kisəni nətəhər götdüyünü bilmirəm, qızın xəbəri olmadan, kisəni aşdı baxdı, qızıldı. Bı qızıldan on dənəsini götdü və qalanını bağladı, yavaşca yerinə qoydu. Çıxdı ki getməyə, baxdı, səhərdi, namaz vaxdıdı. Oğlan da namaz qılardı ayrı vaxt, düz vaxt. Bı dedi, elə çərhouz bırda var, cinamaz bırda var, aftafa var, bırda namazımı da qılım, onnan sora çıxım gedim. Bı papağını qoydu kanara, qızılları qoydu papağın içinə, başdadı namaz qılmağa.

Bı namaz qılannarda adətdi, tez-tez namazın vaxtında ayılallar. Qız bir vaxdı ayıldı ki, vay, namazın vaxdıdı, gəlsin namazın qılsın. Gəldi baxdı, bının yerində başqa bir adam namaz qılır. Orda da onu mən saa deyim, günahdı namaz üsdündə adamı dindirməh. Gərəh gözdüyəsən namazı kurtula, sora dindirəsən. Odu ku, bı getdi ayrı cinamazı gətdi və başdadı bının böyründə bı da namaz qılmağa. Hər ikisi namazı kurtarannan sora qız bına dedi:

– Sən kimsən, gəlip bı bağa giripsən?

Dedi:

– Mən oğruyam.

Dedi:

– Necə yanı oğruyam?

Dedi:

– Oğruyam da.

Dedi:

– Bə oğrusan bırda heş nə yoxdu, bə bırdan nə oğurruya bilirsən?

Dedi:

– Vallah, hər yeri gəzdim, bir şey tapmadım. Axırda sənin o döşünün üsdündəki kisədən on dənə qızıl götümüşəm.

Dedi:

– Elə şey olmaz.

Dedi:

– Elə şey olmaz, get bax.

Qız getdi, qızıllarını saydı, baxdı, doğurdan da, on dənə qızıl əskihdi.

Dedi:

– Bə qızıllar hanı?

Dedi:

– Odee papağımın içində.

Dedi:

– Bə papağın içinə niyə qızılı qoyufsan?

Dedi:

– Günahdı, mən namaz qılıram, onu kanar qoydum ki, namazımı kutarannan sora onu götürəm, günaha batmıyam.

Qız baxdı, doğurdan da, bı götürüpdü. Qız dedi ki, indi ki, belə oldu, qızılın kökünü niyə götürüf getmiyifsən?

Dedi:

– Yox, mən o oğrulardan dəyiləm. Mən insaflı oğruyam. Mənə on dənə lazımıydı, on dənə götümüşəm.

Qız dedi ki, indi ki elədi, mən də Allahdan arzu eliyirdim ki, bir halal südəmmişə ərə gedəm. İndi görürəm ki, halal südəmmişsən, bı qızılların hamısını aparmıyıfsan. Sən qərəz, məni alasan, mən saa yoldaş olam.

Dedi:

– Mən də irazıyam.

Getdilər o zamannarı axuntdar varıydı, axundun yanında kəbin kəsdirdilər və bunnar başdadılar gecə evlərində yaşamağa.

Yoldaşına dedi:

– Dur onda yaxşı bir xörəh pişir və biz o xörəyi yiyəh, onnan sora yatax.

Sizdən xoş, bı da durdu, bir yaxşı pilov pişirdi. Bir dənə də yaxşı xoruz kəsdilər, qızartdılar, qoydular pilovun başına, lavaşıynan, ədvasıynan, hər şeyiynən hazır oldu.

Qız gətdi süfrə aça, bınnar yiyə, sora yata. Bınnarın qapılarını döydülər. Bı oğlan getdi, görüm kimdi? Getdi, aşdı, həmən sizə nağılladığım dilənçi arvatdı. Həmən dilənçi arvat da həmən qoca kişiyə ras gəlipdi. Qoca kişi deyipdi. Filan yerdə bir cahıl oğlannan bir qız evləniflər. Çox varrıdılar. Ora getsən, san$_{ı}$a bir pay verəllər.

Oydu ku, dedi:

– Sən kimsən?

Dedi:

– Mən dilənçiyəm.

Dedi:

– Nə isdiyirsən?

Dedi:

– Vallah, uşaxlarım evdə aj-susuzdular. Gəlmişəm, mənə bir pay verin, aparım uşaxlarım yesinnər.

Bı oğlan qayıtdı. Qız dedi:

– O kimdi?

Dedi:

– Bir dənə dilənçidi, pay isdiyir.

Qız dedi:

– Onda bir qab gəti, bı pilovdan bir az qoyax, çörəhdən verəh, götüsün aparsın uşaxlarına, yazıxdı.

Oğlan dedi:

– Yox, indi ki, elədi, elə pişirdiyimiz qazannı-zatdı hamısını bir dəsmala pükəh verəh, bı aparsın getsin, biz özümüzə təzdənnən xörəh pişirəh.

Qız dedi:

– Mən də irazıyam.

Bınnar eləcə pühdülər verdilər qadına, aparsın uşaxlarına, yazıxdı. Qadın neynədi? Oğlannan qız qalsın bırda, qadın getdi evinə, qapını aşdı, uşaxları çox körpə idi, acıdılar. Bı, məni bağışdıyın, pişih balaları kimi hucum elədilər analarına ki, anaları bir şey gətiripdi. Dedi:

– Uşaxlar, dəymiyin. Sizə bir yaxşı şey gətimişəm, ancax belə düzülün, mən nə desəm, onu eliyim. Onnan sora bunu açaram yiyərsiz.

Uşaxlar dedilər:

– Buyur, de görəh, nə deyirsən.

Arvat dedi:

– Allah, mənim ömrümnən kəs otuz il, ver o oğlana.

Allah tərəfinə amin elədi uşaxlar, hamısı qabıl olundu. Deyir, üç yaş onnan, beş onnan, on onnan, bir bunnan, otuz il də uşaxlarınnan kəsdilər. Allah tərəfinnən altmış il oğlanın ömrü çoxaldı. Bı qaldı bırda, indi görəh qıznan oğlan neynədilər. Munnar durdular təzdənnən çörəh pişirdilər, gətdilər ortuya qoydular ki, bu xörəyi yesinnər, bunnarın qapıların döydülər. İsdədi, oğlan gedə aça, qız qoymadı getməyə. Dedi:

– Bayax sən açmışdın, indi mən açacam.

Dedi:

– Ged aç.

Qız getdi, qapını aşdı. Bəyax sizə dediyim göydəki mələhlərdən biri gəlip qapıda durupdu, ağ xələtdə.

Qız dedi:

– Nə isdiyirsən?

Dedi:

– Heş zad isdəmirəm. Məni Allah tərəfindən yolluyuplar ki, sanıa bir xəbər verəm.

Dedi:

– Nə xəbər?

Dedi:

– O xəbəri yetirəcəm ki, bı gecə özünü o oğlannan qoru, bir gecədən ötəri bədbaxt olma. O oğlan bı gecə öləcəhdi, sən bədbaxt olacaxsan. Sən bı gecə özünü onnan qoru.

Qız peşman qayıtdı dala. Oğlan dedi:

– O kim idi?

Dedi:

– Heş zad. Qonşuydu, gəldi bir şey soruşdu. Dedim, çıxdı getdi.

Demədi ki, belə-belə. Qız dedi ki, vallah, mən görüm, bı necə olacaxdı. Bı xörəyi okqədən yubatdı, qabı yudu, dəsmalladı, onu gətdi, çayı qoydu, çay dəmlədi, belə-elə. Oğlan yorulmuşdu, oğlan yıxıldı yatdı.

Qız dedi:

– Gərəh mən oyax qalam, görəm hələ bı nətəhər öləcəhdi.

Qız okqədən gözdədi ki, qızı da yuxu tutdu, o da yatdı. Səhər durdu ki, ha oğlan diridi. Gecə də nə pişiriplər, sırfa da açıxdı. Dedi ki, ayə, bı nətəhər işdi ki, bı bəs ölməliydi, bə niyə ölmüyüpdü?

Oydu ku, surfanı aşdılar ki, bınnar yeməh yesinnər, dübara qapıları döyüldü. Qız çıxdı qapıya baxmağa, gördü, axşam gələn mələhdi ki, gəlip bınnara xəbər vermişdi.

Qıza dedi ki, de görüm, siz dünən nə iş görüfsünüz, bı oğlan ölmüyüfdü?

Dedi:

– Biz heş bir iş görməmişih.

Dedi:

– Yox, fikirrəş, gör dünən neynifsə, bı ölməliydi, ölmüyüf?

Dedi:

– Vallah, dünən bir dilənçi arvat bizim qapıya gəlmişdi. Pay isdiyirdi. Biz də öz payımızın hamısını verdih, qadın götdü getdi. Bınnan başqa bir iş görməmişih.

Dedi:

– Elə həmin işdi ki, qadın gedip Allahdan arzu eliyipdi, bı oğlanın atmış il də ömrü çoxalıpdı. Gedin, yeyin-için, yaşayın. Siz də sağ, mən də salamat (S. 1).

# 20. İMAMIN NAĞILI

Bi imam addanan qadın olur. Bı mollaxananı qutarannan sora bi oğlannan evlənip köçür İrana. İrana gedənnən sora bı oğlan varranıp olur tacir. Bı arvat da mollaxananı qutarmışdı, gedip oturardı məclisdə, həmmişə mollalığ eyliyərmiş. O qəsdən özünü camahata göstərir ki, bı inandırıp ki, hamı imam çağırarmış qadını. İmam kimin küçəsinnən keçərmiş, deyərdilər ki, xeyir-bərəkət gəldi bizə. Odu ku, bınnar bırda yaşamaxda olsunnar, bu tacir ki, dediyim tacir bının bir dosdu varıymış ayrı ölkədə. O tacir evliymiş. O dosdu da taciriymiş, amma subayımış. Bı subay tacir deyir, gedim bir o dosdumu yoxluyum. Gəlir çıxır ora, dosdunu yoxlamağa. Xoş, beş, on beş… Bı tacirin də ikimərtəbəli evi varıymış. Evinin yanında bi su quyusu varıymış. Bütün camahat gəlip ordan su apararmışdar. Bı tacir də tezdənnən durup eyvannan su quyusuna baxırmış. Orda oturup çay-çörəh yeyillər hər gün. Bir günnərisi də bı qonax yatır. Tacir dosdu gedir, deyir, ayılannan sora gələrsən tükana. Bı da ayılannan sora əl-üzünü yuyur, oturur eyvanda. Bı tacirin yoldaşı gətirir bına çay-çörəh qoyur. Bı tacir baxır ki, bı suyun başına səhər tezdən bir zənən gəldi, bir qız xəylağı gəldi. Yemə-işmə, gül camalına tamaşa elə. Bı bir gönüldən min gönülə bı qıza aşığ olur. Odu ku, çay qabağında qalır. Bı da səhəngini doldurur, gedir. Çay-çörəh qalır qabağında. Bı tacirin yoldaşı deyir:

– Nolup? Niyə çay-çörəh yemirsən?

Deyir:

– Heş. Bir az başım ağrıyır, vallah. Bir azdan sora yeyərəm.

Odu ku, gedir, yıxılır yatır. Yatır, ayılannan sora genə bı qız çörəyi gətirir qabağına. Bı, çörəhdən az-maz yeyir. Bı, tükana da getmir. Yoldaşı demişdi, gələrsən tükana.

Axşam bı tacir dosdu qayıdannan sora deyir:

– Bəs sən niyə gəlmədin tükana?

Deyir:

– Nə bilim, başım ağrıyırdı, gələ bilmədim.

Odu ku, bi həfdədi tacir dosdu baxır ki, bı qonax gəldiyi günnən-günə dala edir. Deyir:

– Ə, qardaş, sənnən biz ikimiz qardaşığ. İndi sən neçə günüydü bırdaydın, yaxşıydın. Bi neçə gündü dala edirsən. Bəlkə xəsdələnibsən? Bəlkə bi şey olupdu? Denən səni həkimə aparax, görsədəh, görəh nədi sənin dərdin. Qardaş qardaşdan söz gizdətməz.

Bı naəlac qaldı. Dedi ki, vallah, hal-qəzyə belədi. Filan günü mən otumuşdum. Bi qız xaylağı gəldi bırdan su aparmağa. Bir gönüldən min gönülə ona aşiq oldum. Onun fikri mənim başımnan çıxmır. Bı, əlini dizinə vurdu, dosdu tacir. Dedi:

– Allah sənin evini tihsin, sən məni xatıya saldın.

Dedi:

– Niyə?

Dedi:

– Bizim o tacirbaşı var. Bı, onun yoldaşıdı. Onu təzə – iki aydı toy eliyip gətirip. Ayrı şey olsaydı, mən pulnan, qızılnan sənə alardım. Amma qadını mən neynim, nətəhər eliyim, sən onu başınnan çıxarasan?

Dedi:

– Yox. Ölüm var, onu başımnan çıxarda bilmərəm. Mənnən asılı dəyil. Başımnan çıxmır.

Dedi ki, indi ki, elədi, bir yol var. O yolu səə mən görsədim. Bəlkə, o yolnan ələ gətirəsən.

Dedi:

– O nə yoldu?

Dedi:

– O yol odu ku, filan vaxda bir arvat vardı. O, mollalığı qutarmışdı. Mən onnan keşmişəm bı tərəfə. O gedip məclisdə oturup mollalığı örgənip, bı tayda, mən də gəlip bırda tacirrığı örgənmişəm. O qadın belə şeylərə baxır. Amma camahat arasında özünü elə görsədip ki, hamı bını imam kimi çağırır.

Dedi:

– Baş üsdə. Bəs hardadı?

Dedi:

– Filan məçidə gedərsən. O, camahata söhbət eliyir. Söhbət qutarannan sora başına çarşapını salır, çıxır gedir evinə. Sən onda qabağını kəsərsən, deyərsən, İmam nənə. Deyəcəh, nədi? Denən, saa bir işim düşüp. Sən fikrini bına nağıllıyırsan.

Dedi:

–Baş üsdə.

Səhər açıldı. Səhər hamınızın üzünə xeyirrihnən açılsın. Bı tacir durdu. Çıxdı getdi həmin o məcidin yanına. Gördü qadın içəridə söhbətdədi. O qəddən eşihdə gözdədi. Bı, söhbət qurtulannan sora bı imam isdədi çarşapı ata başına gedə. Bı, tez qabağın kəsdi. Dedi:

– İmam nənə.

Dedi:

– Nədi?

Dedi:

– Səə bi işim düşüp.

Dedi:

– De görəh nədi, bala?

Bı mən sizə nağılladığım kimi nağılladı ki, filan qıza gözüm düşüp. O da, deyillər, filan tacirbaşının arvadıdı. İndi o fikir də mənim başımnan çıxmır. Günnən-günə dala edirəm. Nə də isdəsən, qızıl, pul... nə isdəsən, saa verərəm, – qadına dedi.

Dedi:

– Yaxşı. İndi mən də sənə nə desəm, onnan getməlisən.

Dedi:

– Denən.

Dedi:

– Səhər tezdənnən yerinnən duran kimi o tacirin tükanın yerini örgənərsən. Gedip çıxarsan o tacirin tükanına. Girərsən tükana, deyərsən ki, vallah, mən qonax gəlmişəm bı şəhərə. Mənim bir aşnam var. – Aşna, yanı gəzdiyim qız. – Həə, gəlmişəm, ona bi dənə hədiyyə alam. Ancağ o hədiyyə elə olsun ku, onnan heş kəsdə olmasın bu şəhərdə. O da sənə nə versə, götürüp gətirərsən.

Oğlan bı gecəni yatdı. Yoldaşı gəldi – tacir. Dedi:

– Noldu?

Dedi:

– Vallah, hal-qəzyə belədi. Mənə belə nağıllıyıp.

Dedi:

– O, nə deyir, onun məsləhətiynən get.

Day qorxma, nə isdəsən, mən verəcəm. Təki sənin işin düzəlsin. Odu ku, bu tezdənnən durdu tacirin tükanın

öyrəndi. Getdi çatdı. Baxdı, bi cahıl oğlandı. Doğurdan, mərfətdi, qanacaxlı bir insandı.

Dedi:

– Salam əleyküm.

– Əleykum salam. Xoş gəlifsən. Buyur görəh, nə isdiyirsən, nə qulluğ eliyim?

Dedi:

– Vallah, qul sahibi olasan. Mən isdədiyim budu ku, mən bıra qonax gəlmişəm. Mənim bi dənə aşnam var. Ona bir hədiyyə almağ isdiyirəm. Amma deyillər, sən tacirbaşısan, ən yaxşı şeylər səndə olur. Gəldim ki, sən mənə elə bir hədiyyə verəsən, bı şəhərdə onnan olmasın.

Dedi:

– Həə. İndi ki elədi, qonax Allah qonağıdı. Filan patşahlıxdan mənə iki dənə baş yaylığı yolluyuplar. O yaylıxdan heş yanda yoxdu. Onun birin vermişəm şahın qızına, birini də öz yoldaşıma aparacağam. İndi ki, sən gəlifsən, eybi yoxdu. Qonağı boş qaytarmağ olmaz. Bını verərəm sənə, aparарsan.

Bını, doğurdan da, bına verdi. Bı götdü gəldi. Gecə gəldi yatdı. Səhər üzünüzə xeyrə açılsın. Səhər açıldı. Bı getdi durdu haman məçidin yanında. Ta ki bı məçitdə söhbət eliyip qurtulannan sora çıxdı ki, getməyə. Dedi:

– Qarı nənə.

Dedi:

– Nədi?

Dedi:

– İmam nənə, sən dediyini yerinə yetirmişəm.

Dedi:

– Nədi?

Dedi:

– Vallah, bı yaylığı maa verifdi. Deyip ki, bınnan heş yerdə yoxdu.

Dedi:

– Yaxşı, budu?

Dedi:

– Hə.

Tutdu, yaylığın ortasınnan bir düyü boyda qəyçiynən kəsdi. Dedi:

– Bını aparıp qaytararsan tacirə. Deyərsən ki, dünənnərisi, vallah, nə sən baxıfsan, nə də mən. Bı cırıx çıxıpdı. Bının ortasında deşiyi var. Xayiş eliyirəm, pılını mənnən artıxlamasıynan al. Ancax mənə başqasını ver.

Bı yoxluyur ku, görüm, bınnan genə varmı. Onu yoxlamağ isdiyir.

Odu ku, bı tezdənnən, genə səhər üzünüzə xeyirrihnən açılsın. Səhər açıldı. Bı gedir haman tacirin tükanına. Bı tacirbaşı şad, gülərüz bını qarşılıyır. Deyir:

– Noldu? Genə nə qulluğ eliyim?

Deyir:

– Yox, qul sahibi olasan. Dünənnəri mən sənnən bir yaylığ aldım.

Dedi:

– Bəli, yadımdadı.

Dedi:

– Amma nə sən baxmısan, nə mən baxmışam. Bı xarap çıxıp. Bının ortası deşihdi. Mən xayış eliyirəm, nə qədər pul alırsan, al, amma bu yaylıxdan başqasın ver.

Dedi:

– A kişi, mən sənə demişdim, bunnan iki dənəydi. Birini şahın qızına vermişəm, birini də öz arvadıma aparacağam. Day sən qonağ olduğun üçün sənə vermişəm.

Amma qarı tapşırmışdı ki, başqası olmasa, hamankını götürüp gələrsən.

Dedi:

– Zərər yoxdu. Onda bını ver, aparım. Bir yerdə deyillər, bir adam var, elə toxuyur ku, heş nə bilmir.

Odu ku, bı dubara gəldi evə. Gecəni yatdı. Genə səhəriz xeyrə açılsın, səhər açıldı. Getdi məçidin dalını kəsdi. Arvad söhbətin qutarıp evə gedəndə bı qabağın kəsdi. Dedi:

– Gəlmisən?

Dedi:

– Hə.

Dedi:

– Noldu?

Dedi:

– And-aman elədi ki, day bınnan yoxdu. Bircə buydu, bunu da vermişəm sənə.

Dedi:

– Zərər yoxdu. Ver mənə. Sən get, bir həfdədən sora o qızı gətirip sənə çatdıracam.

Odu ku, bı imam arvad bı yaylığı götdü, düşdü yola. Bı yolun o tacirin qapısının yanınnan saldı. Gəldi bınarın qapısında durdu. Qapını döydü. Bının yoldaşı, haman qız çıxdı eşiyə. Bı qızıydı evdə, heş kəs yoxuydu. Dedi:

– Boy, İmam nənə, xoş gəlifsən, səfa gəlifsən. Qədəmlərinə qurban olum. Sən nə yaxşı bıralardan keçirsən?

Dedi:

– Qızım, vallah, elə namazımın vaxdıdı. Elə qapınızı döydüm, görün, bırda bir yer ola, bırda namazımı qılam.

Dedi:

– Hə, qarı nənə, buyur.

Uşax-zat da yoxdu. Təmizdi də. Apardı getdi haman o yatdıxları otağa. Bına yer görsətdi. Dedi:

– Bırda xalçanı hazırrıyım.

Bı getdi xörəh hazırramağa. Bı da namazını orda qıldı. Yaylığı da götdü qoydu bı qızın balıncının altına. Çörəyini, çayını yedi-işdi, çıxdı, yaylığı qoydu getdi. Yaylığı qoyup gedənnən sora axşam tacirbaşı evə gəldi. Yatmax vaxdı gələndə qız durdu yerrəri salmağa. Balıncı götdü, belə baxdı, gördü, bırda bir yaylıx var. Oğlan baxdı, yaylığı tanıdı. Öz içində dedi:

– Vay, mənim evim tikilsin, deməh, bi oğlanın aşnası mənim arvadımmış. Evim yıxıldı.

Qaldı bı peşman. Gecə tay utandığınnan heş nə bir səs çıxarmadı. Səhər durdu qızın atasına, anasına xəbər saldı ki, gəlin, siz qızınızı götürün aparın. Mənə lazım dəyil. Sizin qızınız fahişədi. Bınnar da gəldilər, bı qızdarın gecəynən götdülər apardılar. Səs-səmir belə kəsildi.

Oğlan da belə kor-peşman gedirdi, tükanda alver eliyirdi, gəlirdi. Səhərisi gün qarı qəsnən yolun saldı qızın dədəsigilin qapısınnan. Qızın anası eşihdəydi. Baxdı ki, İmam gəlir.

– Ay İmam nənə, sənə qurban olum, qadan alım. Sənin qədəmlərinə qurban olum, bəs biz işə düşmüşüh.

Dedi:

– Nə işdi?

Dedi:

– Vallah, başımıza belə hal-qəzyə gəlip. İki ayıydı ki, qızı almışdı. İndi gətirip qaytarıplar ki, belə-belə.

Dedi:

– Eybi yoxdu. Rəhmətdiyin qızı, onu mən elə eliyərəm ki, gəlip yalvara-yalvara qaytarıp aparar.

Dedi:

– Nə təhər?

Dedi:

– Qızı verərsən man$_{ı}$a. Mən bir həfdəliyə apararam evimə. Abı-kövsər suyunda mən bını çimdirərəm. Bı tərtəmiz, pak olar. O peşman olar gələr, qızı aparar.

Odu ku, bı qızı qarıya verdilər. Qarı bnı apardı evinə. Xəbər elədi oğlana ki, durma gəl, qızı gətimişəm. Bı tacir apardı bı qızı, siz də məni bağışdıyın, məni balalarımsız, bı qıznan bi həfdə kef elədi. Kef eliyənnən sora dedi:

– A kişi, xalxın qızını biz biyabır eləmişih. Gəl elə iş eliyəh ki, bı qızı qaytarağ öz ailəsinə, tacirbaşının yanına.

Dedi:

– Nə təhər? Neyniyəh?

Dedi:

– Bilirsən neyniyəsən? Sən get haman tacirin tükanına. De ki, vallah, yadındamı, gəldim sənnən bir yaylığ aldım. Deyəcəh ki, bəli, almışdın. Deyərsən, mən o yaylığı bir arvada vermişdim ki, deşiyi toxusun. Onun da yerini itimişəm. Amma deyillər, adı İmamdı. İndi onu tapa bilmirəm. İndi xayiş eliyirəm, onu mənə köməhliy eliyəsən, tapam.

Odu ku, bı tacirbaşı gəldi evinə. Bı İmam arvad genə yolun haman yerdən saldı, oğlanın evinin qabağınnan. Qapını döydü. Baxdı, günorta üsdüdü. Bı oğlan gəlip nahar eləməyə.

Dedi:

– İmam nənə, xeyir ola?

Dedi:

– Qurbanın olum, filan vaxdı gəlmişəm, bı evdə namaz qılmışam. Mənim bi yaylığım olupdu, yadımnan çıxıp, qalıp balıncın altında. Gəldim, o yaylığımı görüm bırdan götürüplər, yoxsa qalıp?

Tacirbaşı dedi:

– Həə. Sən gəlifsən bırda namaz qılmağa. Yaylığı sən qoyufsan?

Dedi:

– Bəli.

Dedi:

– Hə, yaylıx bırdadı.

Yaylığı verdi bına. Arvat yaylığı götdü, getdi.

Tacirbaşı peşman oldu. Dedi, əşi, bı oğlan heş görmüyüp bı qızı. Mən də elə bilmişəm, bı oğlan mənim arvadımnan məzələnirmiş.

Odu ku, təzdənnən peşman olur. Gedir iki dənə də ağsakqal götürür, gedir o qızın atasıgilə. Xayiş-minnət eliyillər ki, biz səf olmuşux. Qız belə işin sahibi olmuyupdu. Haman qızı qaytarın. Qızı dubara qaytarıllar. Verillər tacirə, genə dubara özünə yoldaş eliyir. Hər şey belə bitir. Oğlan da elə bi həfdə belə kef eliyir. İmam da belə işdərinnən məşğul olurmuş.

Siz sağ, mən salamat. Nağıl bırda sona yetdi (S. 1).

## 21. PADŞAHLA KASIBIN NAĞILI

Ravayata görə, bir pətşah deyip kin, kim maa Xızır peyğəmbəri görkassa, ona bir belə pul verəjəm.

Bir səfər günü keşmiş, irax sizdən, bir qoca kişi varımış. Elanı eşidir. Deyir, hələ gedim görüm pətşahı bu başdan aldadajamsa, pulu alım gətirim, uşağı saxlıyım. O biri başda nə olar, olar.

Gəlir pətşahın yanına deyir ki, qibleyi-aləm, sənin elanuu eşitmişəm, gəlmişəm. Amma sənnən iki şərtim var.

Deyir:

– Nədi?

Deyir:

– Gərəh pulun yarısın bu başdan verəsən, qırx gün də maa möhlət verəsən. Qırx gün dincəlim, Xızır peyğəmbəri saa görkəzəjəm.

Ə, kim Xızır peyğəmbəri görkəzər? Görür, uşax əldən gedir, o yalanı ona görə düzəldir. Gəlir, otuz dokquz gün o pulu uşağa xəşdiyir. Taxılın, unun alır, qoyur başının üsdə.

İndi pətşah da meydanı süpürtdürür, özünə görə adam yığır ki, Xızır peyğəmbəri görkəzəjəh. Baxır kı, həmən pul aparan kişi həmin vaxta budu, atıla-atıla gəlir. Gələndə deyir:

– Qibleyi-aləm sağ olsun, mən kiməm ki, saa Xızır peyğəmbəri görkəzəm. Mən gördüm, külfət əldən gedir. Ona gora səni alladıp pulu aparıp xaşdamışam. İndi maa neynirsən elə, ixdiyar sahıbı sənsən.

Onun üş vəziri olur. Heş pətşah bilmir ki, onun vəzirrəri nəçidi, nə yolnandı. Deməh, o vaxtlar pətşahlar it

saxlıyırmışdar, irax üzdən. O zindanda olanı – böyün elə bil birin aparıp salajeymişdər zindana, onu atırmışdar itdərin ağzına, it də parçalayıp yeyirmiş. Savax kişinin nobatı gəlir. Gələndə bu kişi baş vəzirə deyir ki, mən quş dili bilirəm, məni öldümə. Mən sizə quş dili örgədim – deyəndə deyir:

– Yaxşı.

Gedir. Patşah vəzirə deyir:

– Sən saxla, onnan quşun dilin örgənəh.

Bu kişi vəzirə dil-ağız eliyir. Pətşah bu vəzirrəri bir-bir yanına çağırıp soruşur, nəçidi. Bu kişi deyir:

– Baş vəzirin görüp götürmüş oğludu, ikinci vəzirin ilxıçı oğludu, üçüncü vəzirin qəssap oğludu.

Ona kimi hələ pətşah bilmirmiş. Çağırıp soruşur, görür düzdü. Şahın gənə də hirsi soyumur. Bu kişini qatır qarsa[82] ki, sabah ata itdərə. O qoca kişi vəzirə deyir:

– Vəzir, çox sağ ol. Sənnən razıyam, belə, heylə. Ama elə elə ki, böyünnən bu itdərin yemin daşı ver, səni tanısınnar. Vaxt olar, səni də atallar bu itdərin ağzına.

Bu şaha bir söz deməmiş bu kişini buraxır.

Bu kişi gedəndə bu kişinin vəsiyatnaması girir bunun başına, kəlləsinə. O günnən daşıyır o itdərin yemin verir. Başdıyır o itdərin hamsı onu tanımağa.

Bir gün vəziri çağırır yanına, deyir ki, bizim bir quş dili bilən adamımız varıdı, o nejoldu? Deyir:

– Onu buraxdım, getdi.

Əmr eliyir o biri vəzirrərə, atın onu itdərin ağzına. Bala, bı vəzirrər də bir şey görməmişdilər daa. Eliyillər. İt

---

[82] qarsa – zindana

bunun əyağına sarmaşannan sora pətşah bir xeyli məhət-təl qalır. Deyir:

– Vəzir, bu nə işdi?

Deyir:

– Qibleyi-aləm sağ olsun, mənim günahım olmadığı üçün bu itdər məni yemədi.

Şah bunu geri qaytardı. İnandı.

Bir gün həmən vəzir pətşaha deyir ki, hamı nərazıdı sizdən. Deyir ki, nətəər? Deyir:

– İnanmırsan? Tərki-libas ol, düş şəhərbəşəhər, kəndbəkənd gəz, gör razı olan var, yoxsa yox?

Bu ağlına batır. Cır-cındır paltar geyinir. Bir az da puldan-pənədən tökür civinə. Düşür hər yeri gəzməyə. Gedir bir el yolu gəlir, köç gəlirmiş. İrax bu məclisdən, görür bir qoja kişi oturup yolun qırağında, ağlıyır. Buna yaxınnaşıp deyir:

– Niyə ağlıyırsan?

Deyir:

– Bəs mən dağdan gəlirdim yolda ildırım vırıp oğlum ölüp. İndi mənim güjüm çatmır kı, onu dəfn eliyim.

Bu səfər həmən o pətşah bir xeylax qızıl, gümüş verir ona. Onnan sora gəlir, çıxır taxta, deyir:

– Vəzir, filan xəzinəmi aş, camata təmənnasız payla. O biri xəzinəni də aş, təmənnasız payla camahata.

Bu camahat da yaxşı yaşıyır. Biz də arzu eliyirih biz də heylə yaşıyax (S. 8).

## 22. KİMİN VARI ÇOXDUR?

Bir padşah olur. Vəzirə deyir ki, get, düzü-dünyanı gəz, mənnən varrı adam tafginan. Padşahın da o qədər varı var ki, buna tay yoxdu. Vəzir gəlir, düzü-dünyanı hərrənir gəlir, deyir, daa ajınnan öldüm, taqətdən düşdüm. Neçə günnər, neçə aylardı, bu, bütün dünyanı gəzir, hamıya bu padşahın varını söylüyür, deyillər ki, yox, bizimki ona çatmaz daa, onunku çoxdu. Gəlir, görür kü, bir çovan qoyun otarır. Çovan süd doğruyuf yeyir. Vəzir deyir:

– Onnan man$_{ı}$a da ver, ajınnan öllən.

Çovan durur, qoyunun birini sağır, buna da süd verir. Bu yeyir. Deyir:

– Hardan gəlif hara gedirsən?

Deyir ki, padşahın vəziriyəm, ama gəzmədiyim ölkə qalmadı. Nə qədər ki gəzdim ölkələri, padşahdan varrısını tapa bilmədim. Çovan deyir:

– Padşahın boyu, buxunu nə boydadı?

Deyir:

– Boyu bu qədərdi, bədəni bu qədərdi.

– Ay, – deyif – oon nə qədər varı, dövləti var ki? Mən onnan varrıyam.

Vəzir gəlir, deyir:

– Padşah sağ olsun, bütün dünyanı hərrəndim, ama bir çovan man$_{ı}$a dedi ki, o nə varrıdı ki? Mənim varım onnan çoxdu.

Deyir:

– Onu tanıyırsanmı, get tap gət.

Deyir:

– Tanıyıram, filan yerdə qoyun otarır.

Gəlir bunun yanına, deyir ki, səni padşah çağırır. Kişi durur gedir yanına. Deyir:

– Buna yaxşı yeməh-işməh...

Görür kü, üsdü-başı da köhnədi, bunun var-dövləti varsa, niyə bu sıfatdadı? Deyir, yəqin geyinmiyif dana. Gəlir, bu kişini oturdur, yedirdir, içirdir, yaxşı dəm-dəzgah. Padşah özün gösdərir dana buna. Aparır, bax, bu mənim qızılım, bu mənim pulum, bu mənim anbarrarım. Çovan deyir ki, padşah sağ olsun, məəm varım sənnən çoxdu. İndi deyir ki, bə buralarda heş bazar varmı? Deyir:

– Hə, məəm bazarım var.

Deyir:

– Gedəh bazarı da hərrənəh.

Gedir, bazarı hərrənəndə görür kü, bir oğlan uşağı ağ satır, kəfən ağı. Yaxınına çatır, deyir ki, sən kəfən satırsan?

Deyir:

– Hə.

Deyir:

– Bax, o padşaha neçə metir ağ gedər? – Bu da uzunuymuş, çovan. – Manıa nə qədər gedər?

Deyir:

– Məsəl üçün, ona dört metir, sənin kimilərinə də altı metir kəsirih.

Deyir:

– Dört metiri də kəs, altı metiri də kəs.

Dört metiri kəsir, altıyı da kəsir. Evə gəlillər, gələndə çıxardır, deyir:

– Padşah sağ olsun, bax bu dört metir sənindi, altı metir də mənimdi. İndi mən sənnən o dünyuya iki metir artığ ağ aparajam, mən sənnən varrıyam (S. 13).

## 23. NƏ SƏNDƏN BALA DAĞI, NƏ MƏNDƏN QUYRUQ DAĞI ÇIXAR

Bir kişi süt aparırmış satmağa. Aparanda görür kü, yolda bir ilan yuvadan çıxır, gəlir bunun yanına. Bu hər gedəndə o ilana süd tökürmüş. İlan gəlib o süddən içirmiş, bir dənə ləl-cövhər qoyuf gedirmiş. Elə bil, ilana südü töküf gedif, yolu qayıdıf gələndə görüf kü, şeyin içində qızıl var dana. Qızılı götürür gəlir, kişi yaxşı dolanır. Bir gün xəsdələnir, oğluna deyir ki, oğul, filan yerdən süd aparanda orda tökərsən, ilan gəlib o sütdən içəjəh. Qayıdıf gələndə orda ləl qoyajax, onu götürərsən. Bu qoyur, gedir. Gəlir bir gün, iki gün... oğlu götürür. Gələndə bu deyir ki, vurum ilanın yuvasını-zadını uçurdum, bunu öldürüm, olan qızılın hamısın birdəfəlih yığım. Bu yəqin ki, qızıl üsdə yatır. Bu gəlir, ilanın quyruğunu vurur, ilan qaçır. İlan hərrənir gəlir, gədəni vurur, çalır. Gədə gedir öyə, deyir ki, belə-belə. Belə elədim, məni ilan vurdu, özü də ölür. Bir neçə günnən sora kişi durur gəlir, deyir, əşi gedim. Bazara süd aparır. Deyir, indi aparıf ilana tökəjəm, nətəər olar olar dana, dolanarıx. Gətirir ilana südü genə tökür. İlan çıxır, gəlir, ləl gətirir, bir dənə verir, deyir ki, get, bir də gəlmə. Nə sənnən bala dağı, nə də mənnən quyrux dağı qutarmıyajax (S. 13).

# VIII. LƏTİFƏLƏR

## 1. KEÇƏ, KEÇƏ, YEL ÇƏKƏ

Bir gün bir çalvadar – mal-qoyun alverçisi gedir ki, payız fəslində yaylaxdan ucuz qiymətə qoyun-quzu alıf gətirsin, baha qiymətə satsın. Yaylağa gedəndə görür kü, hava birdən-birə pisləşdi, vəziyyət xarablaşdı. Qar, boran gəlir. Bu çobannan danışır. Çobannan danışanda deyir ki, çoban qardaş, burda sən necə yaşıyırsan, nə yeyirsən? Deyir ki, belə dəə, günümü keçirirəm. Əziyətdidi, ağrılıdı, soyux, qar, nə, nə... Aylardı adam görmürəm.

Deyir:

– Ha, bunun səbəbi bilirsən nədi?

Deyir:

– Yox.

Deyir:

– Ona görə ki, sənin geydiyin keçədi. Ancax mənim bu əynimdəki əba var ha. Bu əbanın hörməti böyühdü. Mən hara gedirəm, əyağıma qalxırlar, mənə qonaxlıxlar verirlər, yeyirəm, içirəm. Bu əbanın hörməti, ehtiramı böyühdü. Gəl bir gün bu əbaynan sənin o yapıncını dəyişəh. Sən də onun kəramətini gör.

Çoban da buna – çalvadara inanır. Yapıncısını verir ona, onun əbasını alır geyinir. Bu verəndə çalvadar çobana deyir ki:

– Əba, əba, mərhaba. Bu gör necə böyüh kəramət sahibi, bu necə gözəllih, bu nə qədər...

Çoban geyinir özünnən çox razı. Onun da paltarına baxır, keçədən hazırlanmış yapıncıya:

– Keçə, keçə, yel çəkə. Ə, bu nədi? Bunu da adammı geyər? Bunu geyinənin hörmətimi olar, – deyir.

Çoban da buna inanır. Paltarlarını dəyişirlər. Qaranlıx düşür. Bu çalvadar çobanın keçəsini bürünür, qoyunnarın arasına özünü verir. Bu keçə isdi saxladığına görə sağ çıxır. Səhər ayılır ki, qar-boran, çobanı öldürüfdü. Əbanın isdiliyi olmadığına görə çoban soyuxdan ölüfdü (S. 7).

## 2. QANANA BİR SİM DƏ TƏSİR ELİYƏR

Bir çoban dağda qoyun otarırmış. Baxır ki, bir adam çiynində nəsə bir şey gedir. Adam da görmüyən, uzun müddət səsə, danışığa həsrət olan çoban tez çomağını sürüyür, gəlir, bunun qarşısını kəsir. Deyir:

– Ə, hara gedirsən?

Deyir ki, fılan kəndə.

Deyir:

– O çiynindəki nədi?

Deyir:

– Kamandı.

Deyir ki, çal, qulağ asım, çoxdandı şəhər, kənd üzü görməmişəm. Musiqidən, mədəniyyətdən uzağam.

Deyir:

– Qardaş, sən dediyin kamançadı, dizin üsdünə qoyurlar, musiqi çalırlar. Bu kamança deyil ey, bu kamandı. Bunun görürsən bircə dənə əyrisi var, bir də, bir qoyun bağırsağınnan düzəldilmiş bir zad. Bunnan mən yun atıf, keçə toxuyuf, pul qazanıram.

Çoban deyir:

– Həə... sən öləsən. Elə bilirsən, bilmirəm? Məni çoban görüf qammaz sayırsan? Ə, necə yəni məəm üçün çalmağ isdəmirsən? Şəhərdə varlılar üçün çalırsan.

Buna bir çomax. Kamançı görür ki, ə, bu çoban bunu öldürəjəh, qana qan deyir. Deyir ki, qardaş, qurban olum, öldürməyinən, nə deyirsən, çalım.

Deyir:

– Yaxşı, otur, çal.

Bu kamanı qoyur yerə, bir ucunu, toxmağı götürür, başdıyır qoyun bağırsağına vurmağa. (Yunu atmağ üçün o bağırsax fırranır. Yunu atır, yəni bir-birinnən aralıyır. Kopa olmasına qoymur da, yun atmax deyirlər ona). Bunu bağırsağa vurduxca bağırsaxdan bir vız-vız-vız səsi gəlir. Çoban başını buluya-buluya qulağ asır. Xeyli qulağ asır, baxır ki, heyvan çıxdı getdi, uzaxlaşdı.

Deyir:

– Həə. Ay kamançı, deyirsən, çoban qammazdı. Ə, qanmaza beş-altı simdə də çalsan, bir təsir eləməz, qanana bir simdə çalanda da təsir eliyir (S. 7).

## 3. TUMOV XƏSTƏLİYİ

Göyçədə tumov deyirlər qirip xəsdəliyinə. Qirip xəsdəliyinnən, tumovdan xəbər alırlar ki, ay tumov, hardıydın, necəydin, necə keçir işdərin? Deyir:

– Nejə keşsin ki? Bir dəfə getdim bir gözəl-göyçəh xanım-xatın xanımın canına ilişdim, kefdə oldum. Bir həfdə yorğan-döşəhdə xumarlandım, rahatca dincəldim, yatdım. Deyir, ordan çıxdım, sonra baxdım ki, bir çoban gəlir, onun canına daraşdım. Deyir ki, kopay oğlu çoban

məni dağda, daşda ora-bura o qədər sirkələdi, o qədər ora-bura atdı tutdu ku, zornan qaşdım, canımı qutardım. Az qalmışdı nəfəsim kəsilə. Üş günnən sonra qaşdım, qutardım canımı (S. 7).

## 4. NƏ PULUM VAR, NƏ DİLİM

Üş nəfər yola çıxır, uzağ səfərə. Həə, ikisinin pulu olur, birinin pulu olmur. İkisi varlı olur, biri də pulsuz olur. Ə, görürlər, yolda gecələr yatmağ yorğansız-zadsız mümkün deyil. Nəsə eləməh lazımdı, yoxsa xəsdələnəjəhlər, o yan, bu yan. Nəsə ikisi pulu qoyur bir yerə, bir dənə yorğan alır. Həə axşam düşəndə söyuxda bu iki nəfər pul verən adam biri sağda yatır, biri solda. Pulu olmuyan da ortada yatır. Bu yorğan da iki nəfərrihdi dəə, bu tərəf çəkəndə o biri tərəfin üsdü açılır. O biri tərəf bu biri tərəfin üsdünü açır. Nəysə, bunnar çəkə çək. Sora başdıyırlar, sözləri çəp gəlir, sora qalxırlar, əlbəyaxa olurlar. Baxır görürlər ki, bu ikisi bir-birin qırır, al qana batırır. Görürlər, ə, bu birsi də yorğana bürünüb elə orda, maddım-maddım bunnara baxır. Bunnar deyir ki, ə, sən heç olmasa, yol yoldaşısan, niyə belə maddım baxırsan? Heç olmasa, aralaşdır. Deyir:

– Vallah, qardaş, sizə nə deyim ki? Məəm nə pulum var, nə dilim (S. 7).

## 5. ƏRİMİ ŞƏRLƏYİBLƏR

– Ərin hardadı?

– Zindanda!

– Niyə?

– Ərimi şərriyiflər. Yazıx yolnan keçirmiş. Görür, yolda bir çatı var. Çatının ucunnan tutuf gətirif evə. Sən demə, kimsə çatının o biri ucuna dana bağlıyıfmış. Gedif şikayət eliyiflər ki, ərim dananı oğurluyuf. Ərimi tutdular (S. 7).

## 6. BƏS NİYƏ ÖLMÜR?

Bir qara qız olur. Anası ilk dəfə bunu götürür, yanına salır, aparır toya. Birinci dəfə toya gedən qız baxır ki, cavan bir aşıx var, oxuduxca oxuyur:

– Ay ölləm-ölləm, ay canan, yandım, öldüm.

Deyir:

– Ay ana, bu aşıx elə səhərdən ölləm-ölləm deyir. Bə niyə ölmür?

Deyir ki, ay qızım, bu camahat "ay sağ ol, ay sağ ol!", – deyir ha! Bax ona görə "sağ ol"nan "ölləm-ölləm"i Allahtala tarazlıyır. "Ay yaşa!", "yüz yaşa!", "ay sağ ol!", – dedihlərinə görə onu tərəziyə qoyur, o dualar tərəzidə ölçülür. Baxırlar ki, "ay yaşa!", "yüz yaşa!", "min yaşa!" dedihləri çoxdu deyə Əzrayıl bunu öldürmür (S. 7).

## 7. MƏNƏ DƏ DEYƏRDİNİZ, DANARDIM

Öz atamnan deyim hələ. Deyir, o vaxdı yığılıllar, deyillər, gəlin bu sədir yaxşı dööl da, hakqımızı tələb eliyəh, yazax. Bu sədir də atama yaxın adam oluf. Bu da gəlif sözünün üsdünə düşəndə deyiblər, aha, bu kişi gedər indi bizi satar-eliyər, nə bilim, nağayrar. Dedi ki, nolub, ayə? Deyir ki, nolajax, deyir, belə-belə o sədirdən yazmağ

isdiyirih. Deyir, yazırsınız yazın, o ku mən siznən bir yerdəyəm, yazırsınız yazın. Bunnar yazıllar, hakqı yazıllar da. Bir gün baxır ki, bunu icraçı çağırır ki, belə-belə, gəl. Gəlir, görür kü, hamı belə divanda oturuf, prakror da gəlif oturub başda. Deyir ki, ay Mamed Mustafayef, de görəh məkdubu siz yazmışdınız? Deyir:

– Vallah, mən yazmamışdım, gəldim elə üsdünə düşdüm. Bunnar da dedi ki, elə sən də buruya qol çəkginən, elə bu hakqı tələb eliyəh da. Mən də elə hakqı tələb eləməy üçün bu yoldaşlardan seçilmədim. Bəli, biz yazmışıx.

Deyir:

– A kişi, səən deməyinə baxma ey, bunnar hamısı deyir ki, biz yazmamışıx.

Belə baxır deyir ki, ayə, a bala, danırdın$_{ı}$z maa deyəydiniz, danaydım. Yazırdın$_{ı}$z, bə məni niyə oruya qeyd eliyif deyirsın$_{ı}$z, biz yazmamışıx. Siznən yazmamışıxmı?

Deyəndə prakror deyir ki, ə, durun, qıranızı qatdıyın.[83] Ə, kişi otur burda. Bi dənə heyvan gətirir kəsdirir, kanyakı da düzür beləsinə, stolun üsdünə. Deyir:

– Kişi, halaldı san$_{ı}$a. Kişi kimi yazanda da arxasında dur, yazmıyanda da denən, yazmamışam. Burda nə var? (S. 14).

## 8. VANİKİ QANÇİ

Bizim Kəlbəcər rayonuna icra hakimiyətinin müavini Təhməz məllim (Olan hadisəni danışıram ha!) nəysə gəlir çıxır bizim Basarkeçər rayonuna. Erməniyə deyir ki, man$_{ı}$a

[83] qıranızı qatdıyın – çıxın gedin anlamında işlədilib.

bir kilo şaqalat çək. Şaqalatı çəkəndə görür kü, ayə, bu köhnə şaqalatdı da. Bu qayıdır deyir ki, ə, bu köhnədi. Erməni qayıdır deyir ki, ermənicə də deyir dana, “hələ des turk”. “Hələ bax bu türkə”, – deyir. Bir az da söyünc eliyir dana belə. Dəəndə bu deyir ki, ə, nə dedin? Deyir:

– Heeç, elə-belə.

Deyir:

– Onda bəri gəl.

Bu gələndə, bu çəki daşı yoxuydumu o vaxdı, çəkiy-nən çəkirdilər. Bu Təhməz maqazinçiyi vuranda bütün nə qədər erməni var tökülür. Erməni töküləndə deyir:

– Ə, qapıyı bağlıyın, univermağın qapısını bağlıyın.

Bağlıyıllar, ofşım, kim gəlir bu vurur. Təhməz də hündürboylu adam oluf, gələni vurur yıxır. İndi o bir el deyimi qalıb ona görə axırını gətirəjəm. Təhməz, ofşım, çatana çatır, çatmıyana bir yumrux. Ermənilər deyir ki, ərə, Vaniki qançı, Vaniki qançı. Yanı, ayə, Vaniki çağırın. Vanik də bunnarın pəhlivanıdı. Bu Vanik gələndə (Təhməz hündürboylu adam, bu da alçaxboyludu, pəhlivandı) bunu içəri buraxıllar. Təhməz buna nətəər qoyursa, ermənilər tərəfə dombalaxlanır belə. Ofşım, polisə xəbər çatır. Ona-tana polislər tökülür, bunu aparıllar. Arada polisdər (erməni polsləri nəzərdə tutur – top.) deyir ki, ə, vurun dana bunnarı. Deyir ki, ə, nə vurun? Bə bunun sabax zadı çıxajax. Nəysə, deyir ki (Təhməz deyir – top.), ayə, biz elə-belə adamnar döölüy ey, bu camaata göz-zad eliyib eləmi-yin, indi gedəy, orda sizi araşdırajıx. Polisdər də aradabir göz eliyillər ki, vurun da belə. Gedir çıxıllar ki, ayə, bu raykom katibinin birinci müavini. Ofşım, burda görüllər ki,

ayə, vəziyət gərgindi. Savetin də vaxdı, sən raykom katibini döydürməy isdiyirdin? Ofşım, yalvar-yapış, bunu razı salıllar, munnar çıxır gedir.

İndi bizdə bir məsəl düşəndə, tutax ki, nərd oynuyanda deyirdilər ki, ə, Vaniki qançı, Vaniki qançı, yanı pəhlivanı çağırın, köməy eləsin sanıa. O bizdə bir el deyimi qalmışdı.

*Bax onnarı kəlbəcərri elə vurmuşdu. Helə zəyif millət olmamışıx biz, intaası dövür elə gətirdi, məjbur qaldığ ey. Savetin köməyi dəydi onnara (S. 14).*

## IX. BAYATI, NANAY VƏ MAHNILAR

1. Apardı göy at məni,
Saxladı sayat məni.
Baş qoyum dizin üsdə,
Çox yatsam, oyat məni (S. 13).

2. Araza atdım teşdi,
Cınqıllamadan keşdi.
Mən ona neynəmişdim,
Mənnən üz dönüp keşdi (S. 9).

3. Araz üsdə, buz üsdə,
Kəbap yanar köz üsdə.
Qoy məni öldürsünnər
Bir alagöz qız üsdə (S. 9).

4. Arazı ayırdılar,
Qum ilə doyurdular.
Mən sənnən ayrılmazdım,
Zulm ilə ayırdılar.
*Yaşdılar deyirdi, onnardan örgənmişih da elə biz* (S. 9).

5. O tayda qoş yatıbdı,
Qoş buynuzun çatıbdı.
Hayıf qoç əməyinə
Quru yerdə yatıbdı (S. 20).

6. Araz, Araz, xan Araz,
Bingöldən qalxan Araz.
Desələr anan gəlir,
Koşarım yalınayak (S. 19).
= Araz, Araz, can Araz,
Bingöldən qalxan Araz.
Desələr yarın gəlir,
Qaçaram yalınayax.
*Bəlkə qardaş deyiblər, mən yar deyirəm (S. 9).*

7. Araz qırağı biyan,
A teşdə paltar yuyan.
Yuyubsan, yorulubsan,
Gəl gir qoynuma, uyan (S. 20).

8. Bu gələn beş atdıdı,
Beşi də bayatdıdı.
Mən qardaşı tanıram,
Xırdaca göy atdıdı (S. 20).

9. Yol üstə quş üzümü,
Yola tihdim gözümü.
Desələr yarın gəlir,
Öldürərəm özümü (S. 20).

10. Dağdan indim düzə bən,
Dikən oldum gözə bən.
Yerin geniş olsun
Daha gəlməm sizə bən (S. 20).

11. Ay ana, balan deyiləm,
Gedirəm, gələn deyiləm.
Oğlan evi şirindi,
Mən sizə gələn deyiləm (S. 20).

12. Entarım[84] süslüdür,
Evimiz yol üstüdür.
Oğlan, *gəl gəlip* buradan geçmə,
Sonra derlər, dostuydu (S. 20).

13. Qapınızdan boyluyum,
Anan goymur, neyniyim?
Qarğıyım anan ölsün,
Gəlim sənnən oynuyum (S. 20).

14. Yandım o yar elindən,
Kəmər düştü belimdən.
Asın, öldürün məni
Saçlarımın telindən (S. 20).

15. Araz daşdı dedilər,
Qum qaynaşdı dedilər.
Gedin anama deyin,
= Anama xəbər verin,
Qızın qaşdı dedilər (S. 10).

16. *Özüm də o vaxdı gələndə, Göyçənin həsrətin çəkəndə bir dəfə dedim:*
Əzizinəm Göyçə dağı,
Yaddan çıxmaz Göyçə dağı,
Gedif çıxsaydım vətənə,
İçərdim Göyçədə ağı[85] (S. 14).

[84] entarım – paltarım

[85] Bayatını söyləyici özü qoşub.

17. Biz orda kağ eliyirdih.[86] Anamgil, biz yox. Biz də uşax baxmağa gedirih. Anamgil bizi aparırdı. Kağ eləməh pambığ əhmiyiblər? Pambığın yabancı şeylərini vurmullar? Dəmir bir şeydi, taxdadan sapı olur. Onnar nanay deyirdilər. Biz uşağıydıx, dokquz bacı, qardaşım varıydı. Hansımız böyühsək, gedib o uşaxları saxlıyırdıx. Biz onnarı saxlıyırdıx, onnar da kağ eliyirdi. Deyirdilər:

Ürüzgar, qaldır məni,
Qoy yarın eyvanına.
O yar şirin yuxuda, = uykuda,
Sal məni yorğanına. = otağına.
=O yar yatmış, yuxuda,
Sar məni yorğanınaa.[87]

O birsi də aynısını deyir. Məsələn, diyəlim, böyün bizim tarlada kağ eliyir, on beş dənə arxadaşları gəlirdilər bizim tarlaya. Bu burda deyirdi, o, ona təkrar deyirdi, aynısını deyirdi. Bir dənə başçı olurdu. Onnan sora da diyəlim ki, bu dururdu, o birsinin yadına düşürdü, o başçı olurdu.

– *Nanay oxuyanda onu xorla oxuyurdular, yoxsa mən deyirdim, sonra siz mənə cavab verirdiz?*

– Cavab vermirdih. Sən deyəni biz də deyirdih, təkrarlıyırdıx (S. 9).

18. Arazın qırağına gedirdih. Yekə-yekə qazannarı aparırdıx, paltarlarımızı aparırdıx yumağa. Biz uşağıydıx. Orda od yandırırdılar. O yanda da görürdüh adamlar.

---

[86] kağ eləmək – alaq eləmək
[87] Söyləyici nanayı avazla oxuyur.

Məyərsə, o tərəfdən də görüllərmiş. O tərəfdən də bizimkilərdi da görən. Deyirdi:

Araz qırağı biyan,
Ax teşdə paltar yuyan.
Yuyubsan, yorulubsan,
Gəl qoynumda uyan.

Bunu mənim anamın bacılığı Zeynəb xala eşidib. O tayda deyirmiş, sizin tərəfdə. Bu tərəfdə paltar yuyullar. O da ordan söz atır (S. 9).

19. Dilom, aman-aman,
Dilom geymiş şaldan tuman.
Dilom, gedək böyləsinə,
Alagöz məhləsinə.
Alagöz evdə yoxdu,
Od salax məhləsinə [88] (S. 20).

20. Su dəyiləm, axam, axam durulam,
Yel dəyiləm, əsəm, əsəm yorulam.
Bu dünyada sevdiyimə sarılam
O dünyada sorğu-sual neyniyim? (S. 20)

21. Yürüsün də mənim yarım, yürüsün,
Sellər gəlsin, düz-ovanı bürüsün.
Səni məyə vermir zalım qardaşın
Qoynundakı bir cüt narın çürüsün (S. 20).

---

[88] 17-19-cu mətnlər söyləyicilərin dediyinə görə, nanaylardır.

22. Yücə dağ başında lalasan, ay qız,
Sən mənim başıma bəlasan, ay qız,
Azreyil donunda girdin qoynuma,
Qorxuram canımı alasan, ay qız[89] (S. 20).

[89] Söyləyici uşaq olanda bunları qadınlar bir-birinə deyirmişlər. Deyişmə olub-olmadığını xatırlamır.

# X. AĞILAR

1. Kiminsə anası ölüfsə, anasına ağlıyır ki, anam, laylay. Məsəl üçün, “sonam laylay”, “payım laylay”, “ay ana, gözüm kəsildi”, “ay ana, payım kəsildi”. Qızdar elə ağlıyır. Ay ana, qulluğunda dureydim, san$_{ı}$a su vereydim. Ağılı başda olmur, ağlına nə gəlir, oon da deyir. “Pay alaydım, ay ana, san$_{ı}$a”, “Sən qonax gəleydın$_{ı}$, ay ana, man$_{ı}$a” (S. 13).

2. Birin əri ölüfdüsə, ərə indi kimdi ağlıyan? Nə bilim, hərə bir cürədi də, qadan alım. Elə adam var, pis baxır ərinə ağlıyanda. Ama mən ərim öləndə ağlamışam. O qədər pis baxsınnar ki. Uşaxlarımın atası oluf. Demişəm, ay uşaxlarımın atası, başımın ağası, əlimin hasası, arxam, köməyim, sir yerim, sirdaş yerim. Otuz il ömür, gün keçirtmişəm onnan.

Elə adam var, lağa qoyurlar. Eləsi var ağlıya bilmir, yıxılır yerə, özünü döyür, “ay ərim, ay ərim”. Onda lağa qoyullar dana. Ağla, denən, uşaxlarımın atası, anamın yeznəsi, bunu denə da. Daa “ay ərim, ay ərim” deyif çığıranda camaat güləjəh dana. Pis ağlıyanda hə, gülüllər, qadan alım. Allah heş kimə ağlamax göstərməsin. Qarıxır dana, yazıx neynəsin? İndi birini deyəndə birin də deyə bilmir. Kimsə başa düşür ki, qarıxdımı, ya belə oldumu, biri də var ki, deyillər, ağzı belə əyildi ağlıyanda, özünü belə idarə eliyə bilmədi. Oon dərdinnən gərəy ağzına belə əlini tutub ağlıyasan ki, ağzın, gözün pis olmuya dana.

Qıraxdakılar da əri ölənə deyir ki, başdan əyağa düşdün, yazığ oldun, evlatdar eşitmiyejeh səni. Allah heş kimə elə gün

qismət eləməsin. Kasıblıx çəkəjəhsən. Ona görə də əri ölən arvatdara deyillər, yazıx, əri öldü. Ər nə qədər pis olsa da, ürəhli olursan ki, məsəlçün, yoldaşım var dana. Allah hamıya xeyirrisinnən qismət eləsin. Məəm yoldaşım yaxşı adamıydı, xalam oğluydu. Çernobıl işdirakçısıydı. Elə o Çernobıl xəsdəliyinnən də, bir neçə il dana müalicədə-zadda yaşatdıx, sora da xərçəng xəsdəliyinnən də dünyasın dəyişdi (S. 13).

3. Atam öləndə elə bildim ki, dünyada tək qaldım, təhləndim. Ata qızdan ötəri arxa, köməhdi. Elə bilirdim ki, daa dünya boşaldı, heş kim yoxdu. Allah cəmi ölən atalara da rəhmət eləsin. Ata da öləndə deyirsən: "Ay ata, arxam, dayağım, qolum, qanadım, köməyim, ağsakqalım, əziz qonağım, xeyirimin-şərimin yaraşığı atam". Kim nətəər isdiyir, elə də deyir (S. 13).

4. İrax evdən-eşihdən. Yad adamın ölüsünə nətəər gedib ağlıyasan? Əvvəllər yaşdı adamnar, hə, ağlıyırdı. İndikilər, cavannar ağlamırlar. Mən şəxsən yas yerinə gedəndə ağlıyıram e. İndi məəm də yaralı yerrərim var, şəhid qardaşım var, qardaşımın biri də tankda yanıf. Məəm ürəyim çox yaralıdı. Kimin dərdi varsa, orda oturur, o birsi orda ağlıyanda isdər-isdəməz ağlıyırsan da ürəyin yaralıdısa, dərdin varsa. Hə, dərt tərpədir, ağlıyır. İndi bu dəyqə hamıın dərdi var, şəhiddər, şəhid anaları, şəhid bacıları. Məəm bir gözəl qardaşım. Bir qardaşım şikəstdi də, yanıf, yanıx-yanıxdı. Ordan götürüf oruya yamıyıflar, burdan götürüf buruya yamıyıflar. Biri də rəhmətə gedifdi, şəhitdi (S. 18).

# XI. ATALAR SÖZLƏRİ VƏ DEYİMLƏR

1. – A pay, hara gedirsən?
   – Pay gətirməyə (Yəni var var üsdünə gəlir) (S. 12).

2. Buğdanın çıxarı olmasa, qapan dibinə getməz (S. 7).

3. Buranı erməni kəndinə döndərmiyin. – Ermənilər bir yerə yığılıf söhbət eliyəndə bir də görürdün, mübaysə, höcətləşmə və yaxud da bərkdən danışma olanda birdən biri hirslənirdi, türkcə qayıdırdı ki, ə, buranı erməni kəndinə döndərmiyin. Yəni ermənilərin adətən ermənicə öz aralarında danışanda tez-tez Azərbaycan dilində atalar sözləri, məsəllər, deyimlər işlətməsi bir normal hal sayılırdı (S. 7).

4. Cibində yox bir dənə darı,
   Keçib oturur hamıdan yuxarı (S. 7).

5. Cinə börk tikirsən, şeytana papış. – Çoxbilmişlik bildirən ifadədir (S. 7).

6. Elə bilirsən, cin dəyişəyidi. – Arıx uşaxlara deyilir (S. 13).

7. Döy qurbağaya aşiq oluf. – Bir yaxşı oğlan bir çirkin qıza vurulanda deyillər, döy qurbağıya aşiq oluf. Qurbağa nədi, bu boydadı dana. İndi o yekə dev ona aşiq olur (S. 13).

8. Elə yorulmuşdum, çul[90] kimi düşdüm. Və ya elə vurdum, çul kimi düşdü (S. 7).

9. Ərih yeməh bəhanədir, uşaxlara dənə çıxsın (S. 7).

10. Filankəs qılğına otudu. – Mövqesiz, sözünü və xasiyyətini tez-tez dəyişən adamdı. Çünki qılğına azaçıx meh, yel hansı tərəfdən əssə, əks yərəfə, yel itələdiyi tərəfə əyilir (S. 7).

11. – Filankəs yazıq adamdır.
– Yalansa onu yazıq ilan vursun! (S. 7)

12. Gündə qılğınadan[91] qırx xorum ot bicmək. Yaxud sənə (və ya filankəsə) nə var, gündə qılğınadan qırx xorum ot biçər – Yəni yalan danışar anlamında və ya mümkün olmayan işi görə biləçəyini söyləyər, gop edər anlamındadı (S. 7).

13. Quzu məliyəndə soğan-sarımsax çürüyür=çücərir. – Quzu fevralın axırı, martın əvvəlləri doğulur. Faraş doğulannar[92] da var. Yəni yanvarda-zadda (S. 17).

---

[90] Söyləyicinin dediyinə görə, çul arxaizmdir, daş anlamındadır.

[91] qılğına – yaylaqlarda, dağ yamaclarında seyrək bitən, sərt gövdəli ot növü. Ona topal da deyirlər. Onun gövdəsi, torpaqdan çıxdığı yer yumru və bir az da torpaqdan hündürdədir. Qılğına böyüyəndə, yəni iyul-avqustda ağımtıl rəng alır. Onu dəstə halında toplayıb ya olduğu kimi, ya da müxtəlif rənglərə boyayaraq evlərdə dekoratif-bəzək üçün saxlayırlar.

[92] faraş doğulmaq – quzunun mövsümdən əvvəl doğulması

14. Məəm babam elə burda rəhmətə getdi. Deyirdi, a bala, Sülöymana qalmıyan kimə qalajax? Deyirdim, ay baba, eləcə bircə sən Sülöymannanca danışırsan da belə. Deyirdi ki, ona görə onnan danışıram, dünyanın hər şeyinnən o adam toxuymuş. Ona görə deyir, biz onu deyirih ki, yanı ona qalmıyan, bir elə varın içində böyüyən, hər cəhətdən də inkişaf eliyən adamın heş nəyi qalmadısa deyir, dünya fanidi, heş kimə heş nə qalası dööl. Bax belə danışırdı (S. 14).

15. Mən köhnə qəbristanlığın köhnə yoluyam, nə arpa bitər, nə buğda. – Yəni çox qocalmışam (S. 7).

16. Onun yanınnan dişi milçəh də uça bilməz. – Şorgöz, qadın düşkününə qarşı işlədilən ifadədir (S. 7).

17. Sağ vaxdı nəydi ki, sayruluğunda[93] nola (S. 12).

18. Səbəb Allahdan irəlidi (S. 12).

19. Sini sicim[94] oxuyan filankəs – Ərəb əlifbasının sin hərfini sicim oxuyanlar haqqında deyilir. Yəni olanı deyil, özünün düşündüyünü deyir (S. 7).

20. Soğan suyu qarışmax. – Soğan suyu qarışmax, yanı ki, uzax, lap uzax qohumlar (S. 13).

---

93 sayru – xəstə

94 sicim – keçi qılından toxunmuş çatı

21. Sürünün axsağı olmasa, olmaz. – Yəni hər nəsildə, yaxud kollektivdə bir pis olur (S. 22).

22. Şorakətdə yeddi qonşu bir qazana möhtac idi. – İmkansızlığı bildirən deyimdir (S. 7).

23. Yazda danaqırandan[95] qırx bağ ot biçəcəm! – Deyimin anlamı odur ki, mümkün olmayan bir işi görəcəyini vəd edir. Şişirdir. Gop edir. Bir kəndin ərazisindəki danaqıranları toplasan, heş bir-iki bağ ot olmaz. Bu deyim oradan yaranıb ki, qışda tənbəl göycəlinin mal-heyvanı açından qırılmax təhlükəsi ilə qarşılaşır. Hamı onu danlayır ki, niyə tənbəlliy edibsən. Heyvanına yem toplamayıbsan. O da günahını yumağ üçün, səhvini düzəldəcəyini vəd edərək deyir, qoy bir yaz açılsın, kərəntini götürüb elə birinci çıxan danaqırandan qırx bağ ot biçəcəm. Sonra da filan yerdən filan qədər, filan yerdən filan qədər ot toplayacam (S. 7).

24. Yeyərəm it ətini,
Çəhmərəm qəssab minnətini (S. 12).

---

[95] danaqıran – Göycəlilər yazda qarın altından çıxan, dibi soğanaqlı bir çiçəyə danaqıran deyirlər. Həmin bitkini novruzgülü də adlandırırlar.

# XII. ALQIŞLAR

1. *Körpə uşaxlara deyirih,* Allah səni saxlasın! Yekələnsin, – *oğlan uşağına deyirih,* – yekələnsin, əsgər getsin! Sağ-salamat olsun! Analı-dədəli böyüsün! İnistutdarda oxusun! *Qızdara da deyirih,* yığvalın yeyin olsun! Günün ağ olsun! Nə arzuluyursan, ona çat! Məytəbə gir! Ağlı başında ol! Atana, anana xeyirri evlatdardan ol! (S. 13)

2. *Subay qıza deyirih ki,* yığvalın yeyin olsun! Günün, baxtın ağ olsun! Xoşbaxt ol! (S. 13)

3. *Qızı ərə verəndə deyirih,* get ağ günnər gör! Ağ çörəhlər ye! Dünyada ən xoşbaxt günnəri gör! Qaynatan, qaynənənin qədrini bil! Yoldaşının sözünnən çıxma! *Həyatda hər şey ola bilər, gərəh hər şeydə güzəştə gedəsən (S. 13)*

4. *Mal-heyvana deyirih,* damazdığına bərəkət! (S. 13)

# XIII. OYUN VƏ TAMAŞALAR

## 1-2. ŞAH VƏ OĞRU

Dörd uşax bir aşığı alıb növbə ilə atırlar. Kim aşığı atarkən aşıx alcı düşsə, o, şah elan edilir. Ondan sonra kim aşığı atdı, toxan düşsə, o, vəzir elan edilir. Bök düşən tapan, çik düşən isə oğru elan edilir. Oyunun qaydası odur ki, biri bir vəzifə tutulubsa, aşıx hansı cür durmağınnan asılı olmayarağ ikinci oyunçu həmin vəzifəni tuta bilmir. Dövrə tamamlananda, yəni vəzifələr müəyyən ediləndə şah deyir:

– Tapan, tapan, oğrunu tap!

Vəzir deyir:[96]

Tapan deyir:

– Bəyim, bəyim, bir oğru tutdum. Şahım, dam yardım, dana çıxardım. Buz yardım, buzov çıxardım. Sənin üçün bir gözəl qız gətirirdim. Bu başıma vurdu, o birisi də əlimdən aldı.

Bundan sonra şah oyunçuları, şaha qız gətirənin başına qapaz vuranı və qızı əlinnən alanı cəzalandırır (S. 7).

## 2.

Aşığın altı duruşu varıydı: cik, bök, alçı, toxan, omba (domba da deyirlər), şeş. Oyunu dörd adam oynuyurdu, adətən. Onlar da atanda biri atırdı, düşdü tutax ki, toxan. Həə o vəzirdi. Biri atdı, düşən alçı, o, şah seçilirdi. Cik düşən oğru seçilirdi. Bök düşən, bilmirəm, nə seçilirdi. İn-

[96] Söyləyici vəzirin nə dediyini unudub.

di bu müəyənləşənnən sonra şah, vəzir, oğru və o birsi. Vəzir şaha müraciyətnən başdıyırdı ki, şahım, bir oğru tutdum. O deyirdi ki, nə iş gördün? Deyirdi:

– Dam yardım, dana çıxartdım, buz yardım, buzov çıxartdım, səən üçün gözəl – aya deyir sən çıxma mən çıxım, günə deyir sən çıxma, mən çıxım, belə bir qız gətirirdim, bu toxan əlimi tutdu. Bu cikdə olan, yəni oğru da əlimnən aldı. Bunnan sonra şah o oğru və toxan olanı cəzalandırırdı (S. 7).

## 3. PIRR!

Bir adam dururdu, o birsilər əllərini qoyurdu onun yanına. Bu deyirdi:

– Göyərçin, pırr!

Hamı əlini qaldırırdı.

Sora deyərdi:

– Kəklik, pırr!

Tez-tez deyirdi. Birdən deyirdi:

– Dəvə, pırr!

Kim əlini qaldırsa, onu cəzalandırırdılar. Və yaxud da:

– İnək, pırr!

– Qoyun, pırr!

Uçmuyan heyvanların adını deyəndə, pırr eliyəndə əlini qaldırırsa, yəni sən çaşdın, qoyun, inəy, at, eşşəy uçmaz da.

Uçan quşların adı çəkiləndə əlini qaldırırsan ki, normaldı. Uçmuyan heyvanların adını çəkəndə əlini qaldırırsansa, cəzalandırırdılar (S. 7).

## 4. PƏRƏLƏN GÖZ

*Cicim[97] oğlu için ağlıyıb-ağlıyıb gözünü qayb etmişdi. Biz otururdux ətrafında. Sanki o günəşiydi, biz də onun ətrafında belə yıldızlar kimi. O həpimizi oxşuyardı, belə-belə eliyərdi. Ona görə adımızı diyərdi. Onun bir nağılı varıydı ha. Nağıl da deyirdih da oturub:*

Bacadan baxan pərələn göz,
Yarsı yəhər, yarsı boz.
Mindim bozun boynuna,
Sürdüm İlan yoluna.
İlan yolu dərbədər,
İçində miymin gəzər.
Miymin cini ürkütdü,
Qulağını qırpıtdı (S. 9).

## 5. DÜZ

Bir də orda "düz" deyilən bir oyun yadımda qalıb. Bir taxda üzərində kvadrat şəklində cızırdılar, o yadımdadı ki, hər xətdə üç işarə qoyurdular. Məsələn, biri əlindəki kiçih daşı, ya kiçih çubux parçasını qoyurdu bir yerə. İkinci həmin xətt üzərinə onun rəqibi onun qarşısına qoyurdu, o da deyirdi, düz. Üçüncü başqa bir yerə qoyurdu, yəni aşağı, ya yuxarı. Deyirdi, düz.

Belə davam eliyirdi. Yəni bunlar kim ki, o üç xətt var, xəttboyu üç daş, taxda qoyulanda rəqib onun arasına daş,

---

[97] Qaynanasını nəzərdə tutur.

ya taxda parçası, çubux parçası qoya bilməsə, üçünü cərgəynən düzsə, yəni bir düz xəttində, arxada rəqibin maneəsi olmasa, o bir dənə də əlavə daş qoymax hüququ qazanırdı. Yəni damıya bənzər bir oyunuydu, ancax dama deyildi. Damada ağlar və qaralar rəqib dururdu, üzbəüz oynuyurdu. Onnan sonra o xətlərboyu sən daşdarını hərəkət elətdirirdin. Hərəkət elətdirdiycə, sən çalışmalıydın, sənin daşların bir xətt boyunca düzülsün. Rəqib də çalışırdı ki, sənin bir xəttinin düzülməsinin qarşısını alsın. Beləliklə, o qarşısını ala bilmiyəndə kim xətləri çox düzürdüsə, o udmuş sayılırdı (S. 7).

## 6. TAPMACA OYUNU

Tapbaca söyləməh bir də oyunuydu. Bizim kəntlərdə oynanırdı yadımda qalan uşaxlıxda. Tapmıyan rəqib gərəh bir kənt verəydi. İnəkdağında oynanılırdısa, mənnən qarşı tərəfdə bir yaşıdım oynuyursa, orda yaş fərqi yoxuydu, böyüh adamnan da, ataynan, babaynan, nənəynən də o oyun oynanıla bilirdi. Hə, əgər tapbacanı tapmırdınsa, uduzduğuna görə ver. Nə verməlisən? Kənt verməlisən. Məsələn, mən deyirdim, Zod kəndi. Hə, yaxşı, sağ ol. Yəni ikinci bir tapbaca, üçüncü tapbaca gəlirdi. O tapbaca gəldihcə, ikinci uduzduxca, ikinci kənd, üçüncü..., beşinci kəndin adını deməliydin. Elə deyirdin ki, eyni kəndi, tutax ki, Zodu ikinci dəfə verməy olmazdı. Hər dəfə yeni bir kənt verməliydin uduzduğunun müqabilində (S. 7).

## 7. SARVAN-KARVAN

Bir də orda mənim gördüyüm bəzi oyunnar varıydı ki, onlar oyun deyildi, onlar xalq tamaşalarıydı. Məsələn, o xalq tamaşalarınnan biri mənim öz gördüyüm, dəfələrlə şahidi olduğum “Sarvan-karvan” oyunuydu. Toy vaxdı bir adam üz-gözünü bəziyirdi, yekə paltar, kürkü-zadı tərsinə geyirdi başına. Bir papax qoyurdu, yəni kəntdə fərklənən bir papax da camahatdan alırdılar, ya da özdəri tikirdilər. Üz-gözünü də bəziyirdi. Bığ qoyurdu, keçi və qoyun dərisinnən sakqal düzəldirdi, əlinə bir çomağ alırdı. Həə, bu bir dənə dəvə karvanı yaradırdı. Dəvə karvanı da nəydi? İki adam düzülürdü, dururdu, çiyinlərinə taxda qoyurdular və yaxud da nazih dirəh qoyurdular da, çiyinlərində dururdu. Bunların üsdünə xaşa[98] salırdılar. Onların böyüh parçasınnan ki, bu adamnarın üsdünnən örtülürdü, arxa tərəfi də, ön tərəfi də yerə dəyirdi ki, bunların ayaxları, bədənnəri görünməsin. Arxasında bunnarın bir quyrux qoyurdular. İki adam ona görə olurdu ku, iki dənə baş kimi görünürdü, dik dururdu dəvənin löhləri kimi, iki löhlü dəvə kimi. Qarşıda da birinci adamın əlində bu xaşanın içərisinnən görünmədən bir uzun ağac, ya uzun saplı balta verirdilər, baltanı da qoyun dərisinnən bəziyirdilər, guya dəvənin başıdı. Sarvan da bu dəvənin başına, yəni baltanın yuxarı tərəfinə kəndir bağlıyıf tuturdu. Löhə-löhnən, hay-küynən, guya toya karvan gəlifdi. Karvan gələndə ordakı adamnar hamısı bu oyunun işdirakçısına çevrilirdi. Xəbər alırdılar:

---

[98] xaşa – fabrikdə qaba ipdən toxunmuş enli parça. Ondan kisə tikir, üzərinə taxıl sərir, qurudulacaq meyvəni düzürdülər və s.

– Ə, sarvan, hardan gəlif hara gedirsən?

Bu da deyirdi:

– İrəvannan gəlif Təbrizə gedirəm.

Deyirdi:

– Yükün nədi?

Deyirdi:

– Soğan alıf sarımsax satıram. Kömür alıf dəmir satıram. Nə qazanacaxsam.

Belə bir söhbət eliyirdilər, sonra da deyirdilər ki bu sarvana ordakılardan, məni də karvanına götürüf apara bilərsənmi? O da deyirdi:

– Hakqına minnət, niyə aparmıram? Gəl otur gedəh.

Xıx-xıx eliyirdi, guya dəvəni yatırdırdı. O adamnar dizi üsdə enirdilər xaşanın altında. Bu adamı mindirirdilər bu dirəyin üsdünə. Üsdünə mindirənnən sonra bu adamnar qalxırdılar ayağa. Zurna, nağara çalırdı, o adamnar altdan oynuyurdular. Bu çiyinlərindəki, taxdanın üsdündəki adam da atılıf-düşürdü. İndi axı bunlar şərtləşif ki, üş manata, beş manata apararam. İndi orda atılıb-düşdühcə o adam narahat olurdu, bir azdan sonra deyirdi ki, çatdıx, məni endir də. Deyirdi ki, yox, endirə bilmərəm, filan yerə kimi aparmalıyam. O deyirdi, bu deyirdi. Üş manat, beş manat. Nəysə. Sarvan deyilən adamnan razılaşıf verəndə o xıx-xıx deyirdi, dəvə yatırdı, o düşürdü. Bəzən də bu belə olurdu ku, o aşağıda olan adamın – arxa tərəfdəkinin əlində qıyıx, ya çuvaldız, ya böyüh bir iynə olurdu. Deyirdi ki sarvan, beş manat verəcəhsən, ya on. O verməy isdəmirdi, deyirdi ki, üş manatım var, beş manatım var. Onda xaşanın altınnan o iynəni, çuvaldızı-dadı yuxarı qaldırırdılar, adamın yambızına

sancırdılar, batırırdılar, onu incidirdilər də. O necə ki, sarvan isdədiyi pulu vermirdi, onu endirmirdilər. Yəni sarvan isdədiyi pulu onnan alana kimi deyif-gülürdülər (S. 7).

## 8. İKİ TATIN OYUNU

*Onnan başqa mənnən əvvəl, mən görməmişdim, bir neçə oyunnar da vardı. Ona "İki tatın oyunu" deyirdilər. İki tat, yəni tat millət anlamında yox, günəmuzd işdiyən əkinçi, yəni əkin-biçinnən məşğul olan adama tat deyirdilər. Əgər günəmuzd bir adamı işə cəlb eliyirdilərsə də, tutax ki, qoyun otarmağa. Ona tat demirdilər. Əgər divar hörməyə, daş hörməyə, belə bir iş gördürürsənsə, ona da tat demirdilər. Yalnız su suvarmağ, ot biçməy, taxıl biçməy, əkməy onların muzdlu işidi deyə tat deyirdilər.*

"İki tatın oyunu"nda guya toy olanda yığılırdılar, hamı baxırdı zurna, nağara çalınırdı. Bunnar çalan vaxdı o iki nəfər başdıyırdı ortada oynamağa. Ən çox da oynuyannar, danışdıxlarına görə, mənim babamın qardaşı Əmirnən, kəntdə Dəli Əmir deyilən bir adam oluf. Bu adamda – Dəli Əmirdə dəliliy əlaməti, şizofrenniy olmuyuf. Camahatı güldürməy üçün, öz kefinnən yaşamağ üçün zarafat eliyərdi. Zarafatcıl, deyən-gülən adamıydı ki, camahat da əylənsin, özü də gülsün. Məsələn, bu adamnar çıxırlarmış, musiqi çalınanda bunnar ortada oynuyurlarmış. Oynuyannan sonra başdıyırlarmış bunnar, əllərində bel olurmuş, su üsdündə, guya su arxın üsdündə bu oynuyan iki tat dalaşırmış bir-birinnən. Dalaşanda biri vuruf o birsini öldürürmüş. O vurub öldürdüyü, yəni formal olarağ, adam indi qalxmır, toy dayanır. Kimsə də pul verməliydi ki, bu ölən dirilsin. Ya toy sahibi

verməliydi, ya kimsə də. Bəzən də bu kəndə təzə gələn, kənardan gələn adamnar pul verməliydi. Bunlar işi elə qururdular ki, guya onnar bu ölümü təşkil eliyiflər. Məəm yadımdadı, danışırdılar ki, Basarkeçərdən bir vəzifəli erməni gəlifmiş, həkimiymiş. Bu işi elə qurublar ki, iki tat guya su üsdündə dalaşanda biri o birini vurub öldürüfdü. İşi də elə quruflar, camahat da hay-küy salıf ki, doxdor, sən vurdun, öldürdün. Nə qədər eliyif doxdor, görüf olmuyuf. Duruf ku, əyə, bu ölmüyüf axı. Durur gəlir, nə qədər eliyir, qalxmır. Nəbzini-zadını tutur, nəbzi aşağıdı. Bu götürür spişkanı çəkir Əmirin qulağının o nazik yerini, tənə hissəsini yandırır. Yenə də Əmir yerinnən tərpənmir. Onda erməni deyir ki, bu adamda ki bu dözüm var, nə qədər deyirsən, pul verəcəm, al, ancax durginən (S. 7).

## 9. QARDAŞLIQ ÇÖRƏYİ

Bir də orda maraxlı tamaşalarıynan zəngin olan "qardaşlıx çörəyi" deyilən bir şey vardı. İnəkdağında sağdış, soldış olmurdu, bir nəfər qardaşlığ olurdu. Toydan bir gün əvvəl o qardaşlıx, bəyə qardaşlıx çörəh verirdi, bir qonaxlıx verirdi. Yığılırdılar bir evə. Evlər də köhnə evlər, damları, bacası olan. Onlar yığılanda həmin gün bəy, necə deyərlər, əsil bəylik, hökmü keçirmiş. Əmir verirdi, farraşları olurdu, əlində çomax:

– Farraş get, fılankəsi gətir. Farraş get, fılankəsi gətir.

Gətirirdilər onu, oxudurdular, oynadırdılar, cərimələyirdilər. O bəyin əmrinnən qardaşlığın evində yeyif-içməh təşkil olunanda, bu oyunnar çıxarlırdı, deyif gülürlərmiş. Yəni belə bir oyunnar da vardı (S. 7).

## 10. QUZEY GÜNEYƏ BAXIR

O dövrdə söz oyunnarı vardı. Onlardan biri beləydi: Bir xəzinə hakqında. Deyir ki, guya bizim kəntdən yuxarda hardasa bir qayanın üsdünə yazıblar ki:

Güney quzeyə baxır,
Quzey güneyə baxır.
Ordan bir daş axır,
O daşdan qızıl çıxır.

Bu adamnar qızılı, xəzinəni gizdətdiyi yeri guya bu cür şeyirləşdirif yaddaşda saxlıyıflarmış. Həm də tapmaca şəklində heş kim tapammasın. Özdəri o yerdən köçüf gedəndə, çıxıf gedəndə gizdədiflər ki, gələndə tapa bilsinnər və yaxud oğul-uşaxları gəlif oranı tapsınnar (S. 7).

## 11. QIRX ATI YEDDİ MIXA BAĞLA

Deyirdilər ki, tək-tək qırx atı, yeddi mıxa bağla. Ha bölürdün çıxırdın, neçə eliyirdi, nə eliyirdi, qırx atı yeddi mıxa bağlamax mümkün olmurdu. Məlum olurdu ku, burda ada fikir verməh lazımdı. Tək-tək, yəni o müraciyət edilən adamın, nökərin, xidmətçinin adıdı. Yəni "Ay Təktək adlı adam, apar bu qırx atı yeddi mıxa bağla". Yəni qırx atı beş-beş də bağlıyarsan, on-on da, on beş-on beş də (S. 7).

## 12. BUNLAR SƏNƏ AZDIMI?

Bax belə zad da varıydı, o yadımnan çıxıf. Öz də çoxuydu, bir dənə deyildi. On, on beş, yirmi dəniydi. Amma çoxu yadımnan çıxıb. Biri də vardı:

Bax bunların içərsində...
Göydə uçan nazlımı?
Göydə uçan qazdımı?
Yeddi ördəh, dokquz qaz,
Bunnar sənə azdımı?

İndi sayı zadı yadımnan çıxıf. O da söz oyunuydu (S. 7).

## 13. BU KİŞİ MƏNİM ATAMDI...

Bir qız deyir ki, bu kişi mənim atamdı, ancax mən onun oğlu deyiləm. Yəni necə ata olur? Burda çaşqınlığ orda yaradırdı ki, yəni bunu deyənin qız olduğunu tapbax lazımdı, biləsən (S. 7).

## 14. DAYIMIN BACISININ DOĞMACA ƏRİ

Bir kişi atda gedir, arxasında qız var. Qız cavandı, yaraşıxlıdı. Görür buna şüphəynən baxırlar ki, cavan qız qoca kişinin tərkindədi. Deyir:

– Ey baxannar, bu kişi mənim dayımın bacısının doğmaca əridi.

Yəni atası olduğunu birbaşa demir, mənim dayımın bacısının əridi. Yəni ay elə baxanlar, bu yad deyil, bu mənim atamdı. Anamın da demir, bu, mənim dayımın bacısının doğmaca əridi (S. 7).

# XIV. ADLAR

## QADIN ADLARI

Dəyirmi
Qıdaşan
Oysandıx
Tuğu
Zili[99] (S. 7).

## KİŞİ ADLARI

Ağacan
Ağacıq
Ağagül
Ağakişi
Aydık
Babacan
Babış
Bağır
Bahadur
Bəkir
Bozalqan
Bozo
Daşdəmir
Dəngiz
Durmuş
Elləz
Əliyoldaş
Xamoy
İmiş
İspi
Korçu
Qalan
Qara
Qaraxan
Qoca
Qorçu
Qulu
Mantam
Məmiş
Minif[100]
Naim
Oğur[101]
Orduxan
Ovçu
Papır
Tomu
Urhan
Yolçu
Yüzbaşı (S. 7).

---

[99] Söyləyicinin dediyinə görə, xalça kimi toxunmuş deməkdi.

[100] Söyləyicinin dediyinə görə, Manaf deyil, minmək sözündəndir.

[101] Göyçədə Oğurca adlı kənd də olub.



**Əli Şamilov**



**Nailə Əskər**




**Hüseynova İmperiyalla birgə**




**Mustafayev İnqilab və Mustafayeva Həqiqətlə birgə**




**Fatma Altaylı**




**Havlucan bitkisi**



**Yarma xəşili**




**Meyvə qurusu**

# XV. SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

1. Arif Məmməd oğlu İbrahimov. 74 yaş. Zəngibasar rayonunun Yuxarı Neçili kəndində anadan olub. Uşaq yaşlarından İrəvan şəhərində yaşayıb, sonralar Bakı şəhəri Bakıxanov qəsəbəsində məskunlaşıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər, əfsanə və rəvayətlər: 25; Nağıllar: 6-8, 18-20. *Toplayanlar: Hikmət Quliyev, Səfa Qarayev*

2. Cahad kişi (Aşıq Cahad). *Söylədiyi mətnlər:* Mifoloji mətnlər, əfsanə və rəvayətlər: 35-36. *Toplayanlar: Hikmət Quliyev, Səfa Qarayev*

3. Cəmil kişi. 1936-cı ildə Qafan rayonunda anadan olub. *Söylədiyi mətnlər:* Nağıllar: 9-10. *Toplayanlar: Hikmət Quliyev, Səfa Qarayev*

4. Cəmşid Məmmədov. 1932-ci ildə Göyçə mahalında anadan olub. *Söylədiyi mətnlər:* Nağıllar: 15-16. *Toplayanlar: Hikmət Quliyev, Səfa Qarayev*

5. Dursun Bayramov. 1933-cü ildə Böyük Qarakilsə rayonunun Almalı kəndində anadan olub. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər, əfsanə və rəvayətlər: 24; Nağıllar: 17. *Toplayanlar: Hikmət Quliyev, Səfa Qarayev*

6. Emin Əliyev. 1934-cü ildə Böyük Qarakilsə rayonunun Vartana kəndində anadan olub. *Söylədiyi mətn:* Nağıllar: 5. *Toplayanlar: Hikmət Quliyev, Səfa Qarayev*

7. Əli Hüseyn oğlu Şamilov. 1948-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun İnəkdağı kəndində anadan olub. İxtisasca jurnalistdir. Folklor sahəsində xeyli araşdırmanın müəllifidir. Hal-hazırda AMEA Folklor İnstitununun Beynəlxalq əlaqələr şöbəsinin müdiridir. *Söylə-*

*diyi mətnlər:* Mifoloji mətnlər, əfsanə və rəvayətlər: 1, 4, 7-8, 16-18, 21-23, 26, 30, 32-34; İnanclar: 93; Etnoqrafik mətnlər: 1, 3; Lətifələr: 1-6; Atalar sözləri və deyimlər: 2-5, 8-13, 15-16, 19, 22-23; Oyun və tamaşalar: 1-3, 5-14; Adlar bölməsi tamamilə bu söyləyiciyə aiddir. *Topladı: Ləman Vaqifqızı (Süleymanova)*

8. Əli Xəlil oğlu Vəliyev. 1931-ci ildə anadan olub. *Söylədiyi mətn:* Nağıllar: 21. *Toplayanlar: Hikmət Quliyev, Səfa Qarayev*

9. Fatma Günəş (Altaylı) Abbas qızı. 1954-cü ildə İğdırın Dizə köyündə anadan olub. Təhsili: ilk okul. Evdar qadındır. 1986-cı ildən Ankara şəhərində yaşayır. *Söylədiyi mətnlər:* İnanclar: 1, 15, 77; Etnoqrafik mətnlər: 6-7, 19-20; Xatirələr: 1-5; Bayatı, nanay və mahnılar: 3-4, 6, 17-18; Oyun və tamaşalar: 4. *Topladı: Ləman Vaqifqızı (Süleymanova)*

10. Gülsər Aburşu Abbas qızı. 1950-ci ildə İğdırın Dizə köyündə anadan olub. Təhsili: ilk okul. Evdar qadındır. 18 yaşından Almaniyanın Bilefeld şəhərində yaşayır. *Söylədiyi mətn:* Bayatı, nanay və mahnılar: 15. *Topladı: Ləman Vaqifqızı (Süleymanova)*

11. Həqiqət Firudin qızı Mustafayeva. 1957-ci ildə Göyçə mahalının Basarkeçər rayonun Qanlı kəndində anadan olub. 20 yaşında Basarkeçərin Yuxarı Şorca kəndinə gəlin gedib. Orta təhsillidir. Evdar qadındır. 1988-ci ildə Goranboy rayonun Qaradağlı kəndində məskunlaşıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər, əfsanə və rəvayətlər: 15; İnanclar: 9, 13, 20, 27, 29-32, 38, 41, 65, 69, 71, 76, 78, 80-81, 97, 103, 105; Türkəçarələr və bitkilər haqqında

məlumat: 1-2; Etnoqrafik mətnlər: 14; Xatirələr: 6. *Topladı: Ləman Vaqifqızı (Süleymanova)*

12. İbrahim Məhəmməd oğlu Bayramov. 1954-cü ildə Göyçə mahalının Çəmbərək rayonunun Toxluca kəndində anadan olub. Dilçi alimdir. ADPU-nun Elmi-təşkilati şöbəsinin müdiridir. *Söylədiyi mətnlər:* Atalar sözləri və deyimlər: 1, 17-18, 24. *Topladı: Ləman Vaqifqızı (Süleymanova)*

13. İmperiyal Şahsuvar qızı Hüseynova. 1957-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Zod kəndində anadan olub. Orta təhsillidir. Evdar qadındır. 1979-cu ildən Naftalan rayonun Qasımbəyli kəndinə gəlin gəlib. 1988-ci ildə isə onun qohumları Göyçədən qaçqın düşərək Göygöl rayonunda məskunlaşıblar. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər, əfsanə və rəvayətlər: 2-3, 5, 11-12, 28-29, 31, 40; İnanclar: 4-5, 16-18, 23-26, 28, 33-37, 40, 42-43, 46-47, 50-63, 66, 73, 82, 85-87, 89, 90, 92; Yuxuyozmalar: 1-9; Etnoqrafik mətnlər: 4-5; Nağıllar: 22-23; Bayatı, nanay və mahnılar: 1; Ağılar: 1-3; Atalar sözləri və deyimlər: 6-7, 20; Alqışlar: 1-4. *Topladı: Ləman Vaqifqızı (Süleymanova)*

14. İnqilab Məmməd oğlu Mustafayev. 1957-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Yuxarı Şorca kəndində anadan olub. Orta ixtisas təhsillidir. 1988-ci ildə Goranboy rayonun Qaradağlı kəndində məskunlaşıb. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər, əfsanə və rəvayətlər: 6, 9-10, 13-14, 19, 27; İnanclar: 2-3, 6-8, 10-12, 14, 19, 21-22; 39, 48-49, 72, 75, 79, 88, 94-96, 98-99, 101-102, 104; Türkəçarələr və bitkilər haqqında məlumat: 3-6; Etnoqra-

fik mətnlər: 9-13; Xatirələr: 7-8; Lətifələr: 7-8; Bayatı, nanay və mahnılar: 16; Atalar sözləri və deyimlər: 14. *Topladı: Ləman Vaqifqızı (Süleymanova)*

15. İsa kişi. 1930-cu ildə Dərələyəz mahalının Ələyəz kəndində anadan olub. Bakıxanov qəsəbəsində məskunlaşıb. *Söylədiyi mətnlər:* Nağıllar: 11-14. *Toplayanlar: Hikmət Quliyev, Səfa Qarayev*

16. İslam Müzəffər oğlu Hüseynov. 1941-də Göyçə mahalının Qaranlıq rayonunun Karvansara kəndində doğulub. Orta təhsillidir. Əvvəllər təsərrüfatla məşğul olub, indi təqaüdə çıxıb. 1970-ci ildən Şəki rayonun Şəki kəndində yaşayır. *Söylədiyi mətnlər:* Mifoloji mətnlər, əfsanə və rəvayətlər: 37-39. *Topladı: Ləman Vaqifqızı (Süleymanova)*

17. Nailə Baxşəli qızı Əskər. 1968-ci ildə Ağbaba mahalının Amasiya rayonunun Qaraçanta kəndində (Kəndin adı 1930-cu illərdə ermənilər tərəfindən dəyişdirilərək Əzizbəyov qoyulub) anadan olub. Folklorşünas-alimdir. 1988-ci ildə qaçqın düşərək Bakı şəhərində məskunlaşıb. *Söylədiyi mətnlər:* İnanclar: 44-45, 67-68, 100; Etnoqrafik mətnlər: 15-18; Atalar sözləri və deyimlər: 13. *Topladı: Ləman Vaqifqızı (Süleymanova)*

18. Rəhilə (Sənəddə adı Reyvə yazılıb) Eyvaz qızı Hüseynova. 1962-ci ildə Basarkeçər rayonunun Zod kəndində anadan olub. Orta təhsillidir. Təsərrüfatla məşğul olub. 1981-ci ilin yanvar ayında Naftalan Qasımbəyli kəndinə gəlin gəlib. *Söylədiyi mətnlər:* İnanclar: 64, 70, 74, 83-84, 91; Etnoqrafik mətnlər: 8; Ağılar: 4. *Topladı: Ləman Vaqifqızı (Süleymanova)*

19. Seyma Alagöz Qədir qızı. 1958-ci ildə İğdırın Dizə köyündə doğulub. Təhsili: ilk okul. Evdar qadındır. Almaniyanın Lüdenscheid şəhərində yaşayır. *Söylədiyi mətn:* Bayatı, nanay və mahnılar: 6. *Topladı: Ləman Vaqif-qızı (Süleymanova)*

20. Songül Köməkçi Muxtar qızı. 1956-cı ildə İğdırın Dizə köyündə doğulub. Təhsili: ilk okul. Evdar qadındır. İndi Bursada yaşıyır. *Söylədiyi mətnlər:* Bayatı, nanay və mahnılar: 5, 7-14, 19-22. *Topladı: Ləman Vaqifqızı (Süley-manova)*

21. Sultan Məmmədəli oğlu Mustafayev. 1913-cü ildə Basarkeçər rayonunun Sarıyaqub kəndində anadan olub. *Söylədiyi mətnlər:* Nağıllar: 1-4. *Toplayanlar: Hikmət Quli-yev, Səfa Qarayev*

22. Tamella (Tamilə) Yusif qızı Vəliyeva. 1959-cu ildə Göyçə mahalının Çəmbərək rayonunun Toxluca kəndində anadan olub. Ailəsi 1959-cu ildə Gəncə şəhərində məskunlaşıb. İxtisasca riyaziyyat müəllimidir. 40 il mühasib işləyib. Gəncə şəhərində yaşayır. *Söylədiyi mətn:* Atalar sözləri və deyimlər: 21. *Topladı: Ləman Vaqifqızı (Süleymanova)*

23. Zöhrə Allahverdi qızı Məmmədova. 1950-ci ildə Naftalanda doğulub. Səkkizinci sinfi bitrdikdən sonra bir il mühasibatlıq oxuyub. 20 il Goranboy rayon Mərkəzi Xəstəxanasının müsahibi işləyib. *Söylədiyi mətn:* Etnoqrafik mətnlər: 2. *Topladılar: Əli Şamil, Nazir Əhmədli*

## MÜNDƏRİCAT

**ÖN SÖZ** ................................................ 3
**I. MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
Hal və cin ................................................ 15
Alma ocağı ................................................ 21
Miskin Abdal ocağı ................................................ 25
Seyid Bayram ocağı ................................................ 28
Seyid Əsədullahın ocağı ................................................ 29
Çay ocağı ................................................ 31
Düldül qayası ................................................ 32
Ayğır bulağı ................................................ 33
Göyçə ................................................ 34
Naftalan nefti ................................................ 34
Vergili insanlar ................................................ 35
Əzrayıla kürəyini sürtdürər ................................................ 36
Əzrayıl ilə insanın əhvalatı ................................................ 37
Adəmin cənnətdən qovulması ................................................ 38
Süleyman və qarışqa ................................................ 45
Allahın ruzi payı ................................................ 46
Allahın sınağı ................................................ 47
Ac qarını doyurmaq ................................................ 48
Aşa qarı ................................................ 49
Verdiyin qabağına çıxır ................................................ 51
Qəbiristanlıqda ocaq qalamaq ................................................ 52
Leylək gəlib, yaz gəlib ................................................ 53
Aşıq Ələsgərə vergi verilməsi ................................................ 54
Aşıq Ələsgərin ölümü ................................................ 56
Ələsgər və kötük ................................................ 61

Aşıq Ələsgərin Həcərə elçi gəlməsi .................................... 64
Aşıq Ələsgərin qıfılbənd açması .......................................... 67
İnkir-minkir məni bağlayacaq? ............................................ 69
**II. İNANCLAR** ....................................................................... 70
**III. TÜRKƏÇARƏLƏR VƏ BİTKİLƏR HAQQINDA MƏLUMAT** ....................................................................... 100
**IV. YUXUYOZMALAR** ............................................................ 103
**V. ETNOQRAFİK MƏTNLƏR**
Tayfalar haqqında ................................................................ 104
Çoban Məhəmmədin ailəsi ................................................... 104
Qoyun ağılı ........................................................................... 109
Tasqurma .............................................................................. 110
Heydər, gəl ........................................................................... 112
Beşikkəsmə ........................................................................... 113
Keçmişdə .............................................................................. 115
Alışma .................................................................................. 116
Novruz bayramı ................................................................... 117
Qovurma .............................................................................. 118
Yarma xəşili ......................................................................... 120
Qazın qurudulması ............................................................... 122
Çəkmə aşı ............................................................................. 123
Şalğam ................................................................................. 123
Quymaq ............................................................................... 124
**VI. XATİRƏLƏR** .................................................................. 125
**VII. NAĞILLAR**
Şahzadı Saleh ...................................................................... 135
Qəşəmin nağılı .................................................................... 171
Sit-Əl-Hüsn və Həsənin nağılı ............................................ 205
Tərəqqi və tənəzzül haqqında ............................................. 221

Atı üçqıçlı Göygöz Kosa ........................................................ 235
Əli ilə Vəlinin nağılı ............................................................ 252
Ətirli şəfa meyvəsi ................................................................ 264
Şah oğlu Şah Abbas və vəzir Hacı Qara ............................ 267
Gülüqakqaxın nağılı .............................................................. 276
Məhəmməd və Pərzadın nağılı ............................................. 287
Şəmil-Gühudun nağılı ............................................................ 292
Gülməz padşahın nağılı ......................................................... 299
Peyğəmbərin verdiyi uşaq ..................................................... 303
Padşah qızının nağılı ............................................................. 311
İlan oğlan Mirzəbəy və şah qızının nağılı ......................... 314
Şah qızı ..................................................................................... 330
Əzrayıl ilə pis adamın əhvalatı ............................................ 344
İki dostun aqibəti .................................................................... 345
İnsaflı oğru .............................................................................. 348
İmamın nağılı .......................................................................... 356
Padşahla kasıbın nağılı ......................................................... 366
Kimin varı çoxdur? ................................................................. 369
Nə səndən bala dağı, nə məndən quyruq dağı çıxar ..... 371
**VIII. LƏTİFƏLƏR**
Keçə, keçə, yel çəkə .............................................................. 372
Qanana bir sim də təsir eliyər ............................................. 373
Tumov xəstəliyi ...................................................................... 374
Nə pulum var, nə dilim ......................................................... 375
Ərimi şərləyiblər .................................................................... 375
Bəs niyə ölmür? ...................................................................... 376
Mənə də deyərdiniz, danardım ............................................ 376
Vaniki qançi ............................................................................. 377
**IX. BAYATI, NANAY VƏ MAHNILAR** ............................... 380

**X. AĞILAR** ........................................................................ 385
**XI. ATALAR SÖZLƏRİ VƏ DEYİMLƏR** ........................... 387
**XII. ALQIŞLAR** ................................................................ 391
**XIII. OYUN VƏ TAMAŞALAR**
Şah və oğru ......................................................................... 392
Pırr! ........................................................................................ 393
Pərələn göz ........................................................................... 394
Düz ........................................................................................ 394
Tapmaca oyunu ..................................................................... 395
Sarvan-karvan ....................................................................... 396
İki tatın oyunu ...................................................................... 398
Qardaşlıq çörəyi ................................................................... 399
Quzey güneyə baxır ............................................................. 400
Qırx atı yeddi mıxa bağla .................................................... 400
Bunlar sənə azdımı? ............................................................. 400
Bu kişi mənim atamdı .......................................................... 401
Dayımın bacısının doğmaca əri .......................................... 401
**XIV. ADLAR**
Qadın adları ......................................................................... 402
Kişi adları ............................................................................. 402
**ŞƏKİLLƏR** ........................................................................ 403
**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT** ...................... 407

**Qərbi Azərbaycan folkloru, IV cild**

Bakı, “Elm və təhsil“, 2025

“Elm və təhsil” nəşriyyatının direktoru:
**İnal MƏMMƏDLİ**

Nəşriyyat redaktoru:
**Fil.ü.f.d., dos.Aynurə Səfərova**

Kompüterdə yığan:
**Sevinc Bağdadova**

Korrektor:
**Məhsəti Süleymanova**

Çapa imzalanmış 30.05.2025
Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Tirajı: 400

Kitab **“Elm və təhsil”** NPM-də
ofset üsulu ilə çap olunmuşdur.
Email: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8/4